MAHİR QABİLOĞLU

ƏRMƏN

ŞUŞANİKİN SEVGİSİ

Mahir Qabiloğlu

ƏRMƏN –

Şuşanikin sevgisi

Bakı – 2014

Redaktoru və bədii tərtibçisi:
İbrahim NİZAMİOĞLU

Mahir Qabiloğlu. **Ərmən – Şuşanikin sevgisi.**
Bakı, "Bakı Çap evi" nəşriyyatı, 2014, 444 səh.

ISBN

© M.Qabiloğlu, 2014

MÜƏLLİFDƏN

Hörmətli oxucu! Bu mənim Sizinlə ikinci görüşümdür. "Ərmən – Şuşanikin sevgisi"adlı bu kitabımda 2013-cü ildə yazdığım bədii, publisistik yazılar, atam və onun dostları, qələm yoldaşları ilə bağlı xatirələr toplanıb. Bu yazılara əsasən müəllif – köşə yazarı kimi çalışdığım Modern.az və digər mətbuat orqanlarında rast gəlibsiniz. "Ərmən – Şuşanikin sevgisi" hekayəsi isə ilk dəfədir ki, çap olunur. Bu kitabda toplanan yazıların əksəriyyəti həyatda baş verən hadisələrdən qaynaqlanır. Əgər bu yazılarla ruhunuzu azca da oxşaya bilsəm, şad olaram.

MİRMÖVSÜM AĞA

ƏRMƏN – ŞUŞANİKİN SEVGİSİ

Bura yeni Bakıdır. *Zəmanəsinin yeni Bakısı. "Qara şəhər" adı veriblər ona. Bilmirəm böyük mənasında, yoxsa zavodların bacasından çıxan qara tüstülərə görə? Amma biz onu heç vaxt azərbaycanca çağırmamışıq. Bura "Çornıqorod"dur. Atamgil NZS-də evlərini təhvil verib, Şaumyan xəstəxanası ilə üzbəüzdə beşmərtəbəli evdə mənzil aldılar. Biz də məktəbə burda getməyə başladıq. Bir bacı, üç qardaş idik. Həyətimiz isə beynəlmiləl bir ailə. Elə rayonumuzun da adı erməni idi –Şaumyan rayonu. Xəstəxanamız – Şaumyan, büstümüz – Şaumyan, küçəmiz – Şaumyan, metromuz – Şaumyan. Həyətimizdə də əsasən ermənilər, ruslar. Hərənin öz ləhcəsi, dialekti, müraciəti. Mənim adım Əhməddir.*

Ermənilər mənə Axmedcan deyirdilər. Ruslar isə Axmedik. Biz də onları elə öz dillərində çağırırdıq. Ermənilərin adlarının axırına "can", ruslara isə "ik" qoşurduq. Bizə sonluqda "can" deyəndə o saat bilirdik ki, ermənidir. Amma bir şeyin fərqinə varmırdıq ki, axı "can" Azərbaycan sözüdür. Ermənilər bunu niyə özəlləşdiriblər. Bizə xoş gəlsinlər deyəmi?

Bir qaraqaş, qaragöz görəndə soruşurdular: "Hayes, turkes?" Məəttəl qalırdım. Türk nədir? Azərbaycanda türk var? Türklər Türkiyədədir. Bura isə Azərbaycandır – Sovet Azərbaycanı. Biz isə azərbaycanlıyıq.

Qulaq asdıqları mahnılar da Azərbaycan mahnıları idi. Ölürdülər Zeynəb Xanlarovayla Məmmədbağır üçün. Bəzən biz azərbaycanlılara acıq da verirdilər: "O, Azərbaycanın yox, bizim Ermənistanın xalq artistidir". Sonra da başlayırdılar oxumağa:

"Qardaş olub Hayastan,
Azərbaycan."

Həyətimizdə bütün sənətkarlar ermənilər idi. Əlləri də ki, "qızıl". Azərbaycanlılar evlərində apardıqları təmir işlərinə ancaq onları çağırırdılar. Bir-iki ay əvvələ növbələri vardı. Qaz, neft və başqa "qara işlərə" isə ruslar baxırdı.

Bir erməni çəkməçi vardı. Nəbzini tutmuşdum. Bilirdim ki, Anastas Mikoyanın pərəstişkarıdır. O vaxtlar mağazalarda yaxşı ayaqqabı tapmaq çətin idi. Ona görə də bir dəfə tikdirib, on dəfə təmir elətdirir, yeddi-sək-

kiz il də geyinirdik. Bilirdim ki, Mikoyan Azərbaycan Kommunist Partiyasının 1-ci katibi, Şaumyanın silahdaşı olub. Xruşşovun dövründə də SSRİ Ali Sovetinin sədri seçilib. Üzünü də görməmişdim. Amma ayaqqabının xatirinə tərifləməliydim. O vaxt zərbi-məsələ çevrilən bir misala uyğunlaşırdım: "Ermәniyə dayı deyirəm, işimin xatirinə". Girirdim bu ermәninin darısqal pinəçi budkasına, başlayırdım Anastas Mikoyanı tərifləməyə. Öy ki, öyəsən. Ta o vaxtacan ki, Karapet əmi "Ara, xoşum gəldi səndən. Axmedcan, sənə bir dənə qəşəng ayaqqabı məndən hədiyyə" deyirdi.

Rus, yaxud da ki, erməni öləndə məhləmizin avaraları üçün toy-bayram idi. Səhər tezdən kəsdirirdilər ermәninin qapısını. Yalandan göz yaşı da tökürdülər. Bilirdilər ki, ehsan araqla olacaq. Bunların da ehsan süfrəsində araq badələrini toqquşdurmaq adət deyil. Bizimkilər çaşıb "Rubikin sağlığına" deyərək badələri cingildədirdilər də.

Bir İbiş dayı vardı. Erməni yasında o qədər vurmuşdu ki, ayaq üstə dayana bilmirdi. Arvadı da deyinə-deyinə qalmışdı: "Kül başıa! Məhəmməd öləndə qırxına güc-bəlayla gedib çıxdın. İndi nə oldu, Rubik ölən kimi qaçıb kəsdirmisən qapılarını. Araq var ona görə?"

Həyətimizdəki erməni oğlan uşaqlarının çoxu rusca oxuyurdu, elə qızları da. Amma aralarında biri – Armen əminin qızı Şuşanik bizim məktəbdə azərbaycanca təhsil alırdı. Bir sinifdəydik. Bir gedib, bir qayıdırdıq. Gözəl idi. Qara gözləri, uzun saçları vardı. Yaraşıqlı əndamı can alırdı. Adını çağırmaq mənə xüsusi zövq verirdi. Şuşanik. Sanki Şuşa canlanırdı gözümün qabağın-

da. Mənə elə gəlirdi ki, Şuşanik adı elə "Şuşa" sözündən götürülüb. Sadəcə əzizləmək üçün axırına "İk" artırıblar. Necə ki, məni əzizləyəndə Axmedik demirdilər?

Əslimiz Şuşadan idi. Amma ömrümdə o yerləri görməmişdim. Heç bilmirdim harda yerləşir. Atam-anam da Bakıda doğulmuşdular. Evdə bir kəlmə də nəslimiz, elimiz, obamız barədə danışmırdılar. Amma Şuşanikgil Bakıya Qarabağdan köçmüşdülər. Babası ilə nənəsi Hadrutda yaşayırdı. Hər il yayda ora gedirdilər.

Dağlardan, bulaqlardan, çaylardan, təbiətin əsrarəngiz gözəlliklərindən ağızdolusu danışırdı. Mən də bu erməni qızının Qarabağla bağlı söhbətlərinə maraqla qulaq asırdım. Erməni qızı mən şuşalıya Qarabağ dərsi verirdi. Amma könlümdən oralara havalanmaq belə keçmirdi. Mənim həyatım burda idi. "Çornıqorod"da. Zavodların tüstü dolu bacaları, benzin, neftdaşıyan lokomotivlərin siqnalları, tramvayın zəng səsləri, Bulvar, Bakı küləyinin qaldırdığı toz-duman. Bunlar mənə daha doğma idi, nəinki Qarabağ və Qarabağ barədə Şuşanikin söhbətləri. Amma yenə də qulaq asırdım.

Erməni oğlan uşaqları mənimlə dostluğa yaman can atırdı. Mən ermənicə bilmirdim. Amma rusca əla danışırdım. Onlar da rusca yaxşı bilirdilər. Lakin hər vəchlə mənimlə azərbaycanca danışmağa səy göstərirdilər. Azərbaycan sözlərinin qolunu-qabırğasını sındıra-sındıra... Mən də onları ələ salırdım. "Ara, maşın harama getdi yox e, maşın haraya getdi deyərlər". Bu minvalla erməni uşaqlar Azərbaycan dilində məndən də yaxşı danışmağa başladılar. Sonra isə başladılar uzaq gəzməyə. Sonralar bildim ki, demə bunlara danışıq dilimizi

mükəmməl öyrənmək lazım imiş. Amma dəxli yox idi. Şuşaniklə dostluğumuz gündən-günə möhkəmlənirdi. Armen əmi də qızını mənə tapşırmışdı ki, birdən məktəbdə-zadda sataşan olsa, müdafiə elə. Bir yerdə gedib, bir yerdə gəlirdik. Qardaşı Arsen bizə əyri-əyri baxsa da, atasının qorxusundan cınqırını da çıxarmırdı.

Atam, anam da bu dostluğumuza etiraz etmirdilər. Daha doğrusu, heç veclərinə də deyildi. Qapıbir qonşu idik, qaynayıb-qarışmışdıq.

Şuşanik çox bilikli qız idi. 80-ci illər olmasına baxmayaraq, dünyagörüşü geniş idi. Elə suallar verirdi ki, məəttəl durub üzünə baxırdım.

– Axmedcan, Azərbaycanda sovet hakimiyyətinin banisi kimdir?

– Bilmirəm.

– Şaumyan – Stepan Şaumyan. Bax, rayonumuz da onun adınadır. Hələ Azərbaycanın bir kənd rayonu da var – Şaumyan rayonu. Dağlıq Qarabağ Muxtar Vilayətinin paytaxtı haradır?

– Bilmirəm.

– Necə yəni bilmirsən? Stepanakert. O da Şaumyanın adından götürülüb. Bəs DQMV-ya neçə rayon daxildir?

– Bilmirəm.

– Vay-vay. Heç olmasa Şuşanı deyəydin. Mardakert, Stepanakert, Martuni, Hadrutu da mən əlavə edərdim. Bəs Azərbaycanın ilk xalq yazıçısı kim olub?

– Bilmirəm.

– Əslən erməni Aleksandr Şirvanzadə. Evdə məndə

“Xaos” kitabı var. Azərbaycanca yazıb. Verərəm oxuyarsan. Düzdür, ermənilərə sataşıb. Amma dəxli yoxdur. Fəxrimizdir. Bəs “perestroyka”nın iqtisadi memarı kimdir? Ermənidir Axmedcan, erməni. Akademik Aqanbekyan. Roma imperatorluğunu iflasdan, Spartakın üsyanından qurtaran da ermənidir – daha doğrusu, haylar. Ərəb xilafətini Babəkdən xilas edən də mənim ulu babalarımdır. Sən heç Babəki tanıyırsan?

– Hə. Kinosunu görmüşəm.

– Xürrəmilər hərəkatının adını niyə belə qoyublar? “Azad məhəbbət” nə deməkdir?

– Bilmirəm.

– Elə bilməsən yaxşıdır. Hələ yaşın çatmır. Ermənilərin katalikosu kimdir?

– Bilmirəm.

– Vazgen, Axmedcan. Yaxşı sizin dini rəhbəriniz – Şeyxülislamınız kimdir?

– İlk dəfədir eşidirəm.

– Sən heç məscidə getmirsən?

– Yox.

– Amma mən gedirəm. Anam hər həftə məni birinci aparır Parapetin yanındakı erməni kilsəsinə, sonra Təzə Pir məscidinə, sonra isə rus provoslav kilsəsinə. Hər üçündə şam yandırıb dua edirik.

– Erməni kilsəsini başa düşdüm. Bəs məscidə, xristian kilsəsinə niyə?

– Axmedcan məbədlər ayrıdır, Allahımız ki, birdir.

– Vallah heç nə başa düşmədim. Başımı şişirtdin lap.

Bezdirirdi məni bu suallarıyla. Hamısında da "erməni, hay" deyib fəxr edirdi. Bilmirəm hardan oxuyurdu. Bu haqda bizə nə dərs keçmişdilər, nə də evdə atam-anam danışmışdı. "Hay" deyəndə Hitler yadıma düşürdü. Hər dəfə müharibədən kino göstərəndə dodaqlarıma təbəssüm qonurdu. "Hay Gitler" eşidən kimi fikirləşirdim ki, yəqin Hitler də erməni olub. Amma yaxşı ki, almanca keçirdik, "hay" səslənsə də yazılışının "heil" olmağını bilirdim.

* * *

Artıq məktəbi qurtarırdıq. Buraxılış gecəsiydi. Günəşi qarşılamaq üçün Bulvara getmişdik. Uşaqların gözündən oğurlanıb, qalxdıq Kirov adına Dağüstü Parka. Şuşanik yenə başladı suallarını yağdırmağa:

– "Əsli-Kərəm" dastanını oxumusan?

– Yox.

– Nərimanovun "Bahadır və Sona"sını necə?

– Oxumamışam.

– Hüseyn Cavidin "Şeyx Sənan" əsərini necə?

– Eh, bu qədər sual vermək olar? Oxumamışam. Mənə bunlar lazım deyil. Mən neftçi olacağam, atam kimi. Texniki fənlərdən de, cavab verim.

– Eh, Axmedcan, axı mən sənə Avetik İsakyandan sual vermirəm. Dediklərimin hamısı Azərbaycanın tarixi, ədəbiyyatıdır. Yaxşı, azərbaycanlı oğlanın erməni qızına olan məhəbbətinə necə, inanırsan?

Şuşanikin qara gözlərinə baxdım. Gecənin qaranlı-

ğında yanıb, alovlanırdı. Sonralar başa düşdüm ki, bütün bu sualları nə üçün verirmiş. Birinci, özünü böyük bir mədəni xalqın övladı kimi göstərmək üçün. İkincisi isə, Bahadır və Sonanın, Əsli-Kərəmin axırını gətirmək üçün.

– İnanıram.

Şuşanik elə bil bunu gözləyirmiş. Dodaqlarını dodaqlarıma yapışdırdı. Od tutub yanırdı. 17 yaşlı mən ilk dəfə idi ki, qadın öpüşü görürdüm. Daha doğrusu, hiss edirdim. Uçunurdum. Özümü güclə saxlamışdım. Mən öpmürdüm. Şuşanik ağuşuma sığınıb məni öpürdü. Çaşıb qalmışdım. Azərbaycanlı ilə ermənin məhəbbətinə inanmağım geridə qalmışdı. Mən bunu yaşayırdım. Hiss etdikcə də məhəbbətin dərinliklərinə gedirdim. Bu dərinliklərdə batacaqdım, yaxud da sağ qalacaqdım, bilmirəm. Ehtirasdan Şuşanikin gözlərindən yaş axırdı. Sanki pişik kimi miyoldayırdı. Mən artıq özümdə deyildim. Mən Şuşanikin dünyasındaydım. Bu qədər ehtiras, sevgi, şəhvəti kitablarda oxumuşdum – utana-utana.

"Min bir gecə" nağıllarındakı sevgi hekayətlərinin qanuni sonluqlarını əzbərləmişdim də. Amma indi bu nağılın iştirakçılarından biri idim: "Sultan "topu" doldurub atdı. Qızın "qala"sını dağıtdı. Bir də doldurub atdı. Bir də... Yoruldu yatdı. Nağıl dili yüyrək olar. 9 aydan sonra Sultanın bir oğlan uşağı dünyaya gəldi". Mən də "Min bir gecə" nağıllarının ağuşundaydım. Amma sultan deyildim. Hər ikimiz orta məktəbin kandarındaydıq. "Buraxılış gecəsi"nin günahında. Dağüstü parkda. Bir ağacın altındakı otluqda. Sərhədi keçmişdik. Artıq gec idi. Doğrusu, lap ürəyimdən idi. Şuşaniki se-

virdim. Artıq bunu o da bilirdi. Yaxşı, bəs atama-anama nə deyəcəyəm?

– Şuşanik, artıq səhər açılır, gəl gedək.

– Hara?

– Evə.

– İstəmirəm. Gəl elə indi gedək yazılaq komsomol-tikinti dəstəsinə. Çıxaq gedək BAM-a. Baykal Amur Magistralının tikintisinə qoşulaq. Ev alaq, ailə quraq, komsomol toyu eləyək. İkimiz olaq, sərbəst olaq. Öz həyatımızı özümüz quraq.

– Şuşanik, gəl gedək evə. Hələ qoy attestatımızı alaq, instituta girək. Sonra danışarıq.

– Eh, kimə deyirəm. Siz azərbaycanlılar beləsiniz də. Kamal Attestatı alaq -kamilləşək, instituta girək – elmlənək, sonra əsgər gedək – kişiləşək, əsgərlikdə partiyaya keçək – vəzifələnək. Sonra qayıdıb işə düzələk. Xalaqızıdan, bibiqızıdan birini alaq, uşaq dünyaya gəlsin, biri də... biri də... Onları oxutduraq, böyüdək, evləndirək, ərə verək. Kimin üçünsə yaşayaq, sonra da ölək. Düz dedim, Axmedcan?

– Bilmirəm. Gəl nə qədər hava işıqlanmayıb evə çataq. Paltarımız pis gündədir. Evdəkilər görməsin.

– Lap görsünlər. Bu gün mən xoşbəxt olmuşam. Mən Axmedcanı sevirəm.

– Yavaş. Eşidən olar. Evdə-zadda hələ demə ya. Aləmi qatarsan bir-birinə. Yaxşı?

– Yaxşı, Axmedcan, yaxşı. Qoy sən deyən olsun. Axı, artıq sən kişi olmusan, mən də...

* * *

Attestatımızı almışdıq. Şuşanik sənədlərini Xalq Təsərrüfatı İnstitutuna, mən isə Nef-Kimya İnstitutuna vermişdim. İkimiz də imtahanları müvəffəqiyyətlə verib qəbul olduq. Yenə də bir yerdə gedib, bir yerdə gəlirdik. Hələ bir-birimizi dərsdən də qaçırırdıq. Əlaçı "stipendiya"sı aldığımızdan hərdən "Nərgiz", "Firuzə" kafesinə də gedirdik. "Buraxılış gecəsi"ndəki sirrimizi isə heç kim bilmirdi. İnstitutu qurtarmağımızı gözləyirdik. Valideynlərimiz toya, gəzməyə gedəndə onların evində bir yerdə "dərs də oxuyurduq". Beləcə xoşbəxt günlərimizi yaşayırdıq.

Hər gün dərsdən çıxıb "Torqovı" ilə üzüyuxarı addımlayaraq Xalq Təsərrüfatı İnstitutunun qabağına gəlirdim. Şuşanik küçədə məni gözləyirdi. Bir-birimizə qoşulub şəhəri gəzirdik, ya kitabxanaya gedirdik. Səhər də eyni qaydada. Birinci onu yola salırdım, sonra özümü dərsə çatdırırdım.

İllər keçirdi. 4-cü kursda oxuyurduq. Yenə də adəti üzrə Şuşanikin arxasınca gedirdim. "Kommunist" küçəsi qələbəlik idi. Kimisi "istefa", kimisi "Qarabağ", "Ar olsun!" qışqırırdı. Ara-sıra "ermənilər, Qarabağdan əl çək!" şüarlarını da hayqıra-hayqıra Lenin meydanına doğru irəliləyirdilər. İnstituta yaxınlaşdım. Şuşanik həmişəki yerdə yox idi. İnstituta girdim. Dərs cədvəlində sonuncu dərsin yerini öyrəndim. Auditoriyaya daxil oldum. Şuşanik "Kommunist" küçəsinə açılan pəncərənin

qabağında donub qalmışdı. Tir-tir əsirdi:

– Axmedcan gəldin. Mən qorxuram. Yaman qorxuram.

– Nədən qorxursan? Nə eləmisən ki, qorxursan?

– Bu gün çox sevincək idim. Elə bil dünyanı mənə vermişdilər. Amma indi qorxuram. Səni itirməkdən qorxuram.

– Mən burdayam. Heç yana getmirəm. Sən niyə həmişəki kimi küçəyə çıxıb məni gözləməmisən?

– Qorxumdan. Kütlə "tətil, tətil" qışqıranda, bütün uşaqlar küçəyə axışdı. Mənə də əyri-əyri baxdılar. Axı, mən nə eləmişəm?

– Nə olub , axı? Məni başa sal!

– Bilmirəm.

Yerlərimizi dəyişmişdik. İndi mən Şuşaniki sual yağışına tutmuşdum. O isə bilmirəm, deyə-deyə qalmışdı. Amma bilirdim ki, nəsə bilir. "Ermənilər, Qarabağdan əl çək!" sualının cavabını gözlərindən oxuyurdum.

Evə gəldik. Yol boyu tələş içindəydi. Heç kim Şuşanikə heç gözünün ucuyla da baxmırdı. Amma o özünü günahkar kimi aparırdı. Həyətə girdik. Anası balkondaydı. Tez bizi görcək blokun qapısına düşdü. Qızını çoxdan görməyən kimi, bərk-bərk qucaqlayıb öpdü. Sonra üzünü mənə tutaraq:

– Axmedcan, vallah bizim günahımız yoxdur. Bunu biz eləməmişik.

– Axı nəyi?

Evə girmədim. Lenin meydanına tərəf üz tutdum. Mitinq idi. Səbəb isə ermənilərin Topxana meşəsində ağac kəsmələri idi. Mənə qəribə gəlirdi. Topxana harda yerləşirdi? Bilmirəm. Dediklərinə görə Qarabağda meşəlik bir yerdir. Bəs onda mitinq niyə Bakıda idi? İkinci də üçdörd ağaca görə də yüz minlərlə insan mitinqə toplaşar? Yaxşı, toplaşıblarsa onda Topxanaya yürüş edib ağac. kəsilməyinin qarşısını niyə almırlar? Elə hey qışqırırlar. Bir nəfər də tribunada guya ki, kütləni idarə edir. "Otur! Dur! Otur! Dur!" İşə düşdük də. İndi də deyir ki, "Oturmayan erməni. Oturmayan erməni". Biri karıxdı, gec oturdu. Saldılar yazığı təpiklərinin altına. İlahi, görəcəyimiz günlər varmış.

Bir az sonra Dağlıq Qarabağ Muxtar Vilayəti kəlmələrini eşitməyə başladım. Sonra Fransanın "Fiqaro" qəzetinə akademik Aqanbekyanın verdiyi müsahibədən bəhs etdilər. Artıq ziyalılar, tarixçilər çıxış etməyə başlayırdılar. Mitinqdə erməni qızı Şuşanik kimi sual vermirdilər, izah edirdilər. Sonra dedilər ki, ermənilər azərbaycanlıları Ermənistandakı ata-baba evlərindən qovmağa başlayıblar. Hətta bəzilərini öldürüblər, diri-diri turbaya salıb hər iki tərəfindən svarkayla bağlayıblar. Qadınların belinə samovar bağlayıb qaynadıblar. Hamilə qadının qarnını cırıb, uşağını çıxarıb nizəyə taxıblar. Sinələrinə erməni xaçı formasında dağlar basıblar. Qarabağ ermənilər DQMV-nın Azərbaycanın tərkibindən çıxarılıb Ermənistana birləşdirilməsini tələb edirlər. Referendum keçirib "hə" cavabı da veriblər. İlahi, mən nə eşidirdim. Bunlar düz idimi? Deməli Şuşanik və anası

buna görə tələş içindəydilər. Deməli onlar bütün bunları əvvəldən bilirlərmiş?

Evə qayıtdım. Şuşanikgilin qapısını döydüm. Qorxaqorxa açdı:

– Axı, niyə qorxursan?

– Evdə heç kim yoxdur. Anamdır, bir də mən. Atamla, qardaşım Hadruta gediblər. Çörək almağa da düşə bilmirik qorxumuzdan.

– Axı, sizə kim nə deyir ki... Nədən qorxursunuz?

– Erməni olmağımızdan.

– Heç yana getməyin. Mən alıb gətirərəm.

Axşam atam da evə gec gəldi. Şəhərdə baş verən hadisələrdən xəbərdar idi. Şam edirdik. Birdən qapı döyüldü. Şuşanik idi. İçəri girmədi. Kandarda qulağıma bir-iki kəlmə pıçıldadı. Uçmağa qanadım yox idi. Atam-anam səbəbini soruşanda artıq gizlətmədim:

– Ana, ata, bu yaxında baba, nənə olacaqsınız.

– Sən nə vaxt evləndin ki, biz də nənə-baba olaq?

– Mən çoxdan demək istəyirdim. Bəs mən... Şuşanik... çoxdan bir yerdəyik.

Atam, anam heç nə demədilər. Yerlərində qurumuşdular. Mən isə sevincimdən yerə-göyə sığmırdım. Fikirləşirdim. Təki qızımız olaydı. Şuşanik kimi gözəl, ağıllı, bilikli. Amma atamla anamın qırışığı açılmırdı. Nə deyəcəklərini bilmirdilər.

– Ay bala, indi biz neyləməliyik?

– Necə yəni neyləməlisiniz? Elçi getməlisiniz. Nişan qoymalısınız. Toy çaldırmalısınız. Elin adəti üzrə.

– Yengə də çağıraq? – deyə anam dilləndi. Şəhərdə aləm dəyib bir-birinə, sən də gedib erməni alacaqsan? İstəyirsən bizi topa qoyub atsınlar? Qohum-əqraba nə deyər?

– Ay ana, bu necə olur e... dünən "Şuşanik, qızım, mənim balam" çağırırdınız, bu gün çönüb oldu "erməni?". Gözünüzün qabağında böyüyüb. Uşaqlıqdan indiyəcən bir yerdə olmuşuq. O məni sevir, mən də onu. İndi də uşaq. Sabah tezdən Şuşaniklə gedəcəyik ZAQS-a. Toy eləmək istəmirsinizsə eləməyin!

– Bala, ermənilər Ermənistanda, Qarabağda oyunlar çıxarır, sən də ermənini bizə gəlin eləmək istəyirsən?

– Hə! Gəlin də edəcəyəm. Familiyamızı da verəcəyəm. Lazım olsa dinimizi də qəbul edəcək, milliyyətimizi də.

Araya sakitlik çökdü. Atam yeməyini qurtardı. Balkona çıxıb siqaret yandırdı. Məni çağırıb qarşısında oturtdu:

– Oğul, iş-işdən keçib. Sənin də qeyrətin yol verməz ki, uşağın atasız böyüsün, başa düşürəm. Amma sənə bir əhvalat danışmaq istəyirəm.

Günlərin bir günü bir erməni deyir ki, bəs mən müsəlman olmaq istəyirəm. Gəlir məscidə mollaya yaxınlaşır. Molla bütün ayinləri ona başa salır. Erməni də ədəb-ərkanla bütün bunlara əməl edir. Mollanın bütün tapşırıqlarını yerinə yetirir. Dəllək gətizdirib bəh-bəhlə özünü sünnət də elətdirir. Vaxt çatır sonuncu ayinə. Molla məscidin həyətində qəbir qazdırır. Tabutu da yanında. Kəfənəbənzər ağ libası geyindirir ermənіyə. Uzandırır tabuta və soruşur: "Ay

Vazgen, müsəlman adın nə olsun?" O da cavab verir ki, "Mamed". Beləliklə dörd nəfər adam tabutu Vazgen qarışıq üç dəfə qəbirə salıb çıxarırlar. Hər dəfə də salıb çıxaranda molla deyir: "Vazgen getdi, Mamed gəldi. Vazgen getdi, Mamed gəldi. Vazgen getdi, Mamed gəldi". Sonra da Vazgeni tabutdan çıxarıb deyir: "Vazgen, sən bu gündən artıq Mamedsən – müsəlmansan. Get, dinimiz nə tələb edir, ona da əməl et". Mamed də beləcə ömür sürməyə başlayır.

Günlərin bir günü kabab könlünə düşür. Ermənilər də kababı bilirsən də donuz ətindən çəkirlər. İslam dini də donuz ətini haram buyurub. Mamed də bunu bilirmiş. Ona görə də üzü qibləyə bir toğlu kəsir. Kabab çəkir, yeyir. Amma ləzzət eləmir. On gündən sonra bir də kabab çəkir. Amma donuz ətinin ləzzətini ala bilmir. Nəfsini də basa bilmir. Qırıla-qırıla qalır ki, nə etsin. Axırda "tapdım" deyib, başlayır həyətdə qəbirə bənzər çala qazmağa. Çoşkanı bir yeşiyə qoyur və üç dəfə qəbirə salıb çıxarır. Hər dəfə də təkrar edir: "Donuz getdi, qoyun gəldi. Donuz getdi, qoyun gəldi. Donuz getdi, qoyun gəldi." Sonra da donuzu öldürüb, ətindən kabab çəkib yeyir. Oğul, bu rəvayəti unutma. İstər adını dəyişsin, istər familiyasını, istərsə də dinini – erməni elə ermənidir. İndi necə istəyirsən elə də et. Qərar sənindir.

Atamın sözlərinə diqqətlə qulaq asdım. Bir anlığa Dezdemonanın atasının Otelloya dedikləri yadıma düşdü: "Mən atasına xəyanət edərək qara həbəşə qoşulub qaçan bir qız gün gələcək sənə də xəyanət edəcək". Nədənsə atamın bu sözləri mənə "Otello" əsərini xatırlatdı. Bu Vazgen məsələsini anlamasam da, ürəyimə xal düşmüşdü. Axırı nə olacaqdı... bilmirəm.

Səhəri gün Şuşaniklə ZAQS-a gedib ərizə verdik. Familiyamı götürəcəyini bildirdi. Üstəlik, adın da dəyişdirmək istədi. Razı olmadım.

– Şuşanik – bu ad xoşuma gəlir. Şuşa yadıma düşür hər dəfə səni çağıranda. Dəyişdirmə.

– Əhməd...

– Əhməd nədir? Axı, mənə Axmedcan deyirdin. İndi nə oldu?

– Əhməd, sözümü kəsmə. Şuşaniki mənə atam qoyub. 906-cı ildə Sünik sülaləsinin hakimi olan Aşot Süninin arvadı Şuşanikin adından götürüb. Amma sən deyən də maraqlı faktdır. Şuşaya sırımaq olar. Amma dəxli yoxdur, adımı dəyişib Süsən qoyacağam. Süsən Məmmədova. Yaxşı səslənir, elə deyilmi?

– Necə istəyirsən.

Üstündən bir ay keçdi. Rəsmi kəbinimiz kəsildi. Şuşanik rəsmən Süsən Məmmədova oldu. Pasportu dəyişəndirəndə milliyyətini azərbaycanlı yazdırdı. Atasıyla da qardaşı Hadrutdan iki günlüyə qayıdıb məni öz evlərinə bir kürəkən kimi daimi qeydiyyata saldılar. Özləri isə qeydiyyatdan çıxıb, əmanət banklarındakı pullarını da çıxarıb geriyə – Hadruta döndülər. Bəzi qonşular onlar gedəndə ağladılar da. Şuşanik Armen qızı Manuçaryan isə Süsən Məmmədova olaraq ata evində qaldı. Mən azərbaycanlının adına olan atası evində.

Aylar keçdi. Süsən müsəlman dinini qəbul etdi. Hicaba girdi. Oğlumuz dünyaya gəldi. Süsənin təkidiylə adını qədim türk tayfalarından birinin adı olan Ərmən qoyduq. O günəcən mən bunu bilmirdim. Kitabxana-

dan tapıb gətirib mənə sübut etdi. Mən də razılaşdım. Yeni ad idi. Türk Mən var, qoy Ər Mən də olsun. Oğlum ər olsun. Milli oyanış, mitinqlər dövründə gözəl səslənirdi. Hətta məni bu ada görə tərifləyənlər də olurdu.

O illərdə Süsən qonşuluqdakı bütün ermənilərin işinə yaradı. Təhlükəli anlarda onları evimizdə gizlətdi. Hətta, yaydan-yaya yada düşən bağımız da bunkerə dönmüşdü. Qapı-qapı gəzib məskunlaşmaq üçün boş erməni evi axtaran qaçqınlar isə hicablı arvadımı görəndə üzr istəyib uzaqlaşırdılar. Ondan soruşanda ki, "buralarda erməni evi zad yoxdu ki?", ədəb-ərkanla cavab verirdi: "Biz özümüz də Qarabağdan təzə köçmüşük. Şuşadanıq. Heç kimi tanımırıq".

İllər keçirdi. Hadisələr bir-birini əvəzləyirdi. Həyətimizdə bircə erməni qalmışdı – o da azərbaycanlı, müsəlman Süsən Məmmədova idi. Valideynlərim də, mən də onun erməni olduğunu artıq yaddan çıxartmışdıq. Atamın dedikləri isə yadımdan çıxmırdı. Süsən özünü əsl azərbaycanlı qadını kimi aparırdı. İki oğlumuzu – Ərmənlə Ərsəni türkçülük ruhunda böyüdürdü. Əsl ərənlər kimi....

Çalışdığım sahədə də irəli gedirdim. Müdirimlə ailəvi dost olmuşduq. Arvadlarımız da rəfiqə idi. Uşaqlarımız bir məktəbdə oxuyurdular. Müdirin arvadının adı Qaranquş idi. Amma hərdən çaşıb Haykanuş da çağırırdı. Eynən mən kimi. Hərdən mən də çaşırdım. Süsən yerinə Şuşanik deyirdim. O saat dodaqlarımı əliylə qapayırdı. "Uşaqlar eşidər. Yavaş".

Günlərin bir günü Sankt-Peterburqa gəzməyə getdik. Aeroportda sərhəd nəzarətindən keçəndə miqrasiya işçilərindən biri uşaqlara əlini uzadaraq:

– Hay Armen, dobro pojalovat v Rossiyu.

Məəttəl qaldım. Bunlar hardan bildilər ki, uşağın yarısı ermənidir?

– Ne Armen, a Ermen.

– Eto po vaşemu Ermen – ermeni, a po russki, po armyanski – Armen. Armenin, Velikaya Armeniya. Privet, Arsen.

– Ne Arsen, a Ersen.

– Ax, kakaya raznitsa. Proxodite.

Sonradan başa düşdüm ki, "hay" ingiliscə "salam" deməkdir. Yəni belə çıxır ki, ingilislər də ermənidən çönmədir? Çaşıb qalmışdım. Hara baxırdım ermənilərin izi görünürdü. Hətta miqrasiya xidmətinin işçisi də ermənidi. O saat hiss elədi ki, Ərmənlə Ərsən yarım ermənidir. Görəsən hardan bildi? Yəqin qan çəkdi. Yox, bunların qan kodu birdir. Bir-birlərini o saat başa düşürlər. Hətta hicaba girsələr belə.

Dodağımı dişlədim. Demə ermənidən çönərək müsəlman, azərbaycanlı olan Şuşanik 80-ci illərdə türkün adıyla pərdələnərək, uşaqlarına Ərmən, Ərsən yox, atası Armenin, qardaşı Arsenin adını qoyubmuş? Təkcə atasının yox, millətinin, dövlətinin. Azərbaycan dövləti içində yaratdığı öz dövlətinin. Görəsən bu dövlətin içində dayısına oxşayan qoç igidlər, Ərmənlər, Ərsənlər nə qədərdir? Onlar nifrətə, yoxsa rəğbətəmi layiqdirlər? Onlar atalarının, yoxsa ki, analarınınmı qa-

nını daşıyırlar? Onların ana dili hansıdır? Onların ana Vətəni haradır? Şuşanik məndən "azərbaycanlı oğlanın erməni qızına olan məhəbbətinə necə, inanırsan?" soruşanda, bəs mən niyə ona "erməni qızının azərbaycanlı oğlana məhəbbətinə inanırsanmı?" sualını vermədim. Bilmirəm o bu məhəbbətə inanırdı ya yox, amma mən onun öz xalqına, millətinə olan böyük, sonsuz, ülvi məhəbbətinə yüz faiz inanırdım.

Bütün dünyada hamı Şuşanikdən olan bu yarı türk, yarı erməni yarımçıq Azərbaycan övladlarını özününkü kimi qarşılayacaq, özlərininki kimi qəbul edəcək. Ermənin qatı düşməni olan Türkiyədə Ermen, Ersen, Rusiyada, Pribaltikada, Ukraynada, Amerikada, Ermənistanda Arsen, Armen. Amma bütün hallarda, İstər Ərmən, istər Ermen, istərsə də Armen – son nəticədə "ərməni", "ərmənistan", "ərməniyyə", "ermeni", "Ermənistan", "armenin", "Armeniya" anlamını verəcək.

Ərməni adını da biz azərbaycanlılar onlara vermişik. Sovetlərin tərkibində öz dövlətlərini yaratmaq üçün qədim türk Ərməniyyə torpaqlarını da biz ərmağan etmişik. Rusca, ingiliscə səslənən "Armenian" "Armeniya" adı da bu türk adının eynisidir. Dünya xəritəsində bütün dünyaya "mən hayam, dövlətimin adı Hayastan" deyə car çəkənlərə "yox sən ərmənisən. Bizim düşmənimizsən. Əsrlər boyu başımıza olmazın müsibətlər gətirənlərin övladlarısan" demişik. Bununla da onları qədimləşdirmişik. Bədii əsərlərimizin qəhrəmanları etmişik. Azərbaycanlının erməni qızına məhəbbətini tərənnüm etmişik. Amma erməni qızının azərbaycanlı oğlana məhəbbətinin onun öz xalqına, millətinə ülvi

məhəbbətinin fonunda nə dərəcədə sönük olmasını göstərə bilməmişik. İşimizin xatirinə biz azərbaycanlılar "ermənіyə dayı deməyə" hazırıq. Amma bu, millətinin xatirinə, gələcəyi naminə azərbaycanlıya "ərim, sevgilim, türküm" deyən, onunla bir yastığa baş qoyan erməni qızının yanında nə qədər cılız və gülüncdür.

Sərhədçi pasportuma möhür qoyur. Şuşaniklə mənim izdivacıma atamın qoyduğu "möhür" yadıma düşür. Təkcə yadıma düşmür. Axır ki, anlayıram. Amma gecdir. Atamın sözlərini yaddan çıxarmaq üçün ürəyimdə balaca bir qəbir qazıram. Öz-özümə üç dəfə təkrar edirəm:

"Şuşanik getdi, Süsən gəldi. Şuşanik getdi, Süsən gəldi. Şuşanik getdi, Süsən gəldi".

ERMƏNİ QADINLARI VƏ AZƏRBAYCANLILARIN ERMƏNİLƏŞDİRİLMƏSİ PROSESİ...

Dinlərarası nifaq. Səlib, xaç yürüşləri. Cihad. Qılınc müsəlmanı. Dini sərhədlərin genişləndirilməsi. Kafir adı altında eyni olan iki insanın bir-birini öldürməsi. Kişilərin başlarının kəsilməsi, amma qadınlara dəyməmək. Onları dinə, imana gətirmək. Müsəlman etmək, adın dəyişmək. Və yaxud da əksinə ... xristian dinini qəbul etdirmək, adını dəyişdirmək. Səmavi dinlər də kafir olmasına baxmayaraq qadınları hifz edirdi.

Vəhşi təbiətin də qanunları belədir. Meşədə yırtıcı əsasən erkəyi parçalayır. Nəsil artıran dişiyə əl dəymir. Nəsil artsın ki, gələcəkdə ovu olsun. Ac qalmasın. Qəssablar da buğanı, erkəyi kəsirlər. İnəyə, qoyuna əl dəymirlər. Evi meyvəsi olmayan şamdan, küknardan tikirlər. Bar verən meyvə ağacını kəsmək günah sayılır.

TÜRK SULTANLARI MÜSƏLMAN İDİ, YOXSA XRİSTİAN?

"Möhtəşəm yüz il" serialına baxıram. Sultan Süleymanın anası sonradan İslam dinini qəbul edən bir Validədir. Cahan Sultanının varislərinin anası da keçmiş xristiandır. Hərəmxananı da bütünlükdə xristiandan dönmüş, İslam dinini qəbul etmiş, adını dəyişmiş qadınlar təşkil edir. Hamısı ataları, anaları, qardaşları qılıncdan keçirilmiş hərəmlərdir.

Hərəmin qanunlarına görə müsəlmanlar ora qəbul edilmir. Türk sultanlarının, fatehlərin anaları sonradan İslam dinini qəbul etmiş xristianlar və digər millətlərin nümayəndələridirsə, onda bu nə deməkdir? Belə çıxır ki, Türk İmperiyasını idarə edənlər, dünyaya meydan oxuyanlar Çingiz Aytmatovun təbirincə desək, "manqurt"lar olub? Yaxud da ki, manqurtlaşmaya gətirib çıxarıb? Və bu manqurtlar o boyda imperiyanın məhvini reallaşdırmaq üçünmü yetişdiriliblərmiş? Tarix bunu sübut etdisə deməli belədir. Lakin bu sübut bəs etmədi. Məncə, indi də davam edir. Söhbət qandadır. Ananın qanında.

CALAQ VƏ YA METİSATSİYA

İsrail vətəndaşlığına almaq üçün atanın kimliyi, adının, familiyasının nə olmağı, hansı millətə mənsubiyyəti şərt deyil. Anası yəhudidirsə, kifayətdir. Yenə qan faktoru.

Nəslin təzələnməsində, cavanlaşmasında metisatsiyanın rolu böyükdür. Milləti cılızlaşmadan qoruyur. Müharibələr bu inkişafın əsas və kütləvi hərəkətverici qüvvələrindəndir. Həyətdə bitən cır meyvə ağacını da calaq edəndə yaxşı bar verməyə başlayır. Deməli, əks sayılan

din və millətlərlə müharibələrdə müsəlmanları məhv etmək mümkün deyil. Əksinə, millət "calaq" edildikcə sağlamlaşır, gözəlləşir, inkişaf edir. Bu da təbiətin qanunudur. Meşədə cır meyvə bitir, həyətyanı sahədə isə calaq olunmuş ağac əkərlər... Amma yenə dəxli yoxdur. Uşaq atanın adını, ananın isə qanını daşıyır.

Deməli, dünyanın şeytan beyni yeni üsullar icad etməliydi. Yeni qarşıdurma texnologiyaları meydana çıxarmalıydı ki, həm müsəlmanların artım tempini saxlasın, həm də onları mənən, həm də fiziki cılızlaşdırsın.

Eyni dinə sitayiş edənlərin, qanı bir olan eynilərin savaşı meydana gəldi. Ərəb ərəblə, fars ərəblə, özbək türklə, avar ləzgiylə, fars azərbaycanlıyla (türklə), ərəb türklə... Siyahını uzatmaq da olar. Bu təkcə eyni qanların davası və calağı deyildi. Meşədə ağaclar və onların gətirdiyi bar çox idi, amma heyf ki, cır idi.

İki dinin toqquşması hansısa tərəfin qələbəsi və ya məğlubiyyəti deməkdir. Daha dəqiq desək, xristian etiqadlı insanların azalmasına gətirib çıxarırdı. Bu aydındır! Tətbiq olunan yeni sxem isə bunun qarşısını alırdı. Müsəlman dininə etiqad edənlər bir-birini qırır, öldürür. Xristianlar isə vaxtdan istifadə edib, bunun müqabilində üstünlüklərini artırırdılar. (Artıq 68 ildir ki, Avropada güllə səsi eşidilmir. Əgər Yuqoslaviyada türklərin soyqırımını nəzərə almasaq)

Bir müsəlman hökmran o biri müsəlmanı əvəz edir. Hakimiyyət uğrunda hətta ata oğlunu öldürməyə hazırdır. Bir müddətdən sonra aydın oldu ki, bu sxem də işə yaramır. Müharibə, aclıq, qırğın, epidemiyalara baxmayaraq müsəlmanların sayı durmadan artır.

Bir qanunauyğunluq da var axı. Xristianlıq İslamdan

əvvəl yarandığından çönmə xristianlıqdan İslama tərəf olur. İstər könüllü, istərsə də qılınc gücünə. Bu da əlbəttə ki, saya təsir göstərirdi.

AZƏRBAYCAN TÜRKLƏRİ HEÇ KİMƏ BƏNZƏMİR, ONLARA XÜSUSİ "YANAŞMA" LAZIMDIR

Amma elə xalqlar, millətlər var ki, bunlarda mentalitet, adət-ənənələr, ən əsası isə kökə bağlılıq güclüdür. Özünü indi qərbi azərbaycanlı sayanlar da məhz bu xüsusiyyətə malik olduqları üçün müxtəlif dövrlərdə deportasiya və etnik təmizləmə siyasətinə uğradılar. Daha doğrusu, onlar imperiyanın Qafqazı ermənileşdirmək siyasətinə yatmadıqları, ermənilərə qan baxımdan qarışmadıqları üçün bu həyatı yaşamaq zorunda qaldılar. Azərbaycan Respublikasının ərazisində onları daha nələr gözləyir? Deyə bilmərəm. Bir sözlə, onları "döndərmək", türkdən azərbaycanlıya çevirmək çətindir. Bəs nə etməli?

ERMƏNİ QADININ BAŞLADIĞI MÜHARİBƏ

Deyirlər ki, müharibəni kişilər başlayır. Çünki qadınlar başlasa, o müharibə heç vaxt qurtarmaz. Mən əvvəllər bu misalı bir lətifə kimi qəbul edirdim. Amma indi görürəm ki, bu nə misaldır, nə də lətifə. Bu gün Azərbaycan ərazisində tətbiq olunan konkret bir konsepsiya, özəl yanaşmadır. Maskalanmış imperiya strategiyası.

"Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi", "erməni-tatar qarşıdurması", "erməni-müsəlman davası", "soyqırımı". Azərbaycanlılarla ermənilər arasında olan bu münaqişəyə çox adlar qoyublar. İndi görürəm ki, bu, adi protokol sənədindəki qeydlərdən, tarixçilərin pafosundan başqa bir şey deyil.

100 FAİZ AZƏRBAYCAN MİNUS 20 FAİZ

Erməni kiçik millətdir. Nə türklə bacara bilər, nə də azərbaycanlıyla. Yox! Deyəsən səhv etdim axı? Tarixi saxtalaşdırmağa yönəldim. Tarixçilər belə cild-cild əsərlər yazaraq, təsdiq ediblər ki, ermənilər əzəli Azərbaycan torpaqlarında öz dövlətlərini qurublar. Dağlıq Qarabağ Azərbaycan ərazisidir. Üstə də gəl, 5-6 rayon. Nə az, nə çox – 20 faiz. Hamısı ermənilərdədir. Qaldı 80 faizimiz. Bəs onun taleyi necə olacaq? Fikirləşirəm. O boyda Ermənistan dövlətinin ərazisi, üstə də gəl 20 faiz və sayca bizdən qat-qat az olan bir erməni milləti. Bu gün də dünyaya səpələnə-səpələnə gedirlər. Bizim mütəxəssislər bunu demoqrafik partlayış kimi qiymətləndirirlər. Əsla. Qanlarını digər xalqların qanına calaq edə-edə gedirlər. Onlara da işğalçı demək olarmı? Olar... amma dırnaq arasında.

Bir qəribə məqam da var. Qalib erməni ordusu Azərbaycan torpaqları ilə inamla irəlilədiyi halda niyə 20 faiz ərazisini itirən Azərbaycanla atəşkəsə imza atdı? Axı, Bakıya cəmi 250 kilometr qalmışdı. Deməli burda başqa oyun da var idi...

ADI, ATASININ ADI, FAMİLİYASI KOLYA, ÖZÜ TÜRK

Çuvaş, yakut, tuva – Rusiyanın uzaq Sibirində yaşayan digər türk xalqları. Hamısının öz dili, adət-ənənəsi var. Amma adları rus-provaslav adlarıdır. Çünki xristianlığı qəbul ediblər. Daha dəqiq desək, onlara xristianlığı qəbul elətdiriblər. Bu rusların imperiya siyasətidir.

"Qafqazı da xristianlaşdırmaq lazımdır". Bu da rus, sonra isə Sovet imperiyasının yürütdüyü siyasətdir. Çox çətin həyata keçirdi. Daha dəqiq desək, yarımçıq qalırdı.

Onda taktika dəyişdirildi. "Əvvəl müsəlman Qafqazını ermənileşdirmək lazımdır, sonra isə..."

Bu plan da müxtəlif dövrlərdə iflasa uğradı. Məsələn 1988-ci illərdə ermənilərin Bakıdan qovulması uzun illər həyata keçirilən böyük bir planın kulminasiya nöqtəsində iflası demək idi. Amma buna baxmayaraq aktuallığını itirmədi.

BİZDƏ "MƏMMƏD OĞLU", LƏZGİDƏ "MAMEDOVİÇ"

Qayıdaq Sovet dövrünə. Şimali Qafqazda atanın adı "eviç", "oviç" getdiyi halda, azərbaycanlılar "qızı", "oğlu" sözlərini saxlaya bildilər. Hətta "ov", "yev"dən imtina edib, "lı, li, lu, lü", "zadə" sonluqlu familiyalara qayıdanlar da oldu. Ancaq partiya nomenklaturasındakı adamlara "...oviç" deyə müraciət edilirdi. Amma bu da müvəqqəti oldu. Müstəqillik illərində özünəqayıdış prosesləri sürətlə getdi.

20-ci əsrdə Azərbaycanı ermənileşdirmək prosesi iki dəfə həyata keçirilib. İkisində də iflasa uğrayıb. Birinci 20-ci əsrin əvvəllərində Şaumyanın, Mikoyanın timsalında. Erməni erməni adı və familiyası ilə hərəkət edib. Bakıda olan bütün var-dövlət ələ keçirilib. Qırğınlar olub. Amma metisatsiyadan söhbət belə, getməyib. Sonda isə Bakı Komissarlarının güllənmə səhnəsi oynanılıb. Şaumyan da başda olmaqla 26-lara daxil olan, öldüyü güman edilən dörd erməni xaricə qaçırılıb. Daha sonra ermənilərin əliylə xalqımızın sayseçmə oğulları aradan götürülüb. İmkanlıların varidatları talanıb. Ən əsası isə pantürkist damğaları, antitürkçülük hərəkatı və ən nəhayət "türk" deyənin dilini kəsmək. Bu azmış kimi həm millətin, həm də dilinin adı dəyişdirilir. Türk azərbay-

canlı olur. Çox qəribədir ki, Azərbaycanda yaşayan digər azsaylı xalqlar da məmnuniyyətlə bu "Azərbaycanlı qazanına" atılıb qarışırlar.

İkinci proses müharibədən sonrakı dövrə təsadüf edir. Ermənilər Bakıda və Azərbaycanın digər rayonlarında kompakt şəkildə yaşayır, artır, varlanır. Yüksək vəzifələrin 2-ci pilləsinə, yəni məsuliyyəti az olan, gözə girməyən işlərə ermənilər yerləşdirilir. Gizli sexlərə də onlar rəhbərlik edirlər. Amma hərəkətə keçəndə yenə daşnak babalarının, Şaumyanların yolunu gedirlər. Qan tökürlər. Bu plan da iflasa uğrayır. Ermənilər necə kompakt yaşayırdılarsa, eləcə də kompakt şəkildə Azərbaycandan çıxarılırlar. Amma qalanlar da olur. Vaxtikən Azərbaycan türklərinə ərə gedən, familiyasını, dinini dəyişən, artıq nəvəsi, nəticəsi olan azərbaycanlı erməni qadınlar qalırlar.

ÖZ TƏSDİQİNİ TAPMIŞ MODEL VƏ YA DÜŞÜNÜLMÜŞ METİSATSİYA

Məhz bu modelin tətbiqi Azərbaycan cəmiyyəti üçün məqbul hesab olunur. "Türklərin qanını tökmək yox, qanını qarışdırmaq, adını, familiyasını, dinini özününküləşdirmək lazımdır" adlı fəaliyyət planı hazırlanır.

Çünki Azərbaycanda "yan" familiyası daşıyan adamlara nifrət hissi güclüdür. Bu şəxsləri özlərinə düşmən sayırlar. Şəhidlər Xiyabanı yaraları qaysaqlanmağa qoymur. Onda nə etməli? Bax burda "Tülkü həccə gedir" nağılı yada düşür. İmperiya təfəkkürü bu planla iki dovşanı birdən vura bilər. Həm Azərbaycanın ermənileşməsi, həm də Sovet imperiyasının tərkib planı olan Azərbaycanın azərbaycanlılaşdırılması prosesi uğurla başa çatdırıla bilər. Deməli bir erməni qadını yüz Şaumyana,

Mikoyana, Vazgenə bərabərdir. Gec nəticə verməsinə baxmayaraq, güclü bioloji silahdır. Güllə atıb, yaralamaq, öldürməklə türklərin gözündə düşmən obrazında qalmaqdansa, bu bioloji silahla Azərbaycan türklərinin qanına, iliyinə, beyninə girmək daha məqbul variantdır. Atəşkəs demə buna görə lazımmış. Yaraları unutdurmaq, vaxtı öz xeyrinə işlətmək üçün.

Bu vaxt ərzində isə Azərbaycanda yeni dünyəvi nəsil meydana gələcək. Onlar isə Qarabağı, əzəli Azərbaycan torpaqlarını yox, dünyanı, kainatı fəth etmək iddiasındadırlar. Onları maşın, villa, pul, qızıl, mülk daha çox maraqlandırır, nəinki Qarabağ.

ERMƏNİ QADINI KİMDİR?

Erməni qadını. Onun haqqında çox yazılıb. Klassiklərimiz onları vəsf edib. Qalın-qalın romanlarımızın, poemalarımızın məhəbbət qəhrəmanları olublar. Erməni qadını – şirindildir, qılıqlıdır, hiyləgərdir, tədbirlidir. Acgöz, tələbkar deyil. Öz xalqına çox bağlıdır. Onun uğrunda nəyə desən gedər. Hətta fahişəlik də edər. Yaşadığı mühitdə o xalqın dilini, adət-ənənəni tez götürür. Nəsil artırmaya meyl güclüdür.

O da sirr deyil ki, uşaqda ana qanı əsasdır. "Ana Vətən", "Ana dili", Ana südü", "Ana laylası" söz birləşmələrinin kök, ilik, qan, ruh kimi amillərin formalaşmasına təsirini nəzərə alsaq, dünyaya gələn uşağın adının Vazgen, familiyasının isə hansısa "Yan" olması əsas deyil. Əsas o uşağın damarlarında Vazgenin qanının axmasıdır. Özü də ki, metisatsiya Azərbaycanda bir istiqamətdə aparılırdı. Ana erməni, ata türk formatında.

Bir erməni qadını azərbaycanlıdan 3 uşaq doğarsa, 50

il ərzində öz qan daşıyıcılarının sayını 40-a çatdırmaq, bu qırx metis isə ailə quraraq daha 40 nəfəri "yoluxdurmaq", türk millətinin dərinliklərinə varmaq gücünə malikdir.

Ermənilərin Azərbaycana aktiv təcavüzü 20-ci əsrin əvvəllərindən soyqırımı siyasətiylə başlanıb. Daha sonra isə mehriban qonşuluq siyasətiylə davam edib. Ermənilər soyqırımıyla əsasən vəhşi təbiət və müharibə qanunlarını pozaraq qadınları, uşaqları qətlə yetiriblər. Daha sonra isə taktikanı bir az dəyişiblər. Azərbaycan kişilərinə sanki donor kimi baxıblar. Metisatsiya prosesi üçün qoruyublar. Tuğ və digər kəndlərin simasında ortaq həyat, kirvəlik missiyasına başlayıblar.

Oğlan uşaqlarımızın onların qucağında kişi olmasına razı olub ermənini fəxrlə "kirvə" çağırmışıq, amma onların uşaqlarına kirvəlik edə bilməmişik. Biz erməni qızları almışıq, amma ermənіyə qız verməmişik. Ötən əsrə nəzər salsaq, eməni qızlarının azərbaycanlılara ərə getməsinin tarixi artıq yüz ilə çatır. Onda görəsən Azərbaycanın azadlıqda olan 80 faiz torpağının, daha dəqiq desəm Azərbaycanın tam işğalına neçə il qalır? Bəs onda Azərbaycanda erməni nə qədərdir, türk nə qədər? Və yaxud da damarında erməni qanı axan azərbaycanlı nə qədər? Bəs görəsən tarixi 70-80 il olan qondarma "azərbaycanlı" sözü mənbəyini haradan götürür? Diqqət yetirin mən "milləti" demədim, "sözü" dedim.

ATASI ERMƏNİ OLAN ERMƏNİDİR, ATASI TÜRK OLAN BƏS..?

Bir haşiyə çıxım. Sovet vaxtı belə bir lətifə vardı. Danışanda gülürdük. Amma indi onu da statistikaya salmaq vaxtı gəlib çatıb:

Azərbaycanda böyük vəzifəli, arvadı erməni olan bir şəxs oğlunu evləndirmək istəyir. Zəng edir qızın ziyalı atasına ki, "bəs sabah evdə olun, sizə gələcəyik. Elçiliyə". Bu azərbaycanlı nə desə yaxşıdır? "Əziyyət çəkməyin, hörmətli zat, sabah özüm qəbulunuza gələrəm".

İndi maraqlıdır... Gələcək kürəkəninin yarıerməni olmasını bilə-bilə, türk qızını həmin oğlana verənlərimiz nə qədərdir? Deməli ermənіyə qız vermək olmaz, amma atası türk, anası erməni olan azərbaycanlıya türk qızı məhrəmdir? Belə çıxır ki, türklərdə əsas atanın qanıdır, erməni və yəhudilərdə isə ananın? Hansımız düzük? Yox, sualı düz qoymadım. Hansımız udur, hansımız uduzuruq?

İndi deyəcəksiniz ki, danışdıqların mənasızdır. 100 ildir ki, bu proses davam edir... İzlər nəinki çoxdan itib, yeni izdivaclar meydana gəlir. Ermənistandakı Azərbaycan qəbirləri də yerlə-yeksandır, Azərbaycandakı erməni məzarlıqları da. İzlər itib, süpürülüb. Mən də başa düşürəm. Amma məqsədim başqadır.

DAĞLIQ QARABAĞIN AÇARI ƏZƏLDƏN ERMƏNİ QADININDADIR

Ay camaat, Dağlıq Qarabağ münaqişəsinin açarı ruslarda deyil. BMT-də də deyil. ABŞ-da, ATƏT-də, Fransada da deyil. Atam Qabilin əleyhinə desəm də, "Azərbaycan əsgəri" də oyundankənar vəziyyətdədir.

Bu müharibəni erməni qadını başlayıb. Açarı da ucları oyulmuş xaç formasındadır. Erməni Vazgen onun boynundan asıb. Sonacan da gedəcək. Ta qalan 80 faiz torpağımızı alanacan. Müharibənin tezliklə başa çatmasından heç danışmayın. "Gün o gün olsun ki" də deməyin.

Yeni sürprizlərə hazır olun – erməni qadınının bizə hazırladığı sürprizlərə. Çünki müharibəni erməni qadınları başlayıb. Bu müharibədə tüfənglər, toplar atmır, güllələr danışmır. Burda qan tökülmür, qan qarışır, qan artır, qan "zəhərlənir".

Onları axtarmayın. Tapmayacaqsınız. Yaxaları cırıb xaç ovuna da çıxmayın. Onların əksəriyyəti bu dünyanı artıq tərk ediblər. Ölməmişdən qabaq açarın nüsxələrini artırıb uşaqlarının, nəvələrinin, nəticələrinin, kötükcələrinin "ürəklərindən asıblar". Bu "bioloji silahlar" Azərbaycanın müxtəlif yerlərində, sahələrində, ailələrində "partladılıblar". Qəlpələri isə böyük radiuslara səpələnib. O qəlpələr bizim içimizdədirlər. Həm qadın cismindədir, həm də kişi. Namaz da qılırlar, oruc da tuturlar. Allaha şükr edirlər. Pirlərə nəzir deyirlər. Qurban da kəsirlər. Pul da paylayırlar. Hacı da olurlar. Adları da bizimkilərdəndir. Qanları isə onlardan. Onlar nə ermənidirlər, nə də türk. Bizim kimi türkdən çönmə azərbaycanlı da deyillər. Onlar təmiz "azərbaycanlılar"dır. İmperiyanın yaratmaq istədiyi və buna 20 faiz nail olduğu azərbaycanlılar. Hələlik azlıqda olduqları üçün onları dırnaq arasında verək: "AZƏRBAYCANLILAR". Türklə ermənin calağından yaranmış "azərbaycanlılar".

Torpaqlarımızın isə hələlik 20 faizi işğal altındadır. 20 ildir atəşkəsdir. Atəşkəs bizə yox, onlara işləyir. Öz aralarında artmağa, hələ də həyatda olan köhnə türklərlə calağa, inkişaf etməyə vaxt qazanırlar. Vaxt keçdikcə yetişəcəklər. "Azərbaycanlı" olmaq istəməyən türkləri dənləyəcəklər. Mənasız müharibələrə rəvac verib çönmək istəməyənləri kütləvi qırğına da göndərəcəklər. Bir sözlə, təmizləyəcəklər. Azərbaycan türkünü haya, rusa qırdırıb öz saylarını artıracaqlar. Amma heç kim bunun adına

“soyqırımı” deməyəcək. Çünki elə biləcəklər ki, canı bir, qanı bir qardaş və bacılarımızdır.

Axır vaxtlar belə bir ifadəni tez-tez eşidirik. Biri haqsızlıqla üzləşəndə o birinə “Sən azərbaycanlısan? Yox! Sən ermənidən də betərsən!”, deyir. Qəribə ifadədir. Görəsən ermənidən betər olan kimlərdir?

50 ildən sonra onlar 80 faizə çatacaqlar. İndi biz bəlkə də onları tanıyırıq. Amma 30, 40, 50, 60 ildən sonra heç bir fərqimiz olmayacaq. Qaynayıb qarışacağıq. Qız verib, qız alacağıq. Qanımızı qanlarına, iliyimizi iliklərinə calaq edəcəyik. Hətta bununla fəxr edəcəyik də. Biz bütöv bir ailə olacağıq. Vahid “Azərbaycanlı” ailəsi.

Atəşkəsin yaşı 80-ə çatanda hər iki tərəf silahı yerə qoyacaq. Bir güllə də atılmadan 80 faiz torpaqlarımızı özləri-özlərinə təhvil verib müharibəni qansız-qadasız başa çatdıracaqlar. Beləcə “YAN”dan imtina edə-edə, Azərbaycanı qazanacaqlar. Sonra da referendum keçirib Azərbaycanı xəritədən itirəcəklər. Adı Türkün, dadı ermənilərin olan, uzun illər həsrətlərində olduqları Böyük Ərməniyyə dövlətini, “tarixi ədaləti” bərpa edəcəklər. Azərbaycanlı adı da tarixə qovuşacaq. “Əsl” Ərlərin – Ərmənlərin erası başlanacaq. Adı türk olacaq, qanı erməni, özü isə hay.

STRASBURQLU KÜRƏKƏN

(novella)

Artıq bir aydır ki, Yemişli kəndində şadyanalıq hökm sürür. Obanın ağsaqqalı Novruzəlinin qızı ərə gedir. Ərə getmir e... Avropaya gedir. Adaxlı da düz Strasburqun göbəyindən gəlib. Kəndə monitorinqə gəlibmiş, görüb Novruzəlinin qızı Türkanı, vurulub ona. Birinci özü elçi düşüb. Novruzəli "otkaz" edib. Bu xəbər kəndə bir andaca yayılıb. Yəni ki, Novruzəlidə "duxa" bax ki, strasburqluya "yox" deyib. O da məcbur olub gedib Avropa Şurası, ATƏT, Avropa İttifaqı və NATO-da çalışan dostlarından ibarət bir dəstə yığıb yenidən gəlib elçiliyə. Novruzəlinin ayağı bir az da yer alıb. Axı, xalqın adət-ənənəsi var, mentalitet var – ikinci dəfədən qız verməzlər.

Strasburqlu yeznə də kor-peşman geri qayıdıb. Yolüstü rayon mərkəzində qalıb. Rayon icra hakimiyyətinin qonaq evində qulluqçu işləyən bir nəfərə dərdini danışıb. O da məsləhət görüb ki, "Ay rəhmətliyin oğlu, necə ki, Avropa Şurası, ATƏT, Avropa İttifaqı, NATO 25 ildir ki, Azərbaycanı tanımır, bizimkilərin də yanında onların hörməti sıfırdır. Sən dərdini rayonun icra başçısına de. O, bir əncam çəkər. İkincisi də elçiliyə özün getmə. Bizim yerlərdə belə şeyə pis baxırlar. Kürəkən var e, ona bizim yerlərdə "yeznə" deyirlər. Yeznə dediyin şey var e... ona da eşşək. Əgər izdivacınız alınsa onun da öz tərifi var: "Məhv edilməsi mümkün olmayan düşmən".. Strasburqlu yeznə bircə "niyə?" sualı verdi. Necə yəni niyə? Buna adət-ənənə deyərlər. Buna mentalitet deyərlər. Buna milli-mənəvi dəyərlər deyərlər. Bizdə belə şeylər istənilən dövlət qanunlarından irəlidir. Sən hərəkət edəndə bunları nəzərə al. Yoxsa ki, Strasburqdan gəlmisən?.. Belə mənim olmayan oğlumun olmayan...

Bu sözlər strasburqlu yeznəyə yaman toxunur. Üz tutur rayon icra hakimiyyətinə. Dərdini ona danışır. İcra başçısının qışqırığı otağı götürür. Bu hayqırtıya bütün rayon aktivi tökülüşüb gəlir. Məsələ müzakirəyə çıxarılır. Azərbaycan dilini bilməyən strasburqlu yeznə tərcüməçidən soruşur ki, axı nə baş verir? O da cavab verir ki, narahat olma. Hər şey adət-ənənələrimizə, mentalitetimizə, milli-mənəvi dəyərlərimizə uyğun inkişaf edir.

Nə isə, rayon aktivinin qərarıyla icra başçısı zəng edir qızın atası Novruzəli kişiyə ki, bəs evdə ol, sabah Strasburqluyçun elçiliyə gələcəyəm. Novruzəli də cavabında

nə desə yaxşıdır: “Narahat olmayın yoldaş katib, sabah özüm kabinetinizə gələrəm”. Elə də olur. İcra başçısının palçıqlı, kələ-kötür yollarla kəndə getməsinə ehtiyac qalmır. Səhərisi gün elə onun kabinetindəcə “həri”, “nişan”, “kəbin”, “zaqs” mərasimi bir saat ərzində başa çatır. Dilsiz-ağızsız Türkanı deyə bilmərəm, Antik öz arzusuna çatır. Elə ordan da qızı alıb vertolyotla Bakıya, Bakıdan da Strasburqa aparır.

Həmin gündən Novruzəlinin çiçəyi çırtlayır. Kəndləri artıq erməni atəşlərinə məruz qalmır. Heç bir beynəlxalq hesabatda rayon icra hakimiyyəti başçısının adı hallanmır. Niyə də hallansın? Axı təkcə Yemişli kəndinin yox, o boyda rayonun strasburqlu yeznəsi var?!

Beləcə aylar keçir. Bu elçilik, nişan, evlilik Strasburqda da böyük rezonans yaradır. Avropa Şurasının gündəliyinə salınır. Azərbaycanlı deputatlar mentalitetimizin, adət-ənənələrimizin, milli-mənəvi dəyərlərimizin zənginliyindən danışırlar. Hətta onların qorunmasında dövlətimizin bu istiqamətdə atdığı addımlardan da bəhs edirlər. İmzalanan sərəncamları tarixbətarix, nömrəsinəcən misal çəkirlər. Digər Avropa xalqlarına bunu örnək gətirirlər. Hətta, bu nailiyyətlə bağlı qətnamənin qəbul olunmasına da nail olurlar. Nə olsun ki, Azərbaycan Avropa dövlətidir. O öz adət-ənənələrini qorumalı, gələcək nəsillərə çatdırmalıdır.

Bəli, Yemişli kəndi Avropada məşhur bir məkana çevrilir, Türkan adı brendə. Beləcə aylar ötür. Antik Türkan cütlüyündən bir oğlan uşağı dünyaya gəlir. Türkan deyir ki, uşağa atamın adını – Novruzəli qoyaq, Antik isə babası Lirin adını əbədiləşdirmək istəyir. Elə burda

qırğın düşür. Bu vaxt yenə də Türkan Antiki üstələyir. Axı adət-ənənə, mentalitet, milli-mənəvi dəyərlər Azərbaycanda güclüdür, nəinki Avropada. Hətta Avropa Şurası bu barədə qətnamə də çıxarıb, Yemişli kəndini dəstəkləyib, dünyaya nümunə göstərib. Antik bu sözün qabağında bir söz deyə bilməyib susur. Lakin məğlub da olmur. Axı Avropa Azərbaycanın qabağında necə diz çökə bilər? Amma dinə də bilmir. Axı Avropada qanunlar alidir. Bir az hövsələ edir. Ərindən bir xəbər çıxmadığını görən Türkan kompromisə getməyə qərar verir: Antik, əzizim mən dediyim köhnə qanunlardandır, bəlkə yeni, son Azərbaycan qanunları əsasında oğlumuza bir ad verək. Son illərdə Azərbaycanda dəbdir. Atanın adının əvvəliylə ananın adının əvvəlini birləşdirib bir geydirmə ad alırlar, həm də yeni. Nə bilirsən, bəlkə, bizim bu ilk addımımız gələcək Azərbaycan-Avropa cütlükləriyçün bir örnək olacaq? Özün də şahidsən ki, "Yevrovijn"də Eldarla Nigar da adlarını "Elniki" qoyandan sonra qələbə qazandılar.

Antikin üzü gülür. Beləcə dünyaya Antitürk gəlir. Ailənin sevimlisinə çevrilir. Babası Novruzəlinin, nənəsinin, icra hakimiyyətinin sevinci yerə-göyə sığmır. Adı onların dilindən düşmür. Axı Türkan bu adla Avropada daha da möhkəmlənəcəkdi. İcra başçısı Xudayar giley-guzarını da gizlətmir. "Gərək mənim adımı qoyardılar. Mən olmasaydım, ay Novruzəli kişi, sən bu izdivaca qol qoymayacaqdın axı? Amma bu ad da pis deyil. Çox müasirdir".

Türkan rayonda, kənddə yaratdığı obyektlərə oğlunun adını qoyur. "Antitürk" kafesi, "Antitürk" qadın sa-

lonu, “Antitürk” şadlıq sarayı və sairə. Təndirdə, ocaqda qollarının, ayaqlarının, sapla üzlərinin artıq tükündən azad olan arvadlar müasir epilyasiya aparatlarının xidmətindən istifadə etmək üçün bu salonlara üz tuturlar. “Palatka” toyları moddan düşür. Ad o qədər xoşagələn, ürəyəyatan olur ki, hətta kəndə uzanan, Avropa Şurasının qrantı, daha doğrusu Türkanın iddiası ilə yeni asfalt örtüyü salınan, Atatürk küçəsiylə kəsişən küçəyə də Antitürk adı qoyurlar. Beləcə illər keçir. Türkan Avropa qanunlarına yiyələnir. “Buynuzları” çıxmağa başlayır. Antikin üstünə xod getməyə başlayır. Antikə də ingilis deyərlər. Türkan Avropa qanunlarına yiyələndiyi vaxtda, demə, Azərbaycanın da adət-ənənələri, mentaliteti onun qanına, canına hopurmuş. Dözür, dözür və günlərin bir günü Türkana ultimatum verir. Təyyarəyə oturdub göndərir Yemişli kəndinə – bizim dildə desək, qaytarır atasının xarabasına. Novruzəli kişi 2 ay xəcalətindən kəndin mərkəzinə çıxa bilmir. Obyektlərin bazarı bağlanır. Pıçapıç səsləri rayon mərkəzinəcən gedib çıxır. Atəşkəs tez-tez pozulmağa başlayır. Beynəlxalq hesabatlarda rayonun adı hallanmağa başlayır. İcra başçısı rayon aktivini çağırır. Xeyri olmur. Ağsaqqalları başına yığır. Nəhayət ki, əlac tapılır. Qocalardan biri deyir ki, biz də belə bir adət-ənənə var. Qız ərə gedəndən sonra belə deyərlər: “Ər evi, gor evi”, “Arvadın ər evindən tabutu çıxar”. Bu, Azərbaycan adətini axı avropalılar bilməlidirlər.

Bu an icra başçısına elə bil ki, od qoyurlar: Ay kişi, nə adət, nə ənənə? Avropalı, Avropa Şurası hardan bilir ki, bizdə belə adət var?

Bu vaxt rayondan seçilən deputat ayağa qalxır və çox təmkinlə izah eləməyə başlayır: "Necə yəni haradan bilirlər? Hətta bizim adət-ənənələrlə, mentalitetlə, milli-mənəvi dəyərlərimizlə bağlı qətnamə də qəbul ediblər. Bütün Avropaya bizi nümunə göstəriblər.Özüm şəxsən səsvermədə iştirak etmişəm" İcra başçısı: "Nə olsun ki, BMT də Qarabağla bağlı 5 dənə qətnamə qəbul edib, ermənilər torpaqlarımızdan çıxıblar?" Deputat: "Bunları bir-birinə qatmayın. Cin ayrı, şeytan ayrı".

Beləcə aktivdə qərar qəbul olunur. İcra başçısı, deputat və Novruzəli kişi Türkanı, Antitürkü götürüb üz tuturlar Strasburqa. Antikin evinə getmirlər. Birbaşa Avropa Şurasının mənzil–qərargahına üz tuturlar. Antiki də ora çağırırlar. Bu səfər media nümayəndələrinin də böyük marağına səbəb olur. Çox qəribədir ki, onlar da Türkanın, Antitürkün taleyinə acıyırlar. Mətbuat konfransında nümayəndə heyətinin adından deputat çıxış edir. Bəyan edir ki, Azərbaycan Avropa Şurasının üzvüdür. Öz qanunları, adət-ənənələri, mentaliteti var. Əri evdən qovan, yaxud da ərindən boşanan qıza Azərbaycanda pis baxırlar. Bizdə belə bir qanun var: "Qız ərə getdisə, onun ər evindən tabutu çıxmalıdır". Türkan bu vəziyyətdə özünə, oğluna qəsd də edə bilər. Antik bu qanunları qəbul edərək Türkanla evlənib və bizim adət-ənənələrə da hörmətlə yanaşmalıdır. Bir də ki, bu barədə Avropa Şurasının qətnaməsi də var. Bu da hüquqi qüvvə deməkdir. Bizi məcbur etməyin ki, Avropa Məhkəməsinə müraciət edək".

Jurnalistlər bu çıxışı alqışlarla qarşılayırlar. Antik isə hamının gözü qabağında gəlib Antitürkü qucağına alır,

Türkanın əlindən tutub zaldan çıxır. Bu hadisə böyük rezonansa səbəb olur. Bütün informasiya nəhəngləri bu xəbəri bir andaca bütün dünyaya yayırlar. Azərbaycan mediasında isə bu xəbər diplomatiyamızın növbəti qələbəsi kimi qələmə verilir. İcra başçısı bu qələbənin şərəfinə Strasburqun ən bahalı restoranında ziyafət verir. Hamısı dərindən nəfəs alır: "Axır ki, Azərbaycan həqiqətləri dünya miqyasında öz təsdiqini tapdı". Sonra da mehmanxanaya gedib, başlarını atıb yatırlar. Səhər tezdən Bakıya uçacaqdılar axı. Türkanla sağollaşmağı da yaddan çıxarmırlar.

Ertəsi gün Antikgilə gəldilər. Hər tərəf gül-çiçəyə, adamlar qara geyimə bürünmüşdü. Ortada qoz ağacından hazırlanmış bir tabut vardı. Əli qandallı Antiklə Antitürk onun ətrafında dayanmışdılar. Antikin vəkili polislə çənə-boğaz edirdi: Buraxın mənim müştərimi. Onun təqsiri yoxdur. O arvadını öldürmək yox, boşamaq istəyirdi. Neyləsin ki, azərbaycanlıların Avropa Şurasında təsbit olunmuş qanunları belədir: "Arvadın ər evindən tabutu çıxar!"

CANAVAR QANUNU

Uuuuuuuuuu....uuuuuuuuuuu... Acmışam. Guya tox vaxtım var idi ki, hələ bir acam da. Bezmişəm. Yalquzaqlıq lap məni bezdirib. Nə vaxtacan tək gəzəcəyəm? Ov da yoxdur. Heç nə də gözümə dəymir. Kənd camaatı da məni vecinə almır. Kəndin itləri də saymırlar. Yanlarından keçirəm e... Hörmət əlaməti olaraq heç hürmürlər də. Qoyun-keçi isə lap yandırıb-tökür məni. Dillərin göstərib mələşirlər. Sanki yanmışlıq verirlər. Bilirlər ki, onlarla işim olmayacaq. Ən dəhşətlisi isə xoruzların üstümə xoruzlanmasıdır. Mən isə kəndin həndəvərində fırlana-fırlana qalmışam ki, bəlkə sümük tapdım. Özü də nə sümük. İtlərin sümürdüyü və iliyini çıxartdığı sümük. Gör nə günə qaldım. İt artığına qaldım.

O gün görürəm ki, kənd camaatı kimisinin əlində yaba, kimisinin də əlində tüfəng gəlirlər mənə tərəf. Əvvəlcə məəttəl qaldım ki, uuuu... bunlardan nə əcəb qeyrətə gəliblər. Kəndin həndəvərində gəzirəm əl nədir, heç çırtma da vurmurlar. İndi isə əziyyət çəkib üstümə gəliblər. Nə isə odla-alovla gəlib çatdılar yuvama. Mən də ac-yalavac uzanmışam. Heyim də yoxdur ki, qaçam. Biri yabanı başının üstünə qaldırdı. Gözümü yumdum. İstəmədim ki, kəlləmin ağ zərrəciklərini gözümlə görüm sonra ölüm. Amma bu olmadı. Kimsənin səsi gəldi. "Dəymə, bu, o canavar deyil – bu qonşu canavardır". Gözümü açdım. Gördüm ki, camaat məndən uzaqlaşır. Meşənin ənginliyinə doğru gedirlər. Nə isə baş açmadım bunların işindən. Qonşu canavar olanda nə olar? Qonşu canavar canavar sayılmır bəyəm? Mən isə sevinirdim ki, öldürəcəklər, canım qurtaracaq bu fani dünyadan. Öldürmədilər. Niyə? Bilmirəm.

Nəsə axşam olur. Durum bir-iki ağız ulayım. Kənddən uşaq ağlamağının səsi gəlir. Onsuz da bir işə yaramıram. Heç olmasa anaların işinə yarayım. Mənim ulamaq səsimlə körpələrini qorxudub – "Bax yat. Yoxsa canavar gəlib səni yeyər" – desinlər. Mənim də anam olub axı. Mənə ulamaq öyrədib. Ov eləməyi isə öyrədə bilmədi. Günlərin bir günü sözünə qulaq asmadım. Yuvadan xeyli uzağa getdim. Elə bildim ki, sərbəst olmaq asandır. Əlimə də heç nə keçmədi. Dovşanlar belə gülürdülər mənə. Kukla kimi oynadırdılar. Qaranlıq düşürdü, vahimə basırdı məni. Qayıdanda gördüm ki, atam, anam, bacı və qardaşlarım qanına boyanmış halda uzanıblar. Can verirlər. Nəsə demək istədilər mənə.

Amma çatdırmadılar. Öldülər. O vaxtdan beləcə tək, yalquzaq qalmışam. Qonşu canavar sürüləri isə məni dəstələrinə götürmədilər. Əyri-əyri baxırdılar mənə. Səbəbini də demirdilər. Sadəcə nifrətlə baxırdılar. Sanki ailəmi mən qətlə yetirmişdim. Bizim sürünün ərazisinə də girmirdilər. Yenə də sağ olsunlar.

Uuuuuuuuuuuuuuuuu... Nəsə yaman acmışam. Kəndin camaatı da deyəsən kasıblayıb. Əvvəllər zibillikdə dişimə bir şey keçirdi. İndi o da yoxdu. Konserv qabları yaman çoxalıb. Bəlkə gedim qonşu canavar dəstələrinə yenə müraciət edim, birdən yazıqları gəlib götürdülər məni sürülərinə? Evdə qarıyıb qalmış canavarlarından birini mənlə evləndirsələr də razıyam. Yox inanmıram. Yaman əsilli-köklü canavar nəslidir. Onlarda ən kifir canavar belə evdə qalmır. Eybi yox, dul da olar. Qoy bir az da veyillənim bəlkə əlimə cəsəddən zaddan keçə.

Digər heyvanlar da ərazimdən üz döndəriblər e... – ceyranlar, cüyürlər, dovşanlar, çaqqallar, tülkülər. O gün bir yerə yığışıb hay-qışqırıq salmışdılar. Məni başqa əraziyə köçmələriylə hədələyirdilər. Dedim ki, ay heyvanlar, nədən narazısınız? Sizə toxunmuram, gözünüzün qabağında balanızı parçalayıb ana ürəyinizə dağ çəkmirəm. Mənim qorxumdan bir canavar da əraziyə girib sizə dəymir. Günü-gündən artıb çoxalırsınız. Bundan artıq nə edim ki sizə? Nə desələr yaxşıdır? Dedilər ki, ay canavar, artıq yavaş-yavaş heyvanlıqdan çıxırıq. Nə qorxumuz qalıb, nə hürkümüz. Sənin qorxundan ərazidə olan çaqqal-çuqqal da bizə yaxın gəlmir. Qovulmamaqdan, qaçmamaqdan dizlərimizə duz yığılıb. O qədər artmışıq ki, yeməyimiz də tükənib. Kənd ca-

maatı olmasaydı, nəslimiz çoxdan kəsilmişdi. Yaxşı ki, ac qalanda ov tüfəngi götürüb üstümüzə gəlirlər. Onda özümüzü bir an da olsa əsl heyvan kimi hiss edirik. Canavar, insanlar səndən çox qeyrətlidirlər. Çünki özlərini lap adam kimi aparırlar. Sən isə özün canavarlıqdan çıxmısan, bizi də heyvanlıqdan çıxartmaq istəyirsən. Ax, sənin anana, atana nə deyim, sənə ov ovlamağı öyrətməyib ölən yerdə...

Bunları deyib, keçdilər qonşu əraziyə. Mən də qaldım tək. İndi neyləyim bilmirəm. Onlar gedəndən sonra ərazimdə siçan-siçovul da artıb. Alaq dizə çıxıb.Parazitlər çoxalıb. Heç ormanda gəzməli deyil. Nə isə bezdim təklikdən. Nə olur-olsun, keçirəm qonşu əraziyə. Qəbul edərlər qalaram, etməsələr də, ovlarının artığı ilə birtəhər dolanaram.

Bu yol da heç qurtarmaq bilmir. Bir xeyli getmişəm. Bir o qədər də qalıb yəqin. Bir canavar da gözə dəymir. O biri heyvanlar da nəsə qəmgin-qəmgin gəzirlər. Elə bil yasa batıblar. Nəsə burnuma doğma iy gəlir – canavar iyi. Qan iyi də dəyir. Yəqin ov ediblər. Qaynanam məni çox istəyir. Mən də bu insanlardan söz öyrəndim də. Biri yemək üstünə çıxanda deyirlər: "Qaynanan səni çox istəyir". Bəlkə, birinin qaynanası yoxdur? O saat söz tapırlar: "Gələcək qaynanan səni çox istəyir". Bəlkə, qaynanam ölüb? Ona da söz tapırlar: "Rəhmətlik qaynanan yaman çox istəyibmiş a, səni". Oğlanın da qoltuqlarının altı şişir: "Mənim kimi kürəkəni istəyərlər də... qızına yaxşı baxıram axı...işini vaxtlı-vaxtında görürəm"

Yox, bu qan iyi nəsə açmır məni. Nəsə bu qan o qan-

dan deyil. Yaman çəkir məni – qan çəkir məni. Aman, bu nədir? Bütün sürünü qanına qəltan ediblər ki... Mənim son ümidim bunlar idi.. Bunlar da belə. Yox, deyəsən dəstə başçısının nəfəsi hələ də gedib-gəlir.

-Nə olub, bu nədir başınıza gətiriblər?

-Qurd bala, son nəfəsimdi. Sözlərimə diqqətlə qulaq as. Sözümü kəsmə. Mənim nəslimi kəsdilər. Sizin nəsildən isə heç olmasa sən qalmısan. Bu sözlərimi gələcək nəsillərimizə çatdır. Sənə əyri-əyri baxmağımızın, ögeyliyimizin səbəblərini deyəcəyəm. Sənin nəslin "Canavar qanunu"nu pozmuşdu. Cəzasını da aldı. Yaxşı ki, insanlar səni tapa bilmədilər. Biz də ailən qanunu pozduğuna görə səni lənətlədik. Səndən üz döndərdik. Çünki canavarlar üçün "Canavar qanunu" ən şərəfli və yeganə qanundur. Onu pozmaq olmaz. Pozanı bax bizim, sizin aqibətiniz gözləyir. İnsanlar da bu qanunu yaxşı bilirlər. Sən isə körpə idin, balaca idin. Və bu qanunlardan xəbərin yox idi. Ona görə də manqurtlaşdın. Ov etməyi bacarmadın. Atanı, ananı, bacı-qardaşlarını öldürənlərin zibilliyə atdığı artıqlara möhtac qaldın. Hətta sənə ölümü belə çox gördülər. Cismani yox, mənən öldürdülər. Canavar qürurunu öldürdülər.

-Bu nə qanundur axı?

-Sözümü kəsmə.

Dəstə başçısı xırıldayır. Cavan canavar yalvarmağa başlayır:

-De bu qanunu, de. Yalvarıram.

-Canavar yuvasına yaxın, qonşu olan kəndə ova getməz. Bunu siz də etdiniz, biz də. İnsanlar bizi cəza-

landırdılar. İnsanlar da kəndin yaxınlığında yerləşən canavar yuvasına dəyməzlər. Çünki bilirlər... canavarların da qisası çox pis olur. Bizim bir balamızı öldürsələr, biz onların iki balasını öldürərik. Qanun budur. Pozmaq olmaz. Qurd balam, heç olmasa gələcək nəsillərimizi bu bəladan qoru.

Qoca canavar ölür. Yalquzaq isə ulaya-ulaya qalır. Canavar qanununun sirlərini axır ki, öyrənmişdi. Amma bunu miraslamağa canavar qalmamışdı.

ARVAD VƏ MAŞIN

Sovet vaxtı idi. Bütün oğlan uşaqları kimi mən də avtomobilə həvəsliydim. Nə qədər edirdim atam sürməyi öyrətmirdi. Evin tək uşağısan, başına bir iş gələr, qəza zad törədərsən – bədbəxt olaram, – deyirdi. Zaman keçdi, maşın sürməyi də öyrəndim. İndiki zəmanədə sürməyə də həvəsim azaldı. Tıxaclar, yol polisi, radarlar, kameralar, yüksək cərimələr, ballar, piyadalar, dayanacaqların olmaması. Bir avtomobili sürən şəxsə nə qədər təzyiq olar? Bilmirsən maşın sürəsən, yoxsa bu xətalardan özünü qoruyasan. Çox bezdim. Apardım maşını dəyər-dəyməzinə satdım. Qınadılar. Niyə satdın? Get bir dənə köhnə maşın al heç olmasa, ayağını yerdən qaldırsın. Yenə də dinc qoymadılar. Qınadılar. Bəziləri dedilər ki, əcəb elədin. Bəziləri isə – sən maşına baxan idin, xoşbəxt oldu onu alan, – dedilər. İndi piyadayam. 47 yaşım var.

Təsadüfən uşaqlıqda tez-tez eşitdiyim bir misal yadıma düşdü: "Maşın saxlamaq, ikinci arvad saxlamaq kimidir". Çox qəribədir, canlı arvad hara, ölü mexanizm hara? Sanki atalar sözünə çevrilən bu kəlamın isbatını axır ki, tapdım. Qadın kimi maşının da taleyi qəribədir.

İLK MAŞIN, İLK TOY

Təzə maşın alırsan. Yağ içində. Nə qədər bahalıdırsa, o qədər də komfortludur, təhlükəsizdir. Qəza vaxtı yastıqları açılır. Səni qoruyur. Alanda dost-tanışa qonaqlıq da verirsən. Qıraqdan baxanlar da bəxtəvərçilik verir. Ucuz maşınla isə uzağa gedə bilmirsən. Birinci döngədə çevrilir. Verirsən metalloma. Sağ-salamat sürsən, bir az da pullansan təzə, daha yaxşısına dəyişirsən. Ən pis halda ömrünün axırınacan sürürsən.

İlk dəfə evlənirsən. 17-20 yaşlarında qız uşağıdır. Atası varlı-hallı, vəzifəlidir. Cehizi də göz oxşayır.Təntənəli toy da öz yerində. Heç kim sənə bata bilmir. Çətinə düşəndə arxanda dayanıb səni hifz eləyirlər. Kasıb ailədən olan qızla evlənəndən 3-4 ay sonra dedi-qodu başlayır. Qaynana cehizi gündə on dəfə "başına vurur". Günlərin bir günü bezirsən, boşanırsan. Qaytarırsan dədəsinin xarabasına. Bir təhər yola getsən bu minvalla ömrünün axırınacan yaşayırsan. Ya da pullansan bəyənmirsən. Gedib təzəsini alırsan.

İKİNCİ ƏL MAŞIN, BOŞANMIŞ QADIN

İkinci əl maşın alırsan. Yiyəsindən sonra ikinci yiyəsi sənsən. Çox da sürməyib – bir il, üç il, maksimum 5 il. "Zavodskoy" iyi hələ üstündədir. Ehtiyat təkərini belə işlətməyib. Yağını, suyunu vaxtında dəyişib. "Udar"a salmayıb. Ehtiyatla davranıb. Kuzasında bir-iki cızığı var, o da "polirovka"yla keçib gedər. Maşına rəng dəyməyib. Demək olar, təzə maşındır. Amma dost-tanışa qonaqlıq vermirsən, axı adı köhnə maşındır.

Ərindən boşanmış qadınla evlənirsən. Ömrü boyu bircə ərini görüb. Bir il, üç il, 5 il ərdə olub. Belə baxanda cuvanəzən, bakirə qızlardan heç də fərqlənmir. Doğmayıb. Güzəranı yaxşı olub. Yemək-içməyi, gəzməyi, pal-paltarı. Əri də yaxşı insan olub. Qadın salonuna da vaxtlı-vaxtında gedib-gəlib. Neynəsin ki, qaynanası ifritə çıxıb. Dözə bilməyib. Ayrılıb. Bir az sınıxıb. Lakin kosmetik əməliyyatdan sonra əvvəlkindən daha yaxşı görünəcək. Evlənirsən. Toy-zad da eləmirsən. Adam da ikinci dəfə gəlinlik geyər?

YİYƏSİ ÖLMÜŞ MAŞIN, DUL QADIN

Təzə almışdılar. Yiyəsi də çox yaxşı idi. Maşını işə salanda ürəyi partladı öldü. Sanki ruhu, iyi çökmüşdü maşına. Rəngi ağ idi maşının, amma qara brezentə bürümüşdülər. Qohum-qonşu da qınayırdı ki, nə saxlamısınız maşını, ya sürün, ya da satın. Yiyəsinin ili çıxandan sonra anası, atası, bacı-qardaşı imtina elədilər maşından. İçinə dəri salon, təzə maqnitafon, ştorka, daha

hansı bəzəklər vurmuşdu yiyəsi. Hamısı qaldı üstündə. Gözlərinin önündən uzaqlaşdırdılar. Dəyər-dəyməzinə satdılar.

Cəmi bir ilin gəlini idi. Əri yaxşı adam idi. Uşaqları da olmamışdı. Təki ondan bir yadigarı olaydı. Ərinin atası, anası, bacısı, qardaşı onun iyini alardılar uşaqdan. Bu da yox idi. Qara libasdan da çıxmırdı. Evdə ona elə baxırdılar ki, sanki o idi ərinin ölümündə günahkar. Artıq bir yükə çevrilmişdi. Ətrafdakılar da qınayırdı: "Ay bala, ölənlə ölməyəcəksən ki, ərə get, həyatını təzədən qur". Sanki ərinin ilinin çıxmağını gözləyirdilər. Ona qarşı münasibət 180 dərəcə dəyişdi. Arif qız idi. Günlərin bir günü bezdi, atası evinə qayıtdı – cer-cehizi ilə birlikdə. Ordan uzaqlaşdı. Yiyə duran tapıldı. Lakin yenə də çaşıb təzə ərinə köhnə ərinin adını deyirdi.

KÖHNƏ "0" KİLOMETR VƏ YA QARIMIŞ QIZ

Artıq 15 ildir ki, alıb maşını. Salondan götürmüşdü. Xəsisin biri idi. Sürmürdü. Elə qarajdan çıxarırdı, yuyurdu, təzədən də yerinə salırdı. Qəşəng də bəzəmişdi. Göz oxşayırdı. Hamı da qınayırdı. Bezdirmişdilər onu. O gəlirdi ki, mənə sat, o gəlirdi ki, yox mənə sat. Çox pul verən də olurdu, az pul da. Bəziləri də gülürdülər ona: "Nə köhnəldirsən maşını, elə bilirsən təzə kimi sata biləcəksən? Nə olsun kilometrajı sıfırdır. Alan adam ilinə baxacaq. Axırda bezdi başladı sürməyə. Əzmədi, sürtmədi. Amma yenə də adı köhnə maşın qaldı.

Artıq ali məktəbi 15 il idi ki, bitirmişdi. Ərə getməmişdi. Yox istəyəni çox olmuşdu. Birinə keçəl demiş-

di, birinə kasıb, birinə karlik adı qoymuşdu, birinə uzundraz. Beləcə bəxtini bağlamışdı. Qohum-əqraba da baş-beynini aparırdı ki, bəs ərə get, qarıyıb qalacaqsan. Artıq 37 yaşına çatmışdı. Bir-iki dəfə "qarımış qız", "staraya deva" kəlmələri də dəymişdi qulağına. Özünü sındırmamışdı. Bakirəliyini də, təmiz adını da qoruyub saxlamışdı. Qız idi, amma çifayda, 37 yaşı vardı. Namaz qılmağa da başlamışdı. Axır ki, bəxti açıldı. Ərə getdi. Amma adına yenə də "qarımış" deyirdilər.

"AVARİYNİ" MAŞIN, TƏRBİYƏSİZ QADIN

Vaxtilə salondan təzə götürmüşdülər avtomobili. Yiyəsi içən, narkomanın biri idi. Çox pis sürürdü maşını. Yağını, suyunu vaxtında dəyişmirdi. Yumurdu, polirovka elətdirmirdi. Necə var sürürdü. "Yama"ları sayırdı. Üç-dörd dəfə qəzaya da düşmüşdü. Maşında sağ yer yox idi. Taksi kimi də işlədirdi. O minirdi, bu minirdi. Sonda da yiyəsinin ehtiyacı elə bir səviyyəyə çatdı ki, maşını satdı. Təzə yiyəsi yaxşıdır. Yağını, suyunu vaxtında dəyişir. Yaxşı baxır. Amma köhnə zərbələr özünü göstərir. Adı da ki, üstündədir. Hamı qınayır. "Sənə lazım idi ki, "avariyni" maşın alasan?"

Ev qızı idi. Ərə verdilər. Sonra məlum oldu ki, oğlan narkomandı, alkoqolikdir. Evə gəlirdi. Dava salırdı. Yazıq qızı döyürdü. Yetim qız idi. Qalmışdı Allahın ümidinə. Bir tikə çörəyə möhtac idi. Heç kim də kömək etmirdi. Əksinə, pis yola çəkənlər çıxırdı qabağına. Pul təklif edirdilər. O da məcbur idi... Gözəlliyini də itirirdi yavaş-yavaş. Bədəninin müqaviməti də azalırdı. Xəstə-

likləri üzə çıxırdı. Satılırdı. Bir gün yetim evindən ilk məhəbbəti çıxdı qabağına. Ağuşuna aldı. Başa düşdü onu. Özünə arvad elədi. Tənələr, mənalı baxışlar başladı onu qarabaqara izləməyə. Ərinə deyilən sözləri də aydın eşidirdi: "Dünya doludur 16-17 yaşlı qızlarla, bu da getdi fahişəni özünə arvad elədi".

SON

Uşaqlıqda eşitdiyim "Maşın saxlamaq, ikinci arvad saxlamaq kimidir" fikrini, kəlamını axır ki, 47 yaşında mənasını tapdım. Arvadla ömür sürmürsən, yaşamırsan. Arvadı saxlamağı bacarmalısan. Yaxşı saxlasan ömrünün axırınadək sənin yanındadır. Pis olsan sonda səninki deyil. Başqa yiyəsi və ya yiyələri tapılır. Eynən maşın kimi – satılır, satılır, satılır...

"O", "OĞ", "OĞR"...

Qardaşbala məhləmizin fəxri idi. Nə qədər ki, o var idi biz nə polisə, nə də ki hər hansı bir mühafizəyə ehtiyac duyurduq. "Uçastkovı"mız da arxayın idi. Hamı ondan qorxurdu. Kimin haqqı nə idi ki, biz tərəfə əyri-əyri baxa. Qardaşbala diri-diri doğrayardı onu. Məhlədəki tində dayanardı. Tin uşaqları da ətrafına toplaşardı. İmam övladı deyildi. Çəkirdi, içirdi, dalaşırdı. Bir-iki dəfə türməyə də düşmüşdü. Amma tindən əksi çəkilmirdi. Bilirdilər ki, məhləyə qıyğacı baxsalar belə, Qardaşbala türmədən qayıdıb onlara divan tuta bilər. Təkcə qıraqdakılar yox, biz də yaman qorxurduq ondan. Hünərin var yanından keç, sadəcə, salam vermə. Şapalaqlayırdı.

Məhlənin qızları da yanıqlıydılar onun əlindən. Qardaşbalanın qorxusundan bir oğlan da onlara yaxın gələ bilmirdi. Qeyrət, namus mücəssəməsiydi. Ölərdi, türməyə düşərdi, amma qoymazdı ki, məhlənin adına xələl gələ. Heç kim onu vəkil eləməmişdi. Sadəcə boynuna düşmüşdü. Balaqardaşdan miras qalmışdı ona.

Bir anasıydı, bir də özü. 40 yaşına çatmışdı. Amma evlənməmişdi. Daha doğrusu qız verən yox idi ona. Bilirdilər ki, Qardaşbalaya qız ver, ya da uşağı türməyə göndər. Eyni şeydir.

Hər şey yaxşı gedirdi. Sakit idi həyatımız. Mən bais oldum. Məhv etdim Qardaşbalanı. Mən yox! "Topaz". Yoxsa ki, mən nə bilirdim mərc nədir? Məhlə uşaqlarıyla bütün günü futbol mərci qoşurduq. Uduzurduq. Tələbə adamıydıq. Evdən bir manat dilənməkdən yorulmuşduq – dönər adıyla. Hərdən bir "pivə də içirdik, yanında noxudu". Amma ağzımızdan iy gəlmirdi. Görüşə gedirdik. Qayıdanda məyus gəlirdik. Üstümüzdən ətir yox, tütün iyi gəlirdi. Nəşə çəkmirdik, gözlərimiz qızarırdı – internetdə futbol oyunlarını izləməkdən. Udmurduq, əksinə itirirdik. Təki itirəydim. Çünki itirdiyimiz təkcə pul olacaqdı. Qardaşbala...

Günlərin bir günü mərcdə uddum. Udmadım e "Topaz"ı məhv etdim. 117 min manat. Məhlədə həmən hörmətim artdı. Qardaşbala arxa plana keçdi. Məhlə uşaqları mənim başıma toplaşmağa başladılar. Ağzımızdan pivə yox, araq iyi gəlməyə başladı. Üstümüzdən duxi iyi əskik olmurdu. Bütün günü orda-burda. Qardaşbala isə həmin yerindəydi. Tində. Məhləmizin keşiyində. Evə qayıdanda özümüzü yığışdırırdıq. Yanından

keçəndə yenə qorxa-qorxa keçirdik. Üzümüzə heyrətlə baxırdı. Bəlkə də, bu rişxənd idi. Məhlə uşaqları da artıq namus-qeyrətin keşiyində olan Qardaşbalanı yox, pulu olan məni seçmişdilər. Amma bizə qoşulmurdu. Beləcə missiyasını həyata keçirirdi.

Pulum da azala-azala gedirdi. Amma yemək-içməyimdən də qalmırdım. Günlərin bir günü yaxşıca yedik-içdik. "Topaz" mənə div qüvvəti bəxş etmişdi. Yeni mərclərə ruhlandırmışdı. Pul məni o qədər qudurtmuşdu ki, özümü böyük sayırdım. Amma yenə də qarşımda Qardaşbala vardı. Hamıdan güclü idim məhlədə, bir ondan başqa.

Günlərin bir günü məhlə uşaqlarıyla o qədər yedim-içdim ki, sərxoş oldum. Özüm də bilmədən mərc qoşdum onlarla. Yox, yox, futbol mərci deyildi. Bu mərci udmuşdum. Qardaşbalanı udmalıydım. O qədər qudurmuşdum ki, ona "oğraş" deməliydim. Məhləmizin namus-qeyrətini qoruyan bir insana. Şərəfsiz bir mərc idi. Geriyə yol yox idi. Mərc artıq kəsilmişdi. Bir ay vaxtım vardı. Özü də bu sözü bütün məhlənin qabağında deməliydim.

Səhər dərsə gedəndə gəldim dayandım Qardaşbalanın qabağında. "O" dedim. Dərsdən qayıdanda da "O" dedim. Beləcə bir həftə. Qardaşbala üzümə qəribə-qəribə baxırdı. Başa düşmürdü ki, bu "o" nə "o"-dur. "O" nun arxasından xəbəri yox idi. İkinci həftə "O"nun yanına "ğ" da yapışdırdım. Bir həftə də "oğ", "oğ" dedim Qardaşbalanın üzünə. Yazıq elə üzümə baxırdı. Sadə adam idi. Heç ağlına gətirmirdi ki, bu "oğ" nədir, nəyin əvvəlidir. Üçüncü həftə isə hər gün "oğr", "oğr".

Sanki Qardaşbalanın beynini deşirdim. Vərdiş etmişdi mənim sözlərimə. "Oğr" dedikcə xoşhallanırdı. Ləzzət edirdi ona. Arxasınca nə gələcəkdi, sanki mərak edirdi. Su damcıları daşın üzərini ova-ova gedirdi. Dördüncü həftə "oğra" ilə davam etdi. Nəhayət 30-cu gün. Bütün məhlə uşaqları mənə baxırdı. Mənim gözlərimsə Qardaşbalaya. O da mənə intizarla. Sonuncu hərfi gözləyirdi. Gözümü yumdum. O sözü dedim: "Oğraşşşş". Gözümü açmırdım. Üzümdə şapalaqları, qarnımda dəlik açan bıçaq izlərini hiss edirdim sanki. Amma sadəcə hiss edirdim. Amma heç nə yox idi. Gözlərimi açdım. Qardaşbala qarşımdaydı. Məhlə uşaqları ətrafımda. Bir mənə baxırdı, bir də uzaqda dayanan bacıma. Üzümə gülümsəyirdi Qardaşbala. Bəkə də, vərdiş etmişdi bu sözə. Yumruqlarını bərk-bərk sıxaraq sanki çarəsiz, çıxılmaz vəziyyətdə olan kimi baxırdı. Tərəddüd içində nə edəcəyini, nə deyəcəyini bilmirdi məncə. Bəlkə də, bacıma olan məhəbbəti bağlamışdı əl-qolunu. Beləcə çevrildi getdi. Tində oturmadı. Evinə girdi. Mən mərci udmuşdum. Qardaşbalanın, məhləmizin namus qeyrətini isə uduzmuşdum.

Artıq pulum da qurtarmışdı. Artıq Qardaşbala da tində oturmurdu. Qumar oynayırdım, amma udmurdum. Yenə ümid bağlayırdım. Bəlkə də, "Topaz"da nə vaxtsa udacaqdım. Uduzduğum pulları nə vaxtsa geri qaytaracaqdım. Amma məhləmizin Qardaşbala simvolunu həmişəlik uduzmuşdum.

ARVAD, QADIN VƏ "SEKSKUKLA"

Evlənmirdim. Güclə evləndirdilər. Arvadın qırxı çıxan kimi "buynuzları" da görünməyə başladı. Kasıb ailədən idi. Atası da ölmüşdü. Bir gözəçarpan cehizi də yox idi. Amma neyləsin ki, ata evinə vida demişdi. İndi mənim familiyamı daşıyırdı. Televizora rahat baxa bilmirdik. Ona görə yox ki, Azərbaycanda normal bir kanal yoxdur. Taqsır reklamlarda idi. Dəqiq desək, bir reklamda: "Ata ilə uşaq bir-biriylə oynayır. Birdən atanın yadına arvadı düşür. Qızından soruşur ki, anan hanı? O da cavab verir ki, anam həmişəki kimi boşqabları yuyur. Ata da o saat gedir qabyuyan maşın alır. Sonda da deyir: "Axı, sən qadınsan, qabyuyan deyilsən"". İlk söz-söhbətə də bu reklam bais oldu.

Biz atamdan, anamdan ayrı yaşayırıq. Gündə də vur-tut, 3-4 boşqab bata, ya batmaya. Amma bu reklamı gündə 30 dəfə eşidirdim. 10 dəfə televiziyadan, 20 dəfə arvaddan. "Axı mən qadınam, qabyuyan deyiləm".

Deyə də bilmirdim ki, belə lazımlı şey idi cehiz gətirəydin də. Axırda bezdim. Kreditə girib qabyuyan maşın aldım.

Bir müddət başım sakit oldu. İndi də paltaryuyan yada düşmüşdü. İki ay da beləcə başım getdi. Arvad yenə də qalib gəldi. Axı, o qadındır, paltaryuyan deyil?!

Bir müddətdən sonra ətçəkən, blender, tozsoran, avtomatlaşdırılmış döşəməsilən və daha nələr, nələr aldım. Axı, o qadındır, süpürgəçi deyil?! Axı o qadındır, döşəmə silən deyil?! Dünyaya bir uşağımız da gəldi. İndi də gecələr yata bilmirdim. Rejim qoymuşdu. 4 saat mən, 4 saat da o növbətçilik edirdi. Uşaq da gecə ilə gündüzü səhv salmışdı. Günorta o yatırdı, arvad da rahat nəfəs alırdı. Səhər işə gedəndə gözlərim yumulu gedirdim. Dinəndə də deyirdi ki, uşaq həm sənindir, həm də mənim. Atam evindən gətirməmişəm ha.

Günlərin bir günü Rusiyanın Həştərxan şəhərinə ezamiyyətə göndərdilər. Təsadüfən üstündə "Sexshop" yazılan bir mağaza diqqətimi çəkdi. Axı, bizdə belə şeylər yoxdur. İçəri girdim. Çox maraqlı idi. Bir "sekskukla" diqqətimi daha çox çəkdi. Deyəsən istədiyimi tapmışdım.

Şəhərə qayıtdım. Evə girəndə arvadın da, uşağın da gözü çantamda idi. Onların hədiyyələrini verdim. Sonra da öz kuklamı çıxartdım. Yanımda əyləşdirdim. Əlimi çiyninə qoyub televizora baxmağa başladım. Arvadın gözü hədəqəsindən çıxdı:

– Ay kişi, bu nədir?

– Arvad, axı sən qadınsan...

ARVADLA KİŞİNİN FƏRQİ ÖLƏNDƏ OLUR

DOĞUM EVİ

– Doktor, xəstə gəlib.

– Nə xəstə?

– "Vot-votdur".

– Ay qız, tez elə. Keçirin zala. Akuşerka, neonatoloq da hazır olsun. Xəstənin adamları necə, burdadırlar?

– Gəlini "Mersedes"də gətirmişdilər. Atası da hökumət maşınında. Nömrəsi də "AA"

– Az, "AA" nədir?

– Ay doktor, məzən olsun, guya bilmirsən? "AA", yəni "Ağa Ağayev".

– Ba, onda keyfdəyik ki... belə xəstələrdən Allah gündə yüzünü yetirsin. Diqqətli olun. Hər şeyi də yüksək səviyyədə etməliyik. Səhərdən qanım qaralmışdı. Dörd doğuşumuz olub. Biri "çeçen", biri "qaçqın", biri "fəh-

lə", biri də "bic".

– Doktor, Allah yetirəndə yetirir. Belə xəstələrdən çox olsun. Görəsən qız olacaq, yoxsa oğlan?

– Əşşi nə fərqi var? Təki doğuş olsun, yanında da yiyəsi.

– Amin.

– Amin.

UŞAQ BAĞÇASI

– Müdirə, valideynlər gəlib.

– Kimdirlər. Ucundan, qulağından.

– Bilmirəm kimdirlər? Amma babasının biri cağ "Mersedes"dən düşdü, biri də hökumət maşınından. Nömrəsi də "AA".

– O nədir, aaz?

– Müdirə, guya ki, bilmirsən? "AA",yəni ki, "Ağa Ağayev". Vəzifəlidir.

– Demək, nə istəsək verəcək?

– Əlbəttə. Bir baba 50-lik paçkası çıxarsa, o biri 100-lük verəcək. Bəhsə bəhsə.

– Şükür. Yoxsa ki, acından ölərdik. Görəsən oğlandır, qız?

– Əşşi, nə fərqi var? Oğlan, ya qız... belə uşaqlardan çox olsun.

– Amin.

– Amin.

ORTA MƏKTƏB

– Direktor, yanınıza gələn var.

– Kimdir?

– Uşağın valideynləridir.

– Bilmirsən kimdir?

– Vallah, hallı-kallı adama oxşayırlar. Bahalı maşından düşdülər.

– Şükür xudaya. Süpürgə pulu, remont pulu yığmaqdan qurtulduq. Bu cür valideynlər çox olsa, məktəbin bütün problemlərini həll edərəm. Heç olmasa-olmasa yay tətilində uşağının dərs aldığı otağı yüksək səviyyədə təmir edəcəkmi? Bax, bu bəsimdir. Təhsil müdiri də gələndə göstərməyə bir şeyimiz olar.

– Ay müdir, hələ sənə görüm-baxımı demirəm.

– Sən də mənə dil verərsən...Oğlumu yanına işə düzəltsə bəsdir.

– Şükür. Yoxsa ki, acından ölərdik. Görəsən şagird oğlandır, yoxsa qız?

– Əşşi, nə fərqi? Belə şagirdlərdən çox olsun.

– Amin.

– Amin.

ALİ MƏKTƏB

– Rektor, yanınıza gələn var.

– Kimdir?

– Nəsə böyük adama oxşayır. Qəttəzə "Mersedes"dən düşdü.

– Nə deyir?

– Deyir ki, "oğlum 149 bal toplayıb. İstəyirəm rektorla 50 min manatdan mərcə girim ki, uşağım onun institutunda oxuya bilməyəcək".

– Nə? Ay prorektor, sən nə vaxt görmüsən ki, mən mərci uduzum?

– Necə udacaqsan? Bəs TQDK?

– Ay başıva dönüm, nə TDQK? Belə getsə TQDK özü balı 150-dən aşağı salacaq. Salmasa, apelyasiya vasitəsilə keçirərəm. O da olmasa Dağıstana qəbul elətdirərik, sonra da perevod.

– Ay rektor, vallah, sən dahisən. Yoxsa, bu oxuyanların hesabına adam uzağa gedə bilməz. Yaxşı ki, bu cür yaxşı atalar var. Görəsən abituriyent oğlandır, yoxsa qız?

– Əşşi, nə fərqi var? Atası, babası varlı olsun. Denən, Allah bərəkət versin.

– Amin.

– Amin.

NƏHAYƏT... MƏSCİD

– Necəsən, mürdəşir? İşlər necədir?

– Belə də...

– Bazar kasaddır?

– Bəli, axund. Yaydır da, hamı kefində, damağında. Heç kim ölmək istəmir. Biz isə ölü güdürük.

– Qəm yemə. Yaxşı olar. Ruzini Allah yetirir. Bir də gördün ki, hardasa avariya oldu... dörd ölü birdən gəldi.

– Allah, ağzından eşitsin. Yoxsa acından ölürük. Yumağa ölü tapmırıq. Qabaqdan uşaqların məktəbi gəlir.

– Allah yetirəcək. Narahat olma. Sənə demişəm də. Gələn olsa bacıoğlunu yaddan çıxartma.

– Bu nə sözdür, hacı? Yuyub, kəfənləyən kimi bacıoğluya zəng edirəm, kondinsionerli ölü maşınını verir qapıya. Üstəlik qardaşoğlunun VİP çadırları da nəzərimdədir. Sağ olsunlar, mənə faiz də verirlər.

– Allah, razı olsun. Allah ruzini yetirsin. Müştərin çox olsun. Özü də kişi olsun. Arvad olsa Xanımnisə mürdəşir sənə bir şey verən deyil.

– Düz deyirsən, Hacı. O dua edir ki, arvad ölsün, mən dua edirəm ki, kişi ölsün.

– Amin.

– Amin.

QƏBİRİSTANLIQ

– Nəsə gələn var.

– Maşın "Mersedes"ə oxşayır.

– İçindən çıxanlar da bazburutlu adamlardır.

– Allah səsimizi eşitdi.

– İki gündür ölən yoxdur ki, basdıraq. Acından ölürük.

– Sənə demişdim ki, hövsələli ol. Allah böyükdür.

– Şükür. Şükür.

– Görəsən ölən qadındır, ya kişi?

– Əşşi nə fərqi var?

– Necə yəni "nə fərqi var?" Arvad olsa deyərik ki, qəbir dərin qazılmalıdır. Pulu da çox alarıq. Kişi olsa minnət qoyub "skidka" edərik.

– Naşükür olma. Denən "ABV".

– O nədir?

– Ay "tupoy", yəni ki, "Allah Bərəkət Versin".

– Amin.

– Amin.

O DÜNYADAN MƏKTUBLAR



TEYMUR ƏHMƏDOVA

Hörmətli Teymur müəllim!

16 may 2009-cu ildə göndərdiyin məktubu aldım. Azərbaycan Yazıçılar Birliyinin yaranmasının 75 illiyi münasibətilə məni yada salmağından çox təsirləndim. Yaxşı ki, məktubun üstündə 2 ünvan yazmısan: Bilmirdim ki, Hüsü Hacıyev küçəsinin adını dəyişib "Azərbaycan" qoyublar. Yəni keçmiş Bazar küçəsi Azərbaycan olub. Verdiyin suallara cavab göndərməyi özümə borc bilirəm. "Ensiklopedik məlumat kitabı" çıxandan sonra ondan bir konteyner göndərərsən bura. Xaqanidən Bəxtiyar Vahabzadəyə qədər hamı bu kitabın çıxmasını böyük intizarla gözləyir. Narahat olma, sərhəddə nə "rastamojka" var, nə də rüsum.

Sənin məktubunu alanda çox da təəccüblənmədim. Bu yaxında "Azərsu"nun prezidenti də məktub gön-

dərmişdi. Deyir ki, bəs Qabil, 1996-cı ildən 400 manat borcun qalıb, hara aradan çıxmısan. "Kvitansiyalar"ı soxdum gözünə, əl çəkdi. Sənin niyyətin yenə yaxşıdır. Pul-zad istəmirsən. Sadəcə cavab umursan, vəssalam. Suallarına cavab verirəm. Ancaq 2 ədəd, 6-9 ölçüdə, ağ-qara foto şəklimi göndərə bilməyəcəyəm. Çünki burada hamı o qədər nurludur ki, nurumuz lenti yandırır. Texnologiya da o qədər inkişaf etməyib ki, bizim əksimizi çəkən lenti icad eləsin. Yatanda hər ehtimala fotoaparatı yanında qoy. Hamılıqla yuxuna girəcəyik, onda çəkərsən. Telefon nömrəsini neyləyirsən. Onsuz da zəng edən deyilsən. Bir də Yazıçılar Birliyinin 80 illiyində yada salacaqsan. Anara, Elçinə, Fikrət Qocaya və Çingiz Abdullayevə məndən salamlar. Qəbirüstü abidəmi ucaltmağa kömək etmədiklərinə görə incimirəm. Başlarına gələndə onsuz da başa düşəcəklər. Amma mən olsaydım, 4 nömrə hökumət telefonunun yanından kənara çəkilməzdim. Onlara iki heykəli birdən qoydurardım. Birini Fəxri Xiyabanda, birini də doğulduqları rayonda.

Suallarına nömrə ardıcıllığı ilə cavab verirəm.

1. İmamverdiyev Qabil Allahverdi oğlu.

2. Təxəllüsüm – QABİL

3. Peşəm – şair

4. Elmi dərəcə və rütbəm yoxdur.

5. Fəxri adlarım – əməkdar incəsənət xadimi. Müstəqil Azərbaycanın ilk xalq şairi.

6. Doğulduğum tarix – Bakı şəhəri, 12 avqust 1926-cı il

7. İlk mətbu əsərim – "Gəl baharım" şeiri. Ədəbiyyat qəzeti, 4 aprel 1944-cü il. 4 aprel həm də bura köçən günümdür.

8. Təhsilim – V.İ.Lenin adına Azərbaycan Pedaqoji İnstitutu. Filologiya fakültəsi. Azərbaycan dili və ədəbiyyatı müəllimi.

9. 1944-cü ildən SSRİ Yazıçılar İttifaqının üzvü.

10. İşlədiyim yerlər – Az.TV, "Ədəbiyyat və İncəsənət" qəzeti, "Azərbaycan" jurnalı. 1976-cı ildən 2007 –ci ilə qədər azad sənətkar.

11. Ünvanım – Axirət Respublikası, Cənnət şəhəri, Dünya Yazıçılar Birliyinin azərbaycanlı sədri. 4 aprel 2007-ci ildən bəri ömrünün axırınadək.

12. Xarici səfərlər – İtaliya, Türkiyə, İraq, Çin.

13. Son vəzifəm – Azərbaycan Yazıçılar Birliyi Ağsaqqallar Şurasının sədri.

14. Milli Məclisin deputatı olmamışam. Seçilməyə qoymadılar. Ara yerdə 14 "şirvanım" batdı. Heydər Əliyev tapşırdı Rəsul Quliyevə, o da qaytarmadı. Eybi yox. Əvvəl-axır düşəcək əlimə.

15. 12-ci bənddə dedim də…

16. Azərbaycan SSR Dövlət Mükafatı, "Şöhrət" və "İstiqlal" ordenləri. Ən böyük əlamətdar hadisə o dünyadan yenə də məktublar almağımdı. Qoymurlar da sakit oturum.

17. Kitablarım o qədər çoxdur ki, sayı yadımda deyil.

QEYD: ***Hörmətli Teymur müəllim. Yəqin ki, bütün suallara tələb etdiyin kimi diqqətli oldum və aydın cavab verdim. İmza qoymuram. "Qabil" yazsan tanıyacaqlar. Məktubumun vaxtında çatması Hinkir-Minkirdən və "Azərpoçt"dan asılıdır. Eşitmişəm "Azərpoçt" çox inkişaf edib. Bu dünyaya da əlləri çatır. Qorxuram ki, buraları da gəlib internetə qoşalar. Sonra hamı bura gəlməyə növbəyə dayanacaq. Öz qəzetində élan ver ki, can atmasınlar. Cənnət şəhəri qapalı şəhərdir. Hər adamı "propiska" etmirlər. Cəhənnəm şəhərində isə yer çoxdur. Bəxtiyardan, Cəlaldan, Nəbidən, Sabirdən, Hüseyndən, Rəsuldan, İlyasdan, Əmirdən, Mədinədən, Nigardan, Şəhriyardan salamlar. Buraları çox tərifladim. Nəbadə… şirniklənib eləyərsən a…Bura köç eləyəni bizi yada salan tək sən olmusan. Sən bizim o dünyada korpunktumuz ol, əbədi və sədaqətli!***

Hörmətlə: QABİL
10 iyul 2009-cu il

P.S: *Teymur müəllim. Çalış məktubumu hələ də baş redaktoru olduğun "Respublika" qəzetində çap elə. Qoy oxucularımla görüşüm. Bacarmasan eybi yoxdur. Elçibəydən , Nəcəf Nəcəfovdan xahiş edərəm "Azadlıq"da çap edərlər.*

OĞLUM MAHİRƏ (I)

Oğlum Mahir! Sənə o dünyadan salamlar. Burda hər şey yaxşıdır. Qohumlar, dostlar – hamımız yaxşıyıq. Hamı can deyib, can eşidir. Problem də ki, yox… Haqq-hesab deyilən şey ki, var e… O çox da qorxulu deyil. Biz şairlər üçün ümumiyyətlə yol açıqdır. Axı peyğəmbərlərdən sonra biz gəlirik. Nasirlərin isə işi ağırdır. Mənə sual verəndə dedim ki, peyğəmbərlərdən sonra şairlər gəlir, yaxud da ki, bir rübaimi dedim bağladım Hinkir-Minkiri.

Hüseyn Abbaszadəyə isə bir sual verdilər, başladı "General"romanından parça oxumağa, onların da hövsələsi çatmadı, hirsləndilər. Basdılar yazığı Cəhənnəmə. Güc-bəla ilə, Yazıçılar İttifaqının təqdimatını göstərəndən sonra yazığı çıxartdıq ordan. İndi də peşmandır ki, axı niyə mən şeir yazdığım halda, sonra nəsrə keçdim. Ona görə də Anar, Elçin, Çingiz Abdullayevə, İntiqam Qasımzadəyə de ki, işlərini ehtiyatlı tutsunlar. Onu da çatdır ki, burada Təhminə-zad, Poçt idarəsində xəyal,

yaxud da ki, detektiv keçmir. Burada elələri var ki, Təhminəni cibinə qoyar, xəyalları alt-üst edər, bossları mat yox, pat qoyar.

Mən öləndən sonra eşitdim ki, çox pis olmusan. Nəbadə. Əksinə sevin. Ruhum azad olub. Sənin də bu dünyada arxan çoxalıb. Buradakı arxalar daha güclü, sizin dilinizlə desək arxalıdır. Siz bilməzsiniz belə şeyləri.

Demə mənə əziyyət verən bədənim imiş. İndi nə şəkərim, nə təzyiqim var, nə ürəyim ağrıyır, nə qaraciyərim. İstəyirsən səni də başa salım. Uşaq idin. Sənə sual verdim ki, radio nə ilə işləyir? Dedin batareya ilə. Bir də sual verdim. Dedin tokla. Əsəbiləşib səni vurdum. Necə yəni sən bilmirdin ki, radio dalğa ilə işləyir? İndi səni başqa cürə başa salıram. Radio da, televizorda həm tokla, həm də dalğa ilə işləyir. Tok onların cismi, dalğa isə ruhudur. Xarab olanda onların cismini qurdalayıb, bərpa edirlər. Ehtiyat hissələri tapılmayanda isə zibilə, yəni "qəbiristanlığa" atırlar. Dalğa isə göydə gəzə-gəzə qalır. İndi biz də göydə gəzə-gəzə qalmışıq. Ruhumuzu azad buraxmışıq. Ay oğullar, sizin buraxdığınız səhvləri görürüy e, sadəcə müdaxilə edə bilmirik. Heydər də, mən də, Rəsul da, İlyas da, Səməd də, Nəbi də, Bəxtiyar da. Bəxtiyar o gün pis olmuşdu, qanı qaralmışdı… Soruşdum ki, alə, niyə qanıqarasan? Dedi ki, Qabil, mənə heykəl qoyublar hər şeyim var – bədənim, başım, kostyum-şalvarım. Ayaqlarım isə yoxdur. Ay məni qranitdən yonan k…, 100 min manat hökumət pul verib sənə. Hər şeyim var, ayaqlarımı niyə ixtisara salmısan? Sənin təxəyyülün, modernizmin mənə qalmışdı?. Mən də ona ürək-dirək verdim ki, ay Bəxtiyar, səndə ayaq yoxdur, məndə, Rəsulda, İs-

mayıl Şıxlıda, Səməd Vurğunda, Bülbüldə təkcə başdır, Mirzə İbrahimovda, Nəbi Xəzridə, neçə-neçə başlar yaradan Fuad Əbdürrəhmanovda heç o da yoxdur. Mən, onlar onda gərək özlərini öldürsünlər.

Ay oğul, oradakı yaxınlara, hamıya de ki, əmmamə qoysunlar, bir də 200 manatlıq üzük taxsınlar. Deyəcəksən niyə? Çünki müsəlmana qalan budur. İndi bilmişəm ki, əmmamə – kəfən, üzük isə halallıqdır. Yəni ki, çölün düzündə ölsən, yanından keçən səni kəfənləsin, basdırsın, üzüyü də götürsün – halallıq üçün. Oliqarxlara da, kasıblara da qalan budur. Bunu yaxınlarda bilmişəm. Sonra da gedib Fələstinin lideri Ərəfatdan üzr istəmişəm. Yanındadırmı həmişə onu televizorda görəndə deyirdim – "Başına ləçək dolayan oğraş"

Ay oğul, mən deyirdim e sənə… nə var elə siz tərəfdədir – Cəhənnəm də, Cənnət də. Burda isə elə o dünyadır. Mən bura təzə gələndə elə deyildi. Sonra mizan-tərəzi burada da itdi. Belə getsə o biri 3-cü dünyanı kəşf edəcəklər.

O vaxt Azərbaycandan kənara çıxan bütün azərbaycanlılar öz bacarıqları ilə fərqlənirdilər. İstər ticarətdə, istər ağılda, istərsə də elmdə. İndi də burada başlayıblar. Heç kim onlarla bacarmır. Çox məntiqlidirlər. Hətta mən də onların bu işlərindən xəbərsiz olmuşam. Yoxsa "Ömür həbləri" romanımın 2-ci hissəsini çoxdan yazmışdım. Sən ağıllı oğlansan. Məqsədim sənə öyüd-nəsihət vermək deyil. Bunlardan səni də agah edirəm ki, ayıq olasan. Qorxub eləmə. Sadəcə başa düş, başını götürüb ölkədən çıxma. Buna həyat deyirlər. Nəbadə buna qarşı mübarizə aparasan. Sadəcə olaraq yeni yol-

lar axtar. Təşəbbüskar ol. Öz təkliflərini ver. Elə et ki, milyoner milyarder olsun. Milyarder trilyarder. Trilyarder isə… Yox… elə bilmə ki, sən də bunun müqabilində varlanacaqsan? Çörək pulun olacaq. Bu isə ən vacibidir. Ən vacibi isə mənəviyyatını qoru.

Bir də ordakılara dəfələrlə onu da başa sal ki, bura hamı 2-3 metrəlik kəfənlə gəlir. Amma çox keyfiyyətlidir. Yox, yox işarə etmirəm a… Birdən kəfən alverinə başlayarsan a… Nəbadə yenilik edib ağ kəfənə zərdən-biserdən qatasan. Mərhumun şəklini, adını üstünə həkk edəsən. Onsuz da hər şeyi dəyişdiriblər. Ehsanı da, qəbiri də, başdaşın da, çadırı da. Burada bir lətifə yadıma düşür: Keşiş görür ki, bir göyərçin hər gün gəlib oturur kilsənin başındakı xaça və onu mundarlayır. O da gedib xaçı təmizləyir. Axırda bezir. Çörəyi arağa doğruyur, qoyur xaçın yanına. Göyərçin də içir, dəm olub yıxılır. Keşiş də quşu tutub deyir ki, ay göyərçin, xristiansansa xaçı niyə mundarlayırsan, müsəlmansansa, niyə araq içirsən? İndi lətifəsi bizdən uzaq. Burada indi məəttəl qalıblar. Bilmirlər ki, azərbaycanlılar müsəlmandır, bütpərəstdir, atəşpərəstdir, yoxsa xristian. Yasin, Quran oxunanda, kəfənlənəndə müsəlmandır. Məzarı üstünə büst, heykəl, şəkilli başdaşı qoyanda bütpərəst. Novruz bayramında alovun üstündən hoppananda, şam yandıranda atəşpərəst. Qəbirin üstünə gül düzəndə, ehsan məclisində su butulkasında araq gətirib içəndə xristian. Mən də içmişəm e… Amma ehsanla "zakuska" eləməmişəm. Qıraqda gedib belə qələtlər eləmişəm. Ona görə də burada azərbaycanlılara "metis" deyirlər. Yəni həftəbecər. Hələ Göy məscidin yanında növbəyə duran qara maşınları demirəm… Ən keyfi onlardır. Burdakılara da-

nışmışam, mənə paxıllıq edirlər. Sağ olsunlar, məni də onlar gətirdilər. Üstünə yazmışdılar ki, "Maşın kondinsionerlidir" Elə rahat gəldim. Ruhum da incimədi. Sərin idi. Lap adamın vurmağı gəlirdi. Belə getsə Cənnətə qəbzlər satmağa başlayacaqlar. Az qalıb. Ondan sonra bax dünyanın axırı çatacaq. Dostum Hacıbala demişkən: İnsan pulu idarə etməlidir, pul insanı yox. Burada hazırda ən güclü partiya "Müsavat"dır. O dünya ilə bu dünya arasında bərabərlik yaranmağa başlayıb. Ən çoxu isə Hinkirlə-Minkirə yazığım gəlir. Hərdən bekar olanda gedib otururam yanlarında. Axı bu sahədə təcrübəm var. Bir müddət məhkəmədə xalq iclasçısı olmuşam e...

Bəzən vəziyyət elə olur ki, burunlarının qanını axıdırlar yazıqların. Mənlə işləri yoxdur. Axı bir nəfərin dostu olmuşam, ona görə də qorxurlar. Gördüklərimi sənə də əyan edirəm. Yaz, qohumlara da çatdır. Heç kimdə taqsır görməsinlər. Buralardan da bir şey umub eləməsinlər. Sadəcə xalqımız çox istedadlı xalqdır. "Çəkirəm, haa…" verilişi var e…bu elə belə söz deyil. Böhran belə davam etsə, azərbaycanlılardan biri gedib atom bombası icarəyə götürəcək. Bir-bir ölkələrin ərazisindən keçərək bircə söz deyəcəklər: "Ataram, haa…" Dövlətlər də tökəcəy e, pulu ayaqlarının altına. Amma bir şey var da. Hər şey ağıllarına gələcək… bir şeydən başqa. Ermənistandan keçmək yadlarından çıxacaq. Deməyəcəklər ki, "Ay erməni, çıx torpağımdan! Yoxsa, ataram, haa…" Bir də ki, niyə etsinlər. Axı onların aksiyası iqtisadi aksiyadır. Ermənin çıxmağı siyasi məsələ, Qarabağ isə "Vanka-stanka".

"Donuz qripi"ndən də qorxub eləməsinlər. Növbə-

ti oyundur. Kimsə dərman icad edib. Ona uyğun da xəstəlik yaradıb ki, dərmanı xod getsin. Necə yəni ola bilməz? Vasif, Emin, Tofiq və başqaları özləri burda Hinkir-Minkirə etiraf etdilər ki, birinci mahnını yazırdılar, sonra ona uyğun şeir "zakaz" verirdilər. İqtisadiyyatımız da belədir. Birinci malı istehsal edirlər, sonra bazarı yaradırlar. Əvvəlcə cavanları evləndirirlər, sonra məhəbbət gəlir. Əvvəl hamilə qadınları UZİ-yə salırlar, əgər oğlandırsa, uşaq onda dünyaya gəlir. Polis gözləyir, biri o birini bıçaqlayır, ondan sonra onları tutur. Kütləvi informasiya vasitələri böhtanı qara, böyük hərflərlə 1-ci səhifədə yayır, 1 aydan sonra isə axırıncı səhifədə, kiçik hərflərlə təkzibini verir. Məhkəmələr günahsızı tutur, 3 ildən sonra bəraət verərək azadlığa buraxır. Ermənilərə torpaqlarımızı təhvil veririk, sonra isə Ali Baş Komandanın əmrini gözləyirik ki, azad edək. Görəsən torpaqları əmrlə itirmişdik ki, əmrlə də azad edək.

Bu yaxında gülməli bir şeylə rastlaşmışıq. İndiyəcən gülürük. Eşitmişik ki, Mətbuat Şurası reket qəzetlərin siyahısını elan edib. Yəni ki, bu qəzetlər bizim dillə desək, rüşvətxordur. Belə çıxır ki, dövlət idarələri də elan verməlidirlər ki, ay camaat filan rayonlardakı nümayəndələrimiz əliəyridirlər,filan rayondakılar rüşvətxor?! Ora müraciət etməyin və sairə… Gülməlidir, elə deyilmi. Bəs onda Mətbuat Şurasına nə gəlib? Yəqin qəzetlərin incitdikləri adamlar onların bığının altından keçiblər. Ay oğul, sənə bir dənə də şey öyrədim. Sözün düzünü demək istəyəndə sualla de. Məhkəməyə sala bilməsinlər. Onsuz da hər şey bizə agahdır.

Ay oğul, burada böyüyümüz Abdulla Şaiqdir, yəni

avtoritetdir. Çox hörmətli adamdır. Bu yaxında o dünyada buraxılan səhvi düzəldiblər. Nobel qardaşları ona "Nobel mükafatı" verib. Yazdığı nağıllara görə. "Tülkü həccə gedir" ən çox oxunan əsərdir. Mənim "Səhv düşəndə yerimiz" şeirim də məşhurdur. Heyf "Nəsimi" poemamdan. 10 ilə yazmışdım onu. Burda Nəsimiyə biznesmen kimi baxırlar deyə, səsimi çıxara bilmirəm. "Nəsimi bazarı" açmışdı, indi də heykəlinin ərazisində 4 mərtəbəli "stoyanka", ticarət, iaşə mərkəzi tikdirib. "Məndə sığar iki cahan, mən bu cahana sığmaram" deyə-deyə gəzir. O dünyadan da əl çəkmir, bu dünyaya da sığmır. Bir əldə iki qarpız tutmaq istəyir. Özün bilirsən də alverçinin hörməti olmur.

Mirzə Ələkbər Sabir yanıb tökülür. Bəhri-təvillərini oxuya-oxuya qalıb. Hamı da deyir ki, bəsdir də "Rep" oxudun… Cavanlıq eləmə. Meyxana müsabiqəsindəsən? Yaxşı ki, vaxtında öldün. Yoxsa sənin bu şeirlərinə bir dənə də SMS göndərməzdilər. Sübut edə bilmir ki, "Rep"i mən hələ 19-cu əsrin axırında icad etmişəm, adı da rep deyil, bəhri-təvildir.

Nə deyim. Deməklə qurtarmır. Yaxşı ki, məktub yazmağa qoyurlar. Heç olmasa ürəyimi boşaldıram.

("Qabilin o dünya gündəlikləri"ndən bir parça. Ardı olacaq)

OĞLUM MAHİRƏ (II)

Mahir, salam! Necəsən? Soruşmağım artıqdır. Bilirəm ki, yaxşısan. Artıq böyümüsən. Baba olmusan. Atan yox idi, o da dünyaya gəldi. Nəvən Qabilə "atam" deyirsən. Nəsil davam edir.

Artıq yay da gəlir. "Yayda paltarlar dəyişir, nazilir, cavanların tunc bədənləri, qızların gül əndamı, adamı dəli-divanə edən tərpənişi, titrəyişi, yolunu gözləyən qızıl qumlu, qartal qayalı çimərliklər, uca yaylaqlar, qalın meşələr, bağlardan-bağçalardan bazarlara axışan əlvan-əlvan dadlı meyvələr". Vallah, ölməyimizə də peşman olmuşuq. Əsl cənnəti tərk edib sizin hər vəchlə layiq olmaq istədiyiniz virtual cənnətinizə gəlmişik.

Əvvəllər heç olmasa sizə baxıb, etdiklərinizi görüb, müdaxilə edib başımızı bir təhər qarışdırırdıq. İndi o da çətinləşir.

Tüstü, duman alıb Azərbaycanın üstünü. Prezident seçkiləri gəlir. Payız gəlir. Yazı, yayı bitirməmiş payızı göz önünə gətirirsiniz, ağzınız isti yerdədir. Təzə-təzə cücərirsiniz, çiçək açırsınız. Payızda kim saralıb quruyacaq, kim meyvə yığacaq? Onu sonda deyəcəyəm.

Fani dünyada çox qəribə bir tendensiya yaranıb. İnsan insanı yeyir. İnsan insanı qurban verir. İnsan insanın qanına, malına, vəzifəsinə, dövlətinə susayıb. Cavan insanlar qoca insanlara hücuma keçib. İnsan insanı bəyənmir. İnsan insan üçün marığa yatıb.

Seçkilərə az qaldıqca vəziyyət daha da gərginləşir. Rüstəm o yandan, Əkrəm bu yandan. Eldar bu yandan, Elşad o yandan. Gizli ocaqları, hər şeyi olan milyarderlərimizi, "Çingiz İldırım"ları demirəm. Amma Səməd Mənsur deyir ki, Qabil, narahat olma, bunlar hamısı "Rəngidir". Sükan etibarlı əldədir. Qoca deputatlarımız da dil açıb. O gün biri deyir ki, cavan adamın təhsil naziri qoyulmasını dəstəkləyirəm. Yəqin, hansısa qohumunu təhsil şöbəsinin müdiri qoydurmaq istəyir. İkincisi də ki, dəstəkləyirsənsə onda özün niyə nümunə göstərmirsən? Əl çək də 20 illik mandatından, nə olsun ki, seçicilərin sənincün ölür. Sənsiz yaşaya bilmirlər. Ay oğul, bilirsən niyə əl çəkmirlər? Yox, fani dünyada heç kim toxunulmaz deyil. Lazım olsa, yarım saata alarlar adamın toxunulmazlığını.

Günah bu Anardadır. Deyim sən də bil. Günlərin bir günü Anardan fəxri adlar haqqında müsahibə götürürdülər. Əlbəttə ki, bütün fəxri adlara layiq görülən Anar bunun əleyhinə çıxdı. Razıyam, sözündə həqiqət də var, amma almamışdan qabaq desəydi. Öz işidir.

Buna sözüm yox. Amma sonda bir söz dedi. Loru dildə desəm, xalq şairi və yazıçısı olan adamın bir üstünlüyü var ki, öləndə Fəxri Xiyabanda basdıracaqlar. İndi bu qoca deputatlar da elə fikirləşirlər ki, millət vəkilliyi də xalq şairi kimi bir şeydir. Deputat kimi ölsələr heç kimə əziyyət düşməyəcək. Artıq xərc-zad da lazım deyil. Elə Milli Məclisdən Fəxri Xiyabana bir addım yoldur. Onları çiyinlərində aparacaqlar. Çünki hər şeyləri var, bircə Fəxri Xiyabanları çatışmır. Əkrəmə də demişdim, dəxli yoxdur. Aeroportun harda olmasından asılı olmayaraq, mənzil başı eynidir. Əvvəl Anar, indi də mən... Bilməyənlər də bildi. Neyləyim e, ağzımdan çıxdı da.

Oğlum Mahir. Bir müddət jurnalistlik eləmisən. Jurnalistlərə denən ki, kiməsə, nəyəsə istinad edib başqaları haqqında hədyanlar yaymasınlar. Gözləriylə gördüklərini yazsınlar. Necə deyərlər, "aşıq gördüyünü çağırar". İkincisi də istinad sözünün başqa mənası "deyirlər ki,"-dir. Məsələn, junalist girir bir vəzifəli adamın kabinetinə müsahibə almağa. Sözü də bu olur: "Deyirlər ki, sizin filan bankda bu qədər pulunuz, filan xarici ölkədə bu qədər mülkünüz var. Doğrudur?". Müsahibi ondan soruşur ki, ay jurnalist, bunu siz gözünüzlə görmüsünüzmü, ya bu faktları hardansa götürmüsünüz? Şəxsən özünüz buna inanırsınızmı? Jurnalist də deyir ki, "Filan xarici sayt, filan beynəlxalq təşkilat, filan filanlar deyirlərsə, deməli, doğrudur". Vəzifəli adam da "ay jurnalist, deyirlər ki, sizin ananız ermənidir, indi buna da inanmalıyıq? Axı belə deyil. Amma "deyirlər ki,"". Bu fikirlərimi həmkarlarına çatdır. Bilsinlər ki, belə ağıllı məmurlarımız da var. Olmayanlar da yəqin ki, ağıllandılar.

Eşitmişik ki, internetə nəzarəti artırırlar. Saytların rəhbərləri bunu azadlığı məhdudlaşdırmaq kimi qiymətləndirirlər. Biz də çox baş işlətdik. Azərbaycan dilini gözəl bilən ölülər kimi "azadlığı məhdudlaşdırmaq" sözünün dərinliklərinə vardıq. Sizin keçirdiyiniz debatlardan bir şey anlaya bilmədik.

"Azadlıqdan məhrum etmə" – bu aydındır. Basırlar türməyə, gedirsən çala-çala. Bir azdan ağlın gəlir yerinə. Özün, ailə üzvlərin növbəylə prezidentə məktub ünvanlayırlar ki, "Xahiş edirik, yalvarırıq, əfv elə".

Amma elə də olur ki, cinayət törədirsən, qaçıb gizlənirsən, tuta bilmirlər. Bilirsən ki, tutsalar 10 il iş kəsəcəklər. Gizlənirsən. Beləcə 10 il. Sonra da gəlirsən, məhkəmə səni azadlığa buraxır. "Azadlıq"da keçirdiyin 10 ili, türmədəki 10 ilə bərabər sayır. İndi bilmirəm, amma bizim vaxtımızda belə bir qanun vardı. Görəsən saytlarçun hansı yaxşı olar? Azadlıqdan məhrum etmək, yoxsa azadlığı məhdudlaşdırmaq? Onu ancaq Eynulla Fətullayev bilər. Ciddi deyirəm, gözəl məntiqi var. ANS-də özüm görmüşəm. Eynulla balam, o gün dedin ki, türmədə bir sözə görə 12 il yatanlar var. Deyəndə mənim də sözümü öz sözünə əlavə elə: Bu dünyada da bir sözə görə o qədər yatanlar var ki... Özü də 12 il yox, həmişəlik.

Sözü işlədəndə ehtiyatlı olun. Nə siz yatın, nə də onlar. Nə azadlığınız məhdudlaşdırılsın, nə də azadlıqdan məhrum olun. Elə, Mahir, sən özün də. Mənə olar,qoca kişiyəm. Sən deyəndə düzgün başa düşməzlər. Fazil Qəzənfəroğlu da əsgərliyə gedib qayıdandan sonra məntiqi formalaşdı. Təsirdən çıxıb öz partiyasını ya-

ratdı, millət vəkili seçildi. Bunu bil ki, fani dünyada kişilərçün iki həyat məktəbi var. Biri əskərlikdir, biri də həbs. Birində azadlığı məhdudlaşdırırlar, birində də azadlıqdan məhrum edirlər. Ay oğul, əgər məntiqin formalaşmayıbsa, sən də bu yolla get. Əsgərliyini çəkmisən, bəs etməyibsə türməyə düş, 3 il yox, bircə ay yatsan bəsin olacaq, sonra bəraət al. Yatıb bəraət almaq bilirsən də nəyə oxşayır? Əsgərlikdə "ustav" – nizamnamə deyilən bir şey vardı. Onun 1-ci maddəsində yazılıb: "Komandir həmişə haqlıdır!" İkinci maddəsində isə bu cümlədir: "Əgər komandir haqlı deyilsə, onda birinci maddəni oxu!" Həyat budur, mənim balam. Həmişə birinci maddəni oxu, birinci də qal. İkinci maddəyə keçsən də, əvvəl-axır birinci maddəyə qayıdacaqsan. Öz xoşuna qayıtmasan da qaytaracaqlar. Heç qaytarmasalar da. Əvvəl-axır özün də başa düşəcəksən – insan bu dünyaya 3 şeyə görə gəlir: Yemək, içmək, nəsli artırmaq – vəssalam, şüttəmam. Azadlıq da, demokratiya da, mitinq də, inqilablar da hamısı bu üç şeyin başındadır, buna nail olmaqçundur. Bərkdən ağlayanın payı çox düşür, ağlamağı bacarmayan isə acından ölür. Üzeyir Hacıbəyov demişkən: "Çelovek obşestvennoe jvotnoe". Bir də ki, ustav, maddə-zad niyə axtarırsan? Mənim oğlumsansa, mənim də yolumla getməlisən. "Hüseyn Cavid"lərin təsirinə düşmə, "Mikayıl Müşfiq" olarsan. "Oğlum sənə deyirəm, kürəkənlərin də eşitsin".

Qarşıdan prezident seçkiləri gəlir. Hamı marığa yatıb. Tilovun ucunda yağlı bir ət parçasıdır, təzədir, qanı da üstündə. Hazırki yiyəsi onu hey yellədir. Marığa yatanların da ağızlarının suyu axır. Elə bilirlər ki, çaşıb

əlindən salacaq yerə. Hərdən mırıldayıb hücuma da keçirlər. Tilovun yiyəsi qarğını həmən qaldırır yuxarı. Hoppanırlar, əlləri çatmır. Öz ağırlıqlarıyla dəyirlər yerə. Qayıdıb otururlar yerlərinə. Başlayırlar beynəlxalq təşkilatlara köməkçün yardım diləməyə. Onlar da qaça-qaça gəlir. Dayanırlar ət parçasının altında. Ətdən bir-iki damcı qan damcılayır düz onların boğazlarına. Səsləri o saat kəsilir. Yandırıb, tökürlər onları çağıranları. Elə yandırırlar ki, tüstüləri təpələrindən çıxır. Soruşacaqsan ki, kimdir bunlar? Hansını deyim, a bala, birdimi, ikidimi, üçdümü? Bunların tüstüsündən Azərbaycanın da üstünü dumanlar alıb. Sizləri yaxşı görə bilmirik. Külək gözləyirik ki, gəlib bu dumanı qova. Külək də ki, payızda olacaq. Qarmaqdakı ət də necə ki, bu gün tilovun yiyəsindədir, ona da qismət olar, inşallah. Nə olsun ki, tilovu oynadır. Tilovu oynatmağa da bacarıq, siyasət lazımdır a... Ağzı ətə çatmayanlar üçünsə məsələmiz hazırdır. "Ət iylənib" deyə çəkiləcəklər yuvalarına. Payızda hər şey yaxşı olacaq. Keçən payızdakı kimi, ötən payızdakı kimi. "Payızda təbiət filosof, şair olur, müdrikləşir, dalğın-dalğın xəyala dalır. Meşələr qızıllaşır, dərələr-təpələr, yamaclar, düzlər axırıncı dəfə gözəlləşir, yaşıllaşır. Zirvələrin saçına təkəm-seyrək dən düşür. Bulud-bulud üzüm bağları, sərgi-sərgi meyvə bağları öz barını, bəhrəsini insanlara bəxş edir, dükan-bazarı doldurur, süfrələrə düzür. Toy-düyünlər bir-birinə calanır. Həyat, mühit, təbiət, gözəllərin çöhrəsi yeddi rəngdə bərq vurur, cilvə göstərir". Belə həyatı bəyənməmək olarmı?

O gün görürəm ki, biri ağlayır. Yuxusuna girib soru-

şuram ki, ay qızım, nə olub, niyə ağlayırsan? Deyir ki, ay baba, maşın yolunu düzgün keçmədim, polis nəfəri də məni cərimə etdi. Nə az, nə çox düz 20 manat. Düz eləməyinə haqq etdi. Mən də tələbə adamam axı, "stependiya" alıram. Səhəri gün tezdən getdim banka ki, cəriməni tez verim, heç olmasa 2 manat qabaq düşüm, qəbul eləmədilər. Dedilər ki, kompyuterdə cərimə 40 manat göstərir. Zəng eləyib aydınlaşdırdım ki, cəriməni qeydə alan aprellə yanvarın yerini səhv salıb. 4-ü 1 kimi başa düşüb. Kompyuter də avtomatik olaraq 20 manatın üstünə 20 manat da 3 aylıq faiz gəlib. Nə olardı ki, bir dəfə də çaşıb 20 manatı 5 manat yazsınlar da. Elə artıra-artıra gedirlər.

Məqsədləri nədir axı, bizi maarifləndirmək, tənbeh eləmək, yoxsa müflisləşdirmək? Kompyuterləri də öz tərəflərinə çəkiblər. Yenə də şükr edir ki, baldan-zaddan yazmayıblar.

Tələbə qız deyir ki, sürücülər avtomobilini piyada səkilərində saxlayırlar. Səkilərdə mağazalar, obyektlər tikilir. Piyada keçidlərində mağaza, dükanların əlindən keçmək olmur. O sataşır, bu sataşır. Biz onlara heç nə demirik. Amma biz yolu səhv keçən kimi tutub cərimələyirlər. Özü də 3-4 polis birdən şığıyır adamın üstünə. Sanki cinayətkarsan. Sənədin yanında olmayanda vay halına.

Dedim ki, a bala ağlama. Olur da. Bilməmisən, yolunu azıbsan, maşın yolunu səhv keçibsən, təki həyatda yolunu azma. Bunun cəriməsi daha böyük olur. Yəqin ki, "ştorka", pərdə kimi bir azdan yolu hardan gəldi keçməyə də icazə verərlər – bütün yay ayını. Düz payı-

zacan. Axı, yaydan sonra payız gəlir.

Hələ "Azərsu"nun prezidentini demirəm. Deyir ki, supulu qaldırılmalıdır. Çünki bu sahəyə qoyulan investisiyaları ödəyə bilmir. Mən başa düşmədim... Cibinin puluyla çəkdirib? Dövlət öz əhalisi üçün su çəkdirib. İllər, on illiklər də bu sudan istifadə etdikcə xərci ödənəcək də. Allah sənə rəhmət eləsin Hacı Zeynalabdin Tağıyev, Bakıya öz cibindən su çəkdirdin, indi onun dadını nə sən, nə də biz, kəmərin üstündə zavod qurub, su buraxanlar görür. Hələ utanmaz-utanmaz adını da dəyişib "Hacı Bonaqva" qoyublar.

Sən bu cür xırda hislərlə yaşama. Cərimə belə gəldi, supulu belə getdi. Hamınız prezidentinizə arxa olun. Sülhsevərliyinizi saxlayın. Heç kimin torpağında gözünüz olmasın. Amma yadınızda da saxlayın ki, heç kimin torpağında gözümüz olmaya-olmaya, artıq öz torpağımızda da gözümüz olmayan xalqa çevrilmişik. Artıq 25 ildir, 93 ildir, 2 əsrdir, 10 əsrdir. Ay oğul, mən səni əzilən yox, əzən xalqın, soyqırıma məruz qalan yox, soyqırımı həyata keçirən xalqın nümayəndəsi görmək istəyirəm. Mən istəmirəm ki, ilin 10 ayı – 20 Yanvardan Zəngilanın işğalının ildönümünə qədər (30 oktyabracan) – 13 dəfə ağlayasınız. İstəyirəm ki, ermənilər ildə bir dəfə yox, 13 dəfə ağlasınlar. Mən istəmirəm ki, təkcə dövlətimiz başqalarına hörmətlə yanaşsın. Mən istəyirəm ki, siz digər dövlətlərə, onların sizə göstərdiyi ehtiramın müqabilində hörmətlə yanaşasınız. Yaxşı yanaşmayanı isə əzib, keçəsiniz.

Mən istəmirəm ki, dövlətimiz dünyanı lərzəyə salan monqol-tatarlar, ərəblər, Türk İmperiyasının varisləri-

nin aqibətini yaşasın. Dünya dövlətlərinin iqtisadi-siyasi maraq dairəsində boğulanlar kimi, öz neftimizdə boğulan bir dövlətə çevrilsin. Çünki, artıq dünyada müstəmləkələrin qaytarılma prosesinə başlanılıb.

Prezidentin Ehtiyat Fondundan ayrılan milyon manatlarla rayonlarda aparılan abadlıq-quruculuq işləri, əlbəttə ki, təqdirəlayiqdir. Arzu edirəm ki, siz, Azərbaycan ordusunun geri aldığı qədim Azərbaycan torpaqlarında yaşayan yadellilərdən yığılan bac-xəraclardan şəhərlər, yollar salasınız, xarüqələr yaradasınız.

Nə isə. Səndən nigaranam. Dediklərimi qulağında sırğa elə. Ağıllı ol. Təsirə düşmə. Azadlıqdan məhrum da olma, azadlığını məhdudlaşdırma da. Sadəcə azad ol. Ye, iç, nəslimi davam et. Bir az da ictimai ol. Bəs edər. Yolunu azma. Eləcə öz yolunu tut get – mənim yolumu.

Allah Prezidentinizə də, sizə də kömək olsun.

Hörmətlə: atan Qabil.

ELŞAD ABDULLAYEVƏ (I)

Elşad! Salam! Sənə məktub yazmayacaqdım. Amma bu dünyada hər gün diksinə-diksinə qalmışam. Hər Mahir adını eşidəndə, elə bilirəm oğlum Mahirdən söhbət gedir. Allah qardaşının xoş xəbərini versin, sən nigarançılıqdan qurtarasan, mən də diksinməkdən. Teymur Əhmədova məktub yazanda "Azərpoçt"u tərifladim. Rabitə Nazirliyi də bundan ruhlanıb göyə bir peyk buraxdı. İndi bizim də internetimiz var. Onsuz da hər şeyi görürdük də, bilirdik də. Biz də, Hinkir-Minkir də. İndi isə üstəlik, fikir söyləmək imkanı da qazanmışıq. Sənin gizli çəkdiyin videolara baxanda, bəyanatlarını oxuyanda bir beynəlxalq hadisə yadıma düşdü. Bəlkə, sən də agahsan, yadına salıram. Böyük Britaniyanın Baş naziri Uinston Çörçillin ömrünün son illərində yubiley mərasimi keçirilir. Banketdə söz "xoş gəldin" demək

üçün verilir ona. Deyilənə görə o da nə sağlıq desə yaxşıdır?! "Mən bu badələri qaldırıram Sovet İttifaqının rəhbəri Nikita Sergeyeviç Xruşşovun sağlığına". Hamı məəttəl qalır ki, ömrü boyu SSRİ-yə qarşı düşmən mövqedə dayanan bir insan, siyasətçi bu nədir danışır? Yəqin ki, qocalıb – sayıqlayır. "Çünki bütövlükdə kapitalizm dünyasının illər boyu SSRİ-nin başına aça bilmədiyi oyunu, dağıtmaq siyasətini Nikita Xruşov təkbaşına, qısa rəhbərliyi dövründə öz dövlətinə qarşı həyata keçirdi".

Gözəl məntiqdir elə deyilmi? "Mejdu proçem" Stalin Xruşovu bilirsən niyə çox istəyirdi? Nazıyla oynayırdı. Səhvlərin bağışlayırdı. Vəzifədə irəli çəkirdi. Çünki Nikitanı rəhmətlik arvadı tapşırmışdı ona.

Sən də – Elşad , bütün müxalifət partiyalarının, palata, forum, mən nə bilim beynəlxalq təşkilatların 1993-cü ildən bu hakimiyyətə eləyə bilmədiklərini təkbaşına elədin. Əlbəttə ki, bu böyük fil üçün milçək vızıltısından başqa bir şey olmasa da. Bu sənin bəy tərifin. Amma bir şeyə təəssüf edirəm. Təəssüf edirəm ki, bu siyasi şounun qəhrəmanları da qadınlardır, ilhamvericiləri də. Bunu siyasi oyununa ad qoyanlar da təsdiq etdilər. "Elşadgeyt" yerinə "Gülərgeyt əməliyyatı" adlandırdılar. Amma çox da qürrələnmə. Deyəcəksən ki, ay şair, mənə olanlar sənə də olsaydı sən də belə edərdin. Başa düşürəm. Uzun illərdir qardaş axtarışındasan. Amma mən bu dünyanın da, o dünyanın da o üzünü də, bu üzünü də görənlərdənəm. Nəsihət verməyəcəyəm. Çifayda. Onsuz da bildiyini edəcəksən. Artıq oyuna girmisən. Çətin ki, sona da çatdırasan. Amma axıradək getməlisən. On-

lar çox, sən tək. Sonda aeroport görürəm. Mənzil başını isə... Allah özü qorusun. Amma iki şeyi yadında saxla.

Birincisi: Bu dünyanı əzəldən qadınlar idarə edib. Adəmi Cənnətdən qovduran Həvva, Koroğlunu qəhrəman edən Nigar, "Həcəri özündən qoçaq" Qaçaq Nəbi, Sultan Süleymanı və o boyda Osmanlı imperiyasını barmağında fırladan Hürrəm Sultan, Qorbaçovdan bir addım qabaqda gedərək SSRİ-ni dağıdan Raisa Maksimovna Qorbaçova.Və ən nəhayət Elşadı məşhur edən "Gülərgeyt əməliyyatı". Bunlar hamısı qadınlardır. Hətta toyda da oğlan evinin tutduğu, xərcini çəkdiyi maşına da "bəy maşını" yox "gəlin maşını" deyirlər. Misalları artırmaq da olar. "Arvaddan qorxan" kəlamı da elə-belə ortaya çıxmayıb. "Cənnət anaların ayaqlarının altındadır" sözü də elə-belə deyilməyib. Hər il 8 Martda dəng oluruq. Ayağın altında nə olur? Soyuq torpaq. Öldün, torpağın altına girdin, onlardan canını qurtardın – demək cənnətliksən. Qadınlardan qorx. Onlarla heç vaxt oyun oynama. Həm də yadında saxla ki, Sevinc Babayeva çətin ki, bir də sənin toruna düşə, amma sənin onun toruna düşmək ehtimalın daha böyükdür.

İkincisi: Sənin kitabın artıq bağlanıb. Niyə? İzah edirəm: Bir kişi müğənninin bir kişi dostu ilə intim videosu yayımlanmışdı. Yadındadırmı? Nə oldu? Toyamı daha çağırmırlar? Əksinə, xalq artisti də oldu, toy "stavkası" da qalxdı. Azərbaycan xalqı belə şeyləri tez unudur.

Bir qadın jurnalistin intim görüntülərini yayımlamışdılar. Axırı nə oldu? Hamı dedi ki, şəxsi işidir. Əksinə, çəkib yayımlayanları qınadılar.Yaddan da çıxıb getdi.

Birinin oğlu bir fahişəyə ilişmişdi. Məcbur olub aldılar. Ata-ana çox hoppanıb düşdü. Axırı nə oldu? Gəlin kimi qəbul da elədilər, üstəlik nəvələrinə də öz adlarını verdilər.

60 milyon insanın ölümünə səbəb olan almanları, əsrlər boyu türkləri qıran ermənіləri, farsları, rusları da tez bağışladıq. Hələ üstəlik "Qardaş olub Hayastan, Azərbaycan da oxuduq". Səncə, niyə Ermənistan yox, Hayastan oxuduq? Hətta Ermənistanın xalq artisti, əməkdar artisti də olduq.

Yadında saxla! Bu Azərbaycan xalqı çox nadir xalqdır. Bir damcı hörmət edirsən, yüz qat əvəzini qaytarır. Çox rəhmlidir. Hətta fahişəliyi də, "qoluboy"u da, qanı da bağışlayır. "Hacı Qara" əsərindəki Əylis ermənilərini, "Kamança" hekayəsini, "1905-ci ildə" əsərindəki Tuğ kəndini – hamısını unudur. Belə getsə bir azdan "Daş yuxuları" da qorxulu yuxu kimi yaddan çıxaracaqlar. Amma xalqımız bircə şeyi unutmur və bağışlamır: xəbərçiliyi, casusluğu. Azərbaycan dilində desək "şpionluğu". Bağışlamır yox e, qorxur. SSRİ KQB-sinin xofu bu insanların canından çətin ki, çıxa. Tutaq ki, sabah Azərbaycana qayıtdın. Hər şey qurtardı. Hansı qapını açsan, hansı kafeyə, restorana girsən, kiminlə görüşmək istəsən, hamı səndən qaçacaq. Hətta pula möhtac fahişələr də sənlə oturub-durmaqdan çəkinəcəklər, nə qədər pul versən belə. Otağında qurduğun kameralar gəlib dayanacaq gözləri önündə. Ağızlarından çıxan hər bir kəlmənin "rastamojka"sı Gömrük Komitəsinin qoyduğu cümlə– rüsumlardan qat-qat artıq olacaq. İtirdiyin, verdiyin milyonları bəlkə də yenidən qazana

bilərdin, amma sadə insanların etibarını qazanmaq çətin işdir. Sən dediklərin isə video versiya olduğu üçün böyük maraq doğurur. Bir azdan o da qurtaracaq. Nə qədər yavaş-yavaş "xərcləsən" belə. Özü də ki, xəbərin olsun. Eşitdiyimə görə, Mətbuat Şurası saytları da nəzarətə götürür. Qorxuram ki, bir azdan mənim o dünyadan məktublarımı da çap eləməyələr. Bir söz də deyim. Görəsən hansı yaxşıdır – Gülər Əhmədova kimi azadlıqdan məhrum olub Kürdəxanı təcridxanasında yatmaq, yoxsa Strasburqda azad gəzib-dolaşıb, lakin hər dəqiqə, hər saniyə hər qarşına çıxanı Azərbaycandan gələn casus və ya killer qiyafəsində görmək? Məncə Gülər səndən daha azaddır. Sənə çox şeylər deyə bilərdim. Amma itkin düşən qardaşın və eyni zamanda oğlumun adaşı kəsir qabağımı. Arqumentin böyükdür: "Qardaşımı geri qaytarın!". Amma bir şey aydın deyil: Qardaşının xoş sorağını almaq üçün çalışırsan, yoxsa eldən yığıb, əldən verdiklərini geri almaq üçün?

Hörmətlə: Qabil.

ELŞAD ABDULLAYEVƏ (II)

Elşad, bir də salam! Sənin bu hali-qaziyyən bizi lap mütəəssir edib. Mat-məəttəl qalmışıq ki, niyə axı sənin ifşa etdiyin və yüzlərlə ifşa olunmayan adamlar rüşvət aldıqları halda, söz verdikləri halda, sonra sözlərindən qaçıblar? Üstəlik, pulunu da qaytarmayıblar. Bu çox pis tendensiyadır. Fəlakətdir desəm, yanılmaram. Çünki əsrlərdən boyu keçib gələn bir ənənə hansısa təhsil nazirliyinə görə niyə pozulmalıdır!? Niyə? Danışım, sən də agah ol, o dünyada sənin, sizin kimilər də...

Aleksandr Düma Qafqazı gəzəndən sonra onu təsirləndirən məsələ bilirsənmi nə olmuşdu? Hətta xatirələrində də yazmışdı ki, Qafqazda nə notarius var, nə vəkil, nə də dildən kağız vermək. Orada bircə şey var: Kişi sözü. Söz verdisə qafqazlı ölsə belə, onu həyata keçirmə-

lidir. Düma bizim bu xüsusiyyyətimizə valeh olmuşdu.

İllər keçdi, formasiyalar dəyişdi, yeni təsisatlar, institutlar meydana gəldi. ZAQS, notarius, dələduzluq maddələri. Əvvəllər kişiləri pul aldıqlarına görə tutmurdular. Kişilər namus, qeyrət, oğurluq, quldurluq, siyasi fəaliyyətlərinə görə tutulurdular, hətta sürgün də olunurdular. Sovet dövründə rüşvətxorluq maddəsi də meydana çıxdı. Qəribə bir maddə idi: Rüşvət verən də, alan da, vasitəçi də cinayətkar sayılırdı. Gəl indi sən rüşvətxoru üzə çıxart. Amma məmurlar çox təmiz işləyirdilər. Alırdılar və məsələni də həmən həll edirdilər. Atmaq nədir? Aldatmaq nədir? Kişi sözünü rüşvət əvəz eləmişdi axı?!

Bir milis rəisi dostum var idi. Deyirdi ki, Qabil müəllim, yanıma tutaq ki, gündə 6 adam gəlir. Altısından da ala bilərəm. İkisindən almıram. Görürəm ki, kasıbdır. Gedəcək nəyi var satıb gətirəcək. Mən də onu halallıqla yeyə bilməyəcəyəm. Nə vaxtsa zibili də çıxa bilər. Almıram. Göz yumuram xırda cinayətə. Qoy gedib danışsınlar ki, milis rəisi kişi adamdır. O biri ikisindən də almıram. Görürəm ki, danışandırlar, yəni demaqoq. Versələr bütün aləm biləcək. Almıram. Deyirəm ki, qoy gedib danışsınlar ki, milis rəisi bizdən pul almadı, təmiz adamdır. O biri ikisinə baxıram ki, varlı adamdır. Uşaqları da bu kiçik cinayəti harınlıqdan edib. Ondan alıram. Elə alıram ki, o biri dördünün də əvəzi çıxır. Və gedib hər yerdə danışırlar ki, sağ olsun milis rəisi, yaxşı adamdır, balamızı türmədən qurtardı. Pulun adın isə qorxularından heç çəkmirlər də. Beləcə iş metodumla həm pulum artır, həm də nüfuzum, hörmətim.

İndi Elşad, görürsən də əvvəllər belə kişilər vardı. Rüşvət də alırdılar, kişiliklərini, nüfuzlarını, hörmətlərini də qoruyurdular. Bir qohumumuz vardı, 1961-ci ildə bir balaca qonaqlığa əskərlikdən saxlatdırmışdım onu. Gülmə, gülmə... Dünyanın axırıdır. Pulunu da alıblar, hətta notariusda təsdiq də elətdiriblər, işini də görməyiblər, geri də qaytarmayıblar. Sən hamını özünlə ölçmə. Pul da alırdın, rüşvət də alırdın və axırda camaatın diplomun da verirdin, mantosun da. Yəqin ki, məni sənə böhtan atdığıma görə məhkəməyə vermərsən. Çünki, deyəcəksən ki, Beynəlxalq Universitet Azərbaycanda yeganə rüşvət olmayan təhsil ocaqlarındandır. Təki... Qoy mən deyən səhv olsun.

Təsadüfən "Qız" bürcündən deyilsən? Bir dostum vardı. Pullu-hallı adam idi. Heç bir "naruşeni" eləmədən QAİ saxlayırdı. Soruşurdu ki, niyə saxlamısan? Təzəcə moykadan çıxan "Leksus-cip" maşına qayıdıb deyirdilər ki, maşının tozludur, ona görə. O da bir yüzlüyü uzadırdı onlara. Niyə belə çox? Çünki cibində yüzlüklərdən başqa pul olmurdu. Hətta QAİ də insafən götürmürdü ki, çoxdur. O da "Al, al mən anadangəlmə "Qaz" bürcündənəm, kim görür "qazlayır". "Qız" bürcünə "Qaz bürcü" adı qoymuşdu.

Nə isə yenə başlamısan kükrəməyə. Mən sənə yenə deyirəm adını çəkdiyin, pul verdiyin və geri ala bildiyin, hətta indi də geri ala bilmədiyin bu məmurlar təqsirkar deyil. 1991-ci ildən – müstəqillik illərində rüşvəti hörmətdən salan, onu bu qədər ucuzlaşdıran, qəzet səhifələrində, internetdə sensasiya mənbəyinə çevirən bircə müqəssir var: o da təhsil nazirliyidir. Daha doğru-

su, onun dərslik sahəsinə rəhbərliyinin səhlənkarlığıdır. Bu yaxında nəsə dərsliklərlə bağlı qalmaqal çıxmışdı. Biz də xalqın gələcəyini düşünənlər kimi müzakirəyə çıxartdıq ki, görəsən 22 ildə bir vahid dərslik buraxmaq bu qədər çətin şeydir? Və onda da bütün hər şey – sənin bəlalarının səbəbləri ortaya çıxdı.

"Əlifba"dan başladıq. Sıralamada belə olmasa da, "A" hərfindən sonra, "Ə", "N", 4-cü yerdə isə sıralamada 32 hərf içində 27 –ci olan "T" gəlir. Bədbəxtçilik də burdan başlanır. "At. Ata. Ata, at! Ata at! At, ata. Ata, at! At, ata, at! –Ətayə, at! – Ayna, Nanəyə at! – Ayna, ona at! At, ay Ayna! "

Abalam, 95 faizi şəkil olan 3 səhifəlik bir məsafədə nə qədər "at, at" olar. Dərslik "levi" buraxıldığından şəkillərin rəngi də qaçmışdı. Ancaq yazıları sezə bildik. Təsəvvür elə, ata və ya baba evə gəlir. Uşağı və ya nəvəsi də dərs oxuyur. Nə qədər höccələyə-höccələyə təkrar eləmək olar "Ata, at! At, ata! At, ata, at" Atanın, babanın iliyinə işləyir, 6 yaşlı uşağın da qanına, elə deyilmi?

İndi bildinmi ki, Azərbaycanda rüşvətxorluq niyə iflasa uğrayır? Kükrəyəndə "rüşvət", "rüşvətxor" sözlərini dilinə də gətirmə. "Atanşiklər" – bu yeni termindir. Tərifi də: "Rüşvət alıb verdiyi sözü yerinə yetirməyən adama atanşik deyilir". Cinayət Məcəlləsinə yeni maddə salsalar da pis olmaz. Yoxsa ki, dələduzluq, etibardan istifadə. 1 milyon dollarla da dələduzluq olar.

İkincisi də adət-ənənələrimizdə də rüşvətin izləri hələ qalmaqdadır. Toylarda qarşılaşmısan yəqin. "Qayçı kəsmir!" Pul verirsən, o saat kəsir. "Aş qazanının qapa-

ğı açılmır!" Pul verirsən, o saat açılır. Gəlin maşınının qabağın kəsirlər. Pul verirsən yollar açılır. Bəyi oğurlayırlar. Pul verirsən qaytarıb qoyurlar yerinə. Hətta film də çəkib, adını "Bəyin oğurlanması" qoyaraq gələcək nəsillərə bunu miraslayırlar da. Deyəcəksən ki, şair, bu rüşvət deyil, şirinlikdir.

Atan rəhmətlik. Axır ki, gəldin mən deyənə. Şirinliklə başlanır, rüşvətlə davam edir, "atanşik" kimi biabır olur, korrupsiya ittihamıyla tutulur.

Hörmətlə: Ömründə rüşvət almayan şair Qabil. Verməyiblər almamışam, versəydilər alardım.

SƏRDAR CƏLALOĞLUNA

Əzizim Sərdar! Salam! Fani dünyada üstünə yaman düşüblər. Bu dünyada isə hamı sənə minnətdardır. Sadəcə olaraq bir mənim əlaqəm olduğu üçün sənə məktub yazmağı xahiş etdilər. Birinci məktubumda Teymur Əhmədova demişdim ki, bizim o dünyada korpunktumuz ol. Yazığın səsi kəsildi. Day məktub-zad yazmır. Yəqin qocalıb. Amma sən cavansan. Burdakıları bir-bir qəbirdən çıxarıb ruhlarını şad edirsən. Digər görkəmli ölülərimiz isə Səməd Vurğuna, Vaqifə, Qaçaq Nəbiyə, Həcərə, Nadir şaha, Ağa Məhəmməd şah Qacara paxıllıqla baxırlar. Hələ sənin – Axundovu, Cəlil Məmmədquluzadəni, məni, Bəxtiyarı, Asif Atanı inkar edən – gənc davamçıların olan həsədçiləri demirəm. Eşq olsun sizlərə. Nə qədər sizin kimilər var biz heç vaxt ölməyəcəyik. Çünki müqayisə etdikcə qiymətimiz bir az artır. Eybi yox-

dur. 100 il təsdiq ediblər, qoy bir əsr də inkar etsinlər. Təki gündəmdə qalaq – sən də, biz də, onlar da.

O gün Səməd Vurğun şoka düşmüşdü. Həmyerliləri Qazaxdan durub qəbrinin üstünə yürüş etmişdilər. Neçə-neçə alim, deputat da onun müdafiəsinə durmuşdu. Deyirdi ki, mən öləndən sonra heç bu qədər təsirlənməmişdim.

Sərdar, bəsdir də! İstəyirsən kişinin ürəyi sevincdən partlayıb ölsün? 57 il idi Səməd Vurğunu halalca adıyla bu qədər yada salan yox idi, bir dənə "dılğır" deməklə diriltdin kişini. Bütün əsərlərini bir daha müzakirə obyektinə çevirdin. O vaxtın gözüylə yazılan əsərlərə bu günün gözüylə baxdın. Eşq olsun sənə.

Amma Səməd Vurğunu şad etsən də, o biri qazaxlı şair və yazıçılarımız qəmgindirlər. Qazax ziyalıları gəliblər, bircə Səmədin qəbrini ziyarət edib gediblər. İsmayıl Şıxlı, Mehdi Hüseyn, Osman Sarıvəlli, Mirvarid Dilbazi, Hüseyn Arif, Yusif Səmədoğlu yaddan çıxıb. Ona görə də deyəndə "qruppovoy" de. Səndən nə gedir. Artıq sən cəmiyyətdə hörmətli adamsan. Sən desən sözünə baxacaqlar. "Dılğır" kodunu yaz, yaddaşları açılsın. Bir də ki, mən qarışıq hamımızın yaradıcılığında kommunist də var, "26-lar" da, "yest takaya partiya" da. Qazax ziyalılarına yazığın gəlsin. Hər yazıçıya görə o boyda yolu durub Bakıya gəlsələr müflis olarlar axı.

Fəxri adlarımızı almağa isə çalışmayın. Çünki qaytarılası bir şeyimiz yoxdur. Bircə kəfəndir fani dünyadan gətirdiyimiz, o da çoxdan çürüyüb. Yoxsa bu nə sözdür – o da sizə qurban idi.

Mən Elşada da demişdim – qadınlarla işiniz olmasın. Hacı Məmmədovu da onlar yıxdı, Elşadı da. İndi də növbə sənindir. Sənin qəhrəmanlıq simvollarımızla nə işin var axı? Gül kimi missiyan var – yazıçıları diriltmək. Yox, yox ixtisasına uyğun – məhkəmə tibb eksperti kimi demirəm. Məcazi mənada başa düş. Amma öz aramızdı Həcər xanım, Qaçaq Nəbi yaman razılıq edirlər səndən. Gündəmə gətirdiyinçün yox. O öz yerində. Üç deputatın dilini açdığın üçün. Axır ki, onların da səsini eşitdik.

İki rayondan üzr istəmisən. Tələsmə. Azərbaycanda o qədər rayon var ki... Hər rayondan da 3-4 tanınmış. Üzr istəməyini saxla, say. 5 rayondan bir üzrxahlıq missiyasını həyata keçir. Narahat olma, öldürüb eləməyəcəklər. Heç görmüsən ki, kimsə kimsəni ölüyə görə öldürsün? Görsən gələndə bizə də göstərərsən.

Sərdar balam, missiyanı davam etdir. Mənimlə işin olmasın. Oğlum Mahir demək olar ki, hər gün qulağımı cingildədir. Yuxusuna da girirəm xeyri yoxdur. O qədər burda köhnə ölü var ki... Hamısı sənə möhtacdır. Kompromatı da özləri verirlər. Səməd Vurğuna "dılğır" deyəndən sonra Süleyman Rüstəm də yalvarır ki, nə olar mənə də "keçəl" desin. Martın 12-də doğum günündə qəbrimin üstünə bir nəfər də gəlmədi. Bəlkə Novxanı ziyalıları bundan sonra yada salıb məzarıma yürüş elan edələr.

Gələndə yolüstü Xırdalan ziyalılarını da haylasınlar. Nəbi Xəzri də nigarandır. Masazırlılara da hay eləsələr pis olmaz. Yoxsa ki, Əliağa Vahid yaman qanıqara, gileyli gəzir. Süleyman Rəhimovu, Ordubadini, Abdulla Şaiqi, İmran Qasımovu day demirəm. Siyahını uzatmaq

istəmirəm. Gəl xiyabanı gəz, bizi ziyarət elə, qeydlərini apar. Növbə ilə gündəmə gətir. Xiyabandan çıxanda ehtiyatla çıx. Şəklini çəkib eləməsinlər.

Səhv etmirəmsə Nüsrət Kəsəmənlinin oğlu demişdi: "Mənim o dünyada o qədər arxam var ki... atam, nənəm, babam..." İndi sən də heç narahat olma. Dediklərimizi eləsən gələcəkdə səni Axirət dünyası Yazıçılar Birliyinə fəxri üzv də seçərik.Ədəbiyyatımız qarşısında misilsiz xidmətlərinə görə. Əlbəttə ki, Cənnətə düşsən.

Bizdən antireklam kampaniyasının bütün üzvlərinə qarşılıqlı hörmət, ehtiram və salamlarımızı çatdır.

Hörmətlə: QABİL

ƏKRƏM ƏYLİSLİYƏ

Hörmətli Əkrəm, salam! Hali-qaziyyəndən fevralın 8-də "Space" kanalından xəbər tutmuşam. Özüm də birtəhər oldum ki, necə olub ki, suyu üfürə-üfürə içən belə bir televiziyada sənin xalq yazıçılığından və təqaüddən məhrum olmaq xəbərini veriblər. Yaman xod gedir bu kanal. Cəfər Cabbarlının 100 illiyində onun adını daşıyan kinoteatrı özəlləşdirdi. Sonra leyblını qızıla tutdu, sonra da dedi ki, "ATV", ən baxımlı kanal sən yox, mənəm. O gün də fevralın 8-i səhər tezdən burdakı azərbaycanlıların yuxusuna haram qatdı. Bir də gördük ki, yanımızdan nəsə vıy elədi keçdi. Bircə nömrə yerində "Space" sözünü oxuya bildik. Hə, özü də AZE seriyasından idi. Ruhumuz göydə gəzə-gəzə qalmışdı. İndi də peykə minib fəzanı daha dərindən tanımağa başlayacağıq. Deyirlər sıxlıq olsa 2016-cı ildə birini

də buraxacaqlar. Əkrəm, sənə məndən əmanət. Danışma. Gördün?! Teymur Əhmədova məktub çatan kimi moment peyk göndərdilər. Telekommunikasiya peyki. İndi internetimiz də var. Sənin əsərini də oradan tapıb oxuduq. Bu gün sabah da "Hər gün" xəbərlər proqramından gələcəklər: "Elman Gədikli, Elşən Həsənov, o dünyadan "Hər gün " proqramıyçın". Şənbə günləri də burdakıların ad günlərin verməyə başlayarlar. Çünki o dünyada day adam qalmayıb. 2-ci, 3-cü "kruq" gedir. Narahat olmasınlar, oxuyanlar da var, çalanlar da. Sonda da təntənəli halvakəsmə mərasimi.

Nə isə mətləbdən uzaqlaşmayaq. Alə, nə olub alə? Eks-xalq yazıçısı olmusan? Nəyi pisdir ki... Tarixdə heç olmasa belə qalacaqsan da. Eks-prezident, eks-baş nazir, eks-nazir ola bilər, eks-xalq yazıçısı ola bilməz? Qəm yemə. Düzələr. Sən heç olmasa "xalq yazıçılığının" dadını gördün. Adam var onu da görməyib. Uzağı da ki, "narodnılığa" görə aldığın 50 manatı day almayacaqsan. 1000 manatlıq prezident təqaüdün də getdi işinin dalıycan. Nə olsun? Ancaq deputat olmusan. Ona görə də indiki deputatın aldığı məvacibin 80 faizi cibindədir. Üstə də gəl, qocalığa görə sənin və arvadının aldığı pensiyalar. Bunlar da elə bilir ki, səni çörəyindən eləyiblər.

Beynəlxalq termin yaratmısan. Ta qədimdən tatar idik, sonra olduq türk, sonra da azərbaycanlı. Əvvəllər əskərlikdə azərbaycanlılara nə deyirdilər: "çornomazı". Sonra gördülər ki, yox, biz yaxşı xalqıq – başladılar "mamed" deyib əzizləməyə. Dünya inkişaf edir. Eybi yox, qoy bir az da "yeraz" desinlər. Leksikonumuz zən-

gindir. Sabah "qraz" da ola bilər, "şorik"də, "kürd" də, "talış"da. Sən qəm yemə, hər şey yaxşıdır. Yazmağında ol. Day geri alınası bir şeyin qalmayıb. Fəxri Xiyabanda sənə ayrılan yerini də itirdin. Eybi yox. Fərqi yoxdur "aeroport" harda yerləşir, hamının mənzil başı eynidir. Rahatcanlıqla yaz. Bir şeyi isə yaddan çıxarma. Bütün təşkilatlarda sənin əleyhinə kampaniyalar gedən kimi biz də burada yığışdıq. Müzakirə etdik. Cəhənnəmdən Mirzə Fətəli Axundovu da dəvət etdik. Təsdiq elədi ki, hələ mən "Hacı Qara" əsərində Əylis ermənilərinin müsbət, məzlum obrazını yaratmışam. Əkrəm nəvəmin yazdığı nədir ki... "Podumayeş" "xalq yazıçı"lığını, təqaüdünü əlindən alıblar. Məni heç basdırmaq istəmirdilər.

Nə isə Əkrəm, səni burda səbirsizliklə gözləyirik. "Şöhrət" və "İstiqlal" ordenlərini geri almayıblar axı hələ? Nə qədər onların əlindəsən almayacaqlar da. Onlar verməyiblər ki, onlar da alsınlar. Heydər Əliyev idi e, sənin nazınla oynayan. İndi o da ayılıb. Mübariz Əlizadə, mən, Əmir Mustafayev və sənin içini ordakılardan da yaxşı tanıyan digərləri də Hinkir-Minkiri tam təlimatlandırmışıq. Sənin etiraflarına ehtiyac qalmayacaq.

Yox, qalacaq. Axı "Space"də İlham Mirzəyevin bir "Etiraf" verilişi var. Yəqin ki, bu dünyadan o dünyaya canlı yayım verəcək. Cib dəsmalı çox götür. Ağlamağın efirçün olacaq. Yazıçılar Birliyinin iclası isə qapalı keçəcək. Sədrliyi özüm edəcəyəm. Narahat olma. Nə qədər də olmasa həmkar olmuşuq. Sən də "narodnı", mən də "narodnı". Aqillər qəşəng deyib: "Narodnının narodnıdan başqa dostu yoxdur". Burda hər şeyi düz-

gün, obyektiv qəbul edəcəksən. Bircə səfirlik, dünya təşkilatlarının nümayəndələri, başqa prezidentlər yoxdur ki, müraciət edəsən. Amma bir şeydən partlayacaqsan. Yandıracaq bu səhnə səni. Azərbaycanın xalq şairi Samvel Qriqoryan üzünə moizə oxuyanda dinə bilməyəcəksən. Cızdağın çıxacaq. Mirzə Ələkbər Sabirin erməni dilinə çevirdiyi vətəndaş ruhlu şeirlərini sənə ermənicə oxuyanda nə hislər keçirəcəksən – bilmirəm.

Bu dünyada təkcə sən eks-xalq yazıçısı deyilsən. Yazıçılar İttifaqında bütün xalq yazıçıları və xalq şairlərinin şəkilləri olan guşə var e. Prezidentin sərəncamı oxunan kimi şəklini oradan götürüblər. Sən elə bilirdin ki, heç olmasa, heç olmasa Yazıçılar Birliyi arxanda duracaq? Danışmasa da, heç olmasa ağzına su alıb susacaq? Axı, təşkilatın adı Birlikdir. Amma sən də yaxşı bilirsən ki, çətini kapron corabdan bircə sapın qaçmasıdır. O da baş verdi. Nə olsun sərəncam yoxdur. Azərbaycanın xalq şairi Samvel Qriqoryanın da orda şəkli çoxdandır ki, yoxdur. Amma bircə fərqiniz var: Samvel Qriqoryanı xalq şairi kimi onda da tanıyan yox idi, indi də. Amma sən "Daş yuxular" əsərinlə Azərbaycan xalqının qəlbində əbədi "yaşayacaqsan". "Eks" olmayan "narodnılarımız" (yazıçılar arasında xalq yazıçısı və şairlərinə qısa olaraq "narodnı" deyilir) Anara, Fikrətə, Vaqifə, Nərimana, Elçinə, İsaya, Söhraba, Çingizə, Mövluda, Zəlimxana və digər "kolleqa"larımıza salamlar.

Hörmətlə: "Nastoyaşi" xalq şairi Qabil

ANARA

"Yazıçılar Birliyində kabus dolaşır – bölünmə kabusu"

Əzizim Anar! Salam! Çoxdandır ki, sənə məktub yazmıram.Heç sən də məni yada salmırsan. Rəsul deyirdi ki, o gün – aprelin 1-də, atovun ad günündə Fəxri Xiyabana gəlibmişsən. Gələndə biz tərəfə də keç. Bir üzünü görək. Rəsul kimi Bəxtiyar da, Nəbi, Mirzə İbrahimov, İlyas da səni çox istəyirik, axı... Gəl bir bizləri gör, gül-zad lazım deyil, sadəcə ziyarət elə... sonra da get papağı qoy qabağına, fikirləş. Hansı daha zəngindir? Sənin rəhbərlik etdiyin Birlik, yoxsa Fəxri Xiyabanda torpağın altında uyuyanlar?

Gördüm ki, gəlmirsən-getmirsən, yazmırsan, məcbur olub mən yazdım. Səbəbkar da– ilana zəhər verən kərtənkələ, sapı özümüzdən olan balta – oğlum Mahir-

dir. Mat-məəttəl qalmışam ki, Yazıçılar Birliyinin üzvü olmayan, yazıçı olmayan, olsa da mən tərəfdən heç vaxt yazıçı kimi qəbul olunmayacaq Mahir nə əcəb qocaman bir təşkilatın işinə qarışır? Yazısının da adını gözəgəlimli olsun deyə "Elçin Samvel Qriqoryanın evində yaşayırdı" qoyaraq özünün, yazısının reytinqini artırıb. Heç onun da fərqinə varmayıb ki, nə Elçin İlhamə Quliyevadır, nə də Mahir Nazpəri Dostəliyeva. Elçinin adından istifadə edib özünə reytinq qazanmağa çalışır. Qazanır qazansın. Amma mənim adımla – Qabiloğlu – təxəllüsüylə yazmasın. Elçinlə aramı vurmasın. Nə isə. Onsuz da düzələn deyil. Acıdildir, dili də ağzına yerləşmir. Lap...

Amma gözəl bir rus məsəli var: "Net xuda bez dobra" Hər pislikdə də bir xeyir var. Mahirin yazmağının həmişə əleyhinə də olsam, "dörddə bir yazıçılara" ünvanladığı yazısı bizi oyatdı.

Anar, artıq biabırçılıq son həddə çatıb. Bir mənzil 4 yazıçı arasında bölünür. Bir mükafat iki yazıçı, şair arasında bölünür. İndi deyəcəksən ki, burda təhlükəli nə var ki?... Var. Mən deyim sən də agah ol. Azərbaycan Kinematoqrafçılar İttifaqı var idi... Biri də yarandı. Jurnalistlər İttifaqı var idi. Həmaxirətçim Hacı Hacıyev də sədri idi. Diri-diri devirdilər, dedilər ki, bəsdi də. Elçin Şıxlı da sədr oldu. Hacını da xala-xətrin qalmasın "fəxri sədr" adlandırdılar. İki il dözmədilər ki, ölsün. İndi də növbə Yazıçılar Birliyinindir. Çünki bölə-bölə gedirsən. Belə getsə birliyi də böləcəklər.

Anar, mən oğlum Mahiri yaxşı tanıyıram. 47 yaşına çatıb, indi "razqon" götürüb. Varislik prinsiplərini əldə

rəhbər tutaraq, sabah yığacaq gəncləri başına. Köhnəqalalardan alınması mümkün olmayan qala yaradacaq, Başkeçidlə bütün keçidlərinizi bağlayacaq, lazım olsa Qan Turalla qan da salacaq. Bir 500 nəfər də məni sevən yaşlı yazıçıları bulvardakı "Nu, poqodi" çayxanasında yığacaq başına... deyəcək ki, mən Yazıçılar İttifaqının sədriyəm. Hələ həyasız-həyasız üzünüzə də duracaq ki, necə olur xalq şairləri Rəsul Rzanın və Nigar Rəfibəylinin oğlu Anar sədr ola bilir, mən yox? Necə olur ki, xalq yazıçısı İsmayıl Şıxlının oğlu sədr ola bilir, mən yox? Necə olur ki, xalq yazıçısı İlyas Əfəndiyevin oğlu baş nazirin müavini ola bilir, mən – xalq şairi Qabilin oğlu yox? Haqqı da var. Mən isə bunu istəmirəm. Amma, Anar, bu təhlükə, faciə, fəlakət qaçılmazdır. Mahir yazıçıların başına keçsə, səndən də pis olacaq. Sənin kimi 22 il yox, 25-30 il hakimiyyətdə qalacaq, kiflənəcək. Amma yazıçılarımız evlərlə təmin olunacaq, mənim təşəbbüsümlə tikilən yaradıcılıq evləri istifadəyə veriləcək, 50, 55, 60 yaşlı gənc yazıçılarımız mənzil üzü görəcək, Prezident İlham Əliyev mənim təşəbbüsümlə 180 gənc və yaşlı yazıçıya təqaüd vermişdi ya, Mahir onu 500-ə çatdıracaq, Mənim hesabıma 10 ildən artıqdır ki, prezident təqaüdü alan Fikrət Sadıq və Yazıçılar İttifaqının digər vəzifəli üzvləri – Ayaz Vəfasız, üzr istəyirəm Ayaz Vəfalı da – əlllərinə tər qərənfillər alaraq, Rəsul Rzanın da qəbri daxil olmaqla İlyas Əfəndiyev, Mirzə İbrahimov, Süleyman Rəhimov, Əli Vəliyev, Cabir Novruz, İmran Qasımov, İsmayıl Şıxlı, Bəxtiyar,Nəbi Xəzri – Azərbaycanın ilk xalq yazıçısı, erməni Aleksandr Şirvanzadə və xalq şairi Samvel Qriqoryandan başqa, 31 xalq yazıçı

və şairinin, klassiklərimizin qəbirlərini ziyarət edəcəklər. Hələ ölü və sağ ikən ölü, tanınmayanları demirəm. "Üzeyir Hacıbəyov Musiqi Günü" kimi Səməd Vurğunun anadan olan gününün Poeziya Günü kimi qeyd edilməsinə nail də olacaq. Adıma bir mükafat təsis edəcək. Mozambikin prezidenti Armandu Qebuza Bakıya gələndə ona da təqdim edəcək. Uzaq Afrikada da məni tanıyacaqlar. Necə ki, Xorvatiya prezidenti bu gün də "İlyas Əfəndiyev mükafatı" laureatı olmağıyla fəxr edir.

Anar, vəziyyət gərgindir. Səni tanıyanlar da narazıdır, tanımaq istəməyənlər də. Bir sual verim sənə. Əgər Yazıçılar İttifaqının sədri Mirzə İbrahimov, İmran Qasımov, İsmayıl Şıxlı olsaydı və "Azərbaycan" jurnalının 90 illiyi keçirilsəydi, baş redaktor İntiqam Qasımzadə xalq yazıçısı olmazdımı? Əgər "Ədəbiyyat qəzeti"nin yubileyi olsaydı, layiq olmasa da, bir misrası belə yaddaşlarda qalmasa da baş redaktor Ayaz Vəfalı xalq şairi olmazdımı? Yazıçılar Birliyinin ikinci adamı Fikrət Qoca yubileyində "İstiqlal" ordeni yerinə quru diplomla təltif edilərdimi? O sənin xidmətindir ki, gənclər Ramiz Rövşəni "çürük kartofunu tərifləyən gədəbəyli" adlandırırlar.

Anar, əlac ona qalır ki, Elçibəy kimi ümid yeri axtarasan. Yoxsa, Mahir Surət Hüseynov kimi gəlib səni yıxacaq. Elə bilirsən ki, ətrafındakılar səni müdafiə edəcək? Əsla. Çünki onlar mənzil, quru fəxri ad almaqda sənə ümidli, möhtac idilər. İndi isə bu ümidləri də boşa çıxıb. Əleyhinə durmasalar da, müdafiə də etməyəcəklər. Səs verməyəcəklər. Sən isə çar Nikolay Lenini tanımayan kimi, Mahiri ciddiyə almırsan. Düz edirsən. Birdən ça-

şıb, ciddiyə alıb cavab-zad qaytararsan aa... Mahirçün böyük reklam olar. Ayağı yer alar... Gedər üstəlik deputatlığa da namizədliyini verər. Sonra səndən miras qalan mədəniyyət daimi komitəsinin sədri də keçər. Nəbadə. Amma görsən həddini aşır, cızığını keçir, mətbuat katibi (dünya dağıl!) Ədalət Əskəroğlunu ver qabağa. Nə desən təkrar edəcək. Çünki "Abidə MTK"nın binasında, tikilib başa çatdırılmayan, mətbuat səhifələrində artıq satışa çıxarılan, xəyalplov mənzilin pulu ondan savayı daha 3 yazıçı arasında bölünən, əldə etdiyi 25 min manata xəyallarında torpaq alan və nəhayət içində tikiləcək həyət evinə (lətifəsi ondan, onun kimilərdən uzaq) "hamilə" qalıb. Ha eləyir... Bilməyəcək də.

Amma, Mahirin nəyə qadir olmasını biz bilirik. Elə bilmə ki, Yazıçılar Birliyinin üzvü deyil və buna görə də sədr seçilməsi qeyri-mümkündür. Uşaq-uşaq danışma. "Skorı pomoş" həkimi general ola bilir, kafe müdiri icra başçısı ola bilir, icra başçısının qardaşı qardaşına görə deputat ola bilir, xalq şairi Qabilin oğlu sədr ola bilmir? Hələ səfirlərdən danışmıram. Öz arqumentləridir, mən hələ bir-ikisini dedim. Yazıçılar Birliyində hakimiyyətin onun və onun kimilərin əlinə keçməsi təhlükəsini nəzərə alaraq Axirət Respublikası, Cənnət şəhəri Yazıçılar Birliyinin növbədənkənar qurultayını çağırdıq. Məsələnin qəliz olmasını bir daha vurğuladıq. Ədalət Əskəroğlunun qurumuş belinə şəfalar dilədik. 48 xalq yazıçısı və şairindən vur-tut on beşinin o dünyada olduğunu, səs çoxluğunun biz tərəfdə olmasını qeyd edərək, qərara aldıq:

-Anar, Fikrət Qoca, Çingiz Abdullayev, Arif Əm-

rahoğlu, Rəşad Məcid və digər seçkili orqanlar istefaya getsin.

-Yazıçılar Birliyi dövlətin büdcəsindən çıxarılıb, boğaz təşkilatdan azad təşkilata çevrilsin.

-Yazıçılar Birliyinin üzvlərinin üzvlüyə layiq olub-olmaması məsələsinə yenidən baxılsın.

-Yazıçılar Birliyinin say tərkibi 500-dən artıq olmasın.

-Anarın hökumət "BMW"si və digərlərinin hökumət maşınları satılsın, icarəyə verilən Yazıçılar Birliyinin mülkiyyətlərindən gələn icarə haqları da onun üstünə qoyularaq yazıçıların mənzil şəraitinin yox, heç olmasa həyat şəraitinin yaxşılaşdırılmasına yönəldilsin.

-Yazıçılar bir-birinə arxa olsunlar. Hətta içindən Əkrəm Əylislilər çıxsa belə. Ətini yesələr də, sümüyünü çölə atmasınlar. (Öz aramızdı, yaman gözünüzün odunu aldılar a...)

-Yazıçılar Birliyinin mətbu orqanları "Kulis", "Oxu zalı" kimi internetdə yayımlansın ki, onu təkcə Ayaz Vəfalı yox, biz də oxuya bilək.

-"Natəvan" klubunda mükafat davaları yox, əsl əsər müzakirələri keçirilsin, özü də "onlayn"da.

-Əkrəm Əylislinin "Daş yuxuları" kimi, digər əsərlər də bu cür səs-küyə səbəb olsun – əgər varsa.

-Anar 18 mərtəbəli evin 22-ci mərtəbəsini, "Adamın adamı" davamı olaraq, "Atların, inəklərin adamı" əsərini yazsın. Çünki, adamlar qalıb, başlayıblar inəklərə pasport verməyə, özü də rüsumsuz, növbəsiz. Özü də AZE seriyasıyla, birdən sərhədi keçsə, xəbər tutsunlar.

-Elçin "Mahmud və Məryəm" əsərinin cazibəsindən və vəzifəsindən çıxıb yeni əsərlər yaratsın.

-Bizim nəslin davamçısı, öz nəslinin və cavan nəslin nümayəndəsi olan Afaq Məsud Yazıçılar Birliyinin sədri, Rəşad Məcid 1-ci katib seçilsin. Adı bu ev problemlərində hallanan yazıçı və şairlərimiz isə növbə ilə 2-3 il müddətinə katib yerlərini tutsunlar ki, heç olmasa Aparat onların vəzifəsinə aldanıb mənzillə təminatına kömək etsin. Yolunda Qabili, Bəxtiyarı, Nəbi Xəzrini və digər "narodnı"ları həmişə maneə görən, onların ölməsini arzulayan və arzusuna nail olan, amma hələ də heç nəyə nail olmayan, sadəcə şair Qəşəm Nəcəfzadə məndən miras qalan Ağsaqqallar Şurasının sədri seçilməsin. Bu vəzifə Zəlimxan Yaquba verilsin.

İndi, Anar, deyəcəksən ki, Qabil – o boyda Axirət Respublikası Yazıçılar Birliyinin sədri Qabil – hamını vəzifəylə təmin etdi, amma yenə də oğlunu yadından çıxartdı. Aşağıladı. Yazılarını sıfra saydı. Anar, mən sən ola bilmərəm. Mən özüm öz əlimlə ağzımı yuma bilmərəm. Nə istədiyini yaza bilirsən, nə də ki...

Amma nəbadə Mahirin sədr olmasına imkan verəsən. Cibinə plagiatlıq damğasından –zaddan atıb neytrallaşdır. Çünki qudurar.Hələ tezdir. 47-sində yazmağa başlayan...

Anar, nə qədər gec deyilsə mənim bu xəbərdarlıq missiyamdan yararlan. Yoxsa ki, Mahir marığa yatıb. Siçana həsrət pişik kimi, "naruşeniyaya" həsrət QAİ-şnik kimi. Arağa düşkün "alkaş"kimi. Nəşəyə aludə narkaman kimi. Ədəbiyyatımızı, yazıçılarımızı sevən bir

şair oğlu kimi. Yazıçılar Birliyinə vurğun Qabil kimi.

Anar,tədbir gör! Qorxuram. Mahirdən qorxuram. Adımızın bədnam olmasından qorxuram. Qorxuram ki, Tahir Salahovun qızı Aydan Salahova sən istefa verənəcən gəlib Rəssamlar İttifaqının sədri ola. Görəsən rəssamlarımız 26 ildir sədr olan (sən onun yanında toya getməlisən – 22 il) Fərhad Xəlilova səs verər, yoxsa lüt soyunan, özü sənət əsəri olan rəssama? Əlbəttə ki, çılpaqlıq həmişə qalib gəlib. Heç görmüsən ki, tərbiyəli qadına heykəl qoyalar? Amma çadrasın atan qadına "Azad" adı qoyub o saat heykəl ucaltdılar.

Anar qorxuram. Qorxuram ki, Mahir də erotika, seks məzmunlu yazılar yazaraq ədəbiyyata daxil olan 10-15 yazarla lüt soyunub Yazıçılar Birliyinə hücuma keçər. Onda sizin də "Boje moy" deyib qaçmaqdan başqa bir əlacınız qalmayacaq.

Anar, istəmirəm Mahirin könlünü qıram. Məndən inciməsin. Onu Yazıçılar Birliyinin sədri, katibləri vəzifələrinə, ümumiyyətlə heç bir vəzifəyə layiq bilmədim. Çünki onun hörmətdən düşməsini və məni də hörmətdən salmasını istəmirəm. "İnsanı hörmətdən salmaq istəyirsənsə ona vəzifə ver". Belə bir məsəli sən öz üzərində sınaqdan keçirtdin, oğlum olduğuna görə ona qıymıram. Harda olur olsun eşikdə və ya türmədə – mənən azad olsun.

Amma ümidsizliyə də qapanmasın. Bilirəm gözü baş nazirin müavini Elçinin kreslosundadır. Ümidini ona bağlasın. 20 ildir vəzifədədir. Söz verib, hökumətimizlə "qızıl toy"unu keçirən kimi istefa verəcək. O vaxta

da Mahir böyüyər, yetişər, 77 yaşlı büzüşmüş armuda oxşayar. Lazım olsa iclaslarda pamperslə də oturar. Bir sözlə ümidini itirməsin. Ümid sonda ölür. Bir Elçinin erkən istefasına ümidli olsun, bir də prezidentimizin səxavətinə.

Həmişə sizləri sevən, yada salan, məktub yazan QA-BİL.

6 aprel 2013-cü il

SAHİBKARLARA

Əzizim Müqayis, salam! Necəsən? Sualım yersizdir. Adam türmədə necə olar? Başa düşürəm. Amma dözümlü ol. Deyilənə görə, Goranboyun icra başçısının tələsinə düşmüsən. Bilmirəm düzdür, ya yox? Amma çox çətin məsələdir. Bu icra başçısı məsələsi var e... çox qəlizdir.

O gün oturmuşam Hinkir-Minkirin yanında. Azərbaycanlıların sorğu-sualına tamaşa edirəm. Biri gəldi. Amma başı yox. Hinkir-Minkir də sorğu-sual etmədən basdılar yazığı Cəhənnəmə. Nəsə etiraz etdim. Dedilər:

-Şair, bilirik ki, peyğəmbərlərdən sonra siz gəlirsiniz. Bilirik ki, hörmətli adamsınız. Bilirik ki, Heydər Əliyevin dostusunuz. Amma belə incə məqamlarda xahiş edirik ki, qarışmayasınız.

-Axı niyə?

-Bu gördüyünüz mərhumun başını icra başçısı kəsib. İcra başçısının kəsdiyi başa isə nəinki fani dünyada, haqq dünyasında da sorğu-sual yoxdur.

Səsimi kəsdim, oturdum yerimdə. Allaha şükür ki, başın yerindədir. Ağlın üstündə, pulun da cibində. İcra başçısı gəldi-gedərdir. Sən özündən muğayat ol.

Sən mənə əziz adamsan. Mən İmamverdiyevəm, sən də Verdiyev. Bilirsən də ... Verdiyev familiyası geydirmə bir şeydir. Əvvəllər insanlar İmamverdiyev, Allahverdiyev, Tanrıverdiyev olub. Sovet dövründə qorxusundan bəziləri familiyasının əvvəlini tullayıb. Qalıb Verdiyev. Araşdırsan bəlkə də sən də bizlərdənsən. Amma Verdiyev familiyası da mənə doğmadır.

Yardımlının bir raykom katibi vardı– Səfər Verdiyev. Sənin kimi yeyib-içən oğlan idi. Dost idik. Günlərin bi günü apardı məni ucqar kəndlərdən birinə – bulaq başına. Yeşiklə araq, tooğlu. Yüz qram süzdü. Tağdan xiyarı üzdü. Uzunlamasına iki yerə böldü. Üstünə Perembel dağ balından sürtdü. Yüz vurduq, xiyar-balla zakuska etdik. Ləzzət. Bilirəm, bunu bilmirsən. Mən İmamverdiyevlə, Səfər Verdiyev yoxuq. Oğlum İmamverdiyevlə sən Verdiyev bunun dadını çıxararsınız. İnşallah.

Müqayis Verdiyev, mən bu adı ilk dəfə saytlarda gedən məqalələrdən tanıdım. Familiyan mənə doğma gəldi. Elə bildim ki, bizim Səfərin qohumusan. Deyilənə görə sahibkarsan. Goranboyda abadlıq-quruculuq işləriylə məşğul olurmusan. Şərləyiblər. İndi isə məhbəsdəsən. Yazılanlar nə dərəcədə düzgündür, ya yox?

Bilmirəm. Prezidentinizin Goranboyda səlahiyyətli nümayəndəsi sayılan icra başçısının bu qədər qeyri-qanuni hərəkətlərə yol verib-vermədiyini də bilmirəm. Yəqin ki, müvafiq orqanlar bunları yerində araşdırıb ictimaiyyətə məlumat verəcəklər. Bir sahibkarın – alverlə yox, məhz icra başçısının rəhbərlik etdiyi Goranboyun abadlaşdırılması ilə məşğul olan birinin – məhbəsə salınması da çox qəribə görünür. Prezidentimizin sahibkarlara yandırdığı yaşıl işığın fonunda, "mane olmayın", "şərait yaradın" sözlərinin əhatə dairəsində sən sahibkar üçün məhbəs divarları nə qədər məntiqəuyğundur? Anlaya bilmirəm. İcra başçısıyla sahibkarın nə ədavəti? Pula görəmi? Bəs pula görə insan taleyi ilə bu qədər oynamaq olarmı? Bu olayların hüquqi, iqtisadi qiyməti nədir? Deyə bilmərəm. Yuxarıda da qeyd etdiyim kimi, müvafiq orqanlar istər Goranboy icra başçısının əməllərinə, istərsə də sən sahibkarın taleyinə bir aydınlıq gətirəcəklər. Bu hadisə Azərbaycanda nə ilkdir... inanmıram da sonuncu olacaq. Hinkir-Minkir də bezardır Onlardan. Müqayis, icazə ver mən olaylara şair kimi yanaşım. Başa düşənlər düşsünlər, başa düşməyənlər də başa düşənlərdən öyrənsinlər.

Günlərin bir günü yemək-içmək məclisində idim. Biri guya ki, cəmiyyətdə gedən hadisələrə öz aləmində subyektiv münasibətini bildirirdi. Danışığında tez-tez "qohumbaz", "dostbaz" sözlərini işlədirdi. İşlətmək yox, bu sözlərin altında tənqidi fikirlərini bildirirdi. Yüz qram arağı haram edirdi bizə. Yemək-içmək məclisində də siyasi söhbətlər danışarlar? Onun bu çıxışından əsəbiləşdim. Dözməyib "Ay kişi, adam qohumbaz olar da.

Adam dostbaz olar da... Adam düşmənbaz olmaz ki?" dedim. Hamı gülüşdü. O adam da söhbətinə bununla son qoydu.

Nədənsə Goranboyda səninlə icra başçısı Nizaməddin Quliyev arasında olanları oxuyanda bu əhvalat yadıma düşdü. Mən arzu edərdim ki, Nizaməddin Quliyev vəzifə karyerasında müxtəlif rayonlara da rəhbərlik etsin. Özünə düşmən yox, həmişə dost, yoldaş, qohum qazansın. Bir də atalar deyib də: "Yüz yeyənin olsun, bir deyənin olmasın". Amma belə görürəm ki, burda "yüz"lə "bir" sözünün yeri səhv düşüb. Nizaməddin, şeirimi bilirsən də, "Müsibət oluruq biz, səhv düşəndə yerimiz".

Müqayis, Nizaməddin müəllim bu vəzifəyə prezident sərəncamı ilə təyin edilibsə, deməli, böyük adamdır. Və onu da başa düşür ki, icra başçısı böyük anlamda ailə başçısıdır. Çox şahidi olmuşuq. Birinin uşağı narkotikə qurşananda ailə başçısı ata biabır olmamaq üçün onu respublikadan belə uzaqlaşdırıb. Qızı pis yola düşübsə, birinə ərə verib adını təmizə çıxarıb. Gücü çatmadığı işlərdə isə nəslin ağsaqqallarını çağırıb. Amma bu xəbərlər ailə çərçivəsindən kənara çıxmayıb. Cəzasın da özü verib, cəfasın da özü çəkib. Bəzən "içim özümü yandırır, bayırım özgəni" də deyib. "Ətin yesə də, sümüyünü çölə atmayıb" Çünki ad onundur. Müqayis, Nizaməddin müəllim də Goranboyun icra başçısıdır. Böyük bir rayonun, bədii dildə desək, Goranboy boyda ailənin başçısıdır. Amma başa düşmürəm, Müqayis, "ətini yeyib, sümüyünü niyə çölə atıb?" Axı ad onundur ?

Müqayis, qaynatam, qaynanam Yardımlıda yaşa-

yırdılar. Ovaxtkı bütün raykom katiblərini tanıyırdım. Hamısıyla da dost idim. Sabiq olandan sonra da hərdən rayona gəlib gedirdilər. Amma camaat bu sabiqlərlə mehribanlıqla görüşəndə belə müraciət edirdilər: "Yoldaş katib, salam. Yoldaş katib, necəsən?" Yaxud da sabiqlərdən biri Yardımlı Rayon Partiya Komitəsinin 1-ci katibinə zəng çalanda, telefonçu qız onları çalaşdıranda bilirsənmi necə təqdim edirdilər? "Yoldaş katib, yoldaş katib sizinlə danışmaq istəyir". Onlar bunu qazanmışdılar. İndi Müqayis özün de, indiki icra başçılarının neçə faizi bu hörmətin yiyəsidir?

Keçmiş zamanlarda birinin sehrli toyuğu olur. Gündə bir dənə qızıl yumurta yumurtlayır. Yiyəsi də bu yumurtaları bir-bir xırıd eləyə-eləyə ailəsini firəvan dolandırır. Yaxşı yaşadıqca harınlayır. Toyuğun yeməyin kəsir. Hində o biri toyuqlarla bir yerdə saxlayır. Xoruzlar toyuğa göz verib-işıq vermir. Elə hey dimdikləyirlər onu. Amma yazıq toyuq yiyəsinə qızıl yumurta verməkdə davam edir. Günlərin bir günü toyuğun sahibi bir az da azğınlaşır. Deyir ki, toyuq qarnındakı bütün yumurtaları bir gündə ona verməlidir. Yazıq heyvanın başını kəsir. Qızıl yumurta axtarışıyla qarnını cırır. Müqayis, içindən nə çıxsa yaxşıdır? POX.

Müasir dildə desək, siz sahibkarlar cəmiyyətimizin "qızıl yumurta yumurtlayan toyuq"larısınız. "Qızıl yumurta"lar da dövlətə ödədiyiniz vergi. İcra başçısı da qızıl toyuğa toxunarmı?

Belə bir məsəl var: "Yedin dadındır, verdin adındır, qaldı yadındır". Hər bir məsəl başqa misallar doğurur.

Günlərin bir günü harınlamış bir əyan padşahın qəzəbinə tuş gəlir. Zindana saldırmasa da var-dövlətini xəzinəyə müsadirə elətdirir. Bir müddətdən sonra həmin adam yadına düşür. Vəziri göndərir ki, get gör vəziyyəti necədir? Necə yaşayır? Hər şeyin xəzinənin xeyrinə müsadirə etdik. Birdən ailəsini saxlamağa pulu olmaz. Vəzir gedir və qayıdır: "Şah sağ olsun. Doğurdan da, vəziyyətləri pisdir. Ailəlikcə ağlayırlar. Ah-uf edirlər".

Səhəri gün padşah əmr verir ki, qəzəbə gələn keçmiş saray məmurunun evini bir də yoxlasınlar. Elə də olur. Evindən müsadirə olunanın yarısı qədər də mal-dövlət tapılır.

Üstündən bir ay keçir. Şah vəzirini bir də qəzəbinə tuş gəlmiş keçmiş əyanın evinə göndərir. Bu dəfə vəzir mat-məəttəl geri qayıdır:

-Şah sağ olsun. Yeməyə heç nəyləri yoxdur. Amma tar-qaval götürüb oynayırlar. Heç nə başa düşmədim.

-Hə, vəzir. İnsanın haram mal-dövləti olanda ah-fəğan eləyər. Çünki onu itirməkdən qorxar. Bunların isə artıq heç nəyi qalmayıb. Nəyə ağlasınlar ki. Haram yeməklə çox harınlamışdılar. Ətraflarındakılara nəinki əl tutmurdular, "yoxumuzdur, bizə də verin" deyə talan edirdilər. Mənim rəiyyətimi incidirdilər. İndi deyib gülürlərsə, deməli, heç nələri yoxdur. Onlara təqaüd kəs, bir təhər dolansınlar.

Müqayis, bu əhvalatı Nizaməddin müəllimə də çatdır. O da başqalarına. Axırı "tar-qavaldır". Bundan o yanası yoxdur.

Müqayis, dözümlü ol. Hər şey yaxşı olacaq. İndi dörd divardır, bir də sən. Ordan çıxacaqsan. Hər şeyə "əlvida"de. Ye-iç, kef elə. Həyatın dadını çıxar. İcra başçılarına dilini çıxarıb acıq ver. Azad ol. 1 manat 50 qəpiklik dönər ye. Azad ol. Bakinski araq iç. Azad ol. Bulvarda qağayıların dimdikləşməsinə bax. Azad ol. Qızıl teştə qan qusanlara bax. Azad ol. Hər şeydən önəmlisi budur.

Baş prokurorun müavini vardı. Sonralar deputat oldu – Zakir Zeynalov. Ona bağışladığım kitaba bir avtoqraf yazmışdım. Bircə bunu əzbərləsən bəsdir:

Adamın başına nə desən gələr,

Təki can sağ olsun, hər şey düzələr.

Misir padşahı fironun bir sözünü də yadından çıxarma: "Əgər Nil sahilində bir canavar quzunu parçalayıb yeyirsə bu canavarın təqsiri deyil. Bu mənim təqsirimdir. Canavar qudurub, məndən qorxmur ki, quzunu parçalayıb yeyir".

Hörmətlə: QABİL.



HƏYAT MÜŞAHİDƏLƏRİM

BACARIRSAN YAŞA, BACARMIRSAN ÖL! (I)

SOVET AİLƏ MODELİ

Yetim oğlanam. Subayam. Evlənmək istəyirəm. O qədər planım, arzularım var ki... Zavodda işə düzəlmişəm. Yarımı da orda tapmışam. Pulumuz yox idi, zavod bizimçün komsomol toyu elədi. Verilən hədiyyələr isə cehizimiz oldu. Yaşamağa yerimiz yox idi. Ailə yataqxanasında yer verdilər. Qiyabi olaraq təhsilimi davam etdirdim. Yoldaşım hamilə qaldı. Doğuşa 3 ay qalmış məcburi analıq məzuniyyətinə – dekretə çıxardılar. Üç aylıq maaşını əvvəlcədən tam ödədilər. Arzuma çatdım – doğum şöbəsində kim ilk olaraq mənə oğlumun şad xəbərini verdisə, məcburi cibinə 3 rubl muştuluq qoydum.

Dostlarımla birlikdə uşağı xəstəxanadan çıxardıq. Həmkarlar təşkilatının xəttiylə bizə gənc ailə kimi yardım ayrıldı. "Kolyaska", paltaryuyan maşın hədiyyə etdilər. Yeni tikilən evdə 2 otaqlı təmirli mənzil də ayırdılar. Dövlət həyat yoldaşıma bir il yarım ödənişli, bir il yarım da ödənişsiz dekret hüququ verildi. Arvadım il yarımdan sonra işə çıxdı, uşağı isə bağçaya verdik. Dövlətdən uşaqpulu da almağa başladıq. Üstəlik, dövlət tərəfindən məndən və yoldaşımdan tutulan "uşağın olmadığına görə" vergi də ləğv olundu. Yoldaşım yenidən hamilə qaldı. Bir qızımız dünyaya gəldi. Həmkarların sədri gəldi ki, bəs ərizə yaz. İkiotaqlı mənzili təhvil ver. Sənə üçotaqlı düşür. Axı, uşaqların müxtəlif cinsdəndir. Beləcə onları böyütdüm. Ali təhsil də aldıq. İldə bir dəfə də həmkarlar komitəsinin xəttiylə kurort və sanatoriyaya da gedirdik.

Xoşbəxt idik. Xoşbəxt sovet ailəsi. Hər ay gəlib dəyirdilər. Arvada bir çırtma vursaydım zavodda müzakirəyə çıxarırdılar. Problemlərimizlə maraqlanırdılar. Hərdən əsəbləşib "bəsdirin də qarışdız daxili işimizə. Qoyun rahat yaşayaq", – deyə qışqırırdım zavoddan gələnlərin üstünə. Deyirdilər: "Sən sosizlizmdə yaşayırsan. Böyük Sovet ailəsinin bir üzvüsən. Biz kommunizmin qurucularıyıq. Sosializmin qanunları belədir: İstəsən də yaşadacağıq səni, istəməsən də"

İNDİKİ AİLƏ MODELİ

Cavan oğlanam. Subayam. Evlənmək istəyirəm. O qədər planım, arzularım var ki... Atamdır, anamdır, bir

də bacım. 25 ildir ki, 3 otaqlı mənzildə yaşayırıq. Sovet dövründə atamla, anama vermişdilər – işlədikləri zavoddan. Mən özəl firmada işləyirəm, maaşım da azdır. Bir qıza vurulmuşam. O da mənimlə işləyir. Elçi gediblər. "Həri"sin də alıblar. Səhəri gün firmanın yiyəsi nişanlıma təbrik əvəzinə nə desə yaxşıdır? "Ay qızım, bilirsən də, mən işə evli, uşağı olan qadınları götürmürəm. Bir gün işə gecikirlər, deyirlər ki, yuxuya qalmışam. Ertəsi gün uşaq xəstəydi. O biri gün ərimin təzyiqi qalxmışdı. Ona görə də bütün bunları nəzərə alıb belə qərar vermişəm. İşə girəndə səni də xəbərdar etmişdim. Toyun səhərisi günü ərizəni yaza bilərsən. Bir də ki, bura mənim özəl firmamdır. Dədəmin artıq pulu yoxdur sabah sənə cibimdən "dekretnı" verim"

Nə isə birinci qız evi toy elədi. Yığılan pulun əsas hissəsini verdilər şadlıq evinin müdirinə. Qalan hissəsinə də bir taxt aldılar, bir dənə də televizor. Lap pul çox olsaydı da... ayrıca mənzilim yox idi. Atam 3 otaqdan birini bizə ayırmışdı. İçərisində də köhnə ver-veşi. Sonra biz toy etdik. Yığdığımız pul da qismət oldu şadlıq evinin yiyəsinə. Gəlini evə gətirdim. Səhəri gün gedib guya ki, öz xahişiylə işdən azad olundu. Aylar keçdi. Yoldaşım hamilə qaldı. Doğum evinə gec getdim. Xərcini qızın ata-anası çəksin deyə. Əkən mən, qabağa duran onlar. Neyləsinlər, qızlarıdır da. Mən özgə oğluyam. Yiyə durmayacaqlar, Allah eləməmiş ölsə, mənə nə var ki, özgə oğluyam. Gedib başqasını alacağam. Başa düşürlər.

Uşağı doğum evindən çıxartdıq. Getdi atası evinə. 40-ı çıxandan sonra qayıtdı. Maaşım artmadı, yükümün

biri isə artdı. Atam, anamın pensiyası gəlirdi köməyimizə. Evimiz, cındır "Jiquli"miz olduğuna görə sosial yardım da ala bilmirdim. Uşaqpulu da yox. Qaynanamın, qaynatamın da bir əli üstümüzdə idi. Uşağın pampersi, smesi, kaşası nəyi, nəyi onlara baxırdı. "Kolyaska", "xodinok", oyuncaqlar qaynımın dayılıq borcu idi. Ərindən boşanan bacım isə baldızlığından geri qalmırdı. Qaynananın qahmar çıxmağı da öz yerində.

2-ci uşaq da dünyaya gəlmişdi. Kurort, sanatoriya nədir? Heç bulvara da apara bilmirdim. "Kaçeli"nin bir biletinin qiymətinə 3 dənə çörək alardım da. Dondurma, şokolada "kıxx" deməkdən yorulmuşdum. Atam, anam da sovet dövründən nostalji hislərlə danışanda əsəbiləşirdim. Cımxırırdım üstlərinə. Fəxrlə deyirdim. "Mən azad, müstəqil bir dövlətin vətəndaşıyam. İndi neyləyək ki, kapitalizmin qanunları belədir: Bacarırsan yaşa, bacarmırsan öl!"

BACARIRSAN YAŞA, BACARMIRSAN ÖL?! (II)

Dostluq, Qardaşlıq, Bərabərlik, Həmrəylik, Birlik. *Bu sözlərə Sovet dönəmində tez-tez rast gəlirdik. Bu kəlmələr şüara çevrildiyindən, o vaxtın yeniyetmələri və gəncləri kimi bu sözlərin fərqinə az varırdıq. Robot kimi təkrar edir, "Ura!" qışqırırdıq. İndi deyəcəksiniz ki, niyə axı bu sözlər, indi, məhz müstəqil Azərbaycanda yaşadığımız bir dövrdə yadıma düşdü. Bunun obyektiv və subyektiv səbəbləri var.*

Vaxt var idi dünyada iki formasiya hökm sürürdü. Zamanların sınağından keçən kapitalizm və cəmi 60, 70 yaşı olan sosializm. Uşaq idim, hələ bunların fərqinə varmadığım üçün atamdan tez-tez soruşurdum: "Kapitalizm nədir, sosializm nə?" Uşaq dili ilə deyirdi ki, "sosializmin qanunu budur ki, "istəsən də, istəməsən

də səni yaşadacağam". Kapitalizm deyir ki, "bacarırsan yaşa, bacarmırsan öl".

Amma bir tərəfdən sosializmdə daha çox işlənən "İşləməyən dişləməz", "Cəfa çəkərsən, səfa görərsən" məsəlləri daha çox kapitalizm qanunlarına uyğun gəlirdi. İndi deyəcəksiniz ki, mənim "Siyasi iqtisad", "Elmi kommunizm" fənləri yadıma düşüb. Yada sala-sala sizin də zəhlənizi tökmək istəyirəm. Əsla. Bazar iqtisadiyyatına keçid dövründə bu məsəllərin doğruluğuna mən də inanıram. Amma bunun mənəviyyatımıza bu qədər dərin təsirini heç ağlıma da gətirməzdim. Dəbdəbəli Toy, (dəbdəbə sözü toya çox yaraşır, amma) Dəbdəbəli Yas mərasimləri məni çox düşünməyə məcbur edir.

Məqalənin əvvəlində "Bərabərlik" sözünü işlətməyim əbəs deyildi. Bu söz daha çox sosial ədalət prinsipini təsdiq edən söz idi. Əslində isə insan həyatda iki dəfə bərabər olur. Bir dünyaya gələndə, bir də öləndə. Doğulanda oğlan-qız olmasından asılı olmayaraq bir palatada qoyulur, öldükdən sonra isə qəbiristanlıqda cinsindən, qohumluğundan asılı olmayaraq yanaşı torpağa basdırılır. Həyatda isə gender və dünyanın yüz proqramı da birləşib gəlsə, ömrü boyu qadın və kişi bir ola bilməz. Ha denən ki, qadınla kişilər bərabərdir. Axı, hərənin öz vəzifəsi var. Hər şeyi bir tərəfə qoyub mən yas mərasimlərindən danışmaq istəyirəm. Çünki ölüm hər bir insanın başına gəlir. Çünki bazar iqtisadiyyatı bu sahədə də bərabərliyi pozub.

Bir anlıq situasiyanı göz önündə canlandırmaq istəyirəm. Əziz bir adamın ölüb. Dərdin qalır bir yana. İlk növbədə qəbir yeri tapmaq problemi gəlir durur göz

önündə – pul axtarırsan. Məscidə gedərək İslam adətlərinə əməl etmək istəyirsən – pul axtarırsan. Tabut, cənazə, xüsusi maşın – pul axtarırsan. Qohum-əqrəba kömək edir, borca girirsən. Nəhayət, dəfn mərasimini birtəhər başa çatdırırsan. Onu da qeyd edək ki, dövlət tərəfindən qanuna əsasən bu proseslərin aparılmasına az da olsa pul ayrılır, bu faktdır. Amma o da faktdır ki, xərclər ayrılan pulu qat-qat üstələyir. Lakin əsas məsələ bundan sonra başlanır. Qapına adamın gəlir, evinsə darısqal.

Gedib çadır danışırsan. Çadır quranlar isə əvvəlcə sənin qarşına böyük bir menyu qoyurlar.

"Yəqin ki, hüzrə gələnlərə çay verəcəksiniz? Çayın yanında nə olsun? Limon, halva, şəkərçörəyi, badambura, ləbləbi, noğul-araxis, şəkər-araxis, tumlu, yoxsa tumsuz xurma, marmelad və sairə. Ağız silməyə salfetka. Meyvələrdən armud, alma, apelsin, mandarin, tumlu və kişmiş üzüm. Mineral su -2 cür. Qazsız su. Yaydırsa hökmən soyuducu lazımdır. Çadır böyükdür, mollanın boğazına güc düşməsin deyə səsgücləndirici. Yeməyə nə olsun? Aş, yanında iki cür qarası, qaysı-kişmişi. Salatı, göyərtisi, Gəncə dovğası, motal pendiri, təndir çörəyi".

Ölü yiyəsi bilmir öz dərdinə qalsın, yoxsa bütün bunları həyata keçirsin. Fikirləşir, edim, yoxsa etməyim. Bu zaman Rüfət Əhmədzadənin "Qalma qonşudan geri" şeiri düşür yada. (Düzdü, o başqa mənada yazmışdı). Sonra, "Axı mənim mərhum anam və ya atam və ya qardaşım və ya arvadım və ya uşağım kimin ölüsündən əskikdir?" kəlamı gəlir ortalığa. Ən nəhayət isə

“Qohum-qonşu nə deyər?”, deyərək borca-xərcə girib razılıq verir.

Çadıra girəndə fikirləşirsən ki, qız evinə “Həri”yə gəlmisən, yoxsa yasa? Özü də deyəsən razıdırlar, yoxsa ortaya bu qədər şirni-mirni düzməzdilər. Yeməyə baxırsan elə bil ki, toy aşı ortalığa gəlir. Bircə arağı-şampanı çatışmır. Amma yox, cəld tərpənənlər də olur, “Bonaqva” butulkasında araq da gətirirlər. Hərdən içindəkini unudub, “Ruhu şad olsun. Yaxşı kişiydi, yeyib-içən oğlan idi” sağlıq da deyirlər. Bu yerdə Aqşin Babayevin AzTV-də efirə gedən teletamaşası yada düşür.

Deyəcəksiniz ki, axı imkanı olanlar da var, onları bu siyahıya niyə qatırsan? Ehsandı da, qoy versinlər. Demaqoqluq eləmə, de “Allah qəbul eləsin”. Tələsməyin imkanı olanlar bu siyahıya aid deyillər. Aeroportda, vağzalda, turizm şirkətlərində VİP deyilən bir termin var. Ölmədik bu günü də gördük. “Yas sənayesi” o qədər inkişaf edib ki, indi VİP, SUPER çadırlar, VİP, SUPER yas mərasimləri meydana gəlib.

Yas mərasiminin hüzn əhval ruhiyyəsi həm də rəngdə hiss olunur. VİP çadırlar isə “Dədə Qorqud” filmində oğlu olanlar üçün qurulan ağ rəngdədir. Necə deyərlər, dəbdəbə. Elə bilməyin ki, işlər bununla bitir. Əsla... Qəbiristanlığa gəlirsən. Yaxınlaşırlar ki, “Ay ölü yiyəsi, qəbirin ətrafında bir az yer var, çox yox – 100 kvadrat metr. Götür, peşman olmazsan. Günü-gündən də qiyməti qalxır. Biz də gördük. Yasa çox qohum-əqrəba gəlmişdi. Hamının da son mənzili buradır. Kvadratmetri filan qiymətə”.

Bir anlıq öz ölümün və bundan sonra əmələ gələn çətinliklər gəlib durur göz önündə. Uşaqların əziyyət çəkməməsi üçün işini ehtiyatlı tutmağa qərar verirsən. Alver də bundan sonra başlanır. Hasar daş üzlük olsun, yoxsa qranit? Döşəməsi nədən olsun?. Bəlkə hələ əvvəldən qəbir yerlərini hazır qoyaq. Üstünü "plitka"layaq? Bu təkliflərin qabağında isə aciz qalırsan. Çünki insanın qorxduğu yeganə şey ölümdür.

Sonra isə sənə sinə daşlarının nümunəsini göstərirlər. Daş, mərmər, qranit, büst, heykəl, qorelyef, barelyef, fotoəks. "Bir yanğılı şeir olsa, onu da sinə daşına yazarıq. Buna görə pul almarıq. "Za scyot firma", deyərək minnət də qoyurlar. Bundan sonra bir sual meydana cıxır: "Ay filankəs sən müsəlmansan, yoxsa bütpərəst? Axı qəbir yerlə yeksan olmalıdır?" Bunun isə bir cavabı var: "Qınaq bütün dinlərdən üstündür. Bunları eləməsəm qohum-qonşu nə deyər?"

Belə getsə Azərbaycan 200 ildən sonra mərmər, qranit yataqları ilə məşhur olacaq. Bəs bərabərlik. Axı ölüm insanın həyatda son bərabərliyidir.

Onu da deyəcəksiniz ki, tənqid eləməyə nə var e... Hünərin var çıxış yolunu göstər. Müşahidələrimin və gəldiyim subyektiv nəticələri sizinlə bölüşürəm:

1. *Əgər dövlət dəfn mərasimi üçün rəsmi pul ayırırsa, bu, ölü yiyəsinə verilməməlidir. Bu vəsait ölünün yuyulduğu, kəfənləndiyi, kirayəyə tabut, cənazə verilən məscidlərin hesabına köçürülməlidir. Qəbir yerinin alınması, qazılması işlərini də onlar həyata keçirməlidir. "Ölüm haqqında arayışı"nı göstər, vəssalam.*

2. *Ehsan mərasimləri üçün məscidlərin nəzdində böyük zallar açılmalı və bunun da müqabilində yoxsul, ehtiyacı olanlar gündə 2 dəfə yeməklə təmin olunmalıdır. Yataq xəstələrinə, qocalara ehsanlar evlərinə çatdırılmalıdır. Bu həm də sosial proqrama böyük yardımdır.*

3. *Çadır quraraq yolları bağlamamaq üçün, məcburi qaydada ərazi üzrə xeyir-şər evləri yaradılmalıdır. Təzə tikilən evlərdə buna yer ayrılmalıdır.*

4. *Başsağlığına qapına gələnin qabağına ancaq çay və halva qoyulmalıdır.*

5. *Dövlət qəbiristanlıqları yaradılmalı, hər ölən üçün bərabər yer və standart başdaşı layihəsi təsdiq olunmalıdır.*

6. *Krimatoriyalar yaradılmalıdır.*

7. *Dəfn mərasimini qazanc mənbəyinə çevirənlər ücün Cinayət Məcəlləsinə əlavələr edilməlidir.*

Yasdan sonra toydan danışmaq heç yerinə düşmür. Amma bu sahədə də çoxlu boşluqların olması məni dilləndirir. Birinci şadlıq evləri tikilərkən akustika qaydalarına riayət olunmamasıdır. Toydan çıxanda hamının "başı qazana dönür". Zalda akustika yaratmaq isə əlavə xərclər tələb etdiyindən, çoxları buna əməl etmir. İkincisi də ki, qonaqlar nə qədər tez durub qaçsalar, axı şadlıq evinin yiyəsinə xeyirdir. Təamlara əl dəyilməz. Süfrənin isə pulu artıqlamasıyla ödənilib.

Yemək məsələsinə gəldikdə isə buna israfçılıqdan başqa ad vermək olmaz. Adambaşına menyu tutulanda, fikirləşirsən ki, görəsən bu qədər yemək neçə adamlıqdır? Bəlkə də bu menyu ilə toyu rayonlardakı kimi 3-4 gün davam etdirmək olar. "Paxmeli" də öz yerində.

Yenə də soruşacaqsınız ki, bəs çıxış yolunu nədə görürsən? Çıxış yolu "Toy və dəfn mərasimləri haqqında" Qanununun qəbulunda görürəm. Bundan sonra bəlkə hər şey yoluna düşə. O ki qaldı amiranəlik metoduna. Deyəcəksiniz ki, bütün bunları biz başa düşmürük ki, dövlət amiranəliyinə ehtiyac duyulur? Məsələn: mən Naxçıvanda tətbiq edilən qaydaları heç də amiranəlik, qadağa kimi qiymətləndirməzdim. Sadəcə olaraq Naxçıvan camaatı dinimizə, adət-ənənələrimizə böyük diqqət və hörmətlə yanaşır. Və bu təcrübənin Azərbaycanın digər bölgələrində, o cümlədən Bakıda da yaymağa böyük ehtiyac var. Daha doğrusu dinimizə, adət-ənənələrimizə qayıtmağa ehtiyac var.

MEHRİBAN BACANAQLAR

Hər hansı bir əsərin mövzusu həyatdan götürülür. Obrazlar, surətlər, qəhrəmanlar da bu həyatın yetirmələridir. Bəzən bu surətlərə ümumiləşdirilmiş, tipik də deyirlər. Zaman keçdikdən sonra yazıçının özü, çox vaxt isə onun ölümündən sonra əsərlərini tədqiq edən alimlər prototipləri araşdırmağa və açıqlamağa başlayırlar. Atam Qabilin bütün əsərlərinin – istər şeir, poema olsun, istərsə də nəsr – öz real qəhrəmanları var. Yəqin ki, nə vaxtsa bunlar geniş ictimaiyyətə açıqlanacaq. Birini deyim, keçim mətləbə. Heydər Əliyevin irsi bu gün geniş tədqiq olunur. Amma çoxları bilmir ki, bədii ədəbiyyatda onun surətini ilk dəfə atam, 1975-80-ci illərdə qələmə aldığı "Ömür həbləri" romanında təsvir edib. 1991-ci ildə kitaba avtoqraf yazaraq özünə də göndərib.

Sovet quruluşunu qamçılayan bu romanda çox prototiplər var: Akademik Hacıbəy Sultanov, ovaxtkı Ali Məhkəmənin sədri Abdulla İbrahimov. Və ən nəhayət podpolkovnik obrazı. Bu üç obraz məhkəmə icraçılarıdırlar. Cəmiyyətin mənfi ünsürlərini ittiham edən, üzə çıxaran, cəzalandıran insanlardır. Üçüncü hakim – podpolkovnik isə şair Qabilin yeganə bacanağı, o vaxt Sərhəd Qoşunlarının podpolkovniki olan, SSRİ-nin əlaçı çekisti, Azərbaycan SSR-nin əməkdar hüquqşünası, kəşfiyyatçı, 38 yaşlı azərbaycanlı podpolkovnik Abbasəli Ramazan oğlu Novruzov idi.

Müasir dildə səsləndirsək, xalamın əri, Sərhəd Qoşunlarının sabiq komandanı, general-mayor Novruzov.

Şair Qabili 38 yaşlı sərhədçi-zabitin ümumiləşdirilmiş, tipik obrazın prototipini seçməyə nə vadar etmişdi? Əlbəttə ki, Abbasəli Novruzovun xalqına ləyaqətlə xidməti, vətənpərvərliyi, bir türk övladı kimi Sovet Ordusunda xüsusi bir fiqura çevrilərək Sərhəd Qoşunları Zaqafqaziya dairəsinin kəşfiyyat idarəsinin rəis müavini kimi yüksək vəzifəyə ucalması. Əlbəttə ki, atam tarixi qabaqlamışdı, bəlkə də tələsmişdi. Sonrakı həyat sübut elədi ki, bütün bu işlər hələ Abbasəli Novruzovun fəaliyyətinin yarısı imiş. Əsas işlər isə qabaqda idi. Heydər Əliyevin rəhbərliyi altında müstəqil Azərbaycanın Sərhəd Qoşunlarını sıfırdan qurmağa, inkişaf etdirməyə hələ 15 il qalırdı.

Atamla onun taleyində qəribə bir oxşarlıq var. İkisi də yetimçiliklə böyüyüb. Ali məktəbi bitirdikdən sonra tale onların hər ikisini Yardımlıya göndərib. Biri müəllim olub, biri isə komendant müavini, sərhədçi. Biri

Ağasəf kişinin böyük qızı Hacıbəyimə, o biri isə Raisəyə vurulub. Sonra isə Yardımlıdan yeni, böyük həyata pərvazlanıblar. Biri yaradıcılıq yollarıyla, o biri isə hərbi. Biri məşhur şair olub, o biri sərkərdə. Qabil əməkdar incəsənət xadimidir, Abbasəli Novruzov əməkdar hüquqşünas. Biri xalq şairidir, o biri əlaçı çekist. Qabil "Şöhrət", "İstiqlal" ordenlidir, Abbasəli Novruzov "Azərbaycan bayrağı" ordeni ilə təltif olunub. Atam rus dilindən bədii tərcümələr edərdi, Abbasəli isə fars dilindən hərbi tərcüməçidir. Hər ikisinin bir oğlu var. Hər ikisi vətənpərvər, xalqını sevən insanlardır. Hər ikisi sədaqətinə, mövqeyinə, dəyişməz əqidəsinə görə Ümummilli liderimiz Heydər Əliyev tərəfindən həmişə yüksək dəyərləndirilirdi. Nəhayət, bütün bu titulları kənara qoyub onları yeganə adla çağırırdılar. Birini şair, birini isə sərhədçi.

Abbasəli Novruzovun mənim həyatımda da rolu az olmayıb. Balaca idim. Hər dəfə Yardımlıya gedəndə, Şorsulu sərhəd-keçid məntəqəsində maşınımızı saxlayıb pasportları yoxlayırdılar. Mən balaca olduğum üçün sərhədçilər heç veclərinə də almırdılar. Bu da mənə toxunurdu. Ağlayırdım. Bunu eşidən və həm də gözəl psixoloq olan Abbasəli bir balaca bloknot alır. Mənim böyük şəklimi ora yapışdırır. Altından rus dilində adımı, atamın adını, familiyamı və sərhəddən keçməyə icazəli olduğumu yazır. Sonda da imzasını qoyur: "Kapitan Novruzov". Artıq Şorsulu keçid məntəqəsində atamdan, anamdan pasport tələb edəndə, onlardan əvvəl mən öz "pasportumu" irəli uzadırdım. Əlbəttə ki, kapitan Novruzovun verdiyi simvolik pasportu.

Sərhədçilər də oxuyub "çest" verirdilər.

İllər keçdi. Bu rəmzi pasport hərbi biletə çevrildi. 18 yaşında artıq mən sərhədçiydim. Polkovnik Abbasəli Novruzov ehtiyata buraxılmışdı. Özünün də dediyi kimi, sərhəddə onu mən əvəz edirdim. Bütün komanda heyəti onu gözəl tanıyırdı. Adı gələndə "ağsaqqalımızdır" deyib, ayağa dururdular. Məni də "plemyannik Novruzova" çağırırdılar. Yəni ki, "Novruzovun bacısı oğlu". Yox, elə bilməyin ki, bundan sui-istifadə edirdim. Yaxud da ki, mənə əlavə güzəştlər verilirdi. Əksinə, Dövlət Təhlükəsizlik Komitəsinin tərkibində olan Sərhəd Qoşunlarında belə şeylər heç ağlasığan da deyildi. Bu qohumluğa görə mənə etimad göstərib, inanıb əlavə sərhəd-kəşfiyyat, tərcüməçilik işlərinə cəlb edirdilər. Üstəlik, Kommunist Partiyasının da üzvüydüm.

Bacanaq Abbasəli Novruzovun həyatı, yüksəlişi atamın, ailə üzvlərimizin gözü qabağında sürətlə inkişaf edirdi. Biz onu general görmək istəyirdik. Amma polkovnik kimi ehtiyata çıxdı. Ədliyyə orqanlarında işə düzəldi. İdarə rəisinin müavini idi. 1987-ci il mayın 24-də 50 yaşının tamamında atam ona əruz vəznində "Abbasəli" adlı gözəl bir şeir həsr elədi.

Otuz il əzm ilə sərhəddə duran Abbasəli,
Vətən eşqi ilə hər an qəlbi vuran Abbasəli

Ömrün ulduzlu səmasından üç ulduz qaldı,
Ləkəsiz, zərli paqonlarda nişan Abbasəli.

Həmən ulduzlar hələ sayrışacaqdır hey hey...
İstefa verməyini etmə guman, Abbasəli.

Kişinin zinəti qeyrət və təvazö və həya –
Sənə bəxş etmiş üçün də Yaradan... Abbasəli.

Neçə rəis və komandirlərin olmuşsa da bil,
Hamısı Rəisədən başqa yalan, Abbasəli.

Min bir əsgər yetiribsən, atalıq tacınısa
Anarındır başına indi qoyan, Abbasəli.

Tək oğul bəxş eləyibdir bizə tale, nə olar,
Bu da bir yaxşı naxış, yaxşı nişan, Abbasəli.

Sən nağıllardakı Simurq quşusan bizlər üçün,
Bizlər üçün teli yox, qəlbi yanan, Abbasəli.

Çox böyük şərtdir qohumluq, buna yoxdur sözümüz,
Qanacaqla bilinir yaxşı-yaman, Abbasəli.

Aramız pərdəlidir, pərdə də gül yarpağıdır,
Bu gülü soldura bilməz də xəzan, Abbasəli.

Gör nə naziksən, əşi, pərdədədir hirsin də,
Baxsa yad, görməz alıb dağı duman, Abbasəli.

Başladın ki, "Qadası, qurban olum" söyləməyə,
Bu qeyz dalğasıdır ki, ay aman, Abbasəli.

İşin haqq, vərdişin haqq, qulluğun ədliyyə işi,
Haqqa möhtacdı bu gün cümlə-cahan, Abbasəli.

Əlli il də qadası, ən azı ömür et, hələlik,
Can sağ olsun, düzələr yerdə qalan, Abbasəli.

Abbasəlidən danışıb, Dərələyəzi yada salmasaq düzgün olmazdı. Pafoslu sözlərdən istifadə etməyi xoşlamıram. Sadəcə 4 ay bundan qabaq bir xatirə yadıma düşdü. Qələmə alıb "Modern.az" saytında çap elətdirdim. Adını "Abbasəlinin təəssüfü, İbrahimin arzusu"qoydum. Bu məqaləni o yazımdan Vətən həsrətli Abbasəli Novruzova aid hissəylə yekunlaşdırmaq istəyirəm. Təki təəssüfü çin olan arzuya çevrilsin. Amin!

"1988-ci ilin yay ayları idi. Yardımlıda idik. Nənəmgildə. Atam, anam, mən, xalam Raisə, xalamın əri Abbasəli , oğlu Anar. Şəhərin səs-küyündən uzaq, şəlaləli, bulaqlı, meşəlik bir mühitdə. Darıxmırdıq. Anam üçün anası, atası, bacısı, mənim üçün Anar, atam üçünsə həmpiyalə bacanaq Abbasəli. Qarşıda isə 2 aylıq bir yay tətili. Günlərin bir günü Abbasəli dedi ki, ay Qabil, sabah gedəcəyəm şəhərə, xalaoğlu Gülmalı ilə gedəcəyik Vətənə – Dərələyəzə. (Ermənistan SSR) Uşaqlığımızı yada salacağıq, qohumlarla görüşəcəyik. Bulaqlardan su içəcəyik.

Bu sözləri dedikcə Abbasəlinin gözləri parıldayırdı, işıq saçırdı. Bilirdi ki, bu gün Yardımlı bulağından su içən Abbasəli, sabah bu vaxt Dərələyəzdə olacaq. Uşaq-

lıq dostlarıyla birlikdə. Qəbrüstünə gedəcəklər, odun daşıyıb, tonqal qalayacaqlar. Toğlu kəsib kabab bişirəcəklər. "Kimiydik. Adi, yetim kənd uşağı. İndi isə polkovnikik, prokuroruruq, idarə rəisiyik" deyərək, qoyun otaran balacalara özlərini örnək də göstərəcəklər.

Üstündən iki gün keçdi. Abbasəli isə getmədi. Atam səbəbini soruşanda "Qabil, nə isə Gülmalının işi çıxdı, gedə bilmədik" dedi. Atam sevindi. Abbbasəli getsəydi darıxacaqdı axı...

Yay tətilini başa vurduq. Hamıya məlum, əslində məchul hadisələr başlandı. Növbəti yay yenə də Yardımlıdaydıq. 1989-cu il idi. Abbasəli qəmgin idi. Dərələyəz yenə də Yardımlıdan cəmi-cümlətanı bir addımlıqda idi. Gülmalı da vəzifədən çıxmışdı. Boş idi. Amma o yerlərə havalanmaq ümidi boşa çıxmışdı. Ara qarışmışdı. Yenə ümid var idi. Bəlkə gələn il... Amma simalarda ümiddən daha çox sual oxunurdu. Keçənilki ümid real idi, builki ümid isə sual. Bütün bunların isə bir cavabı vardı: Təəssüf. Abbasəli bir də Dərələyəzi görməyəcəkdi. Dəfələrlə məzuniyyətə çıxacaqdı. Görməyəcəkdi. Sərhəd Qoşunlarının baş komandanı olacaqdı. Görməyəcəkdi. General-mayor olacaqdı. Görməyəcəkdi. Gülmalı öləcəkdi. Görməyəcəkdi. "Eks" olacaqdı. Görməyəcəkdi. Bütün bu illərdə onu bir təəssüf boğacaqdı. Allah Gülmalının evini tiksin. Heç olmasa axırıncı dəfə o yerləri görəcəkdik... Üç nöqtə qoyub, köks ötürəcəkdi..."

AZƏRBAYCANCA "A-eM", "Yaraq". TÜRKCƏ...

ÇEÇEN YARAQLILARI

AzTV-də – "Xəbərlər"də Əziz Məlikli adlı iş yoldaşımız vardı. Təkcə "Xəbərlər"in xarici xəbərlər blokunu hazırlayırdı. Rusiyada Çeçenistan müharibəsinin getdiyi illər idi. O da hər proqramda çeçen yaraqlıları ilə rus qoşunları arasında gedən döyüşlərə xüsusi yer ayırırdı. Artıq AzTV peyk vasitəsilə dünyada, o cümlədən Türkiyədə də yayımlanmağa başlamışdı. Günlərin bir günü növbəti buraxılışdan sonra sədr Nizami Xudiyev Əziz Məliklini kabinetinə çağırtdırır və əsəbi halda:

-Ə Əziz, sən bir də videoblokda "çeçen yaraqlıları"

sözü işlətmə. Bildin?

-Niyə?

-İşlətmə də... Denən ki, məsəlçün "çeçen döyüşçüləri". Başa düşdün?

-Niyə axı? Burda pis nə var ki? Azərbaycan dilində deyirəm də "çeçen yaraqlıları".

-Demə də... bildin?

-Niyə axı?

Əzizin əl çəkmədiyini görən Nizami müəllim yaraqlı sözünün izahını verməyə məcbur olur.

-Ə Əziz, indicə dostlar Türkiyədən zəng eləmişdilər ki, "Bəs sizin "Xəbərlər"ə türklərlə bir yerdə baxa bilmirik. Xarici xəbərlər blokunda Əziz Məlikli hər "yaraqlı" sözü deyəndə, türklər qəşş edib özlərindən gedirlər. Biz də pərt vəziyyətində qalıb onlara baxırırq". İndi bildin, bala? Türkiyədə "yaraq" kişinin cinsiyyət üzvünə deyirlər. Yəni ki, bu pis sözdür. Başa düşdün? Get, bala, get. Bundan sonra belə pis-pis sözlər yazma.

"A-eM"

Rusiyanın Azərbaycandakı səfirinin müavini yeni təyinatına Türkiyədən gəlibmiş. Və türkcə də az-maz qırıldatmağı bacarırmış. Hansısa qəbulda səfirlə durub söhbət edəndə mədəniyyət nazirinin də özünün "AZ-10 AM-777" dövlət nömrə nişanlı hökumət maşınıyla ora yaxınlaşdığını görürlər. Türk dilini, xüsusilə də söyüş və biədəb sözlərini gözəl bilən müavin səfirin qulağına

nəsə pıçıldayıb gülür. Mədəniyyət naziri onlara yaxınlaşıb salamlaşanda:

-Cənab nazir, maşınınız gözəldir, amma nömrəsi çox biədəbdir e?

-Nəyi biədəbdir ki, məncə əla nömrədir – "AZ-10 AM-777"

-777 nömrəsi yaxşı olmağına yaxşıdır, amma bu "AM" nəsə biədəb səslənir.

Məsələnin nə yerdə olduğunu anlayan mədəniyyət naziri özünü sındırmadan:

-Siz nə danışırsınız? Nə biədəb? Özüm xüsusi olaraq seçmişəm bu nömrəni. "A-eM" Yəni ki, "Azərbaycan Mədəniyyəti".

HACIBALA MÜƏLLİM, HANSI YAXŞIDIR ÖLÜ, YOXSA İLANA ZƏHƏR VERƏN KƏRTƏNKƏLƏ?

Mən bu yazımda Hacıbala Abutalıbova daha çox ailəmizin baxış bucağından baxacağam: Atamın, anamın və mənim. Sağlığında qiymət verək insanlara.

BUĞA

1995-ci il idi. Atam dedi ki, gəl maşını götür, apar məni Suraxanıya. İcra başçısı Hacıbala dəvət edib. Yaxşı kişidir. Səni də tanış edəcəyəm. Nə qədər dedi ki, Qabil müəllim, maşın göndərim dalınca... razı olmadım. Dedim ki, Mahirlə gələcəyəm.

Səhəri gün atamla gəldik Suraxanı Rayon İcra Hakimiyyətinə. Binanın qarşısında qələbəlik vardı. Qonaqlar, sakinlər. Yol aldıq Zığ qəsəbəsinə. Burada Buğa heykəlinin açılışı idi. Mən sonra bildim ki, cavanlığı Leninqradda keçən başçı artıq rayon ərazisində bir neçə heyvan heykəli ucaldıb. Bəs niyə məhz buğa? Sonradan məlum oldu ki, onun da, bizim də ideal kimi baxdığımız Heydər Əliyev "Buğa" bürcündənmiş. Ona görə. Tədbir bununla yekunlaşmadı. Ev tikdirməyə ehtiyacları olanlara torpaq sahələrinin sənədləri də təqdim olundu. Sonra da Hacıbala müəllim elan etdi ki, mənim qəbul günüm yoxdur. Günün hansı vaxtı gəlsəniz, qulluğunuzda hazıram.

HACIBALA MÜƏLLİM, SU GƏLMİR

"Xəbərlər"də işləyirdim. Baldızım işə zəng elədi. Bacanağımgil Suraxanı rayonunun Günəşli qəsəbəsində doqquzmərtəbəli evin 8-ci mərtəbəsində yaşayırdılar. Şikayətləri də bu idi ki, Mahir, bir həftədir ki, binada su yoxdur. Zəng elədim 09-a. İcra hakimiyyətinin nömrəsini aldım. Telefonu Hacıbala müəllimin özü götürdü. Çaşıb qaldım. Demə məlumat bürosuna öz nömrəsini veribmiş. Məni tanıdı. Dərdimi dedim:

– Hacıbala müəllim, zəng eləmişdilər sakinlər. Şikayətləri var. Filan binada bir həftədir ki, su yoxdur.

– Mahir, Suraxanı rayonunda su problemi yoxdur.

– Necə yəni yoxdur. Baldızım zəng eləmişdi ki, bəs suyumuz gəlmir.

– Suyumuz gəlmir ola bilər. Amma Suraxanı rayo-

nunda su problemi yoxdur. İnanmırsan zəng elə baldızından bir də soruş.

Dəstəyi asdı. Yenidən baldızıma zəng etdim. Məlum oldu ki, xətdə su var, sadəcə nasos işləmədiyindən 8-ci mərtəbəyə su qalxmır. Yenidən suyu süzülə-süzülə zəng etdim. Məsələni yenidən anlatdım.

– Mahir, bax bu başqa məsələ. İndi dərslərin verərəm ki, niyə nasos xarabdır.

İki saatdan sonra baldızım zəng elədi ki, bəs Mahir, su gəldi.

HACIBALANIN TƏCRÜBƏSİ

Ümummilli lider Heydər Əliyev tərəfindən və xüsusi sərəncamla işi-gücü, fəaliyyəti bütün ölkəyə nümunə göstərilən Hacıbala müəllim atamın da yaxın dostu idi. Bu sərəncamdan sonra atam ona "Alim-hakim" adlı şeir də həsr etdi.

Qapısında polisi yox,
Cangüdəni-dəlisi yox.
Qana həris zəlisi yox,
Yalan "bəli-bəli"si yox.
Hər tədbiri əsl bayram,
Bilməz yaz-qış – fəsil, bayram.
İş otağı tikintilər
Hacıbala.
Çöllərdədir axşam-səhər
Hacıbala.

Atam xəstələnəndə məndən əvvəl birinci o özünü yetirərdi. Sovqatıyla. Anamın əlindən öpürdü. Hal-əhval tuturdu. Onların ikisini haradasa bircə şey birləşdirirdi. Heydər Əliyevə sonsuz məhəbbət və ehtiramları. Ümummilli liderimiz öləndən sonra Hacıbala müəllim iş gününə onun qəbrini ziyarət etməmiş başlamır. Atam xəstələnəndən sonra bir yerdə yaşayırdıq. Hər səhər yuxudan duranda "Allah Heydərə rəhmət eləsin. Nə yaxşı ki, bu evi mənə bağışladı. 28 kvadratmetrə 6 adam necə sığışacaqdıq?" deyirdi.

TOY

Oğlunun toyu idi. Atamı, anamı da dəvət etmişdi. Prezidentimiz Heydər Əliyev də xeyir-dua verəndə soruşmuşdu ki, ziyalılardan kimi çağırıb? Demişdi ki, təkcə Qabili. Ulu öndərimiz də "Düz eləmisən. Onda bir stol ətrafında otuzdurarsan onları: Qabili, Cəlalı (Cəlal Əliyev), İlhamı (İlham Əliyev) və həyat yoldaşlarını".

SÜRÜŞMƏ ZONASI

Nərimanov heykəlinin yanında sürüşmə zonası yaranmışdı. Daha dəqiq desək, sürüşmə mifi. Nə məsələydi deyə bilmərəm. Çünki o boyda hay-küydən sonra tikintisi dayandırılmış ev də tikilib başa çatdı. Sürüşmə də guya ki, öz-özünə dayandı. Bu məsələdə təkcə Hacıbala müəllimin adı hallanırdı. Düzün desək, arada qalmışdı. Bütün televiziyalar, qəzetlər düşmüşdük üstünə. Biz Az.TV olaraq rəsmi məlumatlara əsaslanırdıq. Digərləri isə Hacıbala müəllimi dirəmişdilər divara.

Etika xətrinə kimliyini demək istəmirəm. O da kamerasıyla gəldi sürüşmə zonasına. Bir-iki dənə də əndrabadi sual verdi. Hacıbala müəllim etika xatirinə susdu, cavab vermədi. Maşınına tərəf yönəldi. Hərəkət edə-edə: "Burnunuzdan gəlsin sizə etdiyim yaxşılıqlar".

Jurnalistlərdən ilk incikliyini orda gördüm.

İLANA ZƏHƏR VERƏN KƏRTƏNKƏLƏ

Həmkarım Akif Məcidoğluyla çəkilişə yollanmışdıq. Mətbuat prospektində asfalt çəkirdilər. Hacıbala müəllim də işin başında. Yaxınlaşdıq. Müsahibə götürmək istədik. Razılıq verdi. Uzaq 1992-ci ildə, Heydər Əliyevi müdafiə və yaş senzinin aradan götürülməsi məqsədilə Milli Məclisin qabağında keçirilən mitinqdə Hacıbala müəllimdən ilk müsahibə götürüb "Xəbərlər"də efirə verən məhz Akif Məcidoğlu olmuşdu. Ulduzu da məhz o vaxt parlamışdı. (İndi də parıldayır.) Ona görə xətrini çox istəyirdi. Məni də... əlbəttə ki, Qabilə görə. Anar demişkən "Adamın adamı"ydım.

Nə isə Akifin əlinə fürsət düşmüşdü. 5-6 sual verdi. Akifə yaxınlaşdım. Qulağına pıçıldayıb daha bir sualı yadına saldım.

– Hacıbala müəllim, Nərimanov rayonu ərazisində erməni qəbiristanlığının sökülməsi və yolun çəkilişi yarımçıq qalıb. Səbəbi?

Hacıbala müəllim fikirləşmədən:

– Akif müəllim, Mahir kimi ilana zəhər verən kərtənkələlər olmasaydı, çoxdan yolu çəkib qurtarmışdım.

HACIBALANIN MƏKTƏBİDİR

Həmkarım Akiflə Suraxanı Rayon İcra Hakimiyyətinə çəkilişə getmişdik. İcra başçısı bir vaxtlar Hacıbala müəllimin müavini işləmiş Natiq müəllim idi. Bizi qəbul otağında qarşıladı. İçəri dəvət etdi. Öz kreslosunda oturmadı. Bizimlə üzbəüz əyləşdi. Çay gətirtdi. Mehribanlıqla söhbət etdi. Başqa icra başçılarını da görmüşdüm. Kreslolarından güclə tərpənirdilər salam verəndə. Ona görə də Natiq müəllimi qəribə-qəribə seyr edirdim. Bu Akifin nəzərindən qaçmamışdı. Çıxanda dedi:

-Mahir, məəttəl-məəttəl baxma. Burda hamını belə qarşılayırlar. İstəyir AzTV olsun, istəyir şikayətçi sakin. Hacıbalanın "şkola"sıdır.

QABİLİN SONUNCU ŞEİRİ

2007-ci ilin fevral ayı idi. Hacıbala müəllim atamın son kitabı olan (əlbəttə ki, onda bunu nə atam bilirdi, nə də o) "Ömrün gecə qatarı"nın nəşrini öz üzərinə götürmüşdü. Xərcini də ödəmişdi. Kitab atamın 40 mərasiminə hazır oldu. Kitabı vərəqləyəndə məlum oldu ki, atam son şeirini 1 yanvar 2007-ci ildə yazıb və "Söz ardı" adlanır. 1999-cu ildə Hacıbala Abutalıbova həsr etdiyi "Alim-hakim" şeirinə "Söz ardı:"

Bu gün Bakı şəhərinin
Pərvanəsi Hacıbala.
Abadlığın-gözəlliyin
Divanəsi Hacıbala.

Yaxşı işlər şövqündədir
Vüsətiylə Hacıbala.
Müasirlik zövqündədir
Xislətiylə Hacıbala.

İşindədir-gücündədir,
Yorulmayır.
Acı dildən qanadları
Qırılmayır.
Bakı meri
Sadə, həlim Hacıbala.
Beş-onuna xoşagəlməz,
Camaata xoşagəlim Hacıbala.

Onu da bildirim ki, Hacıbala Abutalıbov yeganə icra başçısıdır, prezident sərəncamıyla yox, prezident fərmanıyla vəzifəyə təyin edilib.

BÜST

Atam artıq rəhmətə getmişdi. Fəxri Xiyabana ziyarətə gedəndə rastlaşdıq. Özü yaxınlaşdı, salamlaşdı. O sahəyə cavabdeh Cavanşir müəllim də yanındaydı. Dedi:

-Mahir, Cavanşir müəllimə də göstəriş verəcəyəm. İcazə ver Qabilin, dostumun qəbrinin üstünü mən götürüm. Büstünü qoydurum.

Əlbəttə ki, mən razı olmadım. Çünki, atamın başqa dostu ondan əvvəl heykəl söz vermişdi (əməl eləmədi). Hacıbala müəllim, mən əminəm ki, siz dediyinizi edəcəkdiniz. Gec də olsa, ***MİNNƏTDARLIQ.***

HANSI YAXŞIDIR ÖLÜ,

YOXSA İLANA ZƏHƏR VERƏN KƏRTƏNKƏLƏ?

Hacıbala müəllim, 2005-ci ildə mən jurnalistə "zəhərə ilan verən kərtənkələ" dediniz. Düzgün bənzətməydi. Razılaşıram. Bir güllə ilə iki jurnalist vurmuşdunuz. Hər məmura qismət olmur. Akif "ilan", mənsə "kərtənkələ". Bu gün də danışıb gülürük. Heç kimə də deməmişdik. Bu günlərdə eşitdim ki, bəzi jurnalistlərə "jurnalist görəndə elə bil ki, qəbirdə ölü görürəm" demisiniz. İndi görəsən hansı yaxşıdır? Ölü, yoxsa ilana zəhər verən kərtənkələ?

Yeri gəlmişkən. Mayın 13-də ad gününüzdür, 69 yaşınız tamam olur. Ad gününüz mübarək, Hacıbala müəllim.

Hörmətlə:

Qabiloğlu Mahir.

HEYDƏR ƏLİYEVƏ SƏDAQƏTDƏ "HACIBALA ABUTALIBOV ETALONU"

İllər ötdükcə Heydər Əliyev şəxsiyyəti mənim-çün daha çox açılır. Yox, kitab, salnamə və di-gər ədəbiyyat oxumuram. Oxumağa ehtiyac da yoxdur. Çünki Heydər Əliyevin həm sovet, həm də müstəqillik illərində müasiri olmuşam. Ona görə də sadəcə yaddaşımı vərəqləyirəm. Vərəqlədikcə da yeni məqamlar üzə çıxır. Çıxdıqca da qələmə alıram.

Ulu öndərin vəfatının ildönümü ərəfəsində bəzi xatirələr yadıma düşdü. İlk olaraq illər boyu məni maraqlandıran bir suala – Görəsən, Heydər Əliyev insanlarda ən çox hansı xüsusiyyəti qiymətləndirirdi?, sualına cavab tapdım. Axı, bu hansı xüsusiyyət idi ki, ümummilli lider qarşısındakının bütün günahlarını bu ali insani xüsusiyyətə bağışlamağa hazır idi.

Görəsən, Heydər Əliyevin ictimai-siyasi həyatında bu keyfiyyətə malik insanlar çoxmu olub?

"İCRA BAŞÇILIĞINDAN İMTİNA..."

Əvvəllər rayon, şəhər icra hakimiyyətləri başçıları eyni zamanda YAP şəhər, rayon təşkilatlarının sədrləri idi. Səhv etmirəmsə 1999-cu ildə – 1-ci qurultay ərəfəsində bu prinsip dəyişdirildi. Bütün icra başçıları təbii ki, "icra başçısı" postunda qalmağa üstünlük verdilər. Təkcə Suraxanı Rayon İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbovdan başqa. O bu vəzifələrdən birini – YAP Suraxanı rayon təşkilatının sədri vəzifəsini seçdi. Və bununla bağlı Prezidentə və partiya rəhbərliyinə müraciət etdi. Bilirsinizmi niyə? Çünki YAP-ın yaradılmasında yaxından iştirak etmişdi. Xalqımızın ağır günlərində YAP-ın ön sıralarında – Heydər Əliyevin yanında addımlamışdı. Onun silahdaşı olmağından fəxr duymuşdu, duyurdu, indi də duyur. Bu partiya ona əziz idi, doğma idi. O bilirdi ki, vəzifə müvəqqətidir, ideologiya isə əbədi.

İndi söyləyəcəksiniz ki, bunu deməyə nə var ki... Hünəri var idi sözdə yox, əməldə bunu həyata keçirəydi. Kabinetindən, kreslosundan, vəzifəsindən sözün əsl mənasında imtina edəydi. Rəsmi ərizə yazaydı.

Hacıbala müəllim belə də etdi. Suraxına Rayon İcra Hakimiyyəti başçısı vəzifəsindən indiki dildə desək, istefa verdi, bundan sonra YAP təşkilat sədri kimi fəaliyyət göstərəcəyindən qürur duyduğunu bəyan etdi. Əlbəttə ki, nümayişkaranə, mətbuatda populist çıxışlar-

la yox. Yoxsa mənim bu məqaləni yazmağa lüzum duyulmazdı. Şəxsən ümummilli liderimiz Heydər Əliyevə və partiya rəhbərliyinə xitabən bu addımı atdı. Hətta sərəncamını gözləmədən icra hakimiyyətindən uzaqlaşıb, köhnə iş yerinə, instituta – laboratoriyaya qayıtdı. Alimlik və partiya həyatını yaşamağa, ən çox sevdiyi şahmat oyununun dadını çıxarmağa başladı.

Bu olaydan isə mən təsadüfən – Hacıbala müəllimlə atamın bizim evdə etdiyi söhbətin şahidi kimi xəbər tutdum.

Əlbəttə ki, böyük siyasətçi Heydər Əliyev Hacıbala Abutalıbovun bu addımını bağışlamadı. Bir Prezident kimi onu Suraxanı Rayon İcra Hakimiyyəti başçısı vəzifəsindən, YAP-ın sədri kimi isə rayon təşkilatının sədri vəzifəsindən azad etdi. Amma Hacıbala müəllimin YAP-a sonsuz məhəbbəti, dönməz əqidə və sədaqəti yüksək qiymətləndirildi. Prezidentimiz Heydər Əliyev onu əvvəl Baş nazirin müavini, sonra isə Bakı Şəhər İcra Hakimiyyətinin başçısı vəzifələrinə yüksəltdi. Təkrar da olsa deməliyəm. Çünki yerinə düşür. Müstəqil Azərbaycan dövlətçiliyinin 22 illik tarixində yeganə icra başçısıdır ki, Hacıbala müəllim bu vəzifəyə Prezident sərəncamıyla yox, fərmanla təyin olundu.

Qiymətləndirmə bununla bitmədi. YAP-ın 1-ci qurultayında isə 1 nömrəli üzvlük vəsiqəsinin sahibi olan ümummilli liderimiz Heydər Əliyev özündən sonra YAP-ın 2 nömrəli üzvlük vəsiqəsinə məhz Hacıbala müəllimi layiq gördü. Bu mənim bildiklərimdir. Bilmədiklərim isə təbii ki, bildiklərimdən daha çoxdur.

O vaxtdan illər ötür. Heydər Əliyev artıq 10 ildir ki, haqq dünyasındadır. Hər gün ulu öndərin məzarı üzərinə yüzlərlə müxtəlif ziyarətçi gəlir. Lakin bu məzarlığın bircə daimi ziyarətçisi var. O da professor Hacıbala Abutalıbovdur. Hər səhərinə ulu öndərin məzarını ziyarətilə başlayan Hacıbala müəllim.

Sədaqət mücərrəd anlayışdır. Onu gözlə görmürsən. O hər bir insanın içində, çövhərində, mayasındadır. Mənim üçün professor Hacıbala Abutalıbov 1991-ci ildən sədaqətin təcəssümüdür. Sadəcə sədaqət etalonu– Heydər Əliyevə sədaqətdə "Hacıbala Abutalıbov etalonu".

QIZIN ATAYA SEVGİSİ... SONU FACİƏ

Dənizkənarı park. Bulvardakı saat qülləsi. Qələbəlik. Attraksionlar. Kafe, restoranlar. Qağayılar. Gəmilər, Yaxt klub, Kristal zal. Yox bunları sizə tanıtmaq fikrim yoxdur. Sadəcə hər dəfə bulvara gedəndə sanki bu şeyləri görmürəm. Ürəyim açılmır. Bulvar mənim yaddaşıma başqa cür həkk olunub.

Bulvardakı saat qülləsi əvvəllər attraksion kimi fəaliyyət göstərib. Paraşütlə atdanırmışlar kəlləsindən. Günlərin bir günü bədbəxt hadisə baş verib və attraksionu yığışdırıblar. Tablo quraşdırıb adını "Saat qülləsi" qoyublar. Yanına rütubət, hava, külək haqda məlumatlar da yerləşdiriblər. İndi deyəcəksiniz ki, bütün bunları sadalayıb nə zəhləmizi tökürsən? Bunları bilmirik ki... Səbrli olun. Başlayıram. Ata – qız məhəbbəti və bunun faciəvi sonluğu.

Oğlan qızı sevir. Atası başqasına verir. Oğlan özünü asır. Ya da əksinə. Bunu çox eşitmişik. Yaxud da balası ölür. Ata-ana dərdə dözə bilmir. Ürəyi partlayır. Bunu da görmüşük. Amma danışdığım bu faciəyə 33 ildir ki, rast gəlməmişəm. Ondan əvvəl də olmayıb. Olsaydı danışardılar, yazardılar. Heç kimə də arzulamıram.

HÜSÜ HACIYEV 19 – KÜRÇAYLILAR AİLƏSİ

Əliağa Kürçaylı qonşumuz idi. Beşinci mərtəbədə yaşayırdı. Bəxtiyar Vahabzadə ilə qapıbir qonşu idi. Balkonları bizim balkona baxırdı. Yay vaxtları balkondan balkona yaradıcılıq söhbətləri eləmək, salamlaşmaq, hal-əhval tutmaq qonşularımızda adət idi. Hətta bu səs-küyə Hüsü Hacıyev küçəsindən keçənlər də şahidlik edirdi.

– Salam, İlyas müəllim.(İlyas Əfəndiyev)

– Salam, Qabil.

– Romanınızı oxudum.

– Öhö-öhö. Bəs niyə demirsən əladır.

Və yaxud da. "Salam, Mirmehdi müəllim. (Mirmehdi Seyidzadə)" Salam, Zeynal müəllim" (Zeynal Xəlil). Hər salamlaşmanın axırı da hansısa yaradıcılıq söhbətləri. Polemikalara İsmayıl Şıxlı, Əmir Mustafayev, Məsud Əlioğlu da qoşulurdu. Bəzən qismən cavan yazıçılardan biri "yox, belə alınmır. Gəlin yığışaq bizə" deyirdi. Balkonlararası yaradıcılıq söhbətləri, süfrə arxasında xoş ünsiyyətə çevrilirdi. Bilmirəm nədəndir... amma yemək-içməyə daha çox şairlər təşəbbüs göstərirdilər. Nasirlər isə romanlarının həcmi kimi ağır idilər. Atam

demişkən: "Ədəbiyyatımızın ağır artilleriyası, tankı".

Bir haşiyə çıxım. Günlərin bir günü Bayram Bayramov atamı tərifləyir:

– Qabil, sənin şeirlərin ləl-cəvahirata bənzəyir. Misralar isə qızıl telə asılmış brilyant, yaqut, firuzə.

– Çox sağ ol, Bayram. Sənin də cild-cild romanların, qalın kitabların ədəbiyyatımızın tankıdır, topudur, uzaqvuran artilleriyasıdır.

– Sağ ol, Qabil. Mən sənə qızıl, brilyant deyirəm, sən isə mənə metallom.

SOVETLƏR TƏKCƏ YARADICILIĞI YOX, MÜHİTİ DƏ FORMALAŞDIRIRDILAR

Soveti bəyənmirik. Yazıçılara, şairlərə bir binada mənzil verməklə necə də gözəl yaradıcı mühit yaratmışdı. Mən də həmişə fəxrlə qeyd edirəm ki, bu yaradıcı mühitin yetirməsiyəm. Hərəsindən bir şey götürmüşəm. İstər yaradıcılıq, istər insaniyyətlik, istərsə də ailəyə münasibət prizmasından. Bunu nə təhsil almaqla, nə cild-cild kitablar oxumaqla, hansısa tanınmış yazıçının ədəbi cərəyanı davam etdirməklə, Yazıçılar Birliyinin üzvü, ya da istedadlı olmaqla əldə etmək mümkün deyil. Qonşu həyətlərin isə "Bəstəkarlar evi", "Alimlər evi" olmasını bura əlavə etsəm, mən və mənim kimi yazıçı övladları hansı zəngin mühitdə yaşamağımızla fəxr edə bilərik. İndi isə vəziyyət başqa cürdür. "Biri Aranda yaşayır, biri Turanda"

ƏLİAĞA ƏMİ

Evimizdən dəniz görsənməsə də bulvardakı saat qülləsi aydın sezilirdi. Bəzən saatı öyrənmək üçün ora baxırdıq. Amma hərarət, külək göstəriciləri xırda olduğundan oxumaq olmurdu.

Əliağa Kürçaylının iki övladı vardı. Oğlu Ülfət, qızı Ülkər. Ülkər atasına çox oxşayırdı. Əksi idi Əliağa əminin. Atası da çox istəyirdi onu. O da atasını. Deyəcəksiniz ki, burda qeyri-adi nə var ki? Düzdür, yoxdur. Amma zaman göstərdi ki, var. Ülfətlə Ülkər yaşca məndən böyük olsalar da, Əliağa əmi, Şəhla xala atam-anamla həmyaşıd idilər. Qeyd edim ki, Şəhla xala (Allah uzun ömür versin) böyük xanəndəmiz Cabbar Qaryağdıoğlunun qızıdır. Əliağa əmi məni adımla çağırmırdı. Qəşəng ad qoymuşdu. Sadəcə deməyəcəyəm. Utanıram.

Əliağa Kürçaylı, Salam Qədirzadə və atam üçlüyü bir-birinin daimi qonaqları idi. Ona görə də qaynayıb qarışmışdıq. Atamın 50 yaşı tamam olmuşdu. Şöhrətinin pik yoluna qədəm basmışdı desəm, yanılmaram. Salam Qədirzadə də "Kirpi" jurnalının baş redaktoru idi. Cild-cild povest-romanları əllərdə gəzirdi. Əliağa Kürçaylı da 50 yaşına çatırdı. Artıq tanınırdı. Yeni yaranan "Yazıçı" nəşriyyatına baş redaktor təyin etmişdilər onu. Növbədə Dövlət Mükafatı Laureatlığına namizədliyi gözlənilirdi.

50 YAŞDA ÖLÜMƏ HAZIRLIQ

Bir gün atam evə dilxor gəldi. Mənim 13 yaşım vardı. Birinci bizə xəbərdarlıq etdi ki, ""nəbadə çaşıb ağzı-

nızdan qaçırasınız, özü bilmir. Ülkər də bilmir. Əliağa "rak"dır. Moskvaya gedir".

O vaxt belə şeyləri gizlədirdilər. İndi isə hər şey dəyişib. Həkim xəstənin üzünə deyir hər şeyi. O da çemodanını yığışdırıb başlayır Əzrayılı gözləməyə.

Əliağa əmi Moskvaya getdi. Bir müddətdən sonra qayıtdı. İlk olaraq biz getdik dəyməyə. Yaxşı idi. Təəssüratlarını həvəslə bölüşürdü. Əgər buna təəssürat demək mümkündürsə.

– Məni akademik, Sosialist Əməyi Qəhrəmanı Nikolay Bloxin müayinə etdi. Dedi heç nə yoxdur. Böyrəyində bəzi çatışmazlıqlar var. Sən yaşda kişilərdə belə şeylər olur. Şəxsən özüm əməliyyat edəcəyəm, keçib gedəcək. Sağ olsun. Əli yüngüldü. Hər şey də qaydasındadır.

– Şükür, Əliağa. Şükür. Cavan adamsan. Özü də sən mən deyilsən ki... iradəlisən. Keçib gedəcək. Düzələcəksən.

Sadə, ürəyində heç nə saxlamayan atam artistlik edirdi. 13 yaşlı mən də tamaşa edirdim. Atam artıq bilirdi ki, Əliağa əməliyyat olunub. Şiş çıxarılaraq əkilib. Cavab da bədxassəli gəlib. Yəni Əliağanın ömrünün axırına aylar qalır.

Üstündən bir müddət keçdi. Özünün dediyi olmadı. Yaxşılaşmaq əvəzinə ağrıları artırdı. Artıq morfi vurulmağa başlanmışdı.

İkinci dəfə Moskvaya uçdu. Qayıtdı. Yenə də təəssüratlar.

– Bloxin yenidən əməliyyat elədi. Dedi ki, hər şey yaxşı olacaq. Böyrəklərin qaydasına düşəcək.

Diqqətim atamda idi. Özünü saxlayırdı. Bilirdi ki, Əliağanın xətrinə dəyməsin deyə Bloxin onu əməliyyat yox, sadəcə bədəndə kəsik edib təzədən tikib. Loru dildə desək açıb, bağlayıb. Ümidin qırmasın deyə. Axı bu xəstəliyin müalicəsi yoxdur.

Ağrılar isə artırdı. Yay ayları idi. Demə ağrılar o qədər şiddətli olurmuş ki, Əliağa əmi gecələr də yata bilmirmiş:

– Qabil, ağrıdan səhərəcən yata bilmirəm. İynə də təsir etmir.

– Bəs neyləyirsən?

– Yaxşı ki, bulvardakı o saat qülləsi var. Səhərəcən oturub ona baxıram ki, görəsən səhərin açılmasına nə qədər qalıb? Həmdəmim o saat qülləsidir.

Günlərin bir günü atam evə yenə dilxor gəldi.

– Mən külbaş əvvəlcədən bilsəydim Mirini xəbərdar edərdim də.

– Ay Qabil, nə olub ki?

– Nəşriyyatda Əliağanın yanındaydım. Dedi ki, "ay Qabil, mən bu Moskvadakıları çox tərifləyirəm. Sağalmaqdan da əksinə geri gedirəm. Bu boyda dünya şöhrətli uroloq Cavadzadə qulağımızın dibində, amma mən bir dəfə də ona müraciət etməmişəm. Nə deyirsən?" Mən də nə deyim. Getdik professorun yanına, o da analizlərin cavabına baxıb dedi ki, "səndə uroloqluq bir iş yoxdur".

– Qabil, lap yaxşı da. Burda pis nə var ki?

– Heç nə... Əliağa başa düşdü.

– Nəyi?

– Başa düşdü ki, "rak"dır. Bloxin onu aldadıbmış. Demə əlacsızmış. Bütün yolu bir kəlmə də danışmadı. Yazıçıların Poliklinikasına girib, iynəsini vurdurub qalxdı evə.

Üstündən bir ay keçdi. "Rak" azmış kimi küçəni keçəndə maşın vurdu Əliağa əmini. Ayağı sındı. Gipsə saldılar. Üstündən 2-3 gün keçməmiş gipsi çıxarıb atdı. Bir də gipsə saldılar. Atam gileyləndi.

– Əliağa, uşaq deyilsən ki, belə eləmə. Qoy tez bitişsin də... Yadındadır məni də maşın vurmuşdu.

– Qabil, mənim daxilimdə elə ağrılar var ki, sınığın ağrısı bunun yanında heç nədir.

Qızı Ülkər onda Nizami adına Ədəbiyyat muzeyində işləyirdi. İşə getmirdi. Evdəkilər, qonşular bir gün təkid edirlər ki, "işə get. Bir az eynin açılsın. Biz atovun yanındayıq. Narahat olma".

Beləcə yola gətirdilər. Getdi. Qayıdanda isə...

Otağa girir. Üzü mələfə ilə örtülmüş atasına sonuncu dəfə baxır. Heç nə demir. Evdəkilərinin gözündən oğurlanır və piyada bulvara üz tutur. Uşaqlıqdan özündən getməsi olurdu. Amma yol boyu bu baş vermir. Fevral ayının soyuğunda bulvara çatır. Özünü Xəzərə atır. Beləcə atasına qovuşur. Bununla da atasına sonsuz məhəbbətini, qeyri-adi sevgisini, onsuz yaşaya bilməyəcəyini sözlə, ağılarla, məzarının başında ağlamaqla, saçını yolub küləyə verməklə deyil, həyatı bahasına sübut edir. "Torpaq soyudur, dərdləri unutdurur" deyirlər. Amma onun dərdini atasının tapşırılacağı torpaq yox, Xəzərin

soyuq, buzlu ləpələri soyudur.

Atasının son dəfə çap olunan vida kitabıının adına çevrilir – Qara rəngli cilddə "Ülkər"adına.

EPİLOQ

Artıq altı ildir ki, binamızın qabağında 12 mərtəbəli bina ucaldıblar. Saat qülləsinin də qabağı kəsilib. Əliağa Kürçaylının həmdəmi, ümid yeri, yuxusuz gecələrinin sirdaşı olan saat qülləsi. Adı da digər unudulan şairlərimizin, yazıçılarımızın adları sırasındadır. Hərdən mahnıları səslənir. "Harda olsam gələrəm, təki sən səslə məni".

Bulvarda gəzirəm. Qağayılar uçuşur. Bulvarın hər yerindən iki şey aydın görünür. Biri saat qülləsidir, biri də Xəzər. Qülləyə baxanda Əliağa əmini görürəm, Xəzərdə isə onun Ülkərini – sularda əksi qalan Ülkər ulduzunu.

HEYDƏR ƏLİYEVİN HƏYATINDA BAYRAM BAYRAMOV ÇEVRİLİŞİ

"Sadə insanlara qarşı münasibətdə çox sadə davranırdı. Baxmayaraq ki, ömrünün müxtəlif çağlarından ədalətsizlik, satqınlıq, xəyanətlə üzləşmişdi. Elə bu salonda onun vaxtilə irəli çəkdiyi insanlar ona qarşı əsassız hücumlar etmişdilər. Amma o, prezident seçiləndən sonra bu adamların əksəriyyətini bağışladı və bir daha öz böyüklüyünü göstərdi. Bu gün müzakirə etdiyimiz amnistiya aktı əslində bağışlamaq nümunəsidir". Heydər Əliyev Fondunun prezidenti, millət vəkili Mehriban Əliyevanın bu çıxışı məndə də müxtəlif xatirələri oyatdı. 1991-ci ilin noyabr ayına qayıtdım. Ən əsası isə o vaxtdan bu günə qədər tapa bilmədiyim və çox adamın mənə yazıçı Bayram Bayramovun qonşusu olduğuna görə verdiyi suala

cavab tapdım. Bayram Bayramov həbsdə deyil, haqq dünyasındadır. Amnistiya aktının ona heç bir dəxli yoxdur. Millət vəkili yox, yazıçı Bayram Bayramovun reablitasiyaya ehtiyacı var. Bu isə Milli Məclisin səlahiyyətində deyil. Baxmayaraq ki, bu hadisələr parlamentin divarları arasında baş verib. Düz 22 il əvvəl.

Mehriban Əliyevanın sözlərinə əsaslansaq, Heydər Əliyev "prezident seçiləndən sonra bu adamların əksəriyyətini bağışladı". Yəqin ki, Bayram Bayramov da bu şəxslərin arasındaydı. Belə olmasaydı Qarabağa Xalq Yardımı Komitəsi ləğv olunardı, ofisi əlindən alınardı, Bayram əmi də öldüyü günə qədər onun sədri kimi qalmazdı. Fəxri Xiyabanda basdırılmazdı. Mən Bayram əminin çıxışını bircə dəfə gördüm, eşitdim – o da 1991-ci ilin noyabrında – canlı yayında. Heydər Əliyev onu bağışlamasaydı bu çıxışı onun prezidentlik dövründə dəfələrlə efirə verərdilər? Heydər Əliyev onu bağışladı. Görəsən niyə? Bayram Bayramov fit çalmasa da, ayaqlarını yerə vurmasa da, "reqlament, reqlament" qışqırmasa da Heydər Əliyevə və özünə yaraşmayan, heç kimin gözləmədiyi bir çıxış etdi. Yazıçı kimi? İnanmıram! Yazıçılar Heydər Əliyevi dünyalar qədər istəyirdilər. Amma nədənsə Bayram Bayramovun bu çıxışını, ümumiyyətlə o iclasda baş verən hadisələri mən Heydər Əliyevin ictimai-siyasi həyatında bir dönüş, çevriliş hesab edirəm. Ruslar demişkən, "Net xuda bez dobra".

Az.TV-də işləyirdim. İdarələrdən birinə çəkilişə getmişdim. Müsahibim idarənin rəisi idi. Adını soruşdum. Dedi ki, "Bayram". Familiyasını soruşdum. Dedi

ki, “Bayramov”. Üzümdə bir təbəssüm yarandı. “Hə, nə yaxşı, Bayram Bayramov?” Ardıyca deyəcəkdim, görkəmli yazıçımız, mənim qonşum Bayram Bayramovun adaşı... Macal vermədi. “Bayram Bayramov” yox, “Bayramov Bayram”. Pərt olmuşdum. Gözüm bir nöqtəyə dikilmişdi. Fikirləşirdim ki, görəsən Bayramov Bayram Bayram Bayramovu tanıyırmı? Yoxsa həyatında bircə dəfə televizorda, 1991—ci ilin noyabrında görüb?

APREL 1985

Uşaq idim, qapı döyüldü. Gələn qonşu Bayram əmi idi. Atamla görüşdü, öpüşdü.

-Bayram, nə vaxt qayıtmısan?

-Dünən.

-Ayrıca təyyarə ayrılmışdı. Tanıdığın adamlar idi. Heydər Əliyevçün ağır itkidir. Elə hönkürürdü ki... Biz də birtəhər olmuşduq. Onu belə görməmişdik. Zəhmli, qətiyyətli Heydər Əliyev Zərifə xanım itkisindən yumağa dönmüşdü. Özü də bu yaşda (özünü, atamı nəzərdə tuturdu) həyat yoldaşını itirmək çətin şeydir. Axıracan iştirak etdik. “Sənsiz”romansını oxudular.Kişi lap pis oldu.

Ürək dolusu danışırdı bu səfərdən. Bakıdan Moskvaya uçan xüsusi reysli təyyarədə olmasından, bu ailəyə yaxın sayılmasından fəxr duyurdu. Atam da eləcə qulaq asırdı. Axı o vaxt belə mərasimləri televiziyada çox qısqanclıqla verirdilər.

OKTYABR 1987

1987-ci il idi. Gecə saat 11 olardı. Qapının zəngi çalındı. "Xeyir olsun", deyə atam qapını açdı. Bayram Bayramovun böyük oğlu Fəxrəddin idi – qanıqara, büzüşmüş vəziyyətdə. O evliydi, atasından ayrı yaşayırdı.

-Fəxrəddin, nə olub?

-Qabil əmi, faciə baş verib.

Məsələ aydın idi. Fəxrəddin qapını döyübsə və "bədbəxtçilik" baş verib deyirsə, deməli, ya Bayram əmi ölüb, ya da həyat yoldaşı Zümrüd xala. Amma hər ehtimala bir də soruşdu:

-Fəxrəddin, nə olub axı?

-Qabil əmi, indicə xəbər gəldi ki, Heydər Əliyevi SSRİ Nazirlər Soveti sədrinin 1-ci müavini və Siyasi Büronun üzvlüyündən azad ediblər.

-Mən də elə bildim ki, Bayram ölüb.

Dərindən nəfəs aldı. Amma Fəxrəddinin "faciə baş verib" sözləri indi də qulağımdadır. Bu sözlər onun yox, atasının idi. Qarabağlı olan Bayram Bayramov artıq hiss edirdi ki, bu addımdan sonra Azərbaycanda nələr baş verəcək. İndi isə bu, artıq heç kimə sirr deyil.

XALQ CƏBHƏSİ,

YOXSA QARABAĞA XALQ YARDIMI KOMİTƏSİ?

Xalq Cəbhəsinin tüğyan edən vaxtı idi. Sovet rejiminin "parçala, hökm sür" siyasəti isə hələ də qalmaqda. Təşkilatı məhv etmək üçün əvvəl parçalamaq lazım idi. Xalq isə həqiqətən də Xalq Cəbhəsinə rəğbət bəslədiyin-

dən parçalamaq mümkün olmurdu. Amma cəhd edirdilər. Belə cəhdlərdən biri də "Qarabağa Xalq Yardımı Komitəsi"nin yaradılması idi. Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin 1-ci katibi Əbdürrəhman Vəzirov, Nazirlər Kabinetinin sədri Ayaz Mütəllibov və digər başbilənlərin rəyi ilə komitənin sədri vəzifəsi xalq yazıçısı İsmayıl Şıxlıya təklif olunur. O isə imtina edir. Ondan "kimi bu vəzifədə görürsünüz?", sualına cavabı yek olur: "Bayram Bayramov. Qarabağlıdır. O zonanı da çox gözəl tanıyır. O yerlərdə də böyük hörməti var"

Yay ayı idi. Qonşumuz ailəsiylə Ağdamda – kəndlərində dincəlirdi. Hüsü Hacıyev küçəsindəki evimizin həyətindəydim. Qara bir "Volqa" dayandı. Bayram əmi maşından düşdü. Tək idi. Qabağına qaçdım, görüşdüm. Çantası vardı. Əlindən aldım. Bir yerdə 4-cü mərtəbəyə qalxdıq. 72 yaşlı Bayram əmi pilləkənləri böyük ruh yüksəkliyi ilə üç-üç qalxırdı. Nə baş verdiyini isə sonra bildim. Bayram əmim komitə sədri olmuşdu. Özü də xüsusi səlahiyyətlərlə. Qısa bir zamanda binanı təmir elətdirib, işçiləri yığdı. Təkcə Nurəddin, Cümşüd adları yadımda qalıb. Hamısı bu ümumi işə ürəklə qoşulmuşdular.

Mətbu orqan yaratdı. Adını "Azərbaycan" qoydu. Xalq hərəkatının fəallarından olan Sabir Rüstəmxanlını baş redaktor təyin etdi. "Azərbaycan" sözünün "A" hərfini isə aypara və səkkizguşəli ulduz kimi təsvir etdilər. Azərbaycanda Sovet Hakimiyyətinin hələ də mövcud olduğu bir dövrdə. Qəzetdə çap olunan məqalələr, məlumatlar "Azadlıq" qəzetinə nəinki alternativ oldu, ötdü keçdi. Hətta xalq hərəkatının inkişafında xüsusi

rol oynadı, desəm yanılmaram. Komitəyə verilən xüsusi səlahiyyətlər və maliyyə yardımı nəticəsində Qarabağ zonasında əməli işlərə başlandı. O regionun raykom katiblərinin səlahiyyətləri demək olar ki, komitəyə verilmişdi. Cınqırın çıxardanı Bayram əminin bircə sözüylə işdən qovurdular. Bayram əmimin vertalyotları da vardı (təki olmayaydı). Bir az keçdi. Bayram əmim deputat seçildi. Xalq hərəkatıyla birgə fəaliyyət planları isə başqa bir yazının mövzusudur. Bu məsələləri məndən də yaxşı bilənlər, şahidi olanlar var. Hələ ki, sağdırlar. Memuar janrı isə onların yolunu gözləyir.

Mətləbdən uzaqlaşmayım. Bayram əmim çox irəli getmişdi. Ona icazə verilən həddi də keçirdi. Qarabağa dəxli olmayan, amma sosial problemlərində boğulanlar da ona üz tuturdular. O da həmən həll edirdi. "Yuxarıdakılar" da ağsaqqallığına görə də dinə bilmirdilər. Vəzirovu, Elmira Qafarovanı, Ayaz Mütəllibovu adıyla çağırırdı. Hərdən "oğlum, qızım" sözü də əlavə edirdi. Telefonda başlarına qışqırırdı. Demək olar ki, saymırdı. "İstəmirsiniz, azad edin" deyirdi. Amma bacarmırdılar. Xalq Cəbhəsinə tələ qurmuşdular, özləri düşmüşdülər. Bu fikirləri elə-belə demirəm. Məqsədim var.

Günlərin bir günü atam Yazıçılar Birliyinin sədri Anara müraciət etdi ki, məktub yaz, mənə maşın versinlər. Anar da yəqin qanıqara vaxtına düşüb ya nə məsələdir bilmirəm (sonra bildik) atama acı cavab verib: "Qabil, mənim maşın zavodum-zad var ki, sənə maşın verim?"

Sovet vaxtı "Volqa – QAZ-24-10" almaq hər adamın işi deyildi. Ancaq yazıçılar, bəstəkarlar, rəssamlar, bir sözlə sənətkarlar üçün bu, problem sayılmırdı. Sadə-

cə ittifaqların sədrləri məktubla "yuxarı" müraciət etməliydilər. Buna da Anar rədd cavabı vermişdi. Nə isə atam dilxor vəziyyətdə gəlir komitəyə – Bayramın yanına. Anarın bu hərəkətini ona deyir. Bayram əmi Anarı qınamayıb. Mitinqlərdə ad çıxaran Qabilçün Mərkəzi Komitəyə məktub yazmağın nə olmasını başa düşürdü. Həmən hökumət telefonunun dəstəyini götürüb zəng edir:

– Bir dənə Qabilə, bir dənə də mənə – "Volqa Qaz 24-10".

– ....

– Hansı qapıya gəlsin?

– .....

– Gəlir.

Dəstəyi qoyandan sonra. "Qabil yaxşı ki, gəldin. Mənim də yadıma saldın. Maşınım köhnəlmişdi. Ayazla (Ayaz Mütəllibov) danışdım. Dedi ki, sənədləri hazırlayırlar. Get Nazirlər Kabinetinin filan qapısına. Mən işdən çıxa bilmirəm. Mənim sənədlərimi də götür, özününkünü də. İki qonşu gərək təzə Volqada gəzsin". Atam da sevincək gedir Nazirlər Kabinetinə. Orda onu ticarət şöbəsinin müdiri (səhv etmirəmsə qadın idi) qarşılayır. Elə qarşılayır ki, Anar onun yanında toya getməli olur. Atam da qadın olmasına baxmayaraq ağzından çıxanı deyir, qayıdır Bayramın otağına ki, "bəs, Bayram, məni hara göndərmisən? Hal elə, qaziyyə belə".

Bayram əmi də yenidən zəng edir Ayaz Mütəllibova, nə deyir, nə demir bilmirəm. O da telefon qulağında şöbə müdirinə nələr deyir, nələr demir bilmirəm. Onu

ancaq təsəvvür etmək lazımdır. Yenidən Bayram əmiyə deyir ki, bəs dərslərini verdim, Qabil müəllim gəlsin sənədləri götürsün. Bayram əmi də "Qabil gəlməyəcək. Kabinetimə gətirsinlər" deyir. Yarım saatdan sonra sənədlər artıq iki qonşunun əlində olur. Bu əhvalatı da danışmaqda məqsədim var.

Misalları çox çəkə bilərəm. Bayram əminin həll edə bilməyəcəyi bir məsələ yox idi. Nəhayət, 1991-ci ilin noyabrı. Heydər Əliyevin tarixi çıxışı zamanı bəziləri təpiklərini yerə vurdular, bəziləri reqlament qışqırdılar, fit çalan da oldu. Nə o vaxtkı prezident Ayaz Mütəllibov, nə də Milli Məclis rəhbərliyi bir reaksiya verdi. Sakitləşdirməyə də çalışmadılar. Bu azmış kimi çıxışdan sonra xoruz banları da eşidilməyə başlandı. Hamısı da partokratlar. Nəhayət, Bayram Bayramov. Düzün desək gözləmirdik. Nə idi bu. Yuxarı eşalonun Heydər Əliyevə qarşı qurduğu ssenari? Yoxsa ki, Bayram Bayramovun ürəyindən gələn sözlər? Birinciyə daha çox oxşayırdı. Əvvəl onlar Bayram əminin toruna düşmüşdülər. İndi isə Bayram əmi torda çapalayırdı. Və son. Heydər Əliyevin Bayram Bayramova cavabı. "Deyirsən ki, Qarabağ indiki kimi bizim olmayıb. Qabilin yazısını özün çap eləmisən ki... "Ad mənim, yar özgənin"". Qabilin prezident Ayaz Mütəllibova ünvanladığı 24 sualdan biri. Necə deyərlər Heydər Əliyev Bayram əmiyə həm "Şah" verdi, həm də "Mat".

Bayram əminin eqoyla dolu bu çıxışını çoxları "Maniya veliçiya" adlandırdı. Ayaz Mütəllibovun, Vəzirovun bais olduğu və sonda da məhv etdiyi meqalomaniya. İki nəfər görkəmli şəxsə qarşı hücum hazırladılar. Qa-

rabağa Xalq Yardımı üzrə Komitənin sədri, millət vəkili Bayram Bayramovu məhv etdilər. Amma xalq yazıçısı Bayram Bayramovu yox. Ertəsi gün Bəxtiyar əmim də çıxış etdi. Hamını yerində oturtdu. İstəməzdim belə olsun, amma Bayram əmimi də. Bu çıxış elə məhz ona ünvanlamışdı. Bu çıxışdan sonra zehnlərdə bir inqilab baş verdi. Heydər Əliyevə ürəklərdə onsuz da mövcud olan məhəbbət toxumları cücərməyə başladı: "Bəxtiyar müdafiə etdisə biz də müdafiə etməliyik. Qabil danışırsa, biz də danışmalıyıq. 91-lər "Heydər Əliyev" deyirsə, milyonlar da deməlidir".

Bu gün də fikirləşirəm. Bəlkə də Bayram Bayramovun bu təşkil olunmuş çıxışı olmasaydı, Bəxtiyar Vahabzadə də çıxış etməyəcəkdi. Ürəklərdə yaşayan toxumların üstünə işıq da salınmayacaqdı.

Heydər Əliyev Bayram Bayramovu bağışladı. Komitə sədri, millət vəkili, Vəzirova, Mütəllibova, Elmira Qafarovaya "oğlum, qızım" deyən Bayram Bayramovu yox, bir xalq yazıçısı, Dövlət Mükafatı laureatı, cild-cild romanların müəllifi, Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi Bayram Bayramovu. Böyüklük göstərdi. Ayaz Mütəllibovu isə bağışlamadı. Bu illər ərzində məndən "Bayram Bayramov niyə axı belə etdi?" soruşanda, "Maniya veliçiya"dır da, cavabını verirdim.

Amma yanılmışdım. Demə o vaxt tribunada – Heydər Əliyevə "Qarabağ indiki kimi bizim olmayıb. Gəl mindirim səni vertalyota, aparım gəzdirim" deyən – 1971-ci ildə Heydər Əliyevin əmriylə "Dövlətnəşrkom"un sədr müavini vəzifəsindən çıxarılan, Vəzirovun, Mütəllibovun əmriylə Qarabağa Xalq Yardımı Komitəsinin sədri

vəzifəsinə təyin edilən, deputat, bir sözlə məmur Bayram Bayramov imiş. Onu belə danışdıran keçmişdən qalan kin və indi əlinə düşən fürsət idi. Yuxarıdakılar bu kartdan fərasətlə istifadə etmişdilər. Vəzifə 40 illik bir yazıçı ömrünün üstündən məharətlə xətt çəkmişdi

Heydər Əliyevin 90 illiyi münasibətilə amnistiya aktı böyük addımdır. Bu dövlətimizin birinci addımı deyil, sonuncu da olmayacaq. Son 20 ildə çox belə addım atıldı. Surət Hüseynov, Rəhim Qazıyev, İskəndər Həmidov, Nəriman İmranov, OMON-çular bağışlandı. Hətta Heydər Əliyevi sevməyən, yaş senzi təyin edərək bir vaxtlar onun yenidən hakimiyyətə qayıdışına əngəl olmaq istəyən Ayaz Mütəllibov da yaddan çıxdı, bağışlandı. Hətta Əjdər Xanbabayevin qətli də unuduldu. Bəs Bayram Bayramov necə? 1991-ci ildən bəri ilk dəfədir ki, mən adını çəkməyə cəhd etdim. Bayram əmi deyərək. Amma ailəsi, qohumları "Azərbaycanın görkəmli xalq yazıçısı Bayram Bayramov" adının çəkilməsini hələ də gözləyirlər. Heç kim qadağan etməyib bunu, hörmətli yazıçılarımız, tənqidçilərimiz. Heydər Əliyev bağışlayıbsa, siz də bağışlayın. Bayramov Bayram, sən də bağışla.

Pəncərədən bayıra baxıram. Artıq 2013-dür. Uzaq 1991-dən 22 il ötür. İdarə rəisi Bayramov Bayramdan müsahibə götürürəm. Danışıb, qurtarır. Yenə də xatırladır: "Bax a, çaşıb Bayram Bayramov yazarsan. Mən Bayram Bayramov deyiləm, Bayramov Bayramam".

HİPPOKRATA ÖLÜM?
YOXSA MƏN ÖLÜM?

Aaz, nə sifətimə baxırsan? Gözünü sumkama dikmisən. Pul istəyirsən, hə? İndi zəng edərəm "Qaynar xətt"ə. Səni işdən çıxartdıraram. Hippokrat andı içmisən. Müalicə də etməlisən. Borcundur.

-Mən sizə nə dedim axı?

-Nə deyəcəksən? 10 gündür müalicə edirsən uşağı. Düzəldib qurtarmısan. İndi də bilirəm, pul istəyəcəksən. Ərim şofer babadır. Mənim sənə verəcəyim pulum yoxdur. On gündür boynumu büküb dayanmışam. Elə bilmə ki, fağıram. Bu dəqiqə aləmi qataram bir-birinə.

-Bacı, vallah heç nə lazım deyil...

-Yox, guya desəydin ki, "lazımdır", sənə nəsə verəcəkdim? Ay sən öləsən!

Xəstənin anası qapını çırpıb gedir. Pərt şəkildə oturmuşam. Fikirləşirəm. 11 il məktəb, 6 il institut, bir il interna. Yarımştat terapevt. 70 manat maaş. Sonda da xəstələrin "təşəkkürü". Bəlkə özəl xəstəxanalardan birinə keçim? Deyilənə görə yaxşı maaş verirlər. Yox, axı mən "Hippokrat andı" içmişəm. Havayı müalicə etməliyəm. Həkimlik borcumu şərəflə yerinə yetirməliyəm. Bəs onda özəl xəstəxanalarda işləyənlər niyə pul alırlar? Axı onlar da mənim kimi "Hippokrat andı" içiblər. Axı necə olur ki, özəl həkimlərə – onların əliylə, zehniylə klinika quran hansısa sahibkara və ya mənim kimi Tibb Universitetini qurtarıb dərman istehsal edən və ya aptekdə satan əzcaçıya külli miqdarda pul ödəyəndə bu, onun halalca çörəyi sayılır, mənə isə 5 manat verəndə – rüşvət? Nə isə başa düşmürəm. Yaxşı ki, ərim başqa sənətin sahibidir. Ailəni o dolandırır.

O gün də televizorda göstərirlər ki, avtobuslarda kart sistemi quraşdırılacaq. Sürücülərə də yüksək – 600-700 manat maaş veriləcək. Sonra da biz sərnişinləri insan yox – 20 qəpiqlik cildində görən, 1 ay qabaq "aya 150-200 manat güclə qazanıb, başımızı dolandırırıq", deyərək "ağladığını" yaddan çıxaran sürücülərdən biri buna nə münasibət bildirsə yaxşıdır? "Yox! 700 manat azdır. Bununla ailə dolandırmaq olar?" Belə çıxır ki, avtobus sürücüsü 700 manatdan da çox qazanır? Bəs onda bizə 5 manat verəndə niyə canları çıxır. "Ay xəstə, 70 manata ailə dolandırmaq olar?" deyəndə də aləmi qatırlar bir-birinə. O saat da ""Qaynar xətt"ə zəng edə-

cəyik", deyirlər. İndi isə açıq-aydın bütün respublikaya car çəkirlər: "700 manata dolanmaq olar?" Belə çıxır ki, mən sərnişin də "Qaynar xətt"ə zəng etməliyəm?

Yox, istəmirəm həkimliyi. 18 il oxuyub, həkim olub 70 manat almaqdansa, 3 ay kurs keçib, "prava" alıb, avtobus sürücüsü kimi 700 manat almaq yaxşıdır.

KƏNDLİ QIZIN ARZULARI

Kəndimizdə ümumtəhsil orta məktəb yox idi. Mən qız uşağı olmağıma baxmayaraq atam, anam mükəmməl təhsil almağımı istəyirdilər. Daha doğrusu məni həkim görmək istəyirdilər. Qohum-əqraba atamı ha yoldan eləmək istədilər ki, "ay kişi qızdır. Uşağa əziyyət vermə. Qoy getsin texnikuma. "Medsestra" olsun. Ya da baytar, arıçı. Kəndin də dadına çatar, üstəlik qonşu kəndlərin də". Atam isə qulaq asmadı. "Qızım həkim olacaq. Özü də can həkimi". Ona görə də 9-11-ci sinfi qonşu kənddəki orta məktəbə getməyə başladım. Payızın yağışında, qışın çovğununda, yazın yağmurunda, qarda-palçıqda hər gün piyada 6 kilometr o yana, piyada 6 kilometr bu yana. Gədəbəyin ucqar dağ kəndində ev-eşik qayğıları da öz yerində. Təndir qalamaq, bulaqdan su gətirmək, balaca bacı-qardaşlarımla məşğul olmaq – bir sözlə, anama kömək eləmək. Üstə gəl, dərslərim. Və Tibb Universitetinə hazırlıq. Beləcə 3 il.

Məktəbi bitirməmiş elçilər ayaq açmağa başladı. Bizim kənddə qızları adət üzrə 17 yaşında ərə verirlər.

Atam isə israrla "Vermirəm. Mənim qızım oxumalıdır. Doktor olmalıdır", deyirdi.

Nəhayət qəbul imtahanları. Həyəcanlı anlar. Qəbul olunan tələbələrin siyahısında adımı görəndə elə bil ki, dünyanı mənə bağışlamışdılar. Amma bir tərəfdən də pis olmuşdum. Pullu təhsilə düşmüşdüm. Atam evin yeganə çörək ümidi idi. Bu tərəfdən də mən. Qıza əsasən "qız yükü duz yükü deyirlər". Mənim çəkim isə bir az da artmışdı. "Qız yükü, dağ yükü" olmuşdum. Dedi ki, qızım narahat olma, təki oxu, həkim ol. Bir təhər yoluna qoyaram.

Yataqxanada yer olmadı. Günəşlinin ucqarında bir tələbə rəfiqəmlə şərikinə mənzil kirayələdik. 100 manat o verirdi, 100 manat mən. Pulu isə evdən gəlirdi. Mənim yeməyim, gündəlik xərclərim də öz yerində. Pal-paltarı demirəm.

Dərsimiz səhər doqquzun yarısı başlayırdı. Fasilə yarım saat olurdu – şəhərin bu başından o biri başındakı xəstəxanaya getməkçün xüsusi mikroavtobuslar tuturduq ki, gecikməyək. Dərsimiz axşam beşin yarısında başa çatırdı. Yolumuzu kitabxanadan salırdıq. Şəhərin tıxaclarıyla evə çatanda saat 8-9 olurdu. Sonra da dərslərimizi hazırlayırdıq. Səhərimizi qucağımızda insan sümükləriylə açırdıq. Beləcə 6 il.

Atamgil boğazlarından kəsib mənə göndərirdilər. Mən də onlara layiq olum deyə yaxşı oxuyurdum. Müəllimlər mənə qarşı yox, mən onlara qarşı tələbkar idim. İnternanı da uğurla başa vurdum. Diplomumu, vəsiqəmi aldım. Nəhayət məzun günü. Çoxdan gözlədiyimiz

"Hippokrat andı". Təntənəylə "Hippokrat andı" içdiyim günə daş düşəydi. Terapevt – can həkimi oldum. Atamın mənə xərclədiklərini hesablayıb yazırdım. Nəvaxtsa əvəzin çıxmalıydım. Axı 7 il ərzində kirayə pulu– 8400 manat. 6 illik təhsilim – 12 000 manat. Gündəlik xərcliyim, yeməyim, pal-paltarım – aya minimum 200-250 manatdan hesablasam 21000 manat. Beləliklə, atam mənim həkim olmağıma ən aşağısı 40 min manat pul xərcləmişdi.

"LAYİQLİ" QİYMƏT

Bu da xəstənin mənə verdiyi qiymət: Sağ ol əvəzinə "Qaynar xətt"ə zəng eləyəcəyəm". Niyə? Axı mən nə etdim ki? 10 gün əziyyət çəkib, uşağına şəfa verdim də. Budurmu mənim günahım? Düz deyirlər. Günah etmişəm – "Hippokrat andı" içmişəm.

Fikirləşirəm: Hökumət mənə öz biliyim hesabına daxil olduğum, dövlətin büdcəsindən maliyyələşən məktəbində pullu ali təhsil verəcəyini deyəndə "Hippokrat andı" içmişdimi? Mənzilini kirayəyə pulla verən ev yiyəsi "Hippokrat andı" içmişdimi? Məni evə, instituta pulla aparıb-gətirən avtobus şoferi, metropoliten işçisi "Hippokrat andı" içmişdimi? Bazarda, dükanda mənə pulla ərzaq, sabun, "poroşok", kibrit satan "Hippokrat andı" içmişdimi? Tibbi kitabları nəşr edənlər, həkimlik xalatını tikənlər, fonendoskopu istehsal edənlər və baha qiymətə bizə sırıyanlar "Hippokrat andı"

içmişdilərmi? Qaz, işıq, su satanlar necə – "Hippokrat andı" nədir, bilirlərmi? Bəs onda 18 ilin məşəqqətindən, atam 40 min manat xərcləyəndən sonra "Hippokrat andı" içib həkim olan MƏN hər şeyi pulla ölçənlərə, hətta şəxsiyyət vəsiqəsini, vətəndaşlıq pasportunu belə havayı verməyənlərə ömrümün axırına qədər niyə pulsuz xidmət göstərməliyəm? Üstəlik onların razılıqlarını yox, tənəli baxışlarını süzməliyəm. "Qaynar xətt", "korrupsiya", "prokurorluğ"a şikayət edəcəyik deyəndə, tir-tir əsib qorxmalıyam? Niyə?

Əmilərim düz deyirdilər. Gərək baytar həkim olaydım. Heyvanları müalicə etməyə nə var? Nə dilləri var, nə ağızları. Bir şey olanda da yiyəsi mundar olmasın deyə o saat kəsir. Üstəlik xəstə ətini də satır şəhər camaatına. Mənə burda xoruzlananlar isə əti bəh-bəhlə alıb verir uşağına. O da xəstələnir gətirirlər yanıma ki, "bəs borcundur, havayı müalicə elə". Uşağının xəstələnməyinə səbəbkar mənəmmi?

Vətənə borcdan qiymətli şey yoxdur dünyada. Əskər belə sədaqət andı içəndə bir il yarım xidmət edir. Sonra da qayıdıb deyir ki, "Vətənə borcumu verdim". Bəs biz həkimlər niyə bir dəfə and içib, ömrü boyu borclu qalmalıyıq? Özü də məni əkən, doğan, böyüdüb boya-başa çatdıran, təhsil verən, 40 min manat xərc çəkib həkim edən valideynlərimə yox, hər şeyi pulla satan, qaz vurub qazan dolduran, amma "Hippokrat andı" içməyənlərə?

Bir həkim yoldaşım var. Bəzən dözmür. "Hippokrat andı içmisən" sözləri eşidəndə elə bil od qoyurlar buna, xəstələrlə davaya çıxır. Deyir ki, "Bəli, and içmişəm. And

içmişəm ki, həkim adına məni layiq gördüyünə görə hər cümə axşamı məscidə gedib Hippokratın dədəsinə də, nənəsinə də yasin oxudacağam". Xəstə də o saat kiriyir.

Yaxud da xəstənin adamları ondan "qarantiya" – zəmanət tələb edəndə, deyir ki, "baş üstə!" Ədəb-ərkanla kağıza bir ünvan yazır, göndərir xəstənin yiyələrini ora. Onlar da qışqır-bağırla qayıdırlar ki, "ay həkim, bizi dolamısan? Göndərdiyin ünvan "Beko"nun firma mağazasıdır". Elə bil dünyanı verirlər həkim dostuma. Yumur gözünü, açır ağzını ki, "bəs, sənin 80 yaşlı aton "Beko" xolodilniki-zaddır ki, operasiya eləməmişdən qabaq 3 illik zəmanət verim? Üstündə də ütü hədiyyə?"

O biri həkim dostum isə lap ağıllı hərəkət edir. Xəstənin adamlarından Hippokratın adını eşidən kimi, xəstənin bədənində gözünə müxtəlif şişlər görünməyə başlayır. Həmən göndəriş yazıb göndərir onkoloqa. Təsəvvür edin də nə günə düşürlər. Bahalı-bahalı aparatlara 400-500 xərcləyəndən, ürək-göbəklərini yeyəndən, pirlərə nəzir, qurbanlıq boyun olandan sonra aparatlar, analizlər xəbər verir ki, "Allaha çox şükür! O zəhirmar xəstəlik bunda yoxdur. Adi "jirovikdir". Novokayin vurub, kəsmək olar. Xərci də ki, vur-tut..."

Nəsə görmədiyim günləri görürəm. Və bunları görmək üçün mənə 18 illik təhsil və atamın havaya buraxdığı 40 min manat lazım imiş.

Yox! Xəstələr düz edirlər. Mənə o da azdır. Yəqin atamın, anamın ahı tutdu məni. İndi də qulağıma çatır ki, giley-güzar edirlər. "18 il uşaq oxudasan, əziyyət çəkəsən. Heç iynəmizi də vurmur. Baytar Qasıma möh-

tac qalmışıq". Düz deyirlər. 11 il məktəbdə, 7 il Tibb Universitetində oxutdurdular məni. Onların qarşısında diz çöküb, minnətdarlığımı bildirmək, əllərini öpüb onlara sədaqət andı içib xidmət eləmək üçün kəndimizə getməkdənsə, eramızdan əvvəl 350 il əvvələ qayıdaraq tanımadığım, ömründə üzünü belə görmədiyim, mənə minnətdən başqa heç nəyi dəyməyən birinə and içdim: Hippokrat müəllimə "Hippokrat andı".

ÇÜNKİ, HEYDƏR ƏLİYEVİN OĞLUDUR

1993-cü ildən 2003-cü ilə qədər ictimai-siyasi hadisələr çox sürətlə gedirdi. Brejnevin sözü olmasın, "Azərbaycan iri addımlarla (irəliləyir)" irəliləmirdi, qaça-qaça irəli gedirdi. Artıq əmin-amanlıq idi. Azərbaycan müstəqil bir ölkə kimi oturuşmuşdu. Bircə Qarabağ problemi həll olunmamış qalırdı. İcraedici aparat saat kimi işləyir, xarici ölkələrlə balanslaşdırılmış siyasət aparılır, xalqla rəhbərlik arasında görünməyən tellərlə yaxın bağlılıq vardı. Heydər Əliyev idarəetməsi özünü bir daha təsdiq etmişdi.

Hər hansı bir görkəmli şəxsiyyət həyatdan köçəndə heyfslənirəm. İndi deyəcəksiniz ki, burda nə var ki, hər bir böyük itki nəinki həmin şəxsin ailəsini, yaxın ətrafını bütövlükdə xalqımızı incidir. Razıyam. Amma məni

həm də bu böyük şəxsiyyətlərdən sonra memuarların qalmaması daha çox incidir. Tarix kitablarını alimlər yazır. Amma 1969-cu ildən 2003-cü ilə qədər Azərbaycan tarixini Heydər Əliyev qədər gözəl bilən və qələmə alacaq ikinci bir adam tanımıram. Atam şair Qabil də xırda xatirələri nəzərə almasaq, publisistikaya çox da həvəs göstərməyib. Elə o biri yazıçılar da. Təkcə Xəlil Rzanın gündəlikləri istisna sayıla bilər. Amma bu gündəliklər də bir çox mətləblərə dərindən işıq sala bilməz.

Mən atamla bağlı bəzi anları yadıma salıb yazmağa qərar verdim. Necə qarşılanacaq? Necə qəbul edəcəklər? Sözlərimə nə don geyindirəcəklər? Yaxud da məni istəyənlərdən tez-tez eşitdiyim "Düzgün başa düşülməz", fikirlərini indidən göz önümə gətirərək. Bütün bu yazdığım xatirə və olan hadisələr son fikrimi, atamın 2003-cü ildə işlətdiyi bir teorem xüsuslu fikri təsdiqə yönəlib: "Çünki, Heydər Əliyevin oğludur".

"MƏNİM QƏDRİMİ ÖLƏNDƏN SONRA BİLƏCƏKSİNİZ"

1994--cü ilin mart ayı idi. Günorta saatlarında telefon zəngi gəldi. Xarici işlər naziri Həsən Həsənov idi.

Bir haşiyə çıxım. Atam Həsən Əzizoviç Həsənovu çoxdan tanıyırdı. Kirovabad şəhər partiya komitəsinin 1-ci katibi, daha sonra Mərkəzi Komitənin ideolgiya üzrə katibi olandan. Milli bir adam kimi hörməti vardı. Fəaliyyəti dövründə Həsən Həsənov gördüyü böyük işlər sayəsində iki "ad" qazanmışdı. Kirovabadda

aparılan quruculuq, abadlıq işlərində qırmızı kərpicə daha çox üstünlük verdiyindən gəncəlilər onu "Kərpic Həsən" deyə əzizləmişdi. Amma sonralar bu ada "Xozeyin Həsən" də əlavə olundu. Və bu ad atamın Azərbaycan SSR MK-nın 1-ci katibi Heydər Əliyevdən etdiyi bir xahişdən sonra meydana gəldi.

Atamın "Nəsimi" poemasını rus dilinə tərcümə etmirdilər. Əsər böyük olduğundan heç bir tərcüməçi bu işin altına girmirdi. Moskvada atama loru dildə izah eləmişdilər ki, "sən əvvəlcə get kitabı plana saldır, sonra tərcüməyə başlayaq". Atam da məntiqli cavab vermişdi ki, "bəs ortada olmayan bir tərcümə əsərini plana necə saldırmaq olar?". Onlar da demişdilər ki, "respublikanın xozeynləri bu işə qol qoysalar, mümkündür". Atam da yazıçıların qurultayı ərəfəsində Moskvada ona deyilən bu sözü, yəni "respublikanın xozeynləri " xitabı da daxil olmaqla xahişini Heydər Əliyevə deyir. Sovetin qılıncının qabağı da dalı da kəsən bir vaxtda Heydər Əliyev "xozeyin" sözünü çox səmimi qarşılayır və: "Bu işi tapşırıram xozeyn Həsənə, həll etsin" tapşırığı verir. Bu göstəriş həmən yerinə yetirilir. İki il sonra çıxacaq kitab plana salındı, hətta moskvalı tərcüməçi Yakov Serpinə 4500 rubl avans da verildi.

Telefon xəttində Həsən Həsənov idi:

– Qabil, evdə şəklin var?

– Nə şəkil?

– "Lyuboy".

– Var.

– Onda adam göndərirəm, ver ona. Xarici pasport-

çun lazımdır. Hazırlaş. Gecə uçuruq Çinə. Heydər Əliyev səni də dövlət nümayəndə heyətinə salıb.

Yüksək səviyyəli səfər. Qayıdandan sonra təəssüratlar. Onlardan birini xüsusilə yadda saxlamışam. Atam nağıl edirdi ki, bizi Çin səddinə aparmışdılar. Qabaqda Heydər Əliyev gedirdi. Arxada da nümayəndə heyəti. Mən də qonşu Əmir Mustafayevlə yanaşı addımlayırdıq. Birdən Heydər Əliyev dayandı. Bir-iki addım arxaya bizə tərəf gəldi və:

– Mənim qədrimi mən öləndən sonra biləcəksiniz,– dedi.

Ortaya bir anlıq sükut çökdü. Gülümsədi. Sonra yolumuza davam etdik. Niyə belə dedi bilmədim.

Bu hadisə 1994-cü ilin martında baş vermişdi. İndi isə buna isbat lazım deyil.

"MÜXALİFƏT, SƏN DƏ"

Qonşumuz, özü də şair oğlu olan biri qatı müxalifətçi idi. Hətta o qədər bu siyasi oyunların içinə girmişdi ki, atamı da görəndə iqtidar nümayəndəsi kimi onunla quru salamlaşırdı. Atam da "ay oğul, sən mənim gözümün qabağında böyümüsən. Nə müxalifət, nə iqtidar. Burax bu söhbətləri. Sən mənim dostumun, qardaşımın yadigarısan", desə də, örk olmurdu. Dediyində durmuşdu. Mən də AzTV-nin "Xəbərlər"ində işləyirdim. Qonşumuz da bilirdi ki, müxalifətin əleyhinə nə süjetlər gedirsə əksəriyyəti "Xəbərlər"də hazırlanır.

Bir dəfə həyətdə rastlaşdıq. Fikirləşdim ki, indi də

məndən yapışacaq ki, "o nə idi dünən efirə verdiniz. Ayıb deyil. Tarakanın bədəninə Əbülfəz Elçibəyin başını yapışdırmısınız". Amma

– Mahir, bu Heydər Əliyev dəhşət adamdır e...

– Nə mənada?

– Mahir, sən çoxun bilmirsən e... amma mən bilirəm. Daxildən təzyiq, 1 milyon qaçqın. Rusiya bir söz deyir, Amerika bir söz, Fransa, İngiltərə, beynəlxalq təşkilatlar da öz yerində. Hərəsiylə də öz dilində danışır, siyasi gedişlər edir, aldadır, bicliklər işlədir. Vaxt udur. Vallah, odur bu boyda təzyiqə dözən. Başqası olsaydı çoxdan qoyub qaçmışdı. Böyük siyasətçidir.

Qulaqlarıma inanmırdım. Qəzetdə, çıxışlarında hakimiyyəti qamçılayan biri etiraf edirdimi? Yox, məncə bu qiymət idi. Heydər Əliyevə verilən layiqli qiymət.

"QAYNANA PROSPEKTİ"

Ayaz Mütəllibovun hakimiyyəti dövrü idi. Maştağa Bakının ən böyük kəndlərindən sayılmaqla yanaşı, həm də prezidentin qohumları bu kənddən idi. Sabunçu dairəsindən Maştağa istiqamətinə yolun yenidən qurulmasına başlanılmışdı. İşlər də sürətlə gedirdi. Günlərin bir günü isə işlər dayandırıldı. Atam, İsmayıl Şıxlı, Bayram Bayramov birlikdə söhbət edirdilər. Birdən İsmayıl əmi:

– Bu camaat da qəribə adamdır e. Qoy, yol çəkilsin qurtarsın. Sonra nə ad qoyursunuz qoyun da.

– Nə olub axı, İsmayıl müəllim?

– Nə olacaq. Ayaz Maştağaya qəşəng yol çəkdirir. İşin ortasında yola ad qoyublar– "Qaynana prospekti". O da əsəbiləşib. İşləri dayandırıb.

Ümumiyyətlə maştağalılar Ayaz Mütəllibovu çox istəyirdilər. Xüsusi simpatiyaları var idi. Qonşuluqdakı bir ticarət köşkünün sahibi də o kənddən idi. Artıq hakimiyyətə Heydər Əliyev gəlmişdi. Amma Ayaz Mütəllibov yadından çıxmırdı. Bircə sözü vardı. Tez-tez təkrar edirdi: "Əyaz krasavçik idi". Günlərin bir günü bu belə deyəndə mən də kontr sual verdim:

– Bəs, Heydər Əliyev?

Əvvəlcə duruxdu. Sonra özünü yığışdırdı. Sifətinə ciddi görkəm verdi. Cavabı isə mənə ləzzət elədi:

– Boba da bobadu yaaaaa.

"BU GÜN İDMAN VAXTI DEYİL"

Siyasi proseslər sürətlə davam edirdi. Artıq siyasi səhnədə yeni bir ad da tez-tez səslənməyə başlamışdı. Millət vəkili, ən başlıcası isə Milli Olimpiya Komitəsinin prezidenti kimi. İlham Əliyevi çox haqlı olaraq idmanımızın hamisi də adlandırırdılar. O vaxtın atam Qabil kimi vətənpərvərlərinin beyninə nədənsə bu idman məsələsi çox da batmırdı. Onlar üçün əsas Qarabağ məsələsinin həlli idi. Hətta günlərin bir günü 5 yazıçı Bəxtiyar Vahabzadə, Qabil, Hüseyn Abbaszadə, Anar, Fikrət Qoca bir araya gələrək, heç kimin gözləmədiyi halda Prezident Heydər Əliyevə müraciət-məktub da ünvanlamışdılar. Əsas mahiyyət o idi ki, Qarabağ məsələsi niyə həll olunmur?

Qayıdaq idmana. Atam da idmanı bu məqamda artıq, lazımsız bir şey sayırdı. Amma bunu dilə gətirmək hardasa siyasi cəhətdən düzgün alınmazdı. O vaxt, lap indinin özündə də "siyasi səhv" kimi qiymətləndirilərdi.

20 Yanvar faciəsinin ildönümü idi. Şəhidlər Xiyabanından canlı yayım gedirdi. ANS də canlı yayıma qoşulmuşdu. Biz də iş başındaydıq. Prezident Heydər Əliyevin ziyarət edib getməyini gözləyirdik ki, müsahibələrə başlayaq. Birdən televizordan atamın səsi gəldi. Özü də ANS-in verdiyi canlı yayımdan. Şeir oxuyurdu.

Bu gün rəqib qapısına
Top ötürmək vaxtı deyil.
Bu gün futbol hünərində
Xal götürmək vaxtı deyil.
O – sonranın söhbətidir,
İdman – dinclik ləzzətidir.
Od içində yanır torpaq,
Vətən ayrı hünər istər.
Haydı, cəbhələrdə qoşaq,
Hər idmançı şanlı əsgər.
Hər idmançı bir düşməni
Bəbəyindən nişan alsın.
Hər idmançı bir düşməni
Ürəyindən nişan alsın.
Yarışda yox,
Döyüşdə qoy zəfər çalsın.

Bu gün düşmən həmləsinə
Sinə gərmək məqamıdır.

Ana-bacı harayına
Cavab vermək məqamıdır,
Bükülməz qol,
Enli kürək məqamıdır.
Qorxaqlara, sısqalara, zəiflərə,
Öndə örnək məqamıdır.
Tirdə nişan vaxtı deyil,
Bu gün idman vaxtı deyil.

Bu gün idman sarayına
Axıb gəlmək vaxtı deyil.
Xalça üstdə
Qalibə də, məğluba da
Nə rişxəndlə, nə fərəhlə
Baxıb gülmək vaxtı deyil.
Bu gün qurşaq vaxtı deyil,

Fit... dəm-dəsgah vaxtı deyil.
Bu gün döyüş meydanında
Qanlı zəfər çalmaq gərək!
Qundaqdakı şəhidlərin
Zülmlərə məruzların,
Zillətlərə şahidlərin
Qisasını almaq gərək.

Bu gün yarış vaxtı deyil,
Bu gün görüş vaxtı deyil.
Bu gün cıdır vaxtı deyil,
Cıdır düzü gülər sənə.
Çək atının cilovunu

Acı tənə gələr sənə.
Bir ağacçın
Dözməyirdik Topxanaya.
Bu gün idman vaxtı deyil,
Şuşam dönüb viranaya.
Evlər yanır xana-xana.
Tamaşa qıl bu idmana.
Uclarında işıq yanan
Qılıncları qoyun qına!
O cür qılınc oynatmağın
Vaxtı deyil – idman deyə.
Gəlin, əsil qılınc çəkin
Yurdumuza qan salana.
Bir meşinə kaman çəkib
Ox atmayın – idman deyə.

Bu gün şahmat taxtasından
Götür şahı, götür matı!
Döyüşlərdə uduzmayaq
Biz bu saat bu şahmatı!
Bu gün beynim qələbələr
Fəndi üçün yansın gərək.
Yerlə-yeksan
Hər şəhərim kəndim üçün
Yansın gərək!

Qından çıxan qılınc kimi
Avarlar da çıxsın sudan.
Avarçı da xilas etsin
Yurdu qanlı bu qurğudan.

Yelkənlərin qanadında
Süzüb axmaq vaxtı deyil
Azarkeşlik yeri deyil,
Keyfə baxmaq vaxtı deyil.

Ağırlığı qaldıranlar
Gücənməsin bu gün nahaq.
Bu gün mənə lazım deyil
Yeddi batman daş oynatmaq.
Bu gün namus-qeyrət yükü
Yükdü qardaş!
Bu ağır yük
Belimizi bükdü, qardaş!

Bu gün qaçmaq vaxtı deyil,
Bu gün uçmaq vaxtı deyil.
Bu gün finiş ayrı finiş -
Bu gün gərək ayrı yarış -
Azərbaycan əsgərinə
Ayrı yeriş, ayrı yürüş.
Bu gün bilyard ağacları
Raket olsun, qrad olsun.
Düşmənləri şar-şar vurub
Tora salan qoy şad olsun.
Yurd-yuvamı dağıdanın
Yurd-yuvası bərbad olsun!
Qarabağın dağı-düzü
Dığalardan azad olsun!
Bulaqların büllur gözü
Qoy durulsun, şəffaf olsun.

Tunc bədənli övladlarım
Zər qədirli sərraf olsun!
Onda idman halal bizə!
Hər xal bizə, halal bizə.

Təsəvvür edin də… Azərbaycan olimpiadadan 2 qızıl, 1 bürünc medalla qayıdıb. Başqa idman zəfərləri öz yerində. Olimpiya mərkəzləri tikilir. Yeni, gələcək lider imicinin formalaşdığı bir vaxtda , Şəhidlər Xiyabanında belə bir şeiri oxumaq, özü də 17 iyun 1992-ci ildə yazılmış, uşaqlıq və məktəb yoldaşı, məşhur idman ustası Miri Vahabova həsr etdiyi bir şeiri oxumaq siyasi baxış bucağından necə qəbul oluna bilərdi?

İşdən sonra evə getdim. Üstüörtülü münasibət bildirdim ki, "Heç o şeirin yeriydi?". Atamın cavabı qısa oldu:

– Əcəb elədim.

– Birdən nə oldu axı ki, bunu oxudun? Şəhidlərə həsr etdiyin "Mərsiyə"n var. Onu oxuyaydın da…

– Qənirə yaxınlaşdı ANS-dən ki, müsahibə ver. İstəmədim. O da əl çəkmədi. Mən də dedim ki, bir şərtlə müsahibə verərəm. Bir şeirim var onu oxuyacağam. O da razılaşdı. Sözümün üstündə də dururam. Bu gün idman vaxtı deyil.

70 yaşında adamı fikrindən döndərmək çətin məsələydi. O ki qalsın Qabili. Buna heç cəhd də etmirdim. Hardasa onun bu fikriylə mən də razıydım. Bu şeir azmış kimi mənim kimi irad tutanlara bir növ cavab olaraq beş misralıq "İdman" şeiri də yazdı:

İdman çox qədim bir oyun.
Bunu anlamayan – qoyun.
Ancaq… ancaq, ancaq, ancaq –
İşğal altındasa torpaq,
İdman hay-həşiri nahaq…

AZƏRBAYCAN – FRANSA 0 : 10

Bir polis polkovniki vardı – Nazim Nağıyev. Köhnə Əliyevçi idi. Səbail Rayon Polis İdarəsinin rəisi təyin etmişdilər onu. Həftənin birinci günləri köhnə dillə desək, siyasi dərslər keçirirdi. Polislər himni oxuyurdular. Onlarla görüşə millət vəkilləri, ictimai-siyasi xadimlər dəvət olunurdu. "Xəbərlər" də lentə alırdı. Növbəti belə görüşlərdən birini mən işıqlandırmalı oldum. Məruzəçi isə millət vəkili, professor Səməd Seyidov idi. O çıxışında idman məqamına da toxundu. İndiki vəziyyətdə, Azərbaycanın yürütdüyü siyasətdə idmanın rolunu qeyd etdi. Bircə misal çəkdi. Və bu misalı gəlib atama da danışdım. Səməd müəllimin dediyindən yadımda qalanlar:

"Deputat dostumla Nyu-Yorkda bir beynəlxalq tədbirdəydik. Taksiyə oturduq ki, otelə gedək. Sürücü yekəpər bir zənci idi. Bizim başqa dildə danışdığımızı, qonaq olduğumuzu görüb haradan gəldiyimizi soruşdu. Biz də cavab verdik ki, Azərbaycandanıq. O da həyəcanla "Azöbaycan yes Azöbaycan" deyə, çox həyəcanla reaksiya verdi. Bizə də qəribə gəldi ki, bu neqr, özü də sürücü bizi, müstəqilliyini yeni qazanmış Azərbaycanı haradan tanıdı. Sual verdik. Cavab isə belə oldu. "Necə

yəni hardan? Bu yaxında Azərbaycanın futbol üzrə milli yığması Fransaya 10:0 hesabıyla uduzmamışdı? Radioda deyirdilər. Ordan tanımışam".

Bu misal məni də yaman tutdu. Demə, hətta 10:0 hesablı idman məğlubiyyəti belə müstəqilliyini yenicə qazanan Azərbaycan üçün dolayısı yolla reklam imiş. Azərbaycanın ağır günündə, Qarabağ savaşının gündəmdə olduğu bir vaxtda olimpiadada bayrağın qaldırılması, himnin çalınmasının nə qədər böyük siyasi əhəmiyyət kəsb etdiyini, məhz Səməd Seyidovun çıxışından sonra dərk etdim.

"ÇÜNKİ HEYDƏR ƏLİYEVİN OĞLUDUR"

Nəhayət 2003-cü il. Prezident seçkilərinə az qalırdı. İlham Əliyevin namizədlik məsələsi də bir-iki dəfə gündəmə gəlmişdi. Sonradan isə qeydə alındı. Həm Heydər Əliyev, həm də İlham Əliyev prezidentliyə namizəd idilər. Ata-oğul evdə hərdən siyasi polemika da aparırdıq.

– Papa, kimə səs verəcəksən?

– Heydər Əliyevə.

– Bəlkə İlham Əliyevə səs verəsən?

– Yox, Heydər Əliyevə.

– Mən isə İlham Əliyevə səs verəcəyəm.

Beləcə bir dəfə, iki dəfə, üç dəfə. Əl çəkmirdim. İstəyirdim desin ki, "İlhama da səs verərəm. Amma Heydər Əliyev olan yerdə…" Söyləmirdi. "Heydər Əliyevə səs

verəcəyəm", deyib durmuşdu. Üstəlik, "Siz də ona səs verəcəksiniz", deyə bizə "təzyiq edirdi". Mən isə "yox. Mən İlham Əliyevə səs verəcəyəm", cavabı verirdim. Əsəbiləşirdi. Sanki elə bil seçki günüydü. Biz də seçki məntəqəsindəydik.

Üstündən bir müddət keçdi. Heydər Əliyev namizədliyini geri götürdü. Hamını İlham Əliyevin namizədliyini dəstəkləməyə çağırdı. Yenə də atama sual verdim:

– Papa, kimə səs verəcəksən?

– İlham Əliyevə.

– Bəs nə oldu? On gün ərzində fikrini dəyişdin?

Başqa cavablar gösləyirdim. Gözləyirdim deyəcək ki, bəs Heydər Əliyev namizədliyini geri götürdü axı? Xalqa, o cümlədən ona səs verəcək insanlara müraciət ünvanlayaraq "Mən ona özümə inandığım qədər inanıram", dedi axı. Amma bunların heç birini demədi. Bir cümləylə fikrini tamamladı. Daha dəqiq desək, nöqtə qoydu.

– Çünki, Heydər Əliyevin oğludur.

O gündən 10 il ötür. Hər dəfə mətbuat səhifələrindən "həyəcan dolu xəbərlər" oxuyanda atamın bu sözü yadıma düşür. Bəziləri şayə dolu xəbərlərə inanıb mənə sual verəndə ki "Mahir, bu işlərin axırı necə olacaq?" Deyirəm ki, "Yaxşı olacaq. Bilirsinizmi niyə?

"Çünki, Heydər Əliyevin oğludur. "

MƏLEYKƏ ABBASZADƏ
MƏNƏ NİYƏ ƏZİZDİR?

– Nəsillər bir-birini əvəz edir. Xələflər sələflərin Anar Rəsul Rza və Nigar Rəfibəylinin, Elçin İlyas Əfəndiyevin, Vaqif Səmədoğlu Səməd Vurğunun, Elçin Şıxlı İsmayıl Şıxlının, Yalçın Adıgözəlov Vasif Adıgözəlovun – yolunu davam etdirir, familiyasını yaşadır. Siyahını uzatmaq da olar. Bəzən yerlər də səhv düşür. Sələfləri xələflərə görə tanıyırlar, yad edirlər. Əlbəttə ki, bu müsbət tendensiyadır. İnkişafın göstəricisidir. Hər dəfə onları televiziya kanallarında göstərəndə ataları, anaları, ailələri yadıma düşür. Gözümü açıb onları görmüşəm. Mənim özümü də görəndə bəzən çaşıb "Qabil" deyə çağırırlar. Bu mənə xüsusilə ləzzət edir.

Adi həyatda da belədir. Bunun üçün tanınmış olmaq lazım deyil. Ona görə Allah oğul payı verəndə xüsusilə

toy-bayram olur. Nəslin davamçısı oğlan sayılır axı. Amma nəsildə elə qızlar dünyaya gəlir ki, yüz oğula bərabər olur. Qarabağ xanlarının – Cavanşirlərin nəslindən olan, İbrahim bəy Davatdarovun, daha sonra Cəlil Məmmədquluzadənin həyat-gün yoldaşı Həmidə xanım son gününəcən bu familiyanı daşıdı – Həmidə Cavanşir olaraq qaldı və öldü. Və ya Xurşudbanu Natəvan. Dövlət Komitəsinin sədri Hicran Hüseynova, Aynur Sofiyeva və tanımadığım yüzlərlə qadın atasının familiyasını daşıyır, nəslini davam etdirir. Şəxsən mənim böyük qızım Suğra da ərə getməyinə baxmayaraq, babası şair Qabilin familiyasını dəyişmədi. Mənə çox xoş oldu. Axı, mənim oğlum yoxdur. Deyəcəksiniz ki, axı oğulun ya qızın ata-baba familiyasını daşımasında qeyri-adi nə var ki? Və ya, bütün bunların Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının sədri Məleykə Abbaszadə ilə nə əlaqəsi?

QONŞUMUZ HÜSEYN ABBASZADƏ

Bizim həyət – Hüsü Hacıyev küçəsi, ev 19 yazıçıların binası kimi tanınırdı. Sanki canlı muzey idi. Qasım Qasımzadə, İsa Hüseynov, Əhməd Cəmil, Əyyub Abbasov, Mübariz və Zinyət Əlizadələr, Bəxtiyar Vahabzadə, Əliağa Kürçaylı, Mirmehdi Seyidzadə, Zeynal Xəlil, İlyas Əfəndiyev, Elçin, İsi Məlikzadə, Kamal Talıbzadə, Abdulla Şaiq, Salam Qədirzadə, Əkbər Ağayev, Çəmənzəminlilər, İsmayıl Şıxlı, Sabir Şıxlı, Bayram Bayramov, Qabil, Əmir Mustafayev, Samvel Qriqoryan, Məsud Əlioğlu, Afaq Məsud və ən nəhayət, xalq yazıçımız Hüseyn Abbaszadə.

Bizdən bir mərtəbə aşağıda – 3-cü qatda yaşayırdılar. Həyat yoldaşı Solmaz xala, oğlu İlqar, qızı İradə. 7-8 yaşım olardı. Atam Hüseynəmigilə düşürdü. Nəsə söhbəti vardı. Hüseyn Abbaszadə onda "Ədəbiyyat və incəsənət" qəzetinin baş redaktoru işləyirdi. Oğlu İlqar isə Moskva Dövlət Universitetində oxuyurdu. Mən də düşdüm yanına. İçəri girdik. Solmaz xala çay gətirdi. Hüseyn əmi mənə "Qabiloviç, necəsən?", deyib başladı atamla yaradıcılıq söhbətlərinə. Mən də ağzımı açıb qulaq asırdım. Heç nə başa düşmürdüm. Sadəcə uşaq yaddaşıma həkk edirdim. İndi – 47 yaşında köşə yazılarımda karıma gəlir.

Solmaz xala isə o yana, bu yana keçirdi. Sanki uçmağa qanadı yox idi. Səbəbini bilmirdim. Sadəcə tamaşa edirdim. Servantın şüşəsinə qəşəng bir qız şəkli yapışdırmışdılar. Uzun, qara saçları vardı. Yaxına gedib tamaşa etməyə başladım. Elə bil Solmaz xala bunu gözləyirdi. Şəkli əlinə alıb sevincək atama yaxınlaşdı:

-Qabil, şəklə bax?! Gör nə gözəl-göyçək gəlinim var? Adı da Məleykədir. O gün olsun Mahirdən görəsən. Gəlin gətirəsən. Bu yaxında da toydur.

İlqarın toyu ərəfəsindəydik. Evin tək uşağı olduğumdan məni də aparacaqdılar. Sevinirdim.

SOLMAZ XALAYA NƏ OLDU?

Toy oldu. Üstündən bir müddət keçdi. Dünyaya əkiz qız uşaqları gəldi. İlqarın ayrıca evi vardı. Onu gec-gec görürdük. Sonralar isə tez-tez görünməyə başladı. Bir gün isə qonşudan qışqırıq səsi eşidildi. Hüseyn əmigi-

lin kandarında bir gəlin dayanmışdı. Qapını döyürdü. Solmaz xala isə qapını açıb rusca nəsə qışqırırdı. Qapını çırpdı. Yadıma gəlmir nə deyirdi. Amma yaman əsəbi idi. Gəlin isə özünü çox mədəni, təmkinli aparırdı. Mənə Solmaz xalanın hərəkəti adi gəlirdi. Anamla atam gündə 10 dəfə dalaşıb, 11 dəfə barışırdılar. Amma demə bu dalaşmaq o dalaşmaqdan deyildi. Toydan əvvəl gəlininin şəklini ürəyinin başında gəzdirən Solmaz xalaya nə olmuşdu? Bilmirəm. Aralarından hansı qara pişik keçmişdi? Onu da bilmirəm. Ümumiyyətlə başqalarının şəxsi işinə qarışmaqla aram yoxdur. Sadəcə haşiyə çıxdım. Məqsədim başqadır.

İLQAR ABBASZADƏNİN AİLƏSİ DAĞILDI

Bir gənc Sovet ailəsi dağılmışdı. Bundan əvvəl qonşumuz Əkbər Ağayevin iki oğlu – Məmməd və Elmanın, o biri qonşumuz Eyvaz Vəliyev də boşanmışdılar. Bu, bir ailə kimi yaşayan qonşuları da yaman incidirdi. Sonra İlqar işləmək üçün Amerikaya getdi. (indi də xaricdədir). Amma iki qız nəvə mütəmadi baba və nəvələrini ziyarət edirdilər. Atalarının familiyalarını daşıyırdılar. Daha sonra Solmaz xala rəhmətə getdi. İradənin əri isə xarici vətəndaş olduğundan Türkiyəyə köçdü. Hüseyn Abbaszadə tək qaldı. Bir qohumu ona qulluq edirdi. Bir müddətdən sonra Hüseyn əmi də rəhmətə getdi. Səhv etmirəmsə, İlqar dəfnə gələ bilməmişdi. İradə isə atasının ölümündən sonra evi satıb birdəfəlik Azərbaycanı tərk etdi. Abbaszadələr Azərbaycanı tərk elədi. İkisi haq dünyasına, ikisi də xaricə.

İqtidaryönümlü qəzetləri çox maraqla oxuyuram. Birinci və axırıncı səhifələrini. Birincidə prezident sərəncamları, sonda isə başsağlıqlar. O günlərdə xalq yazıçısı Hüseyn Abbaszadənin vəfatıyla bağlı ümumi başsağlıqlar oldu. Yeganə konkret başsağlığı isə Məleykə Abbaszadəyə vermişdilər: "qaynatası Hüseyn Abbaszadənin vəfatı münasibətilə" gəlinə başsağlıq. Oğula, qıza yox. Gəlinə başsağlıq.

Televizora baxıram. TQDK-nın sədri Məleykə Abbaszadəni göstərirlər. Bu gün də bir zaman ayrıldığı ərinin, qaynatasının, onu yola verməyən qaynanasının familiyasını daşıyır. Görkəmli ictimai xadimdir. Nənədir. Onu hər görəndə qonşu Abbaszadələr yadıma düşür. Daha doğrusu keçmiş qonşularımız Abbaszadələr: Hüseyn, Solmaz, İlqar, İradə. Fikrə gedirəm: Demə, heç bir qan qohumluğu olmayan gəlin də nəsli, familiyanı yaşadarmış. Sələflərə xələf olarmış.

Televizorda veriliş davam edir. Məleykə Abbaszadə mətbuat konfransı keçirir. Gözüm ekrandadır. Qulaqlarımda isə Solmaz xalanın 38 il əvvəl dediyi sözlər:

"Qabil, şəklə bax?! Gör nə gözəl-göyçək gəlinim var? Adı da Məleykədir. O gün olsun Mahirdən görəsən. Gəlin gətirəsən. Bu yaxında toydur".

RAMİZ MEHDİYEV: DÜNƏN VƏ BU GÜN

Qəzetləri oxuya bilmirəm. Yox, çox maraqla oxuyuram. Sadəcə məcazi mənada dedim. Mövzu rəngarəngliyi yoxdur. Hansını açırsan Elşad Abdullayev, Mahir Abdullayev, Gülər Əhmədova, Sevinc Babayeva, Rüstəm İbrahimbəyovdan başqa bir şey oxumursan. Sanki Azərbaycanın mətbuat məkanında başqa bir sensasion şey yoxdur.

Azərbaycan televiziyalarını açırsan. Ona da peşman olursan. Özəl tibb klinikaları zəbt edib efiri. Belə çıxır ki, Azərbaycan impotent, sonsuz, dişi, saçı tökülən, kosmetik əməliyyatlara ehtiyacı olan bir ölkəymiş, xəbərimiz yoxmuş.

Reklama keçirik: Evin ən populyar yeri tualeti necə təmizləməyi, havanı təravətləndirməyi, paltarları təmiz

yumağı. Nə yaxşı ki, bu malları respublikaya gətirdilər, yoxsa çirk içində batacaqdıq.

Yenə türk televiziyaları yaxşıdır. Kanalı çevirirəm. Bəh-bəh "Möhtəşəm yüzillik" serialı. Çox həvəslə baxıram. Onu da korladılar. Sultan Süleyman öz vəziri, dostu, qardaşı, yeznəsi İbrahim Paşanın ölümünə fərman verir. Çox mütəəssirlənirəm. Boğanlar da onun ətrafıdır. Sultanın beynini dolduranlar da saray əhli. Xüsusilə də Hürrəm Sultan, hərəm, hətta Xacə Sünbül ağa. (Xacələrin saraydakı mövqeyinə bax e?..) Nəsə pis oldum. Adam da vəzirini aradan götürər?

Kanalı çevirirəm. 20 noyabr – vertolyot hadisəsindən verilişin təkrarı. Ayaz Mütəllibovun ətrafındakı başbilənlərin, xüsusilə də dövlət katibi Tofiq İsmayılovun bir gündə, bir yerdə həlak olması. Yaxud da öldürülməsi və ya sifarişli qətl. 2-3 aydan sonra isə Ayaz Mütəllibovun hakimiyyətinin sonu. Yanmış cəsədlər, qəbiristanlıq, insan seli. Qanım bir az da qaralır.

Normal bir şeyə baxmaq ümidilə əlimi televizor pultuna atıram. "İdman Azərbaycan" kanalında dünya şöhrətli şahmatçımız Şəhriyar Məmmədyarovla müsahibə gedir. Nəsə maraqlı gəldi. Onu şahmat stolu arxasında xarüqələr yaradan görmüşdük. Görəsən zəka sahibi danışığında, müstəqil həyatda, ünsiyyətdə necə adamdır? Kanalı dəyişmədim. Deməli maraqlı veriliş idi.

Artistlərə sual verirlər ki, hansı rolu oynamaq istəyərdin? Şair, yazıçılara sual verirlər ki, hansı əsəri yazmaq istəyərdin? Amma şahmatçıya bu cür "dejurnı" sualı gözləməzdim: "Şəhriyar, şahmat taxtasında hansı fiqur

olmaq istərdin?" Cavab qısa oldu: "Vəzir".

Az-maz şahmatdan başım çıxır. Atların, zabitlərin, topların, hətta bəzən "peşkalar"ın at oynatdığı, hətta vəzirə çevrilə biləcəyi bir məkanda "Vəzir olmaq istəyərdim" cavabı həm qəribə, həm də tutarlı idi. Bir anlığa oyunu fikrimdən keçirdim. Top 90 dərəcə bucaq altında sağa-sola gedir.

Zabit 45 dərəcə bucaq altında sağa-sola gedir. At 2 addım qabağa, 1 addım ya sağa, ya sola. Qorxu hiss edəndə dala da qaçır. "Peşkalar" ancaq irəli, bir-birinin qanı o birinin üstünə çilənə-çilənə. Şah da ki həm sağa, həm sola, həm irəli – o da addım-addım. Qaldı yerdə vəzir. Hara istəsə ora da gedir. Hansı fiquru istəyir aradan götürür. Əlbəttə ki, həmin fiqur başqa fiqur tərəfindən mühafizə olunmursa. Ən əsası isə öz komandasını, şahını müdafiə edir. Bu oyuna şah başçılıq etmir, vəzir edir. Əks tərəf də əsasən onu aradan götürmək istəyir. Vəzir düşmən arxasına da keçir, düşmən şaha mat da verir. Yoxlayır ki, görüm onun müdafiəsinə kim qalxacaq? Geri qayıdır və sonradan həmin müdafiəni aradan götürür. Vəzirin yolunu açmaq və ya ona qələbəsində kömək etmək üçün neçə-neçə at, zabit, top, "peşka" da qurban gedir. Amma bəzən də onun yolunda bir maneyəyə çevrilir. Vəzir öləndən sonra onlar da axırda məhv olurlar. Vəzir nə mat, nə də pat olur. Vəzir aradan götürülür. Amma bu onun komandası və şahı üçün xoşbəxtlik gətirmir. Onları da bir-bir dənləyirlər. Şah isə sonda mat olur. Ya ağıllı şahmatçı heç onu da gözləmir, məğlub olur. Şah üçün mat və ya məğlubiyyət xoşbəxtlikdir. Vay onda ki, pat olasan. Heç yana qaça

bilməyəsən. Və ya pat vəziyyətində 4 ətrafından ikisində öz rəngindən olan fiqurlar olar.

Müxbirin 2-ci sualı da ürəyimdən oldu? – Hansı fiqurlarla oynamaq istərdin? "Qara fiqurlarla.Çünki qələbələrimin çoxunu qara fiqurlarla qazanıram. Teymur Rəcəbov da isə ağ fiqurlarla oynamaq uğurlu alınır."

Bəli, ağlar birinci hücum edir, qaralar isə müdafiə olunur. Ağ fiqurlarda şah vəzirin sağ əlidir, qara günündə, müdafiədə olanda isə vəzir şahın sağ əlinə çevrilir. Qaralarla müdafiədən hücuma keçmək və sonda qalib gəlmək çox çətindir. Şəhriyar Məmmədyarov isə bunu bacarır. Eşq olsun onun şahmat taxtasındakı vəzirə. Müdafiəyə çəkilib sonda qələbə çalan vəzir təqdirəlayiqdir.

Müharibənin şərtləri də belədir : "Hücum edən tərəf daha çox itki verər"

Şahmat oyununa böyük hörmətlə:

Mahir Qabiloğlu

QUBADLIDA OLMAMIŞAM, AMMA ORANI ALTI DƏFƏ "GÖRMÜŞƏM"

Qızına bilmirik oduna qazın:
Havası isinmir otağımızın
İndi duyuram ki, ocağımızın
Közü-hərarəti anamgildədir.

Məktəbdə oxuyanda ədəbiyyat müəllimimiz Ramizə İsmayılova tez-tez bizə inşa yazdırardı. İnşanın da əvvəlində epiqrafın olması vacib idi. Bunun üçün də şeirləri əzbər bilməli, hər mövzuya uyğununu 45 dəqiqə ərzində tapmalı, üstəlik 2-3 səhifə də yazı yazmalıydın. Nədənsə, heç vaxt Qubadlıda olmayan mən Qubadlının işğal gününün 20 illiyi ərəfəsində yazmağa qərar verdiyim məqalədə epiqraf yadıma düşdü.

Çoxlu yazılar yazmışam. Amma heç vaxt da Ramizə müəllimənin inşaları, epiqrafları yadıma düşməyib. Amma nədənsə...

Ramizə müəllimə haqq dünyasındadır. Onu heç kim qaytara bilməz. Qubadlı isə "reanimasiya"dadır. İşğalçılarla təkbaşına çarpışır, vuruşur, dözür, gözləyir. Görəsən epiqrafda yazıldığı kimi 20 ildir ki, ana ocağının közünə, hərarətinə həsrət qalanlar onu yenidən həyata qaytara biləcəklərmi? Yəqin ki hə. Buna əminəm. O zaman bu şeir də bir epiqraf kimi tarixə qovuşacaq. Öz real, poetik məcrasına qayıdacaq. Hələlik isə...

QUBADLIYLA İLK TANIŞLIĞIM

Qubadlının Xocamsaxlı kəndində anadan olan şair, alim, professor Qasım Qasımzadə yeddi bəndlik "Anamgildədir" şeirini 50-60 il bundan qabaq yazıb. Bakıda yaşaya-yaşaya, yaradıcılığının, elmi karyerasının pillələrində qalxa-qalxa, şəhərin mərkəzində 4 otaqlı mənzili ola-ola, çoxlarının həsrət şəkdiyi "QAZ-24" markalı Volqa sürə-sürə, Vətənə layiq iki şərqşünas, bir diplomat oğul yetişdirə-yetişdirə. Bu şeir onun yaradıcılığının şah əsəridir. O dövrün yaradıcı insanları bu şeiri əzbər bilirdilər. Ona görə yox ki, poetika yüksəkdir. Bu öz yerində. Çünki Qasımın anasının sağlığında Qubadlıda olmuşdular. Xocamsaxlı kəndinin bulaqlarından su içmişdilər. Dağ havasından udmuşdular. Ananın bişirdiyi ləziz yeməkləri dadmışdılar. Bu şeir onlara həm də buna görə doğma idi. Eyni zamanda atam Qabilə də.

Ana öləndən sonra isə bütün bunlara son qoyulmuşdu. Şeir 28 iyul 1993-cü ildə ədəbi tariximizə qovuşmalıydı. Qasım Qasımzadə dünyasını dəyişən gün. Amma bundan bir ay üç gün sonra bu şeir bütün qubadlılar üçün klassik bir nümunəyə çevrildi, baxmayaraq ki, o mənada yazılmamışdı. Xüsusilə də son bəndi:

Ömrün qar fəslidir, ağarıb saçım,
Məni ata bilir, qardaşım, bacım,
Çətində mən kimin yanına qaçım?
Ata şan-şövkəti anamgildədir.

"Ata şan-şövkəti" də, "anagil" də artıq əsarətdə idi. Qasım Qasımzadə Qubadlının işğalını görmədi. Bizə bu şeiri qaldı. Təkcə qalmadı. Klassik bir poeziya nümunəsinə çevrildi. Vətən, torpaq nisgilli qubadlıların yox, bütün qaçqın və məcburi köçkünlərimizin himni oldu.

Mən İngiltərədə olmamışam. Amma Şekspir, Çarlz Dikkens, Konan Doyl, Daniel Defo və digərlərinin əsərlərini oxumaqla ora dəfələrlə səyahət etmişəm. Nəinki ora, onların əks etdirdiyi digər sirli dünyalara da.

Qubadlını da mən ilk dəfə qonşumuz Qasım Qasımzadənin şəxsində tanımışam. Orda olmaya-olmaya, oraları görməyə-görməyə. Anasıgilçün darıxanda, daha dəqiq desək, Ana Vətən – Qubadlı üçün darıxanda dostlarını maşına mindirib rayona gedirdi. Ona görə də Qubadlı Qasımın anasının timsalında onun dostlarına da doğma idi. Qasımın anası onların da anası idi. Bu doğmalıq atamın ruhuyla mənə də keçmişdi:

Neçə anaya da anam anadır,
"Aləm bir yanadır, o bir yanadır".
O açan süfrədə şor da bal dadır,
Ağzımın ləzzəti anamgildədir.

Burda statistikaya nəzər salsam yerinə düşər. Qubadlının ərazisi 828 kvadrat kilometrdir. Əhalisi isə 31 300 nəfərdir. Bu gün bəlkə bundan da çoxdur. Hamısı da "ağzımın ləzzəti anamgildədir" deyir. Amma Qasım Qasımzadədən fərqli olaraq maşına və ya avtobusa oturub ora gedə bilmirlər.

Şirinli-acılı ömür keçmişəm,
Yaxşını-yamanı görüb seçmişəm.
Evli-eşikliyəm, var işim-peşəm...
Uşaqlıq həsrəti anamgildədir.

2013-cü ildir. Qubadlı camaatı pis-yaxşı məskunlaşıblar. Yaxşını-yamanı görüblər. Evli-eşiklidirlər. Hərəsi bir sənətin qulpundan tutub başlarını dolandırırlar. Bu bəndin 3 misrasının hamısı real, göz qabağındadır. Amma uşaqlıq həsrətləriyçün yanırlar. Dördüncü misra yandırır.

Ürək ağrısına hey dözə-dözə,
Duranda nadanla bəzən üz-üzə
Bir səs eşidirəm: "Oğul gəl bizə..."
Dizimin taqəti anamgildədir.

İnsan uşaqlıqdan atasını, babasını güclü bilər. Onunla qürrələnər. Kökünə, nəslinə hörmətlə yanaşar. İşi çətinə düşəndə məsləhət üçün elinin-obasının ağsaqqallarına üz tutar. Elə-obaya gedəndə birinci nəslinin qəbirlərini ziyarət edər. Qasım Qasımzadə də belə edərdi. Bəs indi. Bu bəndin də üç misrasının hamısı realdır, hər gün baş verir. Amma dördüncü misra yandırır.

Gəlinin, yeznənin bilir yerini,
Çəkir qardaş-bacı dərdi-sərini.
Ərköyün böyüdür nəvələrini,
Hər kəsin qisməti, anamgildədir.

Qismət... Bunu açıqlamaq istəməzdim. Dördüncü misra yandırsa da, geci-tezi var. Hər şey yaxşı olacaq. Beləliklə şair, qonşu Qasım Qasımzadənin timsalında Qubadlı ilə ilk tanışlığım belə başlandı.

UŞAQLAR QƏHRƏMANLARI SEVİR

Sovet dövrü bütün ziyalı ailələrində uşağın tərbiyəsi demək olar ki, eyni aparılırdı. Uşaq 1-ci sinfə gedəndə artıq hərfləri, rəqəmləri bilməli, saymağı, oxumağı, yazmağı bacarmalıydı. Paralel olaraq musiqi məktəbinə gedib, həvəsi oldu-olmadı, hansısa musiqi alətində heç olmasa dınqıldatmağı öyrənməliydi. Bir də ki, əsas məsələ – kitab oxumaq. Qiraət isə xalq dastanlarından, xalq qəhrəmanları haqqında kitablardan başlanırdı.

Birinci "Koroğlu". Əsl adı Rövşəndir. İki atı var. Ad-

ları Qırat, Dürat. Dəliləri ilə Çənlibeldə məskunlaşıb. Kasıbları əzazil şahlardan, xanlardan müdafiə edib. Ömür-gün yoldaşı Nigar da özündən geri qalmayıb. Üzeyir Hacıbəyov bu el qəhrəmanına opera həsr edib. Bülbül baş rolda oynayıb.

Tam müfəssəl məlumatlı bir sovet adamı kimi yetişirdik. Amma bu gün Koroğlunun heykəlinə baxanda məəttəl qalıram. Görəsən onu yaradan heykəltaraş bu dastanı oxuyubmu? Koroğlunun atı – bircə qanadı çatışmayan, düşmənlə davada Koroğludan geri qalmayan Qırat olub, yoxsa Poni? Nə isə. Mətləbdən uzaqlaşmayım.

İkinci oxuduğumuz kitab isə "Qaçaq Nəbi" olurdu. Həyat yoldaşı Həcər. Atı Bozat. Elini, mahalını zalımlardan qoruyan xalq qəhrəmanı Zəngəzur mahalının, indiki Qubadlının Aşağı Mollu kəndində anadan olmuş Qaçaq Nəbi. 10-11 yaşlı bizlər üçün böyük, güclü təssürat idi. Bu el-oba barədə ikinci məlumatı bu dastandan aldım. Zəngəzuru, Qubadlını, onun igid camaatını ikinci dəfə belə "gördüm".

İLK XALQ YAZIÇISI, İLK SOSİALİST ƏMƏYİ QƏHRƏMANI

1976-cı il idi. Atam "Nəsimi" poemasına görə Azərbaycan Dövlət Mükafatına layiq görülmüşdü. Mükafatın məbləği 2500 rubl idi. Amma nə mükafatın özünü, nə də pulunu təqdim etməmişdilər. Amma dostları böyük banket arzusunda israrlı idilər. Özü də təkcə

dostları yox. O məclisdə 60, 70, 80 yaşlı korifey yazıçılar yuxarı başda oturmalıydılar. Belə məclislər üçünsə o vaxt ən yaxşı, prestij, indiki dildə desək "elitnı" yer "Köhnə İnturist" idi.

Nəhayət, ziyafətin vaxtı dəqiqləşdi. Anamla mən də ailə üzvü kimi yuxarı başda oturacaqdıq. Evdən çıxmazdan qabaq müxtəlif prosedurlardan keçirdim. Birincisi məni yaxşıca yedizdirirdi ki, birdən orda yeməyi gözümə təpərəm. Qonaqlar da deyər ki, "Qabilin nə görməmiş oğlu var? İkinci, 10 yaşlı mən dəng olurdum. "Yeməyi çəngəllə yeyərsən. Ağzındakını udmamış, ikinci loxmanı ağzına basma. Sağlıq deyəndə və ya mahnı çalınanda yeməyi dayandır, qulaq as. Nə soruşsalar "bəli", "xeyr"lə cavab ver". İndiki kimi deyildi. Toya gedəndə ana-ata uşağına tapşırıq verir: "Bala, yaxşı ye. Sənin də əvəzinə 100 manat salajam".

Nə isə gəldik "İnturist"ə. Çoxlarını tanıyırdım. "Yazıçılar evi"ndə qalırdıq axı? Qarşımızda iki nəfər əzəmətli adam oturmuşdu. Çox zəhmli idilər. Gözlərini də mənə dikmişdilər. Sonra başa düşdüm ki, demə müşahidə edirmişlər məni. Çünki axırda dedilər ki, "çox mədəni uşaqdır. Yeməyi çəngəllə yeyir. Bəli-xeyrlə danışır".

Birini tanıyırdım. Qonşumuz Məsud Əlioğlunun atası Əli Vəliyev idi. Hündürboy kişi idi. Oğlu öləndə görmüşdüm onu. Telefonda xəbər verəndə demişdilər ki, gəlinin rəhmətə gedib, gəl. İçəri girib Rəna xalanı sağ görəndə hər şeyi başa düşmüşdü. Həyətə düşüb başını göyə qaldırıb bir nöqtəyə baxaraq donub dayanmışdı. Bu səhnə indi gözümdən çəkilmir. (Əli Vəliyev yazıçı Afaq Məsudun babasıdır).

Qayıdaq qonaqlığa. Birdən atam mənə yaxınlaşdı. "Mahir, Süleyman Rəhimovdur, xalq yazıçısı, Sosialist Əməyi Qəhrəmanı. Tanı! Əli Vəliyevdir – xalq yazıçımız. Tanı!"

Atam demirdi tanış ol. Bu bayağı səslənərdi. Çünki onlar elə adam idilər ki, hamı onları tanımalı, hörmət etməliydi. O cümlədən mən – özü də 10 yaşından etibarən. Mən sonralar bildim ki, Əli Vəliyev, Süleyman Rəhimov Qubadlıdandırlar. Azərbaycanın ilk "Xalq yazıçısı" da, yazıçılar arasında ilk dəfə Sosialist Əməyi Qəhrəmanı adına layiq görülən də məhz Süleyman Rəhimovdur.

Qubadlını, böyük nasirlərimizi, cild-cild romanlarında təsvir olunan qubadlılı qəhrəmanlarını üçüncü dəfə onda görmüşdüm.

HEYDƏR ƏLİYEV AĞLAYIRDI

1978-ci il idi. Məktəbdən evə gəlirdim. Daxili İşlər Nazirliyinin qarşısında qələbəlik idi. Demək olar ki, mühasirəyə almışdılar. 12 yaşım vardı. Başımı aşağı salıb gəldim evə. Axşam atam işdən qayıdanda dedi ki," bəs bir nəfər türmə rəisi silahlı girib daxili işlər nazirinin kabinetinə. Naziri də, müavinini də qətlə yetirib. Sonra da özünü öldürüb. Otaqda olan digəri isə stolun altına girib.Deyəsən bizim Abdulla İbrahimovun qardaşıdır. Qorxudan dili tutulub. Türmə rəisi nazir müavinini öldürməkdə qərarlıymış. Nə qədər gözləyib ki, müavin nazirin yanından çıxsın sonra onu öldürsün. Sonda əsəbləri dözməyib. Girib nazirin kabinetinə ikisini də

qətlə yetirib. Nazir də müavinin güdazına gedib".

Ertəsi günü dəfn idi. Radioda canlı yayım gedirdi. Dəfndə Heydər Əliyev şəxsən iştirak edirdi. Qəhərini boğa bilmirdi. Ağlamaq səsi gəlirdi. Demə Arif Heydərov ulu öndərimizin yaxın, inandığı, təmiz çekistlərdən biri olub. Türkiyədə konsul işlədiyi halda onu Azərbaycana gətizdirib nazir təyin eləyib. Arif Heydərovun atası Nəzər Heydərov da böyük dövlət və partiya xadimi olub. SSRİ Ali Soveti Rəyasət Heyətinin sədr müavinliyinəcən ucalıb. Hər iki dövlət xadimi Qubadlı torpağının yetirməsiydi. Qubadlıyla dördüncü tanışlığım belə oldu.

QUBADLIDAN İLK MÜDAFİƏ NAZİRİ VƏ GENERAL-LEYTENANT

Qarabağ müharibəsində Qubadlı 228 şəhid verib. 10 nəfər Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülüb. Qubadlı Qaçaq Nəbi və Həcər kimi iki xalq qəhrəmanının Vətənidir. Azərbaycana beş general bəxş edib.

Sovet ordusu Azərbaycandan çıxmışdı. Amma hərbi komissarlıq sistemində ruslar hələ də qalmaqda idi. İşləri də evlərə "povestka" göndərib, möhlət hüququ olanlardan nəsə "qopartmaq" idi. Belə siqnallar müstəqil Azərbaycanın yeni yaradılmış müdafiə nazirliyinə də çatırdı. Bu cür halla mən də üzləşmişdim. Söhbət gedib nazirliyə çıxmışdı. Məni ora çağırmışdılar. Ətrafımda 3 general, iki polkovnik vardı. Onlardan təkcə gözəl şair, Xəlil Rzanın, atamın dostu Ramiz Məlikovu – Ramiz

Duyğunu tanıyırdım. İş o yerə çatdı ki, atamı da nazirliyə dəvət etməli oldular. Bu məsələ başqa mövzunun söhbətidir. Atam otaqdan çıxanda soruşdum ki, o başda oturan general-leytenant kim idi?

-Mahir, o Valeh Barşadlıdlr. SSRİ-nin ordusunda ilk azərbaycanlı general-leytenant. İndi də müstəqil Azərbaycanın ilk müdafiə naziri təyin olunub.

Valeh Bərşadlı Qubadlı rayonunun Eyvazlı kəndində doğulub. Qubadlıyla beşinci tanışlığım da belə başa çatdı.

ALTINCI TANIŞLIĞIM TƏKİ BELƏ OLMAYAYDI

Qubadlıyla bağlı sadalamalı çox şey var. Mən uşaq yaddaşımda həkk olanları qeyd etdim. Özü də Qubadlının işğalının 20 illiyində. Mövzuya yanaşmam nə qədər düzgün oldu bilmirəm. Amma altıncı tanışlığımla bu yazını qurtarmaq istəməzdim. Çünki altıncı tanışlığım Qubadlının işğalı, əldən getməsi günüdür. Burda xronika və ya statistika vermək istəmədim. Neçə min qaçqını var? Neçə rayonda məskunlaşıblar? Necə dolanırlar? Necə yaşayırlar? Qərar verdim ki, Qubadlıyla tanışlığım necə başlayıbsa, elə onunla da qurtarım. Epiqrafım Qasım Qasımzadənin "Anamgildədir" şeirindən bir bənd oldu. Epiloqum isə qoy şeir bütövlükdə olsun. İnanıram ki, bu Vətən nisgili yaşayan qubadlıların da ürəyindən olar. İstəsələr "Anamgildədir" sözünü dəyişib, "Qubadlıdadır" da oxuya bilərlər. Qasım əminin ruhu yəqin ki, bizdən inciməz.

ANAMGİLDƏDİR

Şirinli-acılı ömür keçmişəm,
Yaxşını-yamanı görüb seçmişəm.
Evli-eşikliyəm, var işim-peşəm...
Uşaqlıq həsrəti anamgildədir.

Ürək ağrısına hey dözə-dözə,
Duranda nadanla bəzən üz-üzə
Bir səs eşidirəm: "Oğul gəl bizə..."
Dizimin taqəti anamgildədir.

Neçə anaya da, anam anadır,
"Aləm bir yanadır, o bir yanadır".
O açan süfrədə şor da bal dadır,
Ağzımın ləzzəti anamgildədir.

Gəlinin, yeznənin bilir yerini,
Çəkir qardaş-bacı dərdi-sərini.
Ərköyün böyüdür nəvələrini,
Hər kəsin qisməti, anamgildədir.

Qızına bilmirik oduna qazın:
Havası isinmir otağımızın.
İndi duyuram ki, ocağımızın
Közü-hərarəti anamgildədir.

Ömrün qar fəslidir, ağarıb saçım,
Məni ata bilir, qardaşım, bacım,
Çətində mən kimin yanına qaçım?
Ata şan-şövkəti anamgildədir.

FIRTIŞQULUNUN ARVADI VƏ MƏŞUQƏSİ

Fırtışqulunun üç oğlu var. Məktəbə gedirlər. Arvadı Tükəzban da evdar qadındır. Evdar deyil e... Elə bil ayağından evə zəncirləyiblər. Heç yana çıxa bilmir. Balaca üçotaqlı mənzildə yaşamalarına baxmayaraq ev işləri qurtarmır ki, qurtarmır.

Uşağın birini məktəbə səhər növbəsində yola salır. Başlayır o birilərilə məşğul olmağa. Səhər yeməyi qurtaran kimi, günortaya hazırlıq görür. Evləri yığışdırır. Günorta məktəbdən uşağın biri gəlir, o biri ikisi gedir. Televizor da ki daim açıq olur. Bütün günü də türk seriallarına baxır. Ordakıların da bədbəxt həyatı lap üzür onu. Özünü aparır qoyur onların yerinə. "Mənim də üç oğlum var. Birdən gələcəkdə içib sərxoş olarlar, gedib qonşu Fatmaxanımı zorlayarlar a... Deyərlər ki...əşşi nə fərqi? Olmasın Fatmagül, olsun 50 yaşlı "staraya deva"

Fatmaxanım". Seriallara baxdıqca hamısının içində özünü görür. "Bıy-bıy bu ləçər Fərhundəyə bax a. Allah göstərməsin adama belə gəlin qismət ola. Saçın yolub verərəm küləyə". Yox. Bir anlıq fikrə gedir. Birdən o mənim saçımı yoldu. Onda nə olacaq? Beləcə seriallar girib onun həyatına. Bu həyatda əri Fırtışquluya da yer var. Məşuq-məşuqə səhnələrini göstərəndə gözünü ekrandan çəkmir. Əli Kapitanla Karolini görəndə bir anlıq özünü Cəmilənin yerinə qoyur. O saat Fırtışqulu yadına düşür. Həmən telefonu götürüb zəng edir:

– Ədə, hansı cəhənnəmdəsən?

– Quşçuluq sexində.

– Orda neyləyirsən?

– Kəsilmiş toyuqları qablaşdırıram.

– Neyləyirsən?

– Neyləyəcəyəm. Toyuğun ayaqlarını çarpazlaşdırıb yarılmış qarnına soxuram. İşim bundan ibarətdir.

– O nə qadın səsləridir gəlir?

– Ay arvad, seximizin fərələridir.

– Sənin beçə boyunu yerə soxum,– deyib dəstəyi asır yerinə.

Beləcə hər gün. Bilirdi ki, əri onu ələ salır. Amma qadın səsi gəlməyinə gəlirdi. Əri o sexdə işləyən yeganə kişi idi. Maaşdan əlavə əlinə gündəlik toyuq içalatı, "brak" toyuqlar da keçirdi. Tükəzbanın gündəlik bişirdiyi yeməklər də əsasən buna uyğun olurdu.

Bir dəfə Fırtışqulu evə gələndə neyləsə yaxşıdır? Qapı açılar-açılmaz özü başlayır qaqqıldamağa, uşaq-

lar da ki, xoruz kimi banlamağa: "quq-quli-qu" Beləcə qollarını dirsəkdən yığıb yellədərək 5 dəqiqə yorğun Fırtışquluya xoruz-toyuq konserti verirlər. O da:

– Nə olub? İşdə də qaqqıldayırlar. İndi də evdə başlamısınız?

– Neyləyək? O qədər toyuq əti yemişik ki, genimiz dəyişib. Axı biz də qonşular kimi kabab yeyib mələmək istəyirik, xaşlama dadıb mouldamağa möhtacıq.

– Bircə bu qalmışdı. Səsinizdən bütün bina köçər.

– Yaxşı... Mən razı. Onda balıq al. Çınqırımız da çıxmayacaq. İçalatı da pis olmaz. Qara kürünü deyirəm e.

Nə isə Fırtışqulu evə dincəlməyə yox, "konsertə" gəlirdi.

İşlədiyi sexdə qadınlar çox idi. Əksəriyyəti də dul, ərindən boşananlar. Hərdən ona göz-qaş da edirdilər. Amma o başını aşağı salıb öz işiylə məşğul olurdu. Yəni ki, ütülmüş toyuqları qaba qoyub ayaqlarını çarpazlaşdıraraq qarınlarına soxmaqla.

Rəhmətlik nənəsi ona yaxşı tərbiyə vermişdi. Demişdi ki, "ay bala, həmişə bar verən ağacın altında yat. O biri ağaclar sərinlikdən başqa bir şey gətirmir". Bu misalı Tükəzbana da demişdi. O da cavabında "Ədə, mənə nə minnət qoyursan? Mənim rəhmətlik bibim də deyirdi ki, "xoruz" harda dənləyir dənləsin, amma səhər hökmən evindən "banlamalıdır"". Fırtışqulu da yanıb tökülürdü ki, mən buna ağac, özü də barverən ağac deyirəm. Bu isə mənə xoruz.

Yorğun Fırtışqulu evə girən kimi, sərilirdi divana ki, "çay ver!" Yarım saatdan sonra çay gəlirdi. Amma ona

çay demək mümkünsə. Soyuq, sidiy rəngində bir şey. Arvad üstəlik onu yandırıb tökürdü də – "Fırtışqulu, başın üçün bu dəqiqə dəmləmişəm". Yemək istəməyinə ehtiyac qalmırdı. Beləcə divanda mürgüləyirdi. Yaxşı ki, işdə günorta yeməyi verirdilər. Yoxsa çətin ki, ayaqüstə dura biləydi.

Öz-özünə fikirləşirdi ki, görəsən bütün arvadlar Tükəzban kimidir? Axı neyləsin ki, o varlı, imkanlı deyil. Hələ bu işi güc-bəla tapıb. Köhnə uşaqlıq yoldaşının tapşırığı ilə. Necə olsa maaşı var, günorta yeməyi var. Bayramlarda mükafat, hədiyyə verirlər. Xüsusi avtobuslarla aparıb gətirirlər. Bəs bundan başqa nə olmalıdır axı? Oğurluq, rüşvət almaq da əlindən gəlmir. Gəlsə də... kimdir axı ona rüşvət verən, oğurluğa aparan? Bəlkə ayaqlarını yarılmış dallarına dürtdüyü beçələrin ahı tutub onu. Necə olsa kişi xeylağıdırlar axı?

Beləcə Fırtışqulu bu cür fikirlərlə hər gecə "barverən ağac"ının altında yatır, səhər isə evindən "banlayırdı".

MƏŞUQƏ

Məşuqə sözünü kitablarda oxumuş, kinolarda görmüşdü. Çox da cəzbedici görünməmişdi ona. Bir növ arvadın qır-saqqız forması təsiri bağışlamışdı.

İşdən çıxanda avtobusda iş yoldaşlarıyla birlikdə gəlirdi. Onlara tərəf gözünün ucuyla da baxmırdı. İş yoldaşları da adını "arvaddanqorxan", bəzən də "impotent" qoyub dolayırdılar. Günlərin bir günü isə sürücü təsadüfən əyləci bərk basdı. Qadınlardan biri müva-

zinətini saxlaya bilməyib yapışdı Fırtışquluya. Dodağına sürtdüyü qıpqırmızı pomada yaxıldı köynəyinə. Fırtışqulunun rəngi qaçdı, başladı titrəməyə. İş yoldaşı Vilyura bunu gördü.

Qonşuluqda yaşayırdı.Əri də ölmüşdü. Uşağı da yox idi. Sonsuz idi. Yol boyu "Fırtışqulu narahat olma. Bir pis iş görməmisən ki... arvad sənə nəsə deyə?" Amma Vilyura hardan biləydi ki, Tükəzban onun üstündən gələn toyuq iyini hər axşam fransız ətiri kimi ona sırımaq istəyir. Və buna nail olur da. O ki qalsın ağ köynəkdəki pamada izi ola.

Bunu görən Vilyura "Bəlkə bizə gedək. İki dəqiqəyə atım paltaryuyan maşına eləsin ağappaq. Ütülüyüm verim". Fırtışqulu naəlac qalıb razılıq verdi.

Evə girdilər. Köynəyini soyunub Vilyuraya verdi. Kresloya əyləşdi.

-Suyumuz gəlir. İstəyirsən yaxalan.

-Yox! Sağ olun.

Vilyura tez çay dəmlədi. Podnosda ortalığa gətirdi. Yanında limonu, şokolad konfeti, kişmişli keksi. Çayın ətri otağa yayıldı.

-Berqamotlu deyirlər e....onun ətridir?

-Yox. Berqamot nədir ki... limonun bir növüdür də. Qurudulmuş, üyüdülmüş formada . Hazır təzə Lənkəran limonu var da. Kəkotu atmışam çaya.

İçirdi. Elə bil ki, çay damağına yapışırdı. Ləzzətini hiss edirdi. Vilyura paltarını dəyişib xalat geyinmişdi. Üstündən qəşəng ətir iyi gəlirdi, bozbaş iyi yox. Birdən

ayağa durdu. Hamama girdi. Əlində ləyən yanıma gəlib döşəməyə qoydu. Corablarımı çıxarmağa başladı.

-Neyləyirsən?

-Mənim ərim işdən gələndə belə edirdim. Ayaqlarını suya qoyan kimi bütün yorğunluğu çıxırdı.

Nədənsə bir anlıq mənə də maraqlı gəldi. Vilyura corablarımı çıxartdı. Şalvarımın balaqlarını çırmaladı. Ayaqlarımı suya qoydu. Vilyura eləcə ləyənin yanında oturdu. Xalatının ətəkləri dartıldığından ayaqları aydın görsənirdi. Sinəsini hələ demirəm. İsti su ayaqlarımı ağuşuna aldıqca içdiyim pürrəngi çay da sinəmə yayılırdı.

Vilyura əlini ləyənə saldı. Barmaqlarıyla ayaqlarımı sığallamağa başladı. Ayaq barmaqlarımı bir-bir ovcunda sıxırdı. Hər sıxdıqca da ruhum bədənimdən çıxırdı. Köynək də, evdəkilər də yaddan çıxmışdı. Vilyura su gətirib ayaqlarımı yaxaladı . Təmiz dəsmalla quruladı. Bir stəkan da çay gətirdi. Yemək çəkdi. Birgə şam elədik. Mən içməyən adam çaxır içdim. İşığı da yandırmırdı. İki şam alışdırmışdı. İlahi, şam işığında insan sifəti necə gözəl görükərmiş. Vilyura heç nə danışmırdı, deyinmirdi, Tükəzban kimi "qaqqıldamırdı". Televizoru açıb seriala baxmırdı. Maqnitafonda insanın dincəldən lirik musiqi qoymuşdu. Sadəcə kirimişcə gözlərimə baxırdı. Həsrətlə mənə baxırdı. Bu baxışlardakı nə idi? Bilmirdim. Başa düşməyə çalışırdım. Amma başa düşə bilmirdim. Yeməyimizi bitirdik. Köynək də o vaxta yuyuldu. Vilyura tezcə ütülədi. Hətta bir-iki düyməsini bərkitdi də. Corablarımı geyindirdi. Ayaqqabımı mazlayıb, parıldatdı. Şalvarımı şotkaladı. Qapıdan çıxanda sağollaş-

maq, minnətdarlıq əlaməti olaraq əlimi ona uzatdım. O da. Amma əlini əlimdən ayıra bilmirdi. Arvadım Tükəzbandan görmədiyimi Vilyuradan görmüşdüm. Nənəmin və arvadımın bibisinin dediklərinin mənasını başa düşmüşdüm. Çünki Vilyura yavaş-yavaş məşuqəmə çevrilirdi.

"Bar verən ağacın altında yat. O birilər sərinlik verəndir". Nənəm düz deyirdi. Bar verən ağac uşaqlarımın anası – arvad idi. Sərinlik verən, arvadımla mənim aramda yavaş-yavaş sərinlik toxumları səpən isə məşuqə, heç vaxt uşağı olmayan, dul– tənha qalmış Vilyura. O ki qaldı arvadımın bibisinin "Xoruz harda dənləyir dənləsin, amma səhər hökmən evindən banlamalıdır" fikrinə... bunu da dərindən anlayırdım.

O gündən evə gec gəlirdim. Yolüstü Vilyuragilə gedirdim. Əlbəttə ki "köynəyimi yudurtmağa". Vilyura artıq məni çimizdirirdi. Sığallayırdı. "Can, can" deyirdi. Çay gətirirdi, şam işığında şam edirdik. İşə bir gedib, bir gəlirdik. Gecəni isə... Ondan ayrılanda ağlayırdı. "Getmə" deyirdi. Gecələr tək qalmaqdan qorxurdu. Məni itirməkdən qorxurdu. Tükəzbanın isə itirmək qorxusu yox idi. Onun əriydim. Üç uşağının atasıydım. Öhdəliklərim vardı. Bilirdi ki, hara getsəm də, əvvəl-axır evə qayıdacağam. Bircə "Hansı cəhənnəmdəydin?" deyirdi. Sonra isə başlayırdı seriallarına baxmağa.

Arvadın rəhmətlik, cənnət-məkan bibisi demişkən "qıraqda dimdikləşirdim, səhərlər isə evimdən "banlayırdım".

MÜDİR... İKİ KATİBƏ... VƏ NƏVƏNİN...

Mən Fırtışqulu vəzifəli adam olmaq istəyirəm. Ürəyim gedir vəzifəyə keçmək üçün. Söz vermişəm rüşvət almayacağam. Ayıbdır. Nəslimin adını biabır edə bilmərəm. Sadəcə məqam düşəndə büdcəni əməcəyəm – çağa anasını əmən kimi. Süd kəsilsə... onda söz verməyimə baxmayaraq, əlimyandımda "Malış"a, yəni rüşvətə də keçməyə məcbur olaram.

Müdir təyin edildiyim idarədən içəri keçəndə hamı "Salam, Fırtışqulu müəllim", "Necəsiniz, Fırtışqulu müəllim", "Allah sizə ömür versin, Fırtışqulu müəllim", "Başımızın üstündən əskik olmayasınız, Fırtışqulu müəllim" deyəcək. Lift açıq vəziyyətdə hazır olacaq. Kandarında da çest verən polis. Qalxacağam kabinetimə. Katibə gülərüzlə məni qarşılayacaq. Bütün qütblərdən – şimal, qərb, şərq və cənubdan ona ani nəzər

yetirəcəyəm. Şaquli və horizontal qiymətləndirəcəyəm. Zövqümə cavab verməsə, şöbələrdən birinə adi işçi keçirəcəyəm. Yerinə daha cavanını gətirəcəyəm. Özü də ikisini birdən. Biri 9-dan 6-yacan işləyəcək, o biri isə 6-dan gecə saat 12-yədək. Bezəndə yaxşı cehiz verib birinə sırıyacağam gedəcək. Yerinə daha qəşəngini götürəcəm.

Kabinetə girəcəyəm. Köhnə müdirin iyi hiss olunsa, həmən təmirə başlayacağam. Həm də birdən kamera-zad quraşdırarlar axı. Allah Elşad Abdullayevin ölənlərinə rəhmət eləsin. Sonra işçiləri bir-bir qəbul edəcəyəm. Hamısının "suka"lıq çıxışlarına təmkinlə qulaq asacağam. İçindən "suka" çıxmayan bir nəfəri özümə 1-ci müavin təyin edəcəyəm. O bir nəfər də ancaq mənim "baş suka"m olaraq o biri sukaları bir-bir aradan götürəcək. Mən də bütün cərəyan edən hadisələri 1-ci müavinin üstünə yıxacağam. Onun vasitəsilə bütün tanış, dost, qohumlarımı vəzifələrə yerləşdirəcəyəm. Sonda 1-ci müavini də işdən çıxaracağam. İşdən çıxarılan digərləri də başlayacaq ölənlərimə rəhmət oxumağa. Ki, onların işdən çıxarılmasına səbəb olan 1-ci müavini işdən çıxartdım.

Bütün şöbə müdirlərinə müavin qadın təyin edəcəyəm. Onlar da onları "dü-düt" gününə qoyacaqlar. Bu minvalla hər şeydən xəbərim olacaq.

Bundan sonra köhnə müdirin ölənlərinə rəhmət oxutduracağam. Nəslimdəki bütün uzaq qohumların yadına düşəcəyəm. Gələn-gələni söyüb qapıdan qovacağam. "Bu vaxtacan hardaydınız?" deyəcəyəm. Onlar da "Fırtışqulu qudurub", "vəzifə bunu da qudurtdu", "Atası

sağ olsaydı, heç olmasa sözümüzü ona deyərdik" deyə mırıldayacaqlar.

Bir aydan – təbrikləri qəbul edəndən sonra telefon nömrəmi dəyişəcəyəm. Üç yeni telefon alacağam: Biri ailəm üçün, biri iş üçün, biri də maskalar üçün.

İki şoferim olacaq. Biri mənə baxacaq, biri də ailəyə. Bazarlıq, səhər tezdən təzə təndir çörəyi almaq, zibili atmaq onlara baxacaq. Lazım olsa nəvələrimi bağçaya, məktəbə də aparacaq.

Arvadın tənələrindən canım qurtaracaq. Day deməyəcək ki, gecə saat 12-də hardan gəlirsən? Vəzifəli adam gecə saat 12-də hardan gələr? Əlbəttə ki, yuxarıda keçirilən müşavirədən. Üstümü iyləməyəcək. Əlimə, bir də cibimə baxacaq. Pulu başından şabaş kimi səpib "Kişidir bu" mahnısına oynadacağam onu. Day mənə "özgə oğlusan" deməyəcək. "Atam da sənsən, anam da" sözünü arvaddan eşitmək axır ki, mənə də qismət olacaq.

Bir orta vəzifəli qohumumuz mənə "vəzifəsizsən", deyərək əyri-əyri baxmayacaq. Məni o biri uşaqlarının "Buta"da keçirilən toyuna birinci çağıracaq. Yuxarı başda yer göstərəcək. Yaslara gedəndə də yuxarı başda oturacağam. Mollaya şirinlik də verəcəyəm ki, mən öləndə yasini ürəklə oxusun.

Cəmiyyətin qaymağı mən olacağam. Sabir Rüstəmxanlıyla qohum olacağam. Qəzetlər mənim Sabirlə yox, bunun əksini – Sabirin mənimlə qohum olmasını önə çəkəcəklər. Nə olsun ki, mən ondan qat-qat aşağı adamam. "Za-to" vəzifəliyəm. Necə deyərlər vəzifəmə görə cəmiyyətin qaymağı mən olacağam, o isə...

Bir barmağımla evlər yıxacam. Bir barmağımla evlər tikəcəm. Hamını bir-birinə qarşı qoyacam. Parçalayıb hökm sürəcəm. Pulu hamıdan artıq sevəcəm. Pul həm atam olacaq, həm anam. Özümdən vəzifədə böyük olanların qabağında diz də çökəcəyəm, ayaqqabılarını nəfəsimlə hö-hö verib, cib dəsmalımla parıldadacağam. Fürsət bilsəm ayaqqabılarını çıxaracam. Ayaqlarından dartıb, yıxaraq yerlərinə keçəcəyəm. Ayaqqabılarını da ayağıma keçirəcəyəm. Onların yerişini yeriməyə başlayacağam.

"Fırtışqulu oyan... ay Fırtışqulu, oyan". Arvadımdır. Gül kimi yuxu görürdüm. Yenə başlayacaq da : "Get zavod çörəyi al, nahar edək. Yolüstü zibili də atarsan. Nəvənin də fimozu var. Duduşunu oynatmağı unutma. Bekar adamsan da..."

XALQ ŞAİRİ 22 ...
ÇADIR ŞAİRİ TƏK...

Mətləb Misir. Bu ad mənə çoxdan tanışdır. Amma onu təkcə şair kimi tanımamışam. Dövrünün, zəmanəsinin böyük şairləri onun şəxsiyyətini şairliyi ilə tən, bəzən də yüksək tutublar.

AzTV-nin "Xəbərlər" proqramında işləyirdim. Dedilər ki, "Yazıçılar Birliyinin "Natəvan klubu"nda yubiley tədbiri var, Anar məktub göndərib. Bu redaksiyada şair çörəyi yeyən təkcə sənsən, sən də gedib çəkməlisən".

Məktubu oxudum. "Mətləb Misir – 60" yazılmışdı. Birliyə çatdım. 3-cü mərtəbəyə qalxdım. Atam – xalq şairi Qabil qabağıma çıxdı.

"Sən gəlmisən çəkməyə? Bax a, bu yubilyar çox gözəl insandır. Gözəl şairdir. Tanıyırsan?" Çiyinlərimi

çəkdim. Hirsini biruzə verərək "neftçalalı İmamverdi Əbilovu, Lənkərandan Mirhaşım Talışlını tanıyırsan da. Bizim Mətləb Misir də öz zonasının, rayonunun, kəndinin, mahalının ziyalısıdır – gözəl ziyalısı".

Heç nə demirdim. Nə deyə bilərdim ki. İstedadları xiridar gözü ilə seçən, hər adam haqqında bu cür sözlər deməyən Qabil Mətləb Misiri tərifləyirsə, deməli gözəl şair, gözəl insandır. Süjetim də bu insana layiq süjet olmalıdır. Bir də gördüm ki, bizə çəlimsiz , arıq, gözlərindən qəm oxunan bir adam yanaşdı. Atam "Tanış ol, Mətləb Misir budur. Mətləb, televiziyadan gəliblər səni çəkməyə". Amma demədi ki, oğlumdur. Özü də macal vermədi. Xəcalət təri basdı. Əvvəlcə başa düşmədim ki, niyə qızardı? Sanki əsirdi. Demə rayona hər hansı bir qonaq gələrdisə şair, insan Mətləb Misirin evində qonaq olmasaydı, çörəyin yeməsəydi ondan inciyərmiş. Televiziya işçilərinə də xüsusi ehtiramı varmış.

Çox pis vəziyyətdə qoymuşdum onu. Sanki özünü doğma el-obasında – Füzuli rayonunun Gecəgözlü kəndində sayırdı. Əlini ətrafında o yana, bu yana yellədərək sanki deyirdi: "Ana, Bakıdan – televiziyadan qonaqlarımız var e, oğlunun 60 illiyini təbrik etməyə gəliblər. Ay uşaq, samovarı qoy. Ay qonşu, toğlunu kəs, mən qonaqları tək qoya bilmərəm. Manqalı qalayın. Təndir salın. Ay ana, plov dəmlə. Nə var, gətirin düzün stolun üstünə. Nə yaxşı gəliblər məni təbrik etməyə? İndi bütün el-oba danışacaq. Zarafat deyil e, məni Az.TV-1-də göstərəcəklər. Bütün Azərbaycan görəcək." Bir anlıq duruxdu. Dayandı. Xəyallardan ayıldı. Kəndlərində yox, Yazıçılar Birliyində idi. Üzünü bizə tutdu:

– Yox e, belə deyildi axı. Belə olmamalıydı axı. Niyə belə oldu axı. Mən sizi belə qarşılayardım ki... Siz məni tanımırsız e? Qabil müəllim,Fikrət Qoca, Zəlimxan, burda hamı məni yaxşı tanıyır...

Sözünün xəbərini də, mübtədasını da itirmişdi. Çünki Vətənini itirmişdi. Dalını gətirmirdi. Xəcalət çəkirdi deməyə ki, qaçqındır, çadır şairidir. Ağlamaqdan qorxurdu, "ağlamaqdan" qorxurdu. Bu dərddən, nisgildən partlayıb "Çadır şeirləri" yazmağına hələ vardı. Amma atam onu qabaqlamışdı. Hər şeyi mənə demişdi. Mən artıq Mətləb Misiri tanıyırdım. Onu başa düşürdüm. Söhbətə atam qarışdı:

– Mətləb, özgəsi deyil, Mahirdir, oğlumdur. Nə lazımdırsa demişəm eləyəcək. Yubiley tədbirini də özüm aparacağam. Televiziyaya müsahibə də verəcəyəm.

Uçmağa bircə qanadı yox idi. Atam müsahibə verdikcə, onun haqqında xoş sözlər dedikcə uçurdu. Yubiley tədbiri də gözəl keçdi. Bütün qaçqın rayonların icra başçıları, ictimaiyyətinin nümayəndələri ordaydı. Prezidiumda bir özüydü, bir atam, bir də Füzuli Rayon İcra Hakimiyyətinin başçısı. Özünü yubilyar kimi aparmırdı. Büzüşüb oturmuşdu.

Yubiley sözünün mənasını bilirdi: "Yu, bilək" Burdan çıxacaqdılar. 10-15-20 seçilmiş adam gedib qaçqın rayonlardan birinin adını daşıyan restoranların birində oturacaqdılar. Sağlığına badələr qaldıracaqdılar. Bu da ona böyük bir hörmətin nümunəsi idi. Amma o belə istəmirdi. 10-15-20 adam istəmirdi. İstəyirdi ki, desin, qışqırsın ki, ay camaat, ay bu zalda oturanlar sizin hamınızı kəndimizə dəvət edirəm. Avtobuslar sabah 9-da

Yazıçılar Birliyinin qabağında sizi gözləyəcək. Amma deyə bilmirdi. Çünki özünün gedəcəyi mənzil çadır idi – qaçqın çadırı.

Kəmər yola törpüdür,
Ümidinə körpüdür,
Bura yalan görküdür.
Gözü yolda qalanlar,
Qəmə meyl salanlar –
Nə qədər qoca, qarı...
Ömrün dözüm cıdırı –
Çadır, çadırım

Həmin axşam efirə gedən süjeti bütün Azərbaycan gördü. Amma nə kəndi gördü, nə də eli-obası. O el-obanı özü də görmədi. Qismət olmadı. Gözəl şair və insan kimi həyatdan köçdü.

ANAMLA ATAMIN PİŞİKLƏRİ...
MƏNİM ŞİRLƏRİM

KÖHNƏ MƏHLƏ

Mən Hüsü Hacıyev küçəsində, 5 mərtəbəli "Stalinka" evin 4-cü mərtəbəsində – "Yazıçılar evi"ndə böyüyüb-başa çatmışam. Balkonumuzdan həyət, köhnə evlərin damları ovcunun içi kimi görsənirdi. Bu həyətdə və bu həyətlə bağlı o qədər bədii əsər dünyaya gəlib ki... İlyas Əfəndiyevin bircə şedevrini desəm bəs edər. Hansı? Demirəm.

Pişiklər, sərçələr, göyərçinlər, siçovullar da həyətimizin ayrılmaz sakinləriydi. Anamla atamın – siçovullar istisna olmaqla– bu heyvanlara xüsusi məhəbbəti vardı. Quru çörəyi axşamdan islağa qoyardılar ki, səhər göyərçinə, sərçəyə atsınlar. Soyuducuda qalıb köhnələn yeməklər isə pişiklərin payı idi. Ona görə də balkonu-

muzun altını, qarajların üstünü kəsdirib atamın, ya anamın "kıs-kıs" sədalarını gözləyirdilər. Qırğın da burda düşürdü.

Atam gözü yaxşı görmədiyindən yeməyi pişiklərə necə gəldi tullayırdı. Birinə çox düşür, o birinə isə ümumiyyətlə çatmırdı. Bu da anamı əsəbiləşdirirdi. "Bir də əlini pişiklərin yeməyinə vurma... özüm atacağam", deyirdi. Anamın pişiklərə olan bu diqqəti atama xüsusi ləzzət verirdi.

Çünki pişikləri çox sevərdi. Mənim isə zəhləm gedirdi pişikdən. Acgöz olduqlarına görə. Ümumiyyətlə mənim acgözlərdən zəhləm gedir. İstər heyvan olsun, istər insan. Harda pişik görsəydim qovurdum. Onlar da tərs kimi gəlib özlərini mənim ayağıma sürtərdilər. Hərdən təpiklə vururdum. Atamın qışqırığı aləmi götürürdü. Az qalırdı ki, məni döysün. "Fatimeyi-Zəhranın sığalı dəyib bu heyvana... müqəddəs sayılır. Niyə vursan?", deyirdi. Mən də "işiniz-gücünüz qurtarıb e... pişiklərlə, sərçələrlə, göyərçinlərlə oynayırsız. Stolun altına yığdığınız köhnə yeməklərə görə tarakanlar da baş qaldırıb", cavabı verirdim. Atam da zarafatla "70 yaşımız var, ay bala. Bizim bir-birimizlə oynamaq vaxtımız çoxdan keçib. Ona görə də pişiklərlə oynayırıq", deyirdi.

Bəzən anam evdə olmayanda mətbəxi yığışdırar, künc-bucaqda əlimə keçən çörək, ət, kolbasa artıqlarını zibilliyə vızıldadırdım. Dixlofosla evi dərmanlayıb gedirdim. Əlbəttə ki, atamın razılığı ilə. Tarakanları məhv etmək üçün. Evə çatanda zəng edirdi ki, "bir də belə eləmə. Anan gəlib əsəbləşib. Təzyiqi qalxıb. Beyninə qan sızar. Onda neyləyərik. Cəhənnəmə ki, tarakan var. Qoy

olsun. Amma pişiklərin, quşların yeməyinə dəymə".

Beləcə balaca uşaq kimi oynayırdılar həyətdəki pişiklərlə. Hətta qızlarımda da bu heyvanlara məhəbbət yaratmışdılar. Baba, nənə, nəvələr – dördü birləşib həvəslə bu pişiklərə yem atırdılar.

Gündüzləri yeyib-içən pişiklər isə gecələr yatmırdılar. Qarajın damı üstündə, düz balkonumuzun altında miyoltu, mırıltı səsləri aləmi götürürdü. Buna mırıltı yox, "Serenada" sədaları da demək olardı. Bəzən atam hirslənirdi ki, "day pişiklərə yemək verməyəcəyəm. Səhərəcən səslərindən yata bilməmişəm".

Hətta qonşu yazıçılardan biri pişiklərin bu gecə macəralarını romanına da salmışdı. Atam da oxuyandan sonra getmişdi üstünə ki, "bəs utanmırsan? Belə axmaq-axmaq şeyləri təsvir etmisən?" Amma buna baxmayaraq, pişiklərin bu məhəbbət simfoniyasından həzz alırdı. Artıq onlar üçün xüsusi olaraq kolbasa-sosiska da alırdı. Özü də əla "sort"undan.

Sonra atamla anam Allahın yazıq heyvanlarını kateqoriyalara bölməyə başladılar. "Boğaz" olan pişiklərə yeməyi daha çox atırdılar. Başqa pişiklər onların payını qamarlayanda balkondan "poşol" da qışqırırdılar. Balası olanlara isə kolbasanı lap xırda-xırda doğrayırdılar ki, boğazlarından keçsin.

TƏZƏ HƏYƏT

Günlərin bir günü Prezident Heydər Əliyev atama Səməd Vurğun küçəsində tikilən göydələndə gözəl bir mənzil bağışladı. Təmir də elətdirdi. 28 kvadratmetr-

lik evdən 172 kvadratmetrlik genişliyə çıxmışdı atamla anam. Özü də 48 ildən sonra. Sevinirdim. Mənim ayrıca, ikiotaqlı evim vardı. Amma atam-anam ora köçmədi. Dedilər ki, sən köç, bizimçün elə bura da yaxşıdır.

2005-ci ildə atam xəstələndi. Ona xüsusi qulluq lazım olduğuna görə, Prezident verən evə köçməli oldular. Yəni ki, bir yerdə yaşamalı olduq. Göyün 18-ci qatı. İri, bahalı maşınlar 18-ci mərtəbədən kibrit qutusuna bənzəyirdi. Pişik, sərçə, göyərçin isə ümumiyyətlə gözə dəymirdi.

Anam darıxırdı. Hərdən o biri evə gedib, geri qayıtmırdı. Məcbur gedib gətirirdim. Bir də gördüm ki, mətbəximizdən nəsə pis qoxu gəlir. Şkafın qapısını açdım. Nə görsəm yaxşıdır? Demə, anam hər gün nə yemək, çörək artığı qalırmışsa onları sellofan qablara toplayıb saxlayırmış. İki gündən bir də o biri evə pişiklərə, quşlara yemək verməyə gedirmiş. Qışqırığım göyə çıxdı. Atam dedi ki, "işin yoxdu. Anondur... belə istəyir. Necə istəyir qoy elə də olsun. O heyvanların dualarıdır bizi saxlayan".

Üstündən bir ay keçmədi... anamı insult vurdu. Yataq xəstəsinə çevrildi. Bir də o evə gedə bilmədi. Day pişiklərin, quşların hayında deyildi. Hərdən bir dibçəkdəki güllərin soruşurdu: "Mahir, heç olmasa sudan-zaddan verirsən güllərə? Evə dəyirsən?" Beləcə dörd il yataq xəstəsi oldu. Atamdan 3 il sonra 18 –ci mərtəbədə də dünyasını dəyişdi.

Mən indi də Sirkin yanındakı binada – 18-ci mərtəbədə yaşayıram. Həyətimiz çox zəngindir. Həm ziyalı,

həm var-dövlət, həm vəzifə, həm də imkanlı adamlar baxımından. Rols-royslara, bentlilərə, nadir xarici maşınlara baxanda ürəyim açılır. Paxıllıq etmədən, ürəklə "Allah artıq eləsin, başlarından töksün... biz də onların içində" deyirəm. Gözəl həyətimiz var. Mənim üçün uzaqlarda qalan, dar, altı nəfərin güclə sığışdığı 28 kvadrat metrlik ikiotaqlı mənzilə çoxdan vida etmişəm. Bu həyat mənə daha çox ləzzət edir. Pişik miyoltuları, sərçələrin, qumruların, göyərçinlərin səsləri də beynimdən silinib. Köhnə məhlədə olduğu kimi bu həyətdə də Azərbaycan elminin, sənətinin nümayəndələrini görmək mənimçün xoşdur.

Amma üç gündür ki, yata bilmirəm. O biri evimizdən qalan xatirələr məni ağuşuna alıb. Səhərəcən həyətimizdə şirlər nərildiyir. Səslərinə oyanıram. Sanki evimizin içindədirlər. Və məni parçalayıb yeməyə hazırdırlar. Yuxudan oyanıram. Pəncərəni açıram. Doğurdan da, şir nərildəyir? Yox, ola bilməz. Bəlkə, hansısa qonşumuz mühərriki güclü bir maşın alıb. Qazı basdıqca, maşın nərildədikcə kayf tutur? "Neyləyək? Qoy kayf tutsun. Polisə zəng etməyəcəyik ki?", deyib uyumağa çalışıram. Amma yenə nərilti. Bu gün nərilti, sabah, birisi gün və hər gün.

Fikirləşirəm ki, axı bizim qonşular hamısı , ziyalı, mədəni adamlardır. Uşaqları da özlərinə oxşayıb. Yəni belə ucuzluğa gedib görməmiş kimi maşınlarını nümayiş etdirərlər? İnanmıram. Amma nə olsun ki... şirlərin nəriltisi gəlməkdə davam edir.

Bu gün yoldaşım və sevincək gəldi ki, "bəs sirkə bilet almışam. Şirlərin şousu olacaq. Nəvəni aparacağam

baxsın. Heç vaxt diri şir görməyib axı".

Dodağımı dişləyirəm. Demə 18-ci mərtəbəyə əks-sədası gələn həqiqi şirlərin nəriltisiymiş. Uzaq ölkələrdən Bakı Sirkinə qonaq gələn şirlərin. Səhərəcən nərildəməklərinə səbəb isə onların qəfəslərinin qabağından o yana bu yana saymazyana keçən – "Nə nərildiyisiniz? Səsiniz özünüzə xoş gəlib? Nə demək istəyirsiniz? Demək istəyirsiniz ki, qəfəsdən çıxsanız biz pişikləri bu saymazlığımıza görə parçalayıb didərsiniz? Sakit oturun. Çox atdanıb düşməyin. Meşə padşahısınız, nəsiniz bilmirəm. Amma mənim nəslimdən – pişikkimilərdənsiniz" – deyən pişiklərmiş.

Öz-özümə fikrə gedirəm. O biri evimiz çox balaca idi. Pişiklər miyoldaşır, mırıldaşırdılar. Bu evimiz isə çox böyükdür. Maşınları da böyükdür. İnsanları da böyükdür. Belə evə elə şir nəriltisi yaraşar. Amma neyləyək ki, şirlər də onların qəfəsləri qarşılarında azad, saymazyana oyan-bu yana var-gəl edən balaca pişiklərin – pişikkimilərin nəslindəndirlər.

NAZİRLƏRİN "ÜÇ ZƏRF"İ...

Sovet dövründə qəşəng bir lətifə vardı. Vəzifəyə təzə keçən adamlar üçün nəzərdə tutulmuşdu. Bunu təkcə lətifə yox, kreslo başına keçən insanın etaplı hərəkət strategiyası da adlandırmaq olardı. Amma ötən əsrdən miras qalan bu ənənə də yavaş-yavaş pozulur. Nə başınızı ağrıdım, əvvəlcə lətifəni yadınıza salım, sonra sözümün dalını gətirərəm.

Günlərin bir günü bir naziri işdən çıxarırlar. Son olaraq kabinetini boşaldır, möhürü, seyfin açarlarını yeni nazirə təhvil verir. Yeni nazir seyfdə üç zərfin qaldığını söyləyəndə – eks-nazir "onları sənə saxlamışam. Üstünü də "1", "2", "3" nömrələmişəm. Çətinə düşəndə növbəylə açarsan", deyir.

Beləliklə aylar keçir. Günlərin bir günü nazirin işi çətinə düşür. Yoxlama yoxlama dalıycan. İş o yerə çatır ki,

işini Mərkəzi Komitənin iclasına da çıxarırlar. Çıxılmaz vəziyyətdə qalan nazirin yadına "Üç zərf" düşür. Birinci zərfi açır. Görür ki, yazılıb: "Bütün günahları yıx özündən əvvəlki nazirin üstünə".

Belə də edir. Təhlükə o an sovuşur. Beləcə nazir vəzifəsində möhkəmlənir. Əli-qolu açılır. Daha böyük işlər həyata keçirməyə başlayır. Uğurları artmaqla yanaşı, buraxdığı səhvlər, xətaları da çoxalır. Köhnə nazirin komandası da qorxusundan səsini çıxara bilmir ki, birdən işdən çıxararlar. Əmrlərə səssiz-səmirsiz itaət edirlər.

Bir müddət sonra yenidən "qara buludlar" nazirin başının üstünü alır. Bu dəfə o vaxt itirmədən ikinci zərfi açır. Görür ki, yazılıb: "Bütün günahları yıx işçilərinin üstünə".

Elə də edir. Kollegiya çağırır. Nazirliyə gələn komissiyanın gözü qabağında işçilərini danlayır. Müavinləri, idarə rəislərini işdən qovur. Aşağı vəzifəlilərə isə "töhmət" verir. Beləcə təhlükə sovuşur.

Nazir daha böyük şövqlə işini davam etdirir. Özündə bir arxayınçılıq yaranır. "Fironluğ"a başlayır. Fikirləşir ki, "axı, ehtiyatda hələ də bir zərfi qalır".

Günlərin bir günü yenə də vəziyyət gərginləşir. Buraxılan səhvləri, anonim məktubları araşdırmaq üçün komissiyalar yenidən nazirliyin üzərinə şığıyır. Nazir isə heç kefini pozmadan seyfi açır, üçüncü zərfi götürür. İçindən məktubu çıxarır. Görür ki, yazılıb: "Sən də "Üç zərf" hazırla".

İndi gündəmi yeni nazirlərin həyata keçirdikləri yeni təyinat xəbərləri bürüyüb. Hətta saytlarda bu informa-

siyalar oxunma sayına görə liderdirlər. "Üç zərf" prinsipi də pozulub.

Nazirlər 1-ci və 2-ci zərfi kabinetə girən kimi açırlar. 3-cü zərfə isə heç gözlərinin ucuyla da baxmırlar. Gözəl başa düşürlər ki, üçüncü zərfi açmağa, "Üç zərf" hazırlamağa heç macal da tapmayacaqlar.

"LİMONADSATAN" VAQİF SƏMƏDOĞLU VƏ QABİL

O gün yuxu görürəm. Görürəm ki, yayın cırhacır günlərindən biridir. Axşam saat 5-də atam "Volqa"nı qarajdan çıxarır. Oturub maşına üz tuturuq Pirşağı çimərliklərinə. Yolboyu ətraf bomboşdur. Soruşuram ki, "papa, bəs görəsən buraları niyə satmayıblar?". Deyir ki, "bala, hələ müstəqillik dövrü təzə başlanıb. Bələdiyyələrin yaranmasına çox var?"

Gedirik. Çatırıq Pirşağının mərkəzinə. Adəti üzrə atam qarpız, yemiş, ağ şanı almaq üçün yaxınlaşır piştaxtalara. Mən isə susadığımdan barmağımla limonad satanı göstərirəm.

– Yaxşı, gəl. Zırıldama. Uşağa bir dənə soyuq "Dyuşes" aç.

– Baş üstə, Qabil.

– Bah, Vaqif, sənsən?

– Hə, Qabil.

– Bu nədir? Limonad niyə satırsan?

– Məcburam, Qabil.

– Nəyə məcbursan? Pulun yoxdur? O boyda kişinin oğlu, xalq şairi Vaqif Səmədoğlunun pulu yoxdur? Yoxsa məni yoxlamaq istəyirsən?

– Nə yoxlamaq, Qabil?

– Ba, guya ki, sən bilmirsən ki, mənim "Səhv düşəndə yerimiz" şeirim necə yaranıb? Bir yekəpər limonadsatana həsr etmişdim də onu. İlk variantda da "Bir qeyrətsiz yekəpər, Limonad satar" gedirdi. Sonra dəyişib elədim "Bir qeyrətsiz yekəpər, Qızılgül satar". İndi sən məni elə əsəbləşdirəcəksən ki, gedib birinci variantı bərpa edəcəyəm.

– Qabil, nə edirsən elə. Məcburam.

– Nəyə məcbursan axı? Xalq şairi deyilsən? Bax bu 50 manat. Prezident təqaüdü almırsan? Bu da min manat. Deputat olmamısan? Bu da min manat qocalıq pensiya pulu. İndi sənə iki min manat pul bəs etmir ki, Pirşağıda, yolun üstündə, toz-torpağın içində limonad satırsan? Ayıb deyil? Hələ mən Səməd Vurğundan qalan danqa-danqa brilyantları demirəm. Halal xoşun.

Bu dəm bizə kepkalı, üzü gündən yanan biri yaxınlaşır. Mənim əlimdən limonadı alıb piştaxtaya qoyur. Qışqıra-qışqıra:

– Ay uşaq bu içmək üçün deyil e... rekvizitdir. Vaqif

müəllim, hər yoldan ötənə limonad versən, day büdcəmiz məhv oldu da. Ay Qabil müəllim, siz də xahiş eləyirəm, mane olmayın da. Qoyun işimizi görək. Pulumuzu qazanaq.

– Vaqif, bu kimdir?

– Ramiz Əzizbəylidir. Aktyor, rejissor. "Bəxt üzüyü" əsərimi ekranlaşdırır. Limonad satan da gəlmədiyindən, məni məcbur eləyib çıxartdı bura.

– Bah.... gül kimi istedadsız şair Moşu Göyəzənli rolu var. O rolu oyna da. O da şair, sən də şair. Day, bu limonad satmaq nədir?

– Qabil, axı mən özüm özümü necə oynayım?

Yuxudan oyanıram. Evdəyəm. Demə, yuxu görürmüşəm. Heç nə səhv düşməyib. Hər şey yerindədir. Atam haqq dünyasında, Vaqif Səmədoğlu isə fani dünyada. Bəs yuxu? Yuxu da qaldı atamla mənim ortaq dünyamda.

MƏTİ VƏ TÜKƏZBANIN SEVGİSİ

– Məti.

– Can, Məti.

– Necəsən?

– Ay can? Yaxşıyam.

– Sən necəsən?

– Nə qədər ki, sən yanımdasan... yaxşıyam.

İlk tanışlıqlarları 1950-ci ildə, toylarının gecəsində belə başlamışdı. O gün ilk dəfə görmüşdülər bir-birilərini. Bəyənmişdilər. İlk dəfədən necə can demişdilərsə, ömürlərinin axırınacan beləcə davam etmişdi. İndi ikisi də dünyada yoxdur. Məzarları da yanaşıdır. Üstünə şəkilləri həkk olunub. Məti gülümsəyir. Tükəzban isə qıyğaçı baxıb sanki naz edir. Qəbirlərinin üstünə gələn də yoxdur. Ancaq Novruz bayramında yada düşürlər. Sinələri üstünə səmənilər, xonçalar düzülür.

Rəngbərəng şamlar yandırılır. “Ata-ana” səsləri eşidilir. Bir-iki damcı da göz yaşı. İldə-ayda “Baba-nənə” sözləri də olur. Yox onlara demirlər. Qızları, oğlanları artıq qocalıblar. Onları belə çağırırlar. Öz nəvələri isə başqa aləmdədirlər. Şəhərdədirlər. İrəli gedirlər. İrəli getdikcə də köklərindən uzaqlaşırlar. Kənd qəbiristanlığındakı Məti-Tükəzban köklərindən.

Hələlik isə 1950-ci ildir. Arzular yenicə doğulur.

– Ay Tükəzban, inşallah çoxlu uşaqlarımız olsun.

– Olsun...

– İlk övladlarımıza atamızın-anamızın adlarını qoyarıq. Bizi böyüdüblər, ailə yiyəsi ediblər.

– Düz deyirsən. Nə qədər sağdırlar, qoy baxıb fərəhlənsinlər. Övladlarımız da görsün ki, nəsli bu cür də yaşatmaq lazımdır. Ad nəsildir, sülalədir, şəcərədir.

– Əvvəllər yaxşıydı... babanın adı familiya olurdu. İndi bu adət pozulub. Amma gözəl səslənirdi ya – “babamın adı mənim soy adımdır”. Nə gülürsən?

– Amma çox qəribə səslənir e... Nəvəmizin adı Tükəzban Mətiyeva.

– Nəyi gülməlidir ki...

İllər keçdi. Ailənin bir qızı oldu. Sonra ikinci qız, üçüncüsü, dördüncüsü, beşincisi. Hamısına gözəl adlar verirdilər. Kənddə hamı qıza pis baxırdı. Dördüncü olan kimi “Yetər”, “Qızbəs”, “Qızqayıt” kimi adlar işə düşürdü. Mətiylə Tükəzbanın isə sevincinin həddi-hüdudu yox idi. Allah payıdır deyirdilər. Çox da istəyirdilər. Qızlarına yaxşı baxırdılar. Sonra iki oğul payı gəldi. Da-

lıyca yenə qızlar. Eyni gözlə baxırdılar hamısına. Zaman ötdü, il dolandı. Qızların köçmə vaxtı çatdı. Cehizlərini bol elədilər ki, qızları qaynananın, baldızın tənəsinə tuş gəlməsinlər. Həm də el var, oba var.

Günlərin bir günü balaca qız muştuluğa gəldi. Məti kişi özünü eşitməzliyə vurdu. Ayıbdır axı. Nə deyərlər. Amma ürəyində gülürdü. Uçmağa qanadı yox idi. Baba olacaqdı. Fikirləşirdi ki, oğlan olsa onun, qız olsa Tükəzbanın adını qoyarlar. Bu arzunu ər-arvad 9 ay ürəklərində gəzdirdilər. Nəhayət o sevincli gün. Amma pərt olmuşdular. Yadlarından çıxartmışdılar ki, bu onların qız nəvəsidir. Əmr-fərman oğlan evindədir. Adı da onlar qoydular. Heç Mətinin fikrini də soruşmadılar. İkinci qızda da belə oldu, üçüncüdə də, dördüncüdə də, beşincidə də. Nəvələr, adlar yan-yana düzüldü. Oğlanlı-qızlı. Amma aralarında nə Məti vardı, nə də Tükəzban.

Nəhayət oğlanlardan böyüyünün evlənmək vaxtı çatdı. İnstitutu, əskərliyi bitirib kəndə qayıtdı. Toy çaldırdılar. Ailə sahibi oldu. Uşaqları dünyaya gəldi. Məti bir-iki dəfə söz saldı ki, "bəs nəvəmə öz adımı verəcəyəm"... pərt oldu. Gəlin-qızlar, nəvələr pıqqıllaşdılar. Üzünə deməsələr də, qulağına çatırdı. "Məti də ad olar. Ya da ki Tükəzban. Day denən uşaqların bağçada məktəbdə günü olmayacaq da. Birinə Məticik deyəcəklər, birinə də Tükəzban nənə. Nə çox şair, yazıçı adları. Kino, bədii əsər qəhrəmanları. Afrodita, Kleopatra, Şəhrizad, lap Qətibə də olar. Amma nəbadə Tükəzban , yaxud da Məti"

Məti də, Tükəzban da pərt olmuşdular. Övlad böyüt, boya-başa çatdır. Sonra da məsxərə obyekti ol. Axı bu

adlar onların babasının-nənəsinin adlarıdır. Nəyi pisdir ki... Yenə də ümidlərini itirmirdilər. Hərdən nəvələrindən birinə "Sən mənim Mətimsən", "Sən mənim Tükəzbanımsan" deyə müraciət edirdilər. Oğul-gəlin dinmirdi. Bilirdilər ki, nə desələr də doğum şəhadətnaməsindəki adlar tam başqadır. Ceyrandır, Qumraldır, Maraldır, Sonadır, Turacdır, Süsəndir, Sünbüldür, Lalədir, Qərənfildir, Qızılgüldür, Aslandır, Bəbirdir. Bir sözlə, hamısı heyvan, bitki adları... bircə – iraq-iraq Məti və Tükəzban deyil.

İkinci oğul da evləndi. İlk uşağı oldu. Qanacaqlı idi. Şəhərdə yaşamasına baxmayaraq kəndə gəldi. Uşağa qoyacağı adı atasıyla məsləhətləşməyə görə...

– Ata bilirsən də, Türkiyəylə artıq sərhədlər açılır. Artıq soy-kökümüzə qayıdırıq. Bir-birimizə "yoldaş" yox, "bəy" deyə müraciət edirik. Sovet dağılır, müstəqilliyimizi əldə edirik. Həyatımızda yeni səhifə açılır. Ona görə də məsləhət belədir ki, adın...

Qocanın qulaqlarında "Məti" adı cingildədi, əks-səda verdi. Axı, oğlu soy-kökündən danışırdı. Amma sevinci uzun çəkmədi

– ...Adını Məmmədəmin qoyaq. Məmmədəmin Rəsulzadənin şərəfinə.

Məti dinmədi. Sükutu Tükəzban pozdu. "Yekə oğlan olsun, adıyla böyüsün. Məmmədin toyunu görək". Kişi də özünü sındırmadı, qırışığı açıldı, arvadına qoşuldu. Amma ürəyindəki arzusunu öldürmədi. Ən çox sevinən isə gəlinləri idi.

Vaxt keçdi. İkinci oğlan da dünyaya gəldi. Buna da

Atatürk adı qoydular. Qız dünyaya gəldi. Bu dəfə Məti dözmədi. Amiranə "uşağın adını Tükəzban" qoyacağam, dedi. Bunu eşidən gəlin fors edib otaqdan çıxdı. Oğlu da onun dalıyca. Amma qonşu otaqdan səsləri aydın gəlirdi. "Mən gül kimi şəhər uşağına Tükəzbandır, Xoruz banıdır, nədir qoya bilmərəm. "Ayyıldız"dır mənim qızım. Vəssalam".

Qocalar dinmədi. Eşitdiklərini də büruzə vermədilər. Adlarını "Məti", "Tükəzban" çağırdıqları nəvələri yanlarındaydı. Babalarının, nənələrinin ayaqlarını qucaqlayıb oturmuşdular.

– Baba, bax, mənim uşaqlarım olanda sizin adınızı qoyacağam. Nənəmin, bir də sənin.

Məti gülümsəyirdi. O günü görəcəkdimi? Bilmirdi. Amma yenə sevinirdi ki, adı yaşayacaq. Adları yaşayacaq. Üstündən illər keçdi. Artıq nəticələri dünyaya gəlməyə başlamışdı. Azərbaycan da artıq müstəqil dövlət idi. Adlar da müasirləşmişdi. Nəhayət sevimli nəvəsinin oğul payı dünyaya gəldi. Zəng elədi ki, doğum evindən çıxan kimi gəlin birbaşa kəndə. Xeyir-dua verəcəyəm. Gəldilər.

– Baba, xeyir-dua ver. Gəlin hamilə olanda yuxu görmüşdü. Görmüşdü ki, müqəddəslərdən biri deyir ki, "sənin bir oğlun olacaq. Ona öz adımı qoyuram – Yusif"

Məti çətin vəziyyətə düşmüşdü. İnanclı, etiqadlı adam idi. Bu həqiqət idi, yoxsa gəlinin quraması ... bilmirdi. Amma şəkk gətirə bilməzdi.

– Nə deyirəm ki, a bala, müqəddəs addır. Adıyla böyüsün.

İkinci uşaq da oğlan oldu. Bu dəfə adın Polad qoydular. Demə gəlinin atası "Qurdlar vadisi" serialının pərəstişkarıymış. Ona görə də başkəsən Polad Ələmdarın şərəfinə nəvəsinin adını Polad qoyub. "Qoy vurub-yıxan olsun. İndiki dövrdə nəslə belələri lazımdır".

Nəhayət üçüncü oğlan.

– Baba, bu uşağın da adını qoymaq istəyirik Mə...

Məti "Mə" başlanğıcını eşitcək kövrəldi. Axır ki, arzusu həyata keçirdi.

– Uşağın adını qoymaq istəyirik Mə...

– Məti, – deyə baba artıq dözmədi.

– Yox, baba, Məti yox.

– Bəs nə?

– Mətə.

– Mətə nədir, a bala.

– Mətə də... "Öylə bir keçər zaman ki..." serialında Əli Kapitanla, Cəmilənin oğlu – gitara çalan.

– Niyə axı "Mətə"? Ancaq "Məti" yox. Axı mən sənin babanam, uşağının ulu babasıyam. Balaca olanda da deyirdin ki, "baba, bax, sənin adını oğluma qoyacağam" Bəs indi nə oldu? Mətə sizin nəyinizdir? Cəmilə kimdir, Əli Kapitan kim?

– Baba, bu müasir adlardır. Arvad da, qaynanam da bütün həftəni oturub bu serialı gözləyirlər. Mətəyə bir çırtma dəyəndə ağlayırlar, o güləndə sevinirlər. Mətə özü də gözəl oğlandır. Təki uşaq da ona oxşasın. Bütün qızlar öləcək oğlumçun.

Məti heç nə demədi. Bu qoca yaşında artıq təsdiqini

tapmışdı. “Adı zibil, özü kifir”. Day kimə lazım idi ki... bircə Tükəzbandan başqa.

Beləcə illər keçdi. Mətinin 10 uşağı, 50 nəvəsi, 60 nəticəsi, 10 kötükcəsi dünyaya gəldi. Heç birinə də adını verə bilmədi. Öldü. Tükəzban da öldü. Yanaşı basdırdılar. Uşaqları qara qranitdən başdaşı qoydular. Şəkillərin üstünə həkk etdilər. Övladları axır ki, onların ilk və yeganə arzularını həyata keçirdilər.Ölümlərindən sonra olsa da adlarını əbədiləşdirdilər. Qara başdaşlarından birinə Məti, birinə isə Tükəzban adı verdilər.

Artıq qəbir üstünə gəlib-gedən də yoxdur. Beləcə bir-birlərinə sığınıb yatırlar qocalar. Sanki hərdən-bir səsləri gəlir. Şəkilləri danışır. İlk dəfə bir-birlərini gördükləri toy gecəsindəki kimi.

– Məti.

– Can, Məti.

– Necəsən?

– Ay can? Yaxşıyam.

– Sən necəsən?

– Nə qədər ki, sən yanımdasan... yaxşıyam.

SİCİLİYA...İRAN... AZƏRBAYCAN...

SİCİLİYA

Hər hansı bir yazını yazmaq istəyəndə içərisində cərəyan edən hadisələri əvvəlcədən dostlarıma danışmağı xoşlayıram. Onların reaksiyasını öyrənirəm. Bu dəfə də belə oldu. Elə "Siciliya" adını çəkmişdim ki, o saat yerbəyerdən dilləndilər. "Hə... tanıyırıq. İtaliya mafiyasının vətəni?". Bu məni yaman tutdu. Bir anlığa xaricə səfər edən bəzi azərbaycanlı müxalifətçilər yadıma düşdü. Onlara sual verəndə ki "Azərbaycan dünyada nələriylə məşhurdur?" "Nizamisi, Nəsimisi, Füzulisi, muğamı, tarixi abidələri, zəngin sərvətləriylə", cavabını vermək əvəzinə, başlayırlar "korrupsiyadan, rüşvətdən, insan hüquq və azadlıqlarının pozulmasından" danışmağa. Budurmu Azərbaycanımız? Əsla. Bəs onda bəzi azər-

baycanlıları yaxşını qoyub pisi deməyə nə məcbur edir?

Eyniylə də mənim dostlarım kimi: Siciliyada doğulan, antik dövrün məşhur yunan alimi Arximed qalır kölgədə, əvəzində isə italyan mafiyası keçir önə. Amma siciliyalılar bu gün də böyük yunan həmyerliləri ilə fəxr edirlər, baxmayaraq ki, İtaliya dövlətinin tərkibindədirlər. Bu adada Arximedin adına çox tarixi yer var. Amma neyləyək ki, italyanlar özləri çəkdiyi filmlərdə Siciliyanı dünyaya mədəniyyətin, elmin beşiyi kimi yox, mafiyanın vətəni kimi təqdim ediblər. Eyniylə bizim bəzi müxalifətçilər kimi. Mətləbdən uzaqlaşdım. Axı, mövzum tam başqadır.

Əvvəllər Siciliya Yunanıstanın tərkib hissəsi olub. Əlverişli mövqeyinə görə Roma imperatorluğu dəfələrlə bu adanı işğal etmək istəyib. Amma uğursuzluğa düçar olub. Görəsən bapbalaca ada o boyda ordunun, donanmanın hücumuna necə sinə gərib?

Arximed böyük riyazi nəzəriyyələrin banisi olmaqla yanaşı, hərbi qurğular, indiki dillə desək, hərbi texnikalar da icad edib. Riyazi hesablamalara əsasən düşmən donanması dənizdəcə məhv edilirmiş. Hətta düşmən əskərləri bu qurğuları görəndə "ehtiyatlı olun, Arximed gəlir", deyə qışqırırlarmış. Beləcə ada öz aliminin ağlına, ordusunun, əskərinin gücünə arxalanaraq düşmənlərə sinə gərirmiş.

Ta o vaxtadək ki, Arximed ölür. Onun öldüyü tarix də dəqiq deyil. Bəzi mənbələrdə onun Roma əskəri tərəfindən qətlə yetirildiyi iddia olunur. İnandırıcı versiyadır. Çünki Arximedin öldürülməsindən sonra,

Siciliya Roma imperiyası tərəfindən işğal olunur. Bir məsəl var. Alim öldü, aləm öldü. İcazə verin bu məsəli yazımın ruhuna uyğunlaşdırım: "Arximed öldü, Siciliya öldü".

İRAN

Bir məclisdəydim. Yanımda özünü iranşünas alim kimi təqdim edən biri oturmuşdu. Söhbətimiz əsnasında mən "Amerika İranı gec-tez diz çökdürəcək", dedim. O da mənim fikrimlə razılaşmayıb "Heç vaxt bu baş verməyəcək", söylədi. Və sözlərini əsaslandırmağa başladı:

"İranda təhsil alırdım. Günlərin bir günü iranlı tələbələrdən birinin qohumu rəhmətə getmişdi. Biz də yığışıb dəfn mərasiminə getdik. Tabutla qəbiristanlığa daxil olmağımızı gördüm. Qəbir qazılan yer qaldı bir tərəfdə, ölü yiyələri bizi başqa səmtə apardılar. Tanımadığım qəbirlərin yanında durdular. Fatihə verib sonra qəbir qazılan yerə yollandılar. İranlının birindən soruşdum ki, bunlar niyə belə etdi? Cavab verdi ki, bizdə adətdir. Qəbiristanlığa girəndə birinci şəhid qəbirlərini ziyarət edirik, sonra isə öz ölümüzü. Bu bir.

İkincisi küçədə dayanmışdıq. Gəldilər ki, "qaçın!", "yol verin!", "burda dayanmayın!" "gələn var". Bir azərbaycanlı kimi fikirləşdim ki, gələn yəqin yüksək vəzifəli iranlıdır, ya da oliqarxlardan biri. Yolu "təmizləyən"lər də onların "teloxranitel"ləri. Bir də gördüm ki, sadə maşından başı əmmaməli yaşlı bir adam düşdü. Hamımızla salamlaşıb binaya girdi. Soruşdum ki, bu

kişi nə vəzifənin sahibidir? Dedilər ki, vəzifəli deyil... ALİMdir.

İndi, Mahir, yadında saxla. ALİMinə və ŞƏHİDinə böyük hörmət edən bir dövləti heç kim məhv edə bilməz!!

AZƏRBAYCAN

Azərbaycan da öz alimləriylə məşhurdur. Amma son illər alimlərimizin sayı sürətlə artmaqdadır. Yeni elmi dərəcələr isə gözləri yaman qamaşdırır. Məsələn "Tarix üzrə fəlsəfə doktoru". Hər hansı elm sahəsinin ardına əlavə bir "fəlsəfə" sözü də artırıblar. Hətta "Fəlsəfə üzrə fəlsəfə doktoru" adı da çıxıb. Çox möhtəşəm səslənir. Bir vaxtlar xalqımızı "şair xalq" adlandırırdılar. Belə getsə filosof xalqa çevriləcəyik. Sözüm yox. Qoy olsun. Fəxr etməyə dəyər. Ən azı qohumları, ailə üzvləri bu filosof alimlərlə fəxr edir. İstər alim sözünü ona dırnaq arasında yaraşdıraq, istərsə də dırnaqsız. Sözümün canı başqadır.

Eramızdan əvvəl Siciliyada bir alim vardı. Adı Arximed idi. Onun hərbi ixtiraları sayəsində düşmən Siciliyanı zəbt edə bilmirdi. Bir dəfə düşmən taktikanı dəyişdi. Birinci Arximedi qətlə yetirdi, sonra isə adanı işğal edə bildi. Bir alim öldü, Siciliya da onunla öldü. İranda alimə və şəhid xatirəsinə hörmət böyükdür. Buna görə ən böyük güclər də bu ölkəyə bata bilmir. İranlı alimlərin sayəsində icad olunan atom bombası xofu bütün dünyanı bürüyüb. Amma İrana heç nə edə bilmirlər. Bəs

Azərbaycanda necə?

Siciliya alimi Arximed hərbi texnikalar icad edirdi. Dövlətin qoruyurdu. İranlı alimlər bomba, raket icad edir. Dövlətini qoruyur. Azərbaycanda isə filosofların sayı günü-gündən artmaqda, Qarabağ isə bizdən daha da uzaqlaşmaqda. Yox elə bilməyin ki, alim ölüb, aləm ölüb. Əksinə, "Alim artır, Qarabağ batır".

"FRANSIZ MƏŞUQƏSİ"YLƏ BAŞLANAN, ÖLÜMLƏ BİTƏN DOSTLUQ

Az.TV-nin "Xəbərlər" proqramında işləyirdim. Milli Elmlər Akademiyasına çəkilişə tez-tez gedirdim. Zala bitişik bir otaq da vardı. İclas uzun çəkəndə ora keçib, çay içirdik. Divan-kresloda oturub söhbətlər edər, tədbirin bitməsini gözləyərdik. Belə söhbətlərin birində bizə hündürboylu, eynəkli, Azərbaycan dilində bir az çətinliklə danışan (o saat bilinirdi ki, rus dilində təhsil alıb) 35-36 yaşlı bir nəfər də qoşuldu. Adı Rövşən idi. Söhbət əsnasında dedi ki, dünən Fransadan qayıdıb və bu səfərdən çox təsirlənib. Özlüyümdə fikirləşdim ki, insanlara xüsusi münasibətdən danışacaq, iqtisadi inkişafı tərifləyəcək. Necə deyərlər hamıdan eşitdiyimiz şeylər. Amma belə olmadı.

Dedi ki, Parisin küçələrində gəzirdik. Bir də gördük yürüş-mitinq var. Hamısı da qadın və uşaqlar. Əllərində transparantlar, nəsə qışqırıb, tələb edirlər. Tərcüməçidən soruşduq ki, bunlar nə istəyir? Dedi ki, bunlar hamısı məşuqələrdir. Məşuqlarından olan uşaqlarla küçələrə çıxıblar ki, bəs nigahsız ərimiz öləndən sonra bizə də miras çatmalıdır. Biz onlara arvadlarından da yaxşı baxmışıq, qayğıyla yanaşmışıq, dünyaya övlad gətirmişik. İndi nigahımız yoxdursa, mirasdan məhrum olmalıyıq? Qanunlara dəyişiklik edilməlidir.

O vaxtlar mitinqlər tez-tez keçirilirdi. Axırda müxalifət üçün "Motodrom"da yer də ayırmışdılar. Rövşən müəllim söhbətini davam etdirərək dedi ki, beynəlxalq konfransdakı çıxışım zamanı Azərbaycandakı siyasi-iqtisadi vəziyyətdən danışdım. "Motodrom" deyilən ərazinin müxalifətin ixtiyarına verildiyini dedim. Cümlə-min nöqtəsini qoyduğumu gördüm. Bütün zal ayağa qalxdı və başladı əl çalmağa. Özüm də məəttəl qaldım. Çıxışımı bitirib əyləşdim yerimə. Amma yenə məni fikir götürmüşdü. Axı, mən nə dedim ki, zal ayağa qalxaraq əl çaldı. Özü də Fransada, özü də az tanınan Azərbaycanı təmsil edən bir alimə.

İclas qurtarandan sonra tanıdığım bir nəfərdən soruşdum ki, axı bunlar məni niyə belə alqışladılar? Avropa miqyası üçün bu çox böyük şeydir ki, "Motodrom müxalifətin ixtiyarına verilib?" Dostum cavab verdi ki, xaricdə mitinqlər postsovet məkanındakı kimi deyil. Mitinqə camaatı cəlb etmək üçün müğənnilər çağırırlar, hədiyyələr verirlər, xüsusi tamaşalar göstərirlər. Siz deyəndə ki, "Motodrom" müxalifətin ixtiyarına veri-

lib, onlar bunu öz səviyyələrində qəbul etdilər. Yəni ki, müxalifət liderləri motodromdakı mitinqə kartinqdə, motosikletdə, idman avtomobillərində gələcəklər. Yəni qeyri-adi bir şey və bununla da camaatın diqqətini mitinqə cəlb edəcəklər. Avropada hələ ki, belə bir şey olmayıb. Ona görə də Azərbaycan iqtidarının motodromu mitinq üçün ayırmaq addımı qeyri-adi bir şey kimi alqışlandı. Bunlar haradan bilsinlər ki, "Motodrom" sadəcə olaraq meriya tərəfindən mitinqə ayrılmış quru bir ərazidir.

Rövşən müəllimin danışdıqlarına biz də güldük. Lakin maraqlı həmsöhbət bizi ovsunlamışdı. Fransız məşuqələri ilə başlanan ilk söhbətimiz bununla da başa çatdı. Heç yaxından tanış da ola bilmədik. Sonda biz televiziya işçilərinə minnətdarlığını bildirdi ki, "sağ olun, harada görürsünüz, məni çəkib efirdə göstərirsiniz".

Sonralar bildim ki, alimdir, adı Rövşən Mustafayevdir. Azərbaycanda ilk dəfə yaradılan qeyri-hökumət elmi-tədqiqat intellektual mərkəzin – Azərbaycan Dövlət Quruculuğu və Beynəlxalq Münasibətlər İnstitutunun yaradıcısı və direktorudur. "Dirçəliş-XXI əsr" və "Vozrojdenie-XXI vek" jurnallarının baş redaktorudur.

Üstündən bir müddət keçmişdi. Yenidən akademiyada görüşdük. Əlaqə telefonumu istədi. Dedi ki, "artıq mən Prezident Heydər Əliyevin sərəncamı ilə yaradılan İnsan Hüquqları İnstitutunun direktoruyam. Müxtəlif tədbirlər keçirəcəyəm. Sizi də dəvət etmək istəyirəm ki, işıqlandırasınız. Daha doğrusu istəyirəm ki, Mahir, sən gələsən".

İlk tədbiri Azərbaycanda ombudsman təsisatının yaradılmasıyla bağlı oldu. Demə, yeni təsisatla bağlı qanun layihəsini hazırlamaq bu instituta tapşırılıbmış. Gəldim. Akademiya şəhərciyində 2 mərtəbəli, qəzalı bir binaya daxil olduq. 25 kvadratmetrlik bir otaqda Avropa Şurasından gələn bir qonaqla görüş keçirilirdi. Rövşən müəllim söhbətə başladı və birdən orada iştirak edən jurnalistlərə müraciət etdi ki, bəs qonaq üçün maraqlıdır ki, siz ombudsman təsisatının yaradılmasına necə münasibət bəsləyirsiniz? Rövşən müəllim mənə də söz verdi. Dedim ki, indi də Azərbaycanda ombudsman var. Ombudsman bəs biz jurnalistlərik. Kimi incidirlər həmən qaçırlar üstümüzə. Biz də çəkib veririk efirə, hökumət də lazımi tədbirlər görür. Ombudsman yaradılsaydı, camaat da bilərdi ki, hara, kimə müraciət etsin.

Bu Rövşən müəllimi yaman tutmuşdu. Yeni fikirli insan idi axı. Ondan sonra münasibətlər yaxınlaşdı. Günlərin bir günü xəbər tutdu ki, bəs mən şair Qabilin oğluyam. Ondan sonra münasibətimiz daha da doğmalaşdı. Demə o da tanınmış jurnalist, atamın böyük hörmət bəslədiyi publisist Faiq Mustafayevin oğluymuş. Necə deyərlər atalarımız dost olubsa, biz də qardaş olmalıyıq.

Bundan sonra mən təkcə çəkilişlər etmirdim. Rövşən Mustafayevin alim, direktor, naşir, hətta inşaatçı kimi fəaliyyətinin şahidinə çevrilirdim. Bəli, inşaatçı kimi də. Rövşən müəllim başda olmaqla İnsan Hüquqları İnstitunun bütün kollektivi elm ocağının binasının tikintisində hətta fəhləlik də edirdilər.

Rövşən müəllim təkcə öz institutunun tədbirlərinə məni dəvət etmirdi, hansı tədbirə dəvət edirdilərsə

mənə zəng vururdu. Bir dəfə də zəng vurdu ki, bəs qonaqlarım gəlib, onları Milli Məclis sədrinin 1-ci müavini Arif Rəhimzadə də qəbul edəcək. Sən gələrsən çəkməyə,– deyə ərklə əlavə etdi də... Oraya da "Xəbərlər"dən Sakit Ocaqlını təhkim etmişdilər. Dedim ki, Sakit sən çək, amma bir yerdə yazarıq. Ombudsman təsisatıyla bağlıdır görüş, incəlikləri bilirəm. Elə də oldu Sakit getdi çəkdi, qayıtdı. Elə yazmağa oturmuşduq ki, prezident çəkilişi çıxdı. Sakiti də ora göndərdilər. Qeydlərini də mənə verdi ki, bəs özün tək yaz, montaj da elə, mən getdim. Mən də Rövşən müəllimin zövqünü bilən adam kimi, süjeti hazırladım. Material efirə getdi. Zəng elədi ki, "Sakit sağ olsun. Amma Mahir, sənə çatmaz. Sənin ruhun o materialda yox idi".

Rövşən Mustafayev və onun başçılıq etdiyi institut 1999-2009-cu illər arasında böyük layihələr həyata keçirdi. Özü də kiçik kollektivlə. Özü də Azərbaycanda yeni olan insan hüquqları sahəsində. Azərbaycana gələn Avropa Şurası, ATƏT, BMT, NATO və digər beynəlxalq təşkilatların nümayəndələri hökmən İnsan hüquqları institutuna gəlirdilər. Gələndə necə gəlirdilər, Rövşən müəllimlə görüşdən hansı təəssüratla və heyrətlə ayrılırdılar, onu mən daha çox başa düşürdüm. "Heyrət" sözünü elə-belə işlətmədim.

Günlərin bir günü yenə də görüş idi. Qonaqlar gecikirdi. Penitensiar sahədə vəziyyətlə bağlı gəlmişdilər. Müxalifət liderləriylə görüşdən sonra İnsan Hüquqları İnstitutuna gəlməliydilər. Təsəvvür edirsiniz də orada onlara nələr deyəcəkdilər. Gəl indi ağ parçadan qara ləkəni sil. Yaxud da ki, vəziyyəti öz xeyrinə dəyiş. Röv-

şən müəllim fikirli görsənirdi. Soruşdum ki, nə olub? Dedi ki, bəs bunlar 5-6 görüş keçiriblər. İndi mən onlara nə deməliyəm ki, fikirlərini, daha doğrusu təəssüratlarını dəyişdirə bilim, ya nəyləsə heyrətləndirim. 200 faiz onlara deyiblər ki, dövlət institutuyuq, mən də iqtidar. İndi özün görəcəksən ki, bura proqramlarına "quş" qoymaq üçün gəlirlər, yəni xala-xətrin qalmasın. Onlara əleyhimizə nəsə yazmaq üçün hər şeyi çatdırıblar.

Qonaqlar gəldi. Rövşən müəllim xarici ekspertləri ağızlarını açmağa da qoymadı. "Nə danışacağam! Boşboş danışmaqdan nə çıxar? Beynəlxalq təşkilat deyilsiniz? Gəlin birgə tədbirlər keçirək. Maarifləndirək camaatı. Yoxsa ki, gəldiz, danışdız, getdiz. Bir dənə də raport hazırlayacaqsınız. Elə bilirsiniz ki, bununla da iş bitir?" Qonaqlar çaş-baş qalmışdılar. Daş qayaya rast gəlmişdi. Nədən başlayacaqdılar... onu da yaddan çıxarmışdılar. Rövşən müəllim isə davam edirdi: "Bizim institutun devizi belədir: "Biz işgəncələrə "yox" deyirik". Gəlin birlikdə belə bir plakat buraxaq. Sonra cəzaçəkmə müəssisələrində məhkumların, türmə rəislərinin, Ədliyyə Nazirliyinin iştirakı ilə birgə seminarlar keçirək. Onlara hüquq-vəzifələrini başa salaq. Beynəlxalq təcrübəni aşılayaq. Polis Akademiyasında "İnsan hüquqları" dərsləri təşkil edək. Kafedra yaradaq".

Qonaqlar nə danışacaqlarını bilmirdilər. Rövşən müəllim ağıl və bacarığı ilə, diplomatik şəkildə qonaqları pat eləmişdi. Sonda isə hökmən Azərbaycan qonaqpərvərliyi: "Bu gün filan restoranda qonağımsınız".

Mənim bilmədiyim bu priyomlarla Rövşən müəllim həm də institutun beynəlxalq əlaqələrini genişləndirdi.

Yeni elmi kadrlar yetişdi. Rus dilində "19-21-ci əsrlərdə erməni terrorçu və quldur dəstələrinin bəşəriyyətə qarşı cinayətləri" adlı qısa xronoloji ensiklopediyası meydana gəldi. Bu nəşr Milli Təhlükəsizlik Nazirliyinin mükafatına layiq görüldü. Təqdimat mərasimində Rövşən müəllimə söz verildi. Fikirləşdim ki, nəsə "dejurnu", yəni ənənəvi minnətdarlıq, təşəkkür sözləri deyəcək. Amma bir cümlə dedi: "Mən həyat yoldaşım Aytən xanıma minnətdaram".

Arzuları böyük idi: Ona etmad göstərilsəydi və ombudsman seçilsəydi... Yaxud da elmi təşkilatları yeni yaradılan İctimai Televiziyada təmsil etsəydi, neçə-neçə layihələrə imza atacağını artıq açıqlamışdı. İdeyaları arzu deyildi. Startda dayanan konkret layihələr idi. Və bunların hamısının televiziya versiyalarında mənə də yer var idi.

Az vaxt ərzində çox ilklərə imza atdı. Azərbaycanın ilk siyasi elmlər doktoru oldu. Azərbaycanın ilk İnsan Hüquqları İnstitutunu qurdu. Azərbaycanda ilk dəfə türmədə məhbuslarla nəzarətçiləri yanaşı otuzduraraq onlar üçün seminarlar keçirdi. Azərbaycanda ilk dəfə bir qurum kimi "Ombudsman haqqında" qanun layihəsi hazırlayaraq Milli Məclis qarşısında qanunvericilik təşəbbüsü ilə çıxış etdi. Bunlar hələ mən bildiklərim, şahidi olduqlarımdır.

Atam rəhmətə getmişdi. İnstituta – yanına gəldim. Bir vəzifəli adama əlimin çatmadığını dedim. Durdu ayağa, məni otuzdurdu yerində. 4 nömrə hökumət telefonunu qoydu qabağıma. Kitabçanı da verdi ki, nömrələr buradadır. Day soruşmadı ki, kimə zəng edirsən, niyə edir-

sən? Həmin adamı yerində tapmadım. Çağırdı köməkçisini ki, Mahir müəllim nə vaxt gəlsə, aç otağı hökumət telefonundan zəng edəcək. Bu mənim üçün milyon idi.

Ölümünə 5-6 ay qalmışdı. Əlbəttə ki mən nəinki bunu, xəstə olduğunu da bilmirdim. Zəng edəndə deyirdilər ki, "xaricdədir". Fikirləşirdim ki, yəqin hansısa konfransdadır. Ara-sıra zəng etsəm də görüşə bilmirdim. Düzün desəm, incimişdim də. Tədbirlər də keçirmirdi. Bir gün isə zəng elədi ki, dur gəl yanıma. İnstituta girəndə Musa müəllimlə, Araz Qurbanovla görüşdüm. İncikliyimi onlara da dedim. Dedilər ki, bəs xəbərin yoxdur? Rövşən müəllim xaricdə müalicə olunurdu. İndi bir az babatdı. Yəqin səni də narahat etmək istəməyib. Otağına girdim. Qucaqlayıb öpdü məni. Çay gətizdirdi. Cibimə pul basdı. Etiraz elədim. Dedi ki, bu qardaş payıdır. Belə çıxır ki, nə vaxtsa mən dünyada olmayanda, oğlum yanına gəlsə sən belə etməyəcəksən? Güldüm. Ayrılanda dözmədim soruşdum: "Axı , nə olub, Rövşən müəllim? Nə kömək? Bəlkə mən də həkim tanıyıram". Güldü. Bircə söz dedi: "Mahir, qapını döydülər. Açdım. Gördüm ki, qocalıqdır". İndi başa düşürəm ki, qocalıq yox, ölüm demək istəyirmiş. Sadəcə məni təsirləndirmək istəməyib. 49 yaşlı da qoca olar?!

Ölümünə az qalmış bir də zəng etdim. Qızım Suğranın toyu idi. Dəvətnaməni vermək istəyirdim. Dedim yanına gəlmək istəyirəm. Dedi ki, gəl. İnstituta gəldim, hamıyla görüşdüm. Həmişə gələndə birbaşa otağına girirdim. Köməkçi bu dəfə dedi ki, gözlə, telefonla danışır. Bir işçi girdi yanına, çıxdı. O biri girdi, çıxdı. 20 dəqiqə gözlədim. Qəbul etmədi. Kor-peşman uzaqlaşdım.

Dəvətnaməni də qəbul otağında qoymadım. Dedim ki, zəng edər ki, bəs hara getdin? Qayıt. Onda şəxsən özünə verərəm. Qəbul otağında qoysam, hörmətsizlik olar. Zəng də etmədi. Bir müddətdən sonra eşitdim ki, xaricdə əməliyyat keçirib. Əməliyyat isə uğurlu olmayıb.

Atamın bir dostu xəstəydi. "Xərçəng" idi. Ümidsiz idi. Yanına kimsə dəyməyə gələndə üzünə tənzif örtürmüş ki, onu bu şəkildə görməsinlər. Yaddaşlarda əvvəlki kimi qalsın. Rövşən müəllim də yəqin bunu bilirmiş. O dediyi kimi də oldu: Yaddaşımda həmişəlik cavan, sağlam, enerjili, ağıllı, təcrübəli, gözəl həyat yoldaşı, qeyrətli oğul, qayğıkeş ata, təmənnasız, həmişəyaşar dost kimi qaldı.

Tanışlığımız "fransız məşuqələri" ilə başlandı, ölüm isə ona nöqtə qoydu.

VAXTINDAN ƏVVƏL KİŞİ OLANLAR

10 ilin sözü olar. AzTV-nin "Xəbərlər" proqramında işləyirdim. Xəstəxanalardan birinin həkimi Vaqif doktor zəng elədi: "Mahir müəllim, sabah saat 12-də ol xəstəxanada". Dediyində bir az ərk, bir az da amiranəlik vardı. Bircə onu soruşdum ki, tədbir nə tədbirdir? Məlum oldu ki, həm də YAP-ın üzvü olan Vaqif doktor xeyriyyəçilik aksiyası keçirir. Uşaq evlərinin balaca sakinlərini sünnət edəcəklər. Belə şeyləri AzTV-də vermirdilər. Amma rəhbərliyimizin də Vaqif doktora ehtiramını nəzərə alaraq, istisna etdilər. "Get! Amma kadrda qan olmasın!". Çox qəribə qadağa idi. İlin 12 ayı efirdə rayonların işğalından bəhs edən, ermənin tökdüyü yaddaş-xəcalət qanımız qadağa deyildi, amma məsum körpələrin kişilik qanı...

Səhərisi gün saat 11.00-da AzTV-nin maşınında xəstəxanaya doğru yönəldik. Sürücümüz Qasım biz maşına oturan kimi başladı "ağlamağa": "Benzin yoxdur, arvad xəstədir – dərman almağa pulum yoxdur. Oğlanlarım işləmir. Və sairə, ilaxır". Sanki yazıq, kimsəsiz, yetim mücəssəməsi. Birdən ağlıma bir fikir gəldi:

– Qasım kişi, neçə nəvən var?

– Üç.

– Oğlandır, qız?

– Oğlan. Balacadırlar. Məktəbə getmirlər hələ.

– Sünnət eləmisən?

– Yox.

– Onda biz nə qədər burdayıq, get gətir uşaqları. Kirvəsi özüm olacağam. Həm də kasıb adamsan, pulun çıxmayacaq.

Elə bil Qasıma od qoydular. Bir dəqiqə əvvəl "ağlamağı" yaddan çıxdı:

– Mahir müəllim, yəni mənim nəvələrim o günə qalıb ki, xəstəxanada yetimlərlə birlikdə sünnət olunsun? Babası var, nənəsi var, atası, anası, dayıları... Kəsdirəcəm. Üstəlik, toy da edəcəm.

Heç nə demədim. Xəstəxanaya çatdıq. Cərrahiyyə otağına keçdim. Uşaqların səsi aləmi götürmüşdü. 30 nəfər idi. Sanki konveyerə bənzəyirdi. Səsləri gəlsə də müqavimət göstərmirdilər. Gözlərini cərrahlara zilləmişdilər. Ərköyün uşaqlar kimi həkimi söymürdülər. Adət etdiyimiz "Ata, ana, baba, nənə , yandım" kəlmələri də eşidilmirdi. Sadəcə ağlamaq səsləri gəlirdi.

Kəsilənləri kəsilməyənlərin gözləri önündə kəsirdilər. Kəsilməyənlər də kəsilənlərin halına yanıb kəsiləcəklərinə ağlayırdılar. Bir katalkaya 5 uşağı yan pörtü uzandırıb dəhlizdə düzmüşdülər. Qırmızı ətəkləri də yox idi. Beşinin də üstünə bir dənə ağ mələfə örtmüşdülər. Cərrahiyyə zalına girmirdik. Axı, demişdilər: "Efirə qan olmaz!". Dəhlizdə lentə alırdıq. Uşaqların hamısı qışqırır, ağlayırdı. Tərbiyəçiləri qorxudan aradan çıxıb, avtobusda gizlənmişdilər. Sanki onları kəsəcəkmişlər. Nə bir ürək-dirək verən vardı, nə də yastığının altına pul qoyan. Başlarının altında heç yastıq da yox idi. "Bu gün kişi olmusunuz e... başa düşürsüz?", deyə ürək-dirək verən də gözə dəymirdi. "Bu balaca kişinin babası kimdir, dayısı kim? Gəlsin xalat versin" deyən də yox idi. Heç kim yox idi. Bir çəkiliş qrupumuzdan başqa. Arada Vaqif müəllimin də əsəbləri dözmürdü – "kəsin səsinizi"– deyə qışqırırdı yazıq uşaqların üstünə. Göz yaşlarını boğa-boğa ani də olsa kiriyirdilər. Bilmirdilər çəkdikləri ağrıya görə Vaqif doktora nifrətlə baxsınlar, yoxsa minnətdarlıqla. Ağlayırdılar. Sürücü Qasım kimi ağlamırdılar. Ağrıdan ağlayırdılar – həyatın onlara çəkdiyi dağdan yox. Onlara yaxınlaşdım. Mənə düz 30 cüt göz zillənmişdi. Hamısından yaş gəlirdi. Birindən başqa. Növbə ilə başlarını sığalladım. Ağlayanlar səsini kəsdi. Ağlamayanın da başını sığalladım. Ayrıseçkilik etməyim deyə. Dodağını büzdü. Başladı bərkdən ağlamağa. Ürəklənmişdi. Bəlkə də, o anda "mən sizin atanızam, kirvənizəm, babanızam, dayınızam" desəydim daha çox yerinə düşərdi. Telefonumda "Kişidir bu" mahnısını qoyub qol götürüb oynasaydım lap əla olardı. Gətir-

diyim oyuncaqları versəydim, bəlkə də, ovundurardım onları. Əfsus ki, bunların heç biri yox idi. Sanitarlar katalkanı sürüb "PAZ" avtobusuna yaxınlaşdılar. Uşaqları bəy maşınına yox, avtobus oturacaqlarına qoydular. Uzandırmadılar da. Hərəsi bir oturacaqda oturmuşdu. Ağlamırdılar. Pencərədən mənə baxırdılar. Kameraya əl edirdilər. Axı, onlara demişdim: "Siz artıq kişisiniz. Kişi ağlamaz!". Özlərini kişi kimi aparırdılar. Ağrısalar da özlərini saxlayırdılar. Çünki olmayan ailələrinin və gələcək ailələrinin yeganə kişiləriydilər. Kadrda təkcə onlar idi. Bir də mənim onları sığallayan əlim.

Bəli, bu yetim uşaqlar artıq kişi olmuşdular. YAP onların həyatına belə girmişdi. Vaqif doktorun timsalında xeyriyyəçilik aksiyasıyla. Sanki hər şeyləri çatırdı, bircə kişiliklərindən başqa. Bu problemlərini də YAP üzvü Vaqif doktor həll etmişdi. AzTV də kirvəlik missiyasını oynamışdı. Özü də bilmədən. Kimsəsizlərə biz – YAP və AzTV – Kim olmuşduq. Onların yaddaşında belə qalacaqdıq. Birimiz dəllək, birimiz kirvə. Artıq kişi olmuşdular. Lap vaxtında... vaxtından əvvəl.

Qasımın atalı-analı yetimləri isə babalarının kiçik toy edib, pul yığmalarını gözləyirdilər. Nə vaxtsa sünnət olunacaqdılar. Babaları onlara Türkiyədən gətirilən "balaca kişi" libası da alacaqdı. Nənələri, babaları, əmiləri, dayıları, xalaları, bibiləri qol götürüb oynayacaqdılar. Balaca kişi olacaqdılar, amma kişi olacaqlarını deyə bilmərəm.

50 YAŞIN CAZİBƏSİNƏ

Üç ildən sonra 50 yaşım gəlir. Qadınlar bu yaşı necə qarşılayır, deyə bilmərəm. Amma mənim indidən canıma qorxu düşüb. Çox pis rəqəmdir. Ümumiyyətlə cəmiyyətdə qəbul olunmur. Üzeyir Hacıbəyov hələ o vaxt əsər yazaraq 50 yaşlı Məşədibadı bütün dünyada biabır etdi. Özü əlli yaşına çatanda isə peşman oldu. Bir yaxın həkim var. Xəstə ona 50 manat verəndə əsəbiləşir. Deyir ki, get onu ver 28 mayda – paneldə dayananlara – mən sənin çün... Tərbiyəsiz qadına 50 manat verirsən, deyir ki, "bax mən 100 manata çıxıram a..., day sənin xətrinə 50 manat götürürəm". İş o yerə çatıb ki, 50 dollar da hörmətdən düşüb. Toya 50 dollarlıq salanda deyirlər, "canı çıxardı 50 manat salsaydı? "Krısa"nın biri "krısa". Nə isə 50-nin vəziyyəti çox gərgindir.

Mən isə yavaş-yavaş əlli yaşına çatıram. Amma uşaqlıqdan bir sağlıq eşidə-eşidə gəlirəm: "O gün olsun ki, sənin 100 illiyini keçirək". Heç bir dəfə də eşitməmişəm ki, 50 yaşını keçirək, deyən olsun. Xalq şairimiz Osman Sarıvəlli də 50 yaşa yox, 100 yaşa şeir yazıb: "Hər kəs 100 il yaşamasa, günah onun özündədir." Ancaq bir sağlıqda 50 yaşın adı qismən də olsa çəkilib: "Sənə yüz yaş arzulayıram, özüməsə iki 50". İnşaat alimləri də 50 yaşı aşağılayıblar. Deyirlər ki, sement, yəni beton 50 il bərkiyir, sonrakı 50 il ərzində yumşalmağa başlayır.

50 yaşa qocalığın baharı da deyirlər. 50 yaşına çatdınsa deyirlər ki, hazırlaş... ölməyə hazırlaş. Gözün qalır qapıda. Ürəyin də tıp-tıp edir: "Əzrayıl qardaş indi gələr, bu saat gələr. İndi gələr, bu saat gələr". 50 yaşında ağlın gəlir yerinə. 50 il havayı yaşadığını başa düşürsən. Abrına, həyana sığınıb çox arzularından kam almağını fötə verdiyin gəlib dayanır gözün önündə. Qəti qərar verirsən ki, bəsdir. Qurtardı. Artıq öz həyatımı yaşayacağam. Həyatdan kam alacağam. Heç kimin tənəsinə baxmayacağam. Gəzəcəyəm, keyf çəkəcəyəm. Yox, nədənsə fikrə getdim: "Axı, nəylə? ...". Yeyib-içəcəyəm. Kabab-kabab dalıycan. Kabab qanlı, igid canlı. Yox, nədənsə yenə fikrə getdim: "Axı, nəylə?" Pul yox. Diş yox. Protez isə ancaq qatıq çörəyə bəs edir. Diş məsələsini yenə də həll etmək mümkündür:

Günlərin bir günü cavan vampir qoca, dişi tökülmüş vampirdən soruşur:

– Necəsən? Nə var, nə yox?

– Hər şey qaydasında.

– Necə yəni hər şey qaydasında. Biz vampirlərin dişi olmalıdır, dişləyək ki, sonra qanı sora bilək də. Səndə isə diş yoxdur.

– Ay bala, nə olsun diş yoxdur. Arvadların aybaşısıyla birtəhər başımı dolandırıram.

İndi lətifəsi bizdən uzaq. Dişsiz də birtəhər dolanarıq. Amma bununla da bitmir axı. Deyirlər, bir az da o yana 70-i adlasan, Allah eləməmiş, Allah eləməmiş ölməsən, pampers də geyindirirlər. Kaşa yedizdirirlər. "Soska"da çay da verirlər. Altını yuyurlar. Üzündən çimdik götürüb "qudi-qudi" də deyirlər. Belə çıxır ki, 50-dən o yana böyümürsən, hə? Geriyə, uşaqlığa qayıdırsan, hə?

Anam yataq xəstəsi idi. Qızlarım qulluq edirdi. Nənələrinə mahnı da qoşmuşdular:

Nənə, nənə, can nənə,
Burnu badımcan nənə.

Ləzzət eləyirdi arvada. Nədən bildim? Bir gün uşaqlara acıqlandım ki, ayıb olsun. Bu nədir nənənizə deyirsiniz? Onlar da kiridilər. Amma ağızları öyrənmişdi. Çaşıb əvvəlin "nən, nənə, can nənə"ni deyirdilər. Anam isə ardını gətirirdi.

Nəisə, qanım qaralıb. 50 yaşın cazibəsi indidən alıb məni ağuşuna. Yuxum da ərşə çəkilib. Bilmirəm nə edim? Geri qayıdım, yoxsa irəli gedim? Qalmışam ortada. Yenə də lətifələr. Onlardır mənim əlimdən tutan, məni yaşadan. Həyatımın bütün anlarına uyğun lətifələrim var:

Günlərin bir günü ikinci mərtəbədə yaşayan bir cuvanəzən, gözəgəlimli qadın pəncərə silirmiş – qısa xalatda. Yoldan keçən bir kişi gəlib dayanır pencərənin altında və əlini ürəyinə qoyaraq başlayır ah-uff etməyə: "Ölürəm! İki balam yetim qalacaq. Onlara kim baxacaq. Öldüm, ay Allah! Məni bu dərddən qurtar". Qadın bu sözləri eşitcək, tez həyətə düşüb gəlir kişinin yanına ki, ay qardaş nə olub? Nə köməklik edə bilərəm? Kişi :

– Ay bacı, pəncərənin altından keçəndə səni gördüm. O gözəl ayaqlarına aşiq oldum. İnan ki, o gül topuğundan bircə dəfə öpməsəm, öləcəyəm. O iki balam da yetim qalacaq.

Qadın da hal əhliymiş. Kişini o saat başa düşür:

– Ay qardaş, öpmək üçün üz var, dodaq var, boyun var. O nə deməkdir ki, "topuğundan öpüm"?

Kişi bir az da ürəklənir. Əlini qadına uzadıb:

– Ay bacı, bax, mən çox aşağıdan getdim, sən də çox yuxarıdan! Allah ortasına xeyir versin! Vur bura!

İndi nə 100 yaxşıdır, nə 90, nə 80. Nə uşaqlaşmaq, nə də pampers. 100-ə çatsaq pis olmaz. Amma 50 də pis deyil. Allah yüzün ortasına xeyir versin.

DÜŞMƏNLƏRİMİN DÜŞMƏNLƏRİ

NƏVƏLƏRİMƏ, BÜTÜN NƏVƏLƏRƏ

Nəvə. Bu söz dilə gələndə ilk olaraq "Övladda nəvə, dövlətdə dəvə" məsəli yada düşür. Amma bu sözü dərk etmək hər adama qismət olmur. Bircə bunu deyirlər: *"Baba və nənə böyük addır. Onların həyatda daddığı ən şirin nemətsə, nəvə"*.

"Övladda nəvə, dövlətdə dəvə". Əslində isə bu atalar sözünün çox çaları var. Amma heç kim bunun dərinliklərinə varmır. Baba, nənə hey deyir: "Deyirdilər ki, nəvə şirin şeydir. Başa düşmürdük. Doğurdan da nəvə nə yaman şirin şeymiş. Allah sizə də qismət eləsin". Hamı da bir ağızdan deyir: "Amin". Əvvəllər mən də, həyat yoldaşım da "Amin" deyirdik, indi isə bizə "Amin" deyirlər.

Çox qəribədir ki, nəvə də nənəni, babanı çox istəyir. Amma ağlı kəsənəcən. Ağlı kəsəndə baxır. Əgər baba və nənənin pulu çoxdursa yaxın gedir. Mirasına göz dikir. Bəzən susayır da. Nəyə? Baba, nənə qanına. Nənəsini, babasını qocalar evinə atanlar da olur. Mənzilinin mirasa çevrilməsini gözləmir də. Bu sonra olur. Bu hallar az da olsa, təəssüf ki, var.

Amma bütün bunlara baxmayaraq, baba, nənə nəvəsini axıracan istəyir. Övladlarından da çox. Niyə?

Günlərin bir günü padşahın oğlu olur. Vəzir də qaça-qaça bu şad xəbəri ona çatdırır. Muştuluq istəyir. Padşah neyləsə yaxşıdır? Cəllada əmr eləyir ki, vəzirə 100 zopa vursunlar. 10 gün vəzir bu zopalardan özünə gələ bilmir. Muştuluğunun qızıl, ənam yerinə 100 zopa olmasının səbəbini də soruşa bilmir. Əlbəttə ki, qorxusundan.

Üstündən illər keçir. Padşahın bu oğlundan bir nəvəsi olur. Xəbəri çatdırmaq missiyası yenə də bu vəzirin üzərinə düşür. Qorxa-qorxa padşaha yaxınlaşır. Ehtiyatla "Padşah sağ olsun, nəvən olub" deyir. Muştuluq zad da istəmir. Qorxusundan. Padşah bu xəbəri eşitcək tökür qızılı vəzirin başından. "Məni istəyənlər vəzirə ənam versin", qışqırır. Yaşına, adına uyğun olmayan tərzdə uşaq kimi atılıb düşür. Vəzir də məəttəl qalır. Bu dəfə ürəklənib soruşur: "Padşah sağ olsun, oğlun olanda muştuluq istədim 100 zopa qazandım. İndi nəvən olub. Heç nə istəmədim. Dünyanın qızılını tökdün başımdan. Niyə?" Padşah cavab verir: "Onda düşmənim olmuşdu, indi isə düşmənimin düşməni dünyaya gəlib".

Hörmətli nəvələr, bu sözlərin hərfi mənasına varmayın. Müdrikliyinə varın. Sizin atanız, ananız dünyaya gələndə babanız, nənəniz də cavan idi. Sosial problemlər də çox idi. Bilmirdilər ki, uşaqların qeydinə qalsınlar, yoxsa oxusunlar, pul qazansınlar. Gecələr yuxusuz qalırdılar, kirayələrdə sürünürdülər. Dişlərində böyüdürdülər balalarını. Pampers yox idi. Uşaqlarının batırdıqları əskiləri qaynadıb, qurudub, ütüləyirdilər. İndiki kimi hazır kaşalar yox idi. Səhər tezdən növbəyə dayanıb, süd alıb, qaynadıb, mannı kaşa bişirirdilər. Süd çürüyəndə dilxor olurdular. Nə "Park bulvar" var idi, nə də "Meqafan". Balaca övladları dondurma, yenicə satışa çıxan, 1 kiloqram ətin qiymətinə "Snikers" istəyəndə "kıxx", zəhərlidir, boğazınız ağrıyar" deyirdilər. Babalarınız, nənələriniz beləcə atanızı, ananızı, dayı, əmi, bibi, xalalarınızı böyüdürdülər. İstədiklərini onlara verə bilmirdilər. Onları böyütdükcə çəkdikləri bu zəhmətin əvəzini də görmürdülər. Övladlar qədirbilən olmurlar. Hələ utanmaz-utanmaz üzlərinə də dururlar ki, "Sizdən xahiş eləyən var idi ki, bizi dünyaya gətirəsiniz? Gətirmisinizsə, deməli, borcunuzdur – nə desək almalısınız" Ta öz övladları – siz nəvələr – dünyaya gələnəcən. Hamımız belə olmuşuq. Lap çox istədiyiniz babanız, nənəniz də... Siz də belə olacaqsınız.

Nəvələr, siz dünyaya gələni hər şey düzəlir. Tərəzinin mizanı tarazlanır. Atanız, ananız nəhayət başa düşürlər ki, babanız, nənəniz nə çəkib. Başınızın üstündə laylay deyəndə. Siz soyuqlayıb qızdırmadan səhərəcən yatmayanda. Apteklərin qapısından əskik olmayanda. Həkimlərə yalvaranda. Siz "Obba" deyib zəhlə tökən-

də. Şkafları açıb içindəkiləri çölə vızıldadanda, divar kağızlarının üstündə şəkillər çəkəndə, əlinizə keçəni balkondan aşağı atanda, ayaqqabıları ağzınıza soxub yalayanda, sinifdəki uşaqlarla vuruşanda, bir valideyn kimi müəllimin qarşısında durub qızaranda, "ata, ana filankəsdə filan paltar var, mənimçün də alın", deyə ayağınızı bir başmağa dirəyəndə. Və sair, və ilaxır.

Siz bu dünyaya gəlişinizlə valideynlərinizə qədirbilənlik dərsi keçirsiniz. Babanız, nənəniz isə arzularına, istəklərinə çatırlar. Atanıza, ananıza uşaqlıqda verə bilmədiklərini, sizə verirlər. Ürəklərində qubar olan köhnə xatirələrini sağaldırlar: Dondurma da alırlar, şokolad da. "Obba"ya da aparırlar, xaricə də. Rəqs, üzgüçülük, rəsm dərnəkləri də öz yerində. Hələ sizə öz doğma övladlarını, onların atasını, anasını söydürüb həzz də alırlar. Ad günlərinizi bahalı restoranlarda keçirirlər. Çoxlu-çoxlu şəkillər çəkdirirlər – sizin həmişəlik yaddaşınıza həkk olunmaq üçün. Amma bilirlər ki, dəxli yoxdur. Baba, nənə ölür. Nəvə babanın qəbri üstünə gəlmir. Qəbir də beləcə "yerlə yeksan" olur. Nə olsun ki, daşdan, qranitdəndir?!

Hamının yanında bərkdən-bərkdən "bu balam tez böyüsün, məktəbi qurtarsın, instituta girsin, toyun görək", deyirlər. Amma beşiyinizin başında Qabilanə gizli laylalar da oxuyurlar.

Yox, yox, böyüməyə
Tələsmə, quzum!
Yellən yüyürükdə,
Yat, əsnə, quzum!
Bir beşik,

Bir məzar,
Bir əvvəl,
Bir axır.
İki nöqtə var.
Elə əvvəldə qal,
Axıra qaçma;
Ay təpiş-tüpüşüm,
Üstünü açma...
Dənizlər mavidir,
Meşələr yaşıl,
Yat mışıl-mışıl.
Ərə gedəcəksən;
Qız alacaqsan,
Alçalacaqsan,
Ucalacaqsan,
Atılacaqsan,
Satılacaqsan,
Qocalar evinə
Qatılacaqsan.
Eşqin atəşində
Sönməyəcəksən.
Əskər gedəcəksən –
Qayıdacaqsan,
Əskər gedəcəksən,
Dönməyəcəksən...
Nacins olacaqsan,
Ya da ki salim;
Nadan olacaqsan,
Ya da ki alim.
Ya saymayacaqsan

Zinəti-zəri,
Ya da eşəcəksən
Zibillikləri...
Mənim süd qoxulu
Körpəm, a laylay,
Mənim gül yuxulu
Körpəm, ay laylay!

Hörmətlə: babanız Mahir.

ANAR VƏ FİKRƏT QOCANI ƏSƏBİLƏŞDİRƏN KİMLƏRDİR, SAKİTLƏŞDİRƏN KİM?..

Atamın 70 yaşı tamam olurdu. Evdə gözəl bir ziyafət təşkil etmişdik. Balaca 16 kvadratmetrlik otaqda iki stol – 15 nəfərlik bir süfrə açmışdıq. Qonaqlara qulluğu mən və həyat yoldaşım boynumuza götürmüşdük. Yeməklərin hazırlanması isə anamla atamın dayısı qızı Mənzərin boynuna idi. İlk gələn, səhər saat 11-də xalq şairi Nəbi Xəzri oldu.

O bizim ailə üçün təkcə şair deyil, atamın uşaqlıq dostu, yaşıdı, qonşumuz idi. Ədəbi yaradıcılıq yollarında inamla addımlayaraq zirvəyə qədər ucalmışdılar. Eyni gündə – 1944-cü il aprelin 4-də ədəbiyyata qədəm basmışdılar. 1996-cı ildə isə o nəsildən Bəxtiyar Vahabzadə ilə birlikdə üçü qalmışdı.

Nəbi əmi "Gedirəm, tələsirəm. Gəldim ki, birinci mən səni təbrik edim. Axır ki, gəlib mənə çatdın" və digər

xoş sözlər deyərək, dəhlizdə dayanıb içəri keçmək istəmirdi. Atam isə "Nəbi, mən ölüm, keç oturaq. Bir boğazımızı yaşlayaq. 70 ildə bir dəfə olur belə şey. Hara gedirsən?" – deyərək axır ki, Nəbi əmini süfrə arxasına oturtdu. Beləcə atamın yubiley mərasimi səhər saat 11-də açıq elan olundu.

"Yox, içmirəm. Həkim qoymur. Xəstəyəm" – deyərək göz qaytaran Nəbi əmi atamın "bəlkə pivə? Yaxşı "Bovariya" pivəsi var", sözündən sonra "Qabil, sənin sağlığına bir bakal pivə içərəm" – deyib çay süfrəsinin yığışdırılmasına razılıq verdi. Bir pivə oldu iki, sonra üç... və bir-birini əvəz edən digər dadlı təamlar. Bir azdan Nəbi Xəzrinin, o cümlədən atamın şeirlərinə gözəl nəğmələr bəstələmiş Emin Sabitoğlu da gəldi. O da yeyib-içən adam idi. Saat üçə-dördə – qonaqların gəldiyi vaxta artıq üç böyük sənətkar "hazır vəziyyətdə" idi. Araq atamı o qədər də tutmamışdı, Prezident Heydər Əliyevdən telefon zəngi, təbrik gözləyirdi. Gözü qonaqlarda, fikri isə telefondaydı. Amma Nəbi əmiylə Emin Sabitoğlunun kefləri saz idi.

Elə bu vaxt qapı döyüldü. Dəvətli qonaqlar sırasında olan Yazıçılar Birliyinin sədri Anar, birinci katibi Fikrət Qoca, şair Fikrət Sadıq və başqaları atamla qucaqlaşıb öpüşdülər. Təbrik edib, hədiyyələrini çatdırdılar. Beləcə atamın şərəfinə təşkil olunmuş məclis qızışdı. Sağlıqlar bir-birini əvəz elədi. Təbii ki, mən də öz xidmətimlə qonaqların qulluğunda idim. Söz demək növbəsi Fikrət Sadığa çatdı.

Fikrət Sadıq indi olduğu kimi, onda da Yazıçılar Birliyində işləyirdi. O, şair-qəzəlxan Balasadıq atamın daimi

həmpiyalələrindən sayılırdılar. Atam onları çox istəyir, zarafatyana "şuriklər", Fikrət Sadığı isə həm də adının və təxəllüsünün baş hərfinə əsasən ixtisarla "Ef-Es" çağırırdı. Məsələn anam zəng edib soruşanda ki, "Qabil, hardasan?" Qısa cavab verirdi: "Şurikləyəm". Anam da ah çəkərək "aydındır" – deyirdi. Yəni ki, artıq "Qabil, içmə" və ya "az iç" əlavələrinə ehtiyac yoxdur, gecikib. Fikrət Sadıq, həmçinin "Ədəbiyyat qəzeti"ndə Yazıçılar Birliyinin adından gedən yubiley təbriklərinin müəllifiydi.

Nə isə... Fikrət Sadıq sağlığa başladı. Bir-iki xoş sözdən sonra "Mən Yazıçılar Birliyi adından Qabil üçün "Ədəbiyyat qəzeti"nə təbrik sözü yazanda" demişdi ki, Nəbi əmi əlini bərkdən stola çırpdı. Az qaldı ki, qarşısındakı boşqab, çəngəl-bıçaq yerə düşə.

– Nəəə... o təbriki, Fikrət, sən yazmısan?

– Hə.

– Mən də elə bilirəm ki, Anar və digərlərinin işidir. Demə, Fikrət, sən yazmısan da?

– Bəli, burda nə var ki... təkcə Qabilçün yox. Hamıyçün təbrik sözlərini mən yazıram.

– Necə yəni "burda nə var" ? Mənim 70 illiyim olanda "Ədəbiyyat qəzeti" verdi ki, "Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən biri Nəbi Xəzri". Qabillə, Bəxtiyarın 70 illiyində isə yazıblar ki, "Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi Qabil, Bəxtiyar Vahabzadə". Necə olur ki, mən "görkəmli nümayəndələrdən biri" oluram, onlar isə "görkəmli nümayəndəsi"?

– Nəbi, axı nə fərqi var e.. – deyə söhbətə Anar qarışdı.

– Fərqi yoxdusa, onda məni də onlar kimi yazaydınız da.

Nəbi əmi həqiqətən də bərk əsəbləşmişdi. Məclisi tərk etmək istəyirdi. Bir tərəfdən isə sevinirdi. İki ildən sonra bu işlərin başında duran, iş icraçısını, "təxribatçı"-nı üzə çıxarmışdı. Üzə çıxarmamışdı e..., demə səhərdən onunla üzbəüz oturub rumka rumkaya vururmuş.

Mən də mat-məəttəl durub tamaşa edirdim. Bir anlıq "O olmasın, bu olsun" filmində Məşədi İbadın nişan səhnəsi yadıma düşdü. "Mənə meymun deməyin az deyil, hələ bir əl də uzadırsan?". Yəni ki, "Fikrət Sadıq, mənə "biri" deməyin bəs deyil, hələ mənimlə üzbəüz oturub rumka rumkaya da vurursan?"

Bir yandan atam, o biri yandan isə Emin Sabitoğlu Nəbi əmini sakitləşdirə bilmirdilər. Artıq ayağa durub getmək istəyirdi. Ev darısqal olduğundan çıxa bilmirdi. Bir tərəfdən pianino, o biri tərəfdən isə Emin Sabitoğlunun ayağa durub yol verməməsi ona məclisi tərk etməyə mane olurdu. Birdən Emin Sabitoğlu 180 dərəcə geri çevrildi. Pianonun qapağın qaldıraraq, həzin bir musiqi ifa edə-edə oxumağa başladı:

Çinarlar qatar-qatar,
Qalxıb zirvəyə çatar,
Dağa qısılıb yatar,
Mışıl-mışıl dərələr,
Dərələr, dərələr, dərələr,
Yaşıl, yaşıl dərələr.

– Bu mahnı kimindir, Nəbi?

Əvvəlki əsəbindən bir qram da əsər-əlamət qalmayan Nəbi əmi gözlərində sevinc, həlim səslə:

– Mənim.

Emin Sabitoğlu daha bir mahnı ifa etdi:

– Bu kimindir, Nəbi?

– Mənim.

Daha bir mahnı ifa etdi.

– Bu kimindir, Nəbi?

– Mənim.

Bu ifa Nəbi əminin kefini düzəltdi. Beləliklə atamın yubileyi gecə saat 12-yəcən davam etdi. İlk gələn qonağımız da Nəbi əmi oldu, son gedən də.

Noyabrın 2-si haqq dünyasında olan Emin Sabitoğlunun doğum günüdür. Nəbi Xəzri və Qabil də bu dünyada yoxdurlar. Allah cansağlığı və uzun ömür versin Anara, Fikrət Qocaya, Elçinə, Fikrət Sadıqa. Onlar da artıq 70-i arxada qoyublar.Öz nəsillərinin sonuncu magikanları sayılırlar. İndi yox, 1996-cı ildə də titulları, yaradıcılıqları ilə Qabil, Nəbi Xəzri, Bəxtiyar Vahabzadəylə bir sırada dayanırdılar. Fikrət Sadığın təbiriylə desək, Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələri və ya biri idilər.

Amma məni ötən illərə qaytaran, bu xatirəni yada salan başqa məqam oldu.

O vaxt Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi Nəbi Xəzri bir sözə görə bərk əsəbləşmişdi. Onu əsəbləşdirən isə Azərbaycan ədəbiyyatının digər

görkəmli nümayəndələri Anar, Fikrət Qoca, Fikrət Sadıq idi. Nəbi Xəzrini Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi Qabil sakitləşdirməyə çalışırdı. Və nəhayət, Azərbaycan musiqisinin görkəmli nümayəndəsi Emin Sabitoğlu öz ifası və həzin səsiylə Nəbi Xəzrinin əsəblərini ram elədi.

Bu xoş və daim yaddaşımda həkk olan hadisənin üstündən nə az, nə çox, düz 17 il ötüb. Mətbuatı yaxından izləyərək öz-özümə fikirləşirəm, görəsən bu gün Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələri Anarı və Fikrət Qocanı öz sözləri, fikirləri, atmacaları ilə əsəbləşdirən kimlərdir, sakitləşdirən kimlər? Xahiş edirəm cavabı mənim yazımda axtarmayın və deməyin ki, əsəbləşdirən gənc yazarlardır, sakitləşdirən isə Yazıçılar Birliyinin mətbuat katibi?!

PREZİDENTƏ SUAL

Moskvada qafqazlıların toy karvanında adət-ənənəyə uyğun havaya odlu silahdan atəşlər açılıb. Polis də onları tutub basıb qoduqluğa. Bəs ki, bura sizinçün Qafqaz deyil, aul deyil, kənd deyil. Nə olsun ki, sizdə adət-ənənə belədir. Bura Moskvadır. Bu xəbəri bütün Rusiya televiziyaları həmən bütün dünyaya yayırlar. Bir jurnalist bir az da irəli gedərək Şimali Qafqaz respublikalarından birinin prezidentindən bu məsələyə münasibət də öyrənib:

– Düzdür, bizdə belə adət-ənənə var. Toy karvanı gəlinin dalıyca gedəndə sizdə necə ki, maşınlar siqnal vermir, bizim cigitlər də odlu silahdan havaya atəş açırlar. Bəs agah olun, qız evi, gəlinin dalıycan gəlirik. İndi bu adət köhnəlib. Texnologiya inkişaf edib. Atəş açmağa

ehtiyac yoxdur. Cib telefonundan mesaj göndərsəydilər bəs edərdi.

Bu an mən tamaşaçıda bir sual da doğdu. Qafqazda kənd yerlərində keçirilən toylarda belə bir adət də var. Toy gecəsindən sonra qızın bakirə olmasını xəbər verən güllənin atılması. "Bəyin oğurlanması" filmində deyildiyi kimi – "Bəydadaşın gülləsi. Bütün kənd bunu gözləyir".

Bunudamı mesajla xəbər verməlidirlər?!

ALLAH QƏBUL ELƏSİN

Yolda bir dilənçi dayanmışdı. Çıxartdım 20 qəpik verdim. Yanımdan bir kişi ötürdü. Dedi:

"A bala, Allah nəzirini qəbul eləsin"

Qurban boyun olmuşdum. Kəsdirdim. Payladım. Dedilər:

"A bala, Allah qurbanını qəbul eləsin".

Atam rəhmətə getmişdi. Ehsan verdim. Dedilər:

"A bala, Allah ehsanını qəbul eləsin".

Elan elədilər ki, məsciddə qanvermə aksiyası keçirilir. Getdim qan verdim. Biri çaşdı, amma söz dilindən çıxmışdı:

"A bala, Allah qanını qəbul eləsin".

KÖÇÜRƏNLƏR, KÖÇÜRÜLƏNLƏR

Hər bir yazıya başlayanda istəyirəm ki, birinci adını qoyum. İnsan kimi... Bilmirlər axırı nə olacaq amma tezcə adını qoyurlar. Sonra da görürlər ki, Aslan cücə olub, İsmət ismətsiz, Laçın sərçə... Nə isə sadalamaqla qurtarmaz. Heç olmasa Dədə Qorqud babalarından nümunə götürməyiblər bu yöndə. Mən də birinci "Köç" qoymaq istədim. Yox, daşındım. Qorxdum ki, məni plagiatlıqda günahlandırarlar. Baxmayaraq ki, bu yazım Mövlud Süleymanlının köçünə oxşamır. Dedim yaxşı "Köçkün" qoyum. Dedim day niyə yazırsan e... adına baxıb oxumayacaqlar. Onda qərara gəldim ki, "Köç əməliyyatı" adlandırım. Onda yeni yazarlardan qorxdum. Fikrət Qocanı Rə-

sul Rzanın davamçısı kimi gündə yuyub-sərməklərindən. Yox, mən sərbəst vəzndə yazmıram. Sadəcə adından detektivə oxşayacaqdı ki, onlar da oxumadan deyəcəkdilər ki, bəs Çingiz Abdullyev öz məktəbini yaradır. Ona görə də yaxşısı budur ki, "Köç" yazım, özü də dırnaq arasında. Çünki bu köç o köçdən deyildi.

Bu yaxında kiçik qızı da ərə verdik. İndi yoldaşımla ikimiz qalmışıq. Deyir ki, nə yaxşı valideynlik borcundan çıxdıq. Hər adama qismət olmur belə gün. Özü də 44 yaşında. Çox sevinir. "Trijdı" nənədir. Amma yenidən nənəliyə iddialıdır. Mən də baba kimi öz yerimdə.

Atam öləndən sonra deyirdim ki, ailəliyəm, dörd qızım var. Tanıyanlar deyirdi ki, necə yəni, axı iki qızın var. Deyirdim ki, yox. Anam, həyat yoldaşım, Suğra və Bəyim. Atamdan sonra evin kişisi tək qalıb. İndi isə soruşanda deyirəm ki, hamısını köçürtdüm. Anamı atamın yanına, qızları da ər evinə. Onda zarafatla deyirlər ki, qaldı təkcə arvad. Deyirəm ki, yox. Artıq biz köçürənlərdən yox, köçürülənlərdənik. Axır ki, yazıya da ad tapdım: Köçürənlər, Köçürülənlər.

ŞƏRİF AĞAYAR,
ŞAİR BİLİRSƏN NƏ VAXT ÖLÜR?

Bu suala ilk cavabım heç kimə sirr deyil. Xəstələnir, qocalır, ya sağlam şəkildə yatır, səhər durmur. Ölür. Bu xəbər tez yayılır. Əgər şair xalq şairidirsə, bu ölüm bir az da ictimai rezonansa səbəb olur. Xüsusi vida mərasimi, fəxri qarovulun təşkili, əklillər, prezident və dövlət, hökumət nümayəndələrinin, bütün xalq yazıçısı və şairlərinin imzaladığı, birinci və ya İkinci Fəxri Xiyabanda basdırılmaq haqqında qeydin, vida mərasiminin yerinin və vaxtının müəyyən edildiyi və "Xalq qəzeti"ndə çap olunan nekroloq. Göz yaşları, ürək sözləri, gül dəstələri. Vəssalam.

Fikrət Qoca xalq şairidir. Amma, yuxarıda qeyd etdiklərimi (iraq olsun) eşitməmişəm.

Şərif Ağayar, deməli Fikrət Qoca sağ-salamatdır.

* * *

1959-cu ildə "Tülkü həccə gedir" kimi klassik əsərlərin müəllifi Abdulla Şaiq 78 yaşında rəhmətə gedir. Çox böyük hörmətlə yerdən götürürlər. Cənazəni küçəylə aparanda insan axınını görən bir köhnə bakılı yanaşır atam Qabilə:

– Rəhmətlik kim olub?

– Abdulla Şaiq. Böyük yazıçımız.

– Hə? Doğurdan? Mən isə elə bilirdim ki, o çoxdan ölüb.

Şərif Ağayar, əgər siz yada salıb, onun haqqında bir-iki cümlə "xoş söz" demisinizsə, deməli Fikrət Qoca yaddan çıxmayıb.

Şərif Ağayar, şair sağ ikən yaddan çıxanda ölür.

* * *

Mən uşaqlıqdan yazıçı və şairlərin arasında böyümüşəm. Hamısı yadımdadır. Yadımda yox, yaddaşıma həkk olunub. Bəzilərini oxumasam da belə, həyatlarından nə qədər istəyirsən unudulmaz canlı kadrlarım var. İndi qarşıma bir məqsəd qoymuşam. Atamı yaşadım. Çünki bu dövrdə heç kim heç kimin kitabını oxumur. Gənc şairlər və yazıçılardan bir qismi atamı prezidentin ona bağışladığı evlə yadda saxlayırdılar. Deyəsən mənimlə şəxsən tanış olandan sonra bu tendensiyaya da (deyə bilmərəm mənfi və ya müsbət, öz fikirləridir – mən də hörmətlə yanaşmalıyam) son qoyuldu. Ara-sıra atam haqqında xatirələr yazanda onun şair və yazıçı dostlarını da yada salıram. Amma... hanı Əhməd Cəmil, Osman Sarıvəlli, Həsən Seyidbəyli, İmran Qasımov, Zeynal Xəlil, Əliağa Kürçaylı, Salam Qədirzadə, Bay-

ram Bayramov, Hüseyn Abbaszadə, Balasadıq. Siyahını uzatmaq olar. Unudulublar.

Şərif Ağayar, şair unudulanda ölür.

* * *

Modern.az saytında qəribə bir məlumat oxudum. 2005-ci ildən bu yana bir nəfər də xalq şairi adına layiq görülməyib. Səhv etmirəmsə, atamdan sonra – 2006-cı ildən bəri ən yüksək "İstiqlal" ordeninə də heç kim layiq görülməyib. Modern.az saytının yazdığına istinad etsəm, "Xalq şairi" fəxri adına layiq olanlar var. Etiraz da etmirəm, mübahisə də. Bir söz demək istəyirəm.

Şərif Ağayar, şair qiymətləndirilməyəndə ölür.

* * *

Şərif müəllim, Yazıçılar Birliyinin rəhbərliyini son 6 ayda bir neçə dəfə "qamçılamışam". Atamın dilindən yazdığım "O dünyadan məktublar" silsiləsində. Onlar tərəfdən (konkret Anar, Fikrət Qoca, Çingiz Abdullayev və Elçin) bir dəfə də ünvanıma kobud cavab nədir, səs də eşitməmişəm. Bəlkə də yazılarımdakı yumor güclü olub. Ya da dediklərimdə həqiqət var. Bəlkə də "Mahirdir də, öz uşağımızdır. Neyləyək... Qabilin yadigarıdır da. Qoy nə danışır danışsın", deyiblər? Bilmirəm. Amma onu bilirəm ki, təhqirə yol verməmişəm. Onlardan bir abzasını diqqətinə çatdırmaq istərdim.

"Şair Qabilin o dünyadan birinci məktubu" adlı yazımda belə bir fikir var:

"Anara, Elçinə, Fikrət Qocaya, Çingiz Abdullayevə məndən salamlar. Qəbirüstü abidəmi ucaltmağa kömək

etmədiklərinə görə incimirəm. Başlarına gələndə onsuz da başa düşəcəklər. Amma mən olsaydım, 4 nömrə hökumət telefonunun yanından kənara çəkilməzdim. Onlara iki heykəli birdən qoydurardım. Birini Fəxri Xiyabanda, birini də doğulduqları rayonda".

Şərif Ağayar, bu nə deməkdir? Sizcə ölüm arzulamaqdır? Amma bu sözü ilk olaraq mən, Fikrət Qocaya – "Fikrət əmi" müraciət edərək kabinetində şəxsən demişdim. Razılaşdı, kövrəldi. Əlimdən tutub dedi ki, gedək Anarın otağından hara lazımdır zəng edim. Amma xəbəri yox idi ki, artıq qəbirüstü abidə hazırdır. Mən ürəyimi boşaltmışdım. O da qəbul etmişdi. Əmi qardaşoğlu kimi. Amma yenə ürəyim soyumayıb "Şair Qabilin o dünyadan birinci məktubu" adlı yazını çapa vermişdim.

İndi siz də, Şərif müəllim, dediyinizi şəxsən desəydiniz, ürəyiniz dözməyib üstəlik, bunu şair kimi həcvlə ictimailəşdirsəydiniz Fikrət Qoca bunu qəbul edərdi.

Şərif Ağayar, şair ürəyini boşaltmayanda ölür.

* * *

"Fikrət Qoca hələ ölməyib? Mən elə bildirdim o çoxdan ölüb". Şərif müəllim, icazə verin sizin bu yazınızdakı ölüb sözünə xırda bir durğu işarəsi – dırnaqcıq əlavə edim: "Mən elə bilirdim ki, o çoxdan "ölüb"".

Şeirləriylə oxucuların görüşünə getməyən, yaradıcılıq gecələri keçirməyən, televiziya ekranlarında görünməyən, köhnələriylə gündəmdə qalmaq istəyən şairə, yazıçıya məcazi mənada ölüb demək olar – dırnaqcıqda. Bu şair Şərif Ağayarın şair Fikrət Qoca haqqında sub-

yektiv şair sözü kimi qəbul edilə bilərdi. Düz deyərdiniz, yalan deyərdiniz? Bu başqa söhbətin mövzusudur.

Şərif Ağayar, şair oxucularının yadına düşməyəndə ölür!

* * *

Şərif müəllim, Yazıçılar Birliyində bir tendensiya artıq köhnəlib. Mənzillər Yazıçılar Birliyinə yox, yazıçıya verilməlidir. Özü də nəyinə görə verilməlidir? Əsas sual budur. O ki qaldı sizin sitata – "Yazıçılara verilən evdən biznesmen oğluna evi ola-ola təzədən bir ev də Fikrət Qoca verib. Oğlu da açıqlama verib ki, "sağ olsunlar, amma mənim bu evə ehtiyacım yox idi". Fikrət Qoca oturduğu kresloda işləri belə həll edir" fikrinizə….

Fikrət müəllim məncə bunu düz etməyib. Mənzilə Fikrət Qoca özü layiqdir. Əsərləriylə, Azərbaycan ədəbiyyatı qarşısındakı xidmətləriylə, adı-sanı, vəzifəsiylə. Mənzili özü almalıydı, sonra kimə bağışlamaq şəxsi işidir.

Fikrət əmi, Qabil o dünyaya heç nə aparmadı. Mənzili mənə, nəvələrinə qaldı. Adı amma üstündədir.

Şərif Ağayar, maddiyyat mənəviyyatı üstələyəndə şair ölür!

* * *

Yenə sizdən sitat: "Əgər həqiqətən də ölməyibsə, bir gün ondan vaxtı ilə Azərbaycan Yazıçılar Birliyinin balansında olan və sonralar varlı, pullu şirkətlərə, təşkilatlara satılan obyektlərinin sayını soruşacaqlar. Gözdən pərdə asmasın, ayıbdır. Qoca kişidir, gedib tövbə edib, namaz qılsın".

Şərif müəllim, fikrinizə hörmətlə yanaşıram. Amma burda deyəsən ünvanı səhv salıbsınız. O ki qaldı "tövbə"yə? Nədənsə atamın "Nəsimi" poemasından bu misralar yadıma düşdü:

Oğurluq edənlər tövbə eliyər,
Səhv yola gedənlər tövbə eliyər,
Yaxşıya "pis" deyən tövbə eliyər,
Qızıla mis deyən tövbə eliyər.
Quru böhtançılar tövbə eliyər,
Qara yalançılar tövbə eliyər,
Namusu satanlar tövbə eliyər,
Südə su qatanlar tövbə eliyər.
Yetimə dil verən tövbə eliyər…
Bəs mənim tövbəmin nə olsun adı,
Hansı xəta çıxıb əlimdən, deyin?

Yazıçılar Birliyinin iki üzvünün, iki şairin bu didişməsi məni çox da heyrətləndirmədi. Çünki ilk deyil. Başqalarının "yazıçılar aləmi şou biznesə dönüb", fikirlərinə mən də qoşuluram. Belə getsə, ərindən boşananlar şou-biznesə yox, Yazıçılar Birliyinə üzv olmağa can atacaqlar.

Şərif müəllim, sizin üzvlükdən çıxarılmağınızı düzgün addım saymıram. Sizin şair Fikrət Qoca haqqında dediklərinizi də şair sözü saymıram.

Amma bir neçə məqam və təəssüf hissi məni bu yazını yazmağa vadar etdi. Birincisi təqaüdü başına vururlar. Düz etmirlər. Bu təqaüd Yazıçılar Birliyinin yox, dövlətimizin ayırdığı təqaüddür. Necə deyərlər, xaricə

satılan neftimizdən bir damcı da sənin boğazına düşüb. Yəni ki, təqaüd almısan. Yəqin yazına-pozuna, istedadına görə.

O ki qaldı sənin haqqında "içki düşkünü" fikrinə, Mədəniyyət və Turizm Nazirliyindən işdən çıxarılmağına? Mey əhli, gözəllik vurğunu, yeyib-içən adamdan əsl şair olar. Əgər buna görə səni işdən çıxarıblarsa, fəxr elə. Mənəvi və fiziki impotentlərdən cəmiyyət də, arvadları da bezardır.

Amma bir təəssüf hissi məni boğur. Şərif Ağayar, 37 yaşınız var. Birliyin bel sütunu olan orta yazıçı nəslinin nümayəndəsi idiniz. Cavansınız. Mən bilmirdim ki, həmkarlarınız arasından sizi bu qədər istəyən varmış. Onlar sizə görə Yazıçılar Birliyindən protest verib çıxdılar. Gözəl birlikdaxili qruplaşma yarada bilərdiniz. Necə ki, Yazıçılar İttifaqının tarixində heca vəznində, sərbəst vəzndə yazanlar, qazaxlılar, "60-cılar" kimi qruplar olub. Vuruşublar, əlbəyaxaya da çıxıblar, bir-birlərini, özlərindən əvvəlkiləri inkar da ediblər. Amma bütün bunlar ədəbiyyatımızın daha da inkişafına xidmət edib. Heyf bugünəcən çəkdiyiniz zəhmətdən. Ədəbiyyatımızın "60-cılar" nəslinin payız vaxtında… yarpaq tökümünün başlanğıcında…

SİYASƏTDƏ SİÇOVUL TƏLƏSİ

Gəmi. Böyük bir mühəndis qurğudur. İçərisində hər şey var. Lyuks kayutları, tualet-hamamı, restoran, bar, kafeləri, kazinosu, saunası, üzgüçülük hovuzu, cürbəcür dükanları, tibb otaqları. Bütün bunları hərəkətə gətirmək üçün güclü mühərrikləri. Başda kapitanı olmaqla böyük, yüksək hazırlıq keçmiş heyəti, mühafizəsi. Sanki balaca bina, kiçik bir dövlətdir okeanda. Üzür. Özünün bayrağı var. Adı var. Dağ boyda dalğalara sinə gərir. Fırtınalardan qurtulur. Hər gəminin də öz qanunları var. Nə qədər böyük, güclü, yaraşıqlıdırsa, hansı limana yan almasından asılı olmayaraq onu orkestrlə, sevinclə, gül-çiçəklə qarşılayırlar.

Sükan etibarlı əllərdə olanda xaricdən gələn təsirlər – külək, fırtına, qasırğa, dalğalar gəmiyə heç nə edə bilmir. Amma hər gəminin öz daxili problemləri də olur. Ağıllı kapitan buna da çarə tapır. Bir də görürsən gə-

miyə siçovullar ayaq açıb. Əlbəttə ki, yuxarı hissəsinə, müştərilər üçün nəzərdə tutulan, yuxarıda sadaladığım yaruslara yox. Zirzəmi hissə sayılan motorxana, anbar, mətbəxə yaxın hissələrə. Necə deyərlər, iyə yığışırlar. Mətbəxə yaxın gələndə işçilər bu siçovulları asanlıqla öldürürlər. Amma gəmidə dəlmə-deşik çox olduğundan kökünü kəsmək olmur ki, olmur. Kimyəvi dərman, zəhər töksələr də, tələ qursalar da fayda vermir. Əgər kapitan ağıllıdırsa, bu üsullardan istifadə etmir. "Kimyəvi silah"dan, pusqu qurmaqdan yan keçir. Bu işlərə başını yormur. Görəsən nə edir?

Əvvəlcə siçovullardan on, on beş dənəsini tutdurub salır qəfəsə. Matroslarına da əmr edir ki, birdən ürəkləri yumşalar, aclıqdan ciyiltisi göyə çıxan heyvanlara yemək vermək istəyərlər a... Nəbadə. Beləcə bir neçə gün gözləyir.

Əvvəlcə siçovullar həmrəylik göstərirlər. Bir-birlərinə söz verirlər ki, burdan qurtulsalar gəmiyə hücuma keçib yuxarı yarusları darmadağın edəcəklər. Qarşılarına nə keçsə dağıdacaqlar, gəmirib, parçalayacaqlar. Xaricdən dalğa, qasırğa, tufan da bu işdə onlara köməklik göstərəcək. Kapitanı isə məhv edəcəklər. Gəmini dəryada batırıb, oranın daimi sakinlərini fəlakətlə üz-üzə qoyub hamıdan əvvəl özləri oranı tərk edəcəklər.

Amma qəfəsdən çıxa bilmirlər. O biri siçovulları köməyə çağırsalar da, heç kim onlara səs vermir. Amma öz növbələrində onların gələcək planlarına həmrəyliklərini bildirir, daim onların yanında olacaqlarını söyləyirlər. Axşam növbəsindəki matroslardan onların ciyiltisinə dözməyib qəfəslərinə çörək atan da olur. Düzdür...

kapitan bundan həmən duyuq düşür... onları ciddi cəzalandırır da.

Aclıqdan bezən siçovullar zəifləyirlər, hətta ciyildəməyə də taqətləri qalmır. Əllərinin hər yerdən üzüldüyünü görüb, başlayırlar bir-birilərinə baxıb ağızlarının suyun axıtmağa. Sonra isə hərəkətə keçirlər. Əvvəlcə bir siçovulu parçalayıb yeyirlər. Sonra digərini. Beləcə sona ikisi qalır. Bunlardan da hansı güclü çıxırsa, o birini parçalayıb yeyir.

Bu vəhşi mənzərəni matroslar böyük maraqla izləyirlər. Hətta aralarında mərc qoşanlar da olur. Sonda bir siçovul qalanda gəlib kapitana hesabat verirlər ki, "bəs siçovul tək qalıb... təzələrini tutaq?".

Kapitan nə eləsə yaxşıdır? Qəfəsə yaxınlaşır və tənha siçovulu gəminin texniki qurğuları yerləşən zirzəmi hissəsinə buraxır. Tənha siçovul heç bir kimyəvi maddənin, tələnin, matrosun girə bilmədiyi dəlmə-deşiyə asanlıqla girir. Doğma siçovul qanına susayan, kapitanın hazırladığı bu "bioloji silah" qarşısına çıxan siçovulu parçalayır, didir. Bu proses 3-4 il davam edir. Ta o vaxtacan ki, tənha, quduz siçovul özünə sevgili tapır. Nəslini artırmağa başlayır. Gəminin kapitanı ağıllı, uzaqgörəndirsə bunu həmən hiss edir. Əsrlərdən bəri bu günümüzəcən gələn, sınaqlardan çıxan fəndi bir də işlədir.

Beləliklə də kapitan gəmidə əmin-amanlığı, asayişi qoruyur. Həmişə bayrağı uca, dalğalara, tufanlara sinə gərə-gərə gəmisini irəliyə aparır.

HANSI QABİL? "PARAVOZ"?!

Xalq şairi Qabil
– Salam.
– Salam.
– Mən Qabilin oğluyam.
– Xalq şairi Qabilin?
– Bəli.
– Buyurun.

Heydər Əliyevin dostu
– Salam.
– Salam.
– Mən Qabilin oğluyam.
– Heydər Əliyevin dostu?
– Bəli.
– Buyurun.

"Səhv düşəndə yerimiz"
– Salam.

– Salam.
– Mən Qabilin oğluyam.
– "Qeyrətsiz oluruq biz
Səhv düşəndə yerimiz?"
– Bəli.
– Buyurun.

"Nəsimi" poeması
– Salam.
– Salam.
– Mən Qabilin oğluyam.
– "Nəsimi" poemasını yazan?
– Bəli.
– Buyurun.

Rübai
– Salam.
– Salam.
– Mən Qabilin oğluyam
– Kişi adam vurar, adam dolamaz
Kişi təslim olar, quyruq bulamaz
Arvad qabağında boşqab sındırıb
Kişi qabağında boşqab yalamaz.
– Bəli.
– Buyurun.

“İstiqlal” ordenli

– Salam

– Salam

– Mən Qabilin oğluyam

– İlham Əliyev “İstiqlal” ordeni verən Qabilin.

– Bəli.

– Buyurun

“Paravoz Qabil”

– Salam, müstəntiq Bahadır.

– Salam.

– Mən Qabilin oğluyam.

– Hansı? “Paravoz” Qabilin.

– Bəli.

– Buyurun.

Mahirin atası

– Salam.

– Salam.

– Mən Qabilin oğluyam.

– Hansı. O dünyadan məktublar yazan Mahirin atasını deyirsən?

– Bəli.

– Maraqlıdır. Bir qulluğunuz?

"TOPAZ" VƏ ROMA PAPASI

Uşaqları tərbiyələndirəndə bəzən özümüz də bilmədən xətalara yol veririk. Sonradan isə ha nəsihət veririk, xeyri olmur. Uşaq düzəlmir ki, düzəlmir. Çünki bu ruhda tərbiyə veririk. Mən özüm də etiraf etməliyəm ki, bu yöndə tərbiyə alanlardanam.

Söhbət mədəni dildə desək, mərcdən gedir. Amma nədənsə futbol mərclərinə xalq arasında qumar deyirlər. Çünki nəfsini saxlamayanda mərc qumara çevrilir, sonu isə bədbəxtçilik, bəzi hallarda isə intihara.

Uşaqlıqda qoyun, qurbanlıq kəsəndə atam xüsusi olaraq onun oynaq aşıqlarını yığırdı. Deyirdi ki, uşaqlığı yadına düşür. "Aşıq"ları müxtəlif rənglərə boyayırdı. Hərdən bir oynayırdıq da. Kimdə çox aşıq alçı dururdu, o da qalib gəlirdi. Sonradan bildim ki, bu oyunu həm də qumar kimi oynayıblarmış. Bu "aşıq"lar neçə-neçə evlər yıxıbmış.

Dayılarım tez-tez nərd oynayırdılar – pivədən, araqdan, qonaqlıqdan. Şamaxıya gedəndə 10-15 nəfər bir yerə toplaşıb loto oynayırdıq. 5-10 qəpikdən. Kim tez "gözləyib, qurtarırdı" pula da o yiyə dururdu. Böyüklərdən bir nəfər də demirdi ki, bu qumardı – oynamayın.

Toyuq əti yeyəndə də onun haça döş sümüyünü axtarırdım. Tezcənə evdəkilərlə mərc qoşurdum. Bəxtim gətirəndə "apardım, apardım" deyə səsim evi götürürdü.

Tez-tez rayona gedirdik. Getməmişdən qabaq atam 1 rubl ayırırdı ki, sağ-salamat gedək qayıdaq, qabağına çıxan birinci dilənçiyə verəcək pulu. Adına nəzir deyirdi. Amma şərt kəsirdi. Kiminlə bilmirəm. Bəlkə də mərc qoşurdu – müasir dildə desək.

Universitetə qəbul imtahanı verirdim. Elmlər Akademiyası metrosundan BDU-ya uzanan yol dilənçilərlə, qaraçılarla dolu olurdu. İmtahana gedəndə hamı onlara pul verirdi. İmtahandan çıxanda bir qism onlara sevinclə, bir qism isə qəzəblə baxırdı. Amma heç kim daha pul vermirdi. Artıq mərc başa çatmışdı axı.

Üstündən illər keçdi. Böyüdüm. Günlərin bir günü evdə oturmuşdum. Qapı döyüldü. Bacanağımın oğlu idi. Qurban payı gətirmişdi. "Mahir əmi, anam demişdi ki, məktəbi öz gücünə qurtar, qurban kəsəcəyik. Mən də öz biliyimlə imtahanları verdim. Bu gün qurban kəsdik". Bir anlıq fikrə getdim. Əcaba, görəsən məktəbi tapşırıq və ya pulla qurtarsaydı qurban kəsməyəcəkdilər? Axı niyyət məktəbi – orta təhsili başa vurmaqdan gedir, rüşvətsiz buraxılış imtahanları verməkdən yox.

Deməli bu niyyət yox, mərc imiş. Bacanağımın oğlu udmuşdu. Atasını, anasını 500, 1000, 1500 manat rüşvətdən qabaq salmışdı. 2-3 aydan sonra uşaq ata-anasını mərcdə bir daha uddu. Universitetə öz başıyla girdi. Çox qəribədir. Görəsən test üsulunun mövcud olduğu bir dövrdə ali məktəbə girməyin daha hansı yolları var?

Tez-tez bacanağımın işlədiyi kafeyə gedirəm. Əvvəlcə oturub domino oynayırlar. Birinci oyunda araq, ikincidə salatlar, üçüncüdə isə kabab mərc obyekti olur. Adı da o olur ki, "mırt"a oynayırlar.

Görəsən bütün bunlar qumarın cücərtiləri deyilmi?

Kafedə işləyən cavanların tez-tez futbol mərcinə qoşulduqlarını görürəm. Tez-tez deyəndə ki, hər gün. Mərclərinə görə elə həqiqətəbənzər mübahisə edirlər ki, bəzən mən də yoldan çıxıram. Avtobus sürücüləri sərnişinlərə 20 qəpiklik sikkə kimi baxdıqları kimi, bu ofisantlar da müştəri görəndə sanki 1, 2, 3 manat görürlər. Çox hallarda ümidləri boşa da çıxır. Müştərilər nəinki "çaypulu", heç içdikləri çayın da pulunu vermirlər. Yazılır yazıq uşaqların ayağına. Onlar da bütün ümidlərini bağlayırlar "Topaz"a. Qazandıqlarını da aparıb qoyurlar ora. Özlərinə haqq da qazandırırlar. Arqumentləri də güclüdür: Günorta 1-2 radələrində mərc qoşurlar. Əmsalları da yüksək olur. "Topaz" onlara 1 manat qoyub 100, 1000, 10 min, 100 min, hətta 250 min qazanmaq şansı verir. Futbol oyunu başlayanadək, yəni gecə saat 11 – 12-yədək ümidlər, xəyallar bir-birini əvəz edir. Səhər yuxudan zəngin oyanacaqlar. Elə həmin gün filan restoranı bağlatdıracaqlar, kafedəkilərə qonaqlıq verəcəklər. Sonra avtomobil, ev alacaqlar. Özləri kimi

kasıb qardaş-bacılarına maddi köməklik edəcəklər. Bir sözlə, "adam" olacaqlar. "Çaypulu" alandan, "çaypulu" verənə çevriləcəklər. Öz kafelərini açacaqlar. Danlaq yeyəndən danlayana çevriləcəklər. Arzuları çox, ümidləri isə gecə saat 11-12-də oynanılacaq oyunlaradır. Haradasa 11-12 saatlıq bir milyonerlik, zənginlik xülyası.

Görəsən, bu dövrdə kim və ya hansı təşkilat dərdləri yalnız pul olan bu insanlara bu qədər ümid verə bilər? Heç "Azərlotoreya"da da bu qədər "cek-pot" yoxdur. Gərgin iş günündən sonra gecə saat 2-yədək yuxusuz qalan bu uşaqlar televizorda, internetdə canlı izləyirlər oyunları. Sonu isə: səhər yenidən həmin qiyafədə, həmin evdə yuxudan oyanırlar. Evdəkilərin qınaqlı baxışları altında işə yollanırlar. Amma uduzmaqları yenə də onlara dərs olmur. Yenə də beyinlərində futbol oyunları, əllərində futbol mərc qəzetləri, ürəklərində isə böyük, sonu görünməyən arzular. Ən əsası isə sabaha ümidlə baxırlar. Onları sabaha qanadlandıran isə futbol mərcləridir. Onların ümidləri "Topaz"dır. Daha doğrusu isə qumar. Bu cavanlar çox gözəl bilirlər ki, ümid sonda ölür. Bilirlər ki, nə qədər futbol var, ümidləri də ölməyəcək.

Birinə ağıl vermiş kimi qınadım. Sonu olmayan bu yoldan geri qayıtmağını məsləhət etdim. Cavab qaytardı: – Əgər mərc qoşmaq belə pis şeydirsə, onda niyə dünya katoliklərinin lideri Roma Papasının seçkiləri başlayar-başlamaz, birinci bukmeykerlərin səsi gəldi? Niyə dünya informasiya agentlikləri birinci namizədləri yox, bukmeykerləri reklam etdi.

Hərif gülürdü. Elə bilirdi ki, sözlə bağlayıb məni.

Amma başa düşmürdü ki, Roma Papası 10, 15, 20, 30 ildən bir seçilir. Vatikanın başındakı bacadan ağ tüstü çıxandan sonra da hər şey başa çatır. Bacadan tüstü bir dəfə çıxır. Bu həriflərin başından, evlərinin bacalarından isə tüstü hər gün çıxır. Özü də qara tüstü.

Səhər, günorta, axşam, gecə... Futbol kuponları yandıqca, futbol kuponları "yandıqca".

ƏKRƏM ƏYLİSLİ,
CEHİZİN BİRİ DƏ ARTA BİLƏR...

Tez-tez xatırlayıram o günləri. *1987-ci ildə əsgərlikdən qayıtdıqdan sonra ta atəşkəs rejiminə qol qoyulan günədək olan tarixi. Xidmətdən qayıdanda Kommunist Partiyasının üzvlüyünə namizəd idim. "Perestroyka" da öz axarı ilə gedirdi. Gələn kimi universitetdən dialekt toplamaq məqsədilə bizi Ordubada göndərdilər. Mehmanxanada qalırdıq. Hər gün də mehmanxananın qabağında Ermənistandan gələn 2-3 "İkarus" markalı avtobus dayanardı. İçində də məktəblilər. Mən 21 yaşlı cavan ilk dəfəydi ki, Ordubaddaydım. Kəndləri gəzdirirdilər. Xalq deyimləri, rəvayətlər, hakuşkalar toplayırdıq.*

O yandan maşın gəlir,
Bu yandan maşın gəlir,
Maşınla işim yoxdur,
Şoferdən xoşum gəlir.

Çox kənd gəzdik. Onların içində ən yadımda qalanı Əylis oldu. Bir filoloq kimi "Hacı Qara" əsəri yadımıza düşdü. Əkrəm Əylisli xatırlandı. Kəndin küçələriylə gəzəndə evlərin çoxu boş idi. Xarabalığa dönmüşdü. Bəlkə də belə yüzlərlə ev vardı. Yerli sakinlər məlumat verdilər ki, əvvəllər bu evlərdə ermənilər yaşayıb. Sonra köçüblər. Köçüblər, yoxsa köçürdülüblər və ya niyə köçüblər? Hələ atamın "Kiş-kiş ilə donuz çıxar darıdan?" misrasına illər qalırdı. Kəndin ortasındakı Alban kilsəsinə girdik. Əslində bu tikilini bizə erməni kilsəsi kimi təqdim etdilər. İçərisində tövlə idi. Xaçların ucları sonradan yuvarlanmışdı. Divarlar ağardılmış, üstünə ermənicə nələrsə yazılmışdı. Səhər mehmanxananın qabağındakı, Ermənistan SSR-yə məxsus nömrə nişanlı avtobuslar da burda idi. Ekskursovod da ermənicə nəsə qırıldadırdı. Uşaqların baxışlarından isə heç nə oxuya bilmirdik. İndi başa düşürəm ki, buna nifrət deyərlər. Birdən Akademiyanın Rəyasət Heyətində keçirilən Səməd Vurğunun yubileyi zamanı Abbas Zamanovun tədbirə aid olmayan bir çıxışı yadıma düşdü. Atam danışmışdı. "Naxçıvan əldən gedir. Siz isə burada yubiley keçirirsiniz". Atam dostlarıyla danışanda yaddaşıma təqribən belə həkk olunmuşdu. Bu çıxışdan sonra Abbas Zamanov partiyadan, ermənilər isə Naxçıvandan çıxmışdılar. Bir az dəqiqləşdirim. Abbas Zamanovu partiyadan, ermənilər isə Naxçıvandan didərgin salmışdılar. Heç toxumluq da saxlamamışdılar. Bizi o dövrlə böyük bir zaman kəsiyi ayırmırdı. Səhv etmirəmsə, 60-70-ci illər olmalıydı. Əlbəttə ki, 20-ci əsrin.

Xülasə, Bakıya qayıtdıq. 1987-ci ilin noyabrında artıq

Sov.İKP üzvlüyünə qəbul olundum. Ali təhsil aldığım Sergey Mironoviç Kirov adına Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsində ayda bir dəfə keçirilən partiya iclaslarında iştirak edirdim. Biz tələbələr müəllimlərimizə hörmət əlaməti olaraq arxa partalarda oturardıq, ağzımıza da su alardıq. Hərdən bir sosial yataqxana qayğıları önə çəkilirdi. O da ki, həllini tapmırdı. Vəssalam. Rüşvət yox, korrupsiya yox. Oxuyan oxuyurdu, oxumayana da adamına görə hörmət olunurdu. Bir bal yuxarı yazılırdı. Məsələn, mən "3"-yə layiq dərs danışanda Qabilə görə "4" yazırdılar. Bu da partiya iclasının mövzusu deyildi ki, kimsə qabartsın. Bu sadəcə olaraq universitetimizin yazılmamış qanunlarından idi. Təkcə ziyalıya yox, ailəsinə də hörmət var idi. Nəsə mətləbdən uzaqlaşdım.

Partiya iclaslarında arxada oturan təkcə biz tələbələr deyildik. Aramızda bəstəboy, daim qəzetin tam səhifəsini açaraq gözünün önündə tutan Abbas Zamanov da vardı – Sabirşünas, professor, akademiyanın müxbir üzvü. Sədarət tərəfdən baxanda özü heç görünmürdü də, bircə qəzet görünürdü. İclaslarımız da öz məcrasında davam edirdi.

1987-ci ilin sonları idi. Axşam saat 10 idi. Atam, anam və mən televizora baxırdıq. Birdən qapımız döyüldü. Atam hövllü açdı. "Görəsən nə olub?". Qapı qonşumuz – xalq yazıçısı Bayram Bayramovun böyük oğlu Fəxrəddin idi. O atasından ayrı yaşayırdı, evli idi. Atamı ağzını açmağa belə, qoymadan "Qabil əmi, böyük bədbəxtçilik baş verib" dedi.

– Nə olub?

– Heydər Əliyevi vəzifəsindən və Sov.İKP Siyasi Bürosunun üzvlüyündən azad ediblər.

Atam duruxdu, sonra da dərindən nəfəs alaraq:

– Mən də elə bildim ki, Bayram ölüb,– dedi.

Fəxrəddin Bayram oğlu Bayramovun bu sözlərini biz sonralar daha yaxşı başa düşəcəkdik. Nəinki bədbəxtçiliklər, faciələr hələ qabaqda idi. Bayırda isə hələ 1987-ci ilin payızı, qışı idi. Artıq Qorbaçovun vasitəsilə ermənilər hərəkətə keçmişdilər. Sovet dövründə isə xəbərlər Azərbaycana gec çatırdı. Növbəti, adi partiya iclasımız idi. Sədrliyi partkomumuz, professor Zinyət Əlizadə edirdi. Yenə də arxada oturmuşduq. Aramızda kimsə çatmırdı. Düz tapmışdım. Abbas Zamanov yox idi. İclas başladı. Başlayan kimi 1-ci sıradan balaca bir əl yuxarı qalxdı. Bu Abbas Zamanov idi. Həmişə arxada oturan, qəzet oxuya-oxuya partiyamıza öz "hörmətini" gizlətməyən Abbas Zamanov. Söz aldı. Tribunaya çıxdı.

– Fransanın "Fiqaro" qəzetində Qorbaçovun iqtisadi məsələlər üzrə müşaviri, akademik Aqanbekyanın müsahibəsi çıxıb. Qarabağ Ermənistana birləşdiriləcək. Buna münasibətiniz?

Ara qarışdı, nə qarışdı. Partiyadaş müəllimlərimizə də demə bu lazımmış. Başladılar ermənilərə döşəməyə. Partiya iclasında oturub, necə deyərlər, gəmidə oturub başladılar gəmiçini söyməyə. Abbas Zamanov isə artıq otaqda yox idi.

Bundan sonra tələbələrin kef günləri başladı. Dərslər keçirilmirdi. "Azadlıq!" qışqıra-qışqıra çıxırdıq küçəyə, gəlib dayanırdıq "Politexnik"in qabağında. Təqribən

1-2 dəqiqə "Tətil! Tətil!", hayqırandan sonra onlar da qoşulurdu bizə. Bir az irəli getdikdən sonra "İnşaaat" institutu da bizim sıralara qoşulurdu. Piyada gəlirdik Kommunist, indiki İstiqlaliyyət küçəsinə. Xalq Təsərrüfatı İnstitutunun da müəllim və tələbələri bizə səs verirdi. Son qoşulanlar isə Azərbaycan Pedaqoji İnstitutu olurdu, o biri tərəfdən də Neft və Kimya İnstitutundan gəlirdilər. Bu boyda tələbə selinin qabağında kim dayana bilərdi? Son nöqtə isə meydan idi.

Beləcə partiya gözdən düşməyə başladı. Bunun da fonunda SSRİ tarixi, Sov.İKP tarixi, Həsən Şirəliyev kimi bir müəllimin Elmi Kommunizm fənni də tənəzzülə uğradı. Hansı müəllimin duxu var idi ki, bu fənlərdən qiyməti avtomatik yazmaya. Nə olsun partiyaçı idik. Biz milliləşməyə başlamışdıq. Türkiyə ilə qapılar açılırdı. Qarabağdan güllə səsləri eşidilirdi. Leksikonumuzda "qaçqın, köçkün, didərgin" sözləriylə yanaşı, "istefa, ekstremist, demokratiya, saqqallılar, dığalar, OMON" və belə neçə-neçə söz daxil olmağa başladı. Qərbi Azərbaycandan gələn qaçqınların danışdıqları isə daha dəhşətli idi. Ermənilərin hərəkətləri "Sumqayıt hadisələri"ni alovlandırdı. Bu əslində elə ermənilərin düşünülmüş provakasiyası idi. Sonrakı istintaq bunu təsdiq etdi. Qaçqınların danışdıqları ziyalıları da özündən çıxarmışdı. Az.TV-də hamı "Xəbərlər"dən sonra efirə gedən "Aktual ekran" verilişini səbirsizliklə gözləyirdi. Mitinqlərdən canlı yayımlar da olurdu. "Aktual ekran" verilişinin növbəti qonaqlarından biri də ermənilərin bu hərəkətlərindən qeyzlənən xalq yazıçısı İsmayıl Şıxlı və atam Qabil oldu. Artıq Ermənistanda azərbaycanlı qal-

mamışdı. Bakıda isə ermənilər hələ də xürrəm yaşayırdılar. 20-ci əsrin əvvəllərində ermənilərin Bakıda törətdikləri qırğınlardan xəbəri olan bu ziyalıların çıxışından bircə şey yadımda qaldı: "Məqamdı, qovun ermənilərі Bakıdan". Bu bir çağırış idi. Bu qana-qan demək idi. Əvəz-əvəz idi. Axı, ilk addımı ermənilər atmışdılar. Elə bilirsiniz ki, şəhər əhalisindən kimsə bu ermənіləri evindən qovdu, döydü, öldürdü – əsla. Heç çırtma da vurmadı. Evində gizlətdi, bağında himayə etdi.

Bakı bağları bu gün də öz aktuallığını saxlamaqdadır. Axı biz beynəlmiləl xalqıq. Ermənilərlə kirvəyik. Qız alıb, amma qız verməmişik. Bacıoğlu da öz dayısına güllə atarmı? Bir də ki, arqumentləri güclü idi – bu məsələdə Ermənistan ermənilərinin günahı var. Bakıda isə "Bakı ermənіləridir". Qarabağdakı ermənіləri isə Ermənistandakı ermənilər heç erməni saymırlar. "2-ci sort" deyirlər onlara. Onda biz niyə onlara toxunmalıyıq? Axı hələ Qarabağ müharibəsi başlamamışdı. Şəhidlərin tabutları durna qatarına dönməmişdi. Ermənilər məzlum xalq idi. Şair Qabilin və İsmayıl Şıxlının sözlərini onlar yox, Ermənistandan gələn qaçqınlar daha gözəl başa düşürdülər. Çünki ermənilər onların belinə samovar bağlayıb, sonra qaynatmışdılar. Bu azmış kimi "Dasni çors" da oynatmışdılar. Çünki ermənilər Əkrəm Əylislinin "yeraz" adlandırdığı hamilə qadınların üzərində vaxtından əvvəl xəncərlə "kesar" əməliyyatı apararaq çağalarını şişlərə sancmışdılar. Bu "yerazlar" indi də ermənilərin onlara dağ basdıqları xaçları gəzdirirlər. Mən də yaxşı bilirəm. Bakıda olan hadisələrin bəzilərinin şahidi də olmuşam. Əcəb eləmisiniz. Qardaşınızın,

bacınızın, atanızın, ananızın, uşağınızın, millətinizin qanını almısınız. Neçə-neçə faktı da mən əlavə edərdim. Bu təkcə 1988-ci illərin qisası deyildi, 1948-53, 1915 və neçə-neçə faciələrin cavabı idi. Sual necədirsə, cavab da elə olmalıydı.

Əkrəm Əylisli də elə bir məşhur kəndə doğulub, boya-başa çatıb ki, ermənilər yaxşı tanıyır. Bəlkə də onun əsəri neçə-neçə qanları təzədən qaynatmalıymış. Amma heç tam çap olunmamış ictimai qınaqla üzləşdi. Bədii əsər kimi yazıçı Əkrəm Əylisliyə biz yox, yalnız ədəbi tənqid qiymət verə bilər.

Mənim hansısa kanaldakı verilişdən xoşum gəlmirsə, dərhal kanalı çevirirəm. Mən Əkrəm Əylislidə bir günah, qəbahət görmürəm. Lakin bir xahişim var: o əsəri kitab halında, rusca çap olunmasına icazə verməsin. Paxıllıq etmirəm, bəlkə də tirajda digər xalq yazıçımız Çingiz Abdullayevi ötə bilər. Yalnız bircə şeyə görə:

Ermənilər "Sumqayıt hadisələri"ni lentə alıb dünyaya yaydılar. "Vəhşi türk" obrazını canlandırdılar. O günə kimi isə təzə evlənənlərə Zori Balayanın "Ocaq" kitabını cehiz verirdilər. Ermənilər indi daha da sevinc içindədirlər. Cehizin biri də arta bilər.

SOYQIRIMLAR.., İŞĞALLAR.., KÖPƏYƏ QALİB GƏLMƏK ÜÇÜN QURD NƏ ETMƏLİDİR?..

Televiziyaların birində gənclər üçün veriliş gedirdi. Studiyada dünyada baş verən hadisələr, Dağlıq Qarabağ münaqişəsinin həlli yolları və sairə məsələlər müzakirə olunurdu. Dəvət olunmuş bir "ekspert" ermənilərin, xüsusilə də ABŞ ermənilərinin çox güclü, qarşıdakı seçkilərdə təsiredici qüvvəyə malik olduqlarını önə çəkdi. Misal da gətirdi ki, dünyanın ən böyük "Ceneral Motors" şirkətinin 10 faizi bir ermənіyə məxsusdur. Bu söz məni çox tutdu. Ermənilər varlı olduqları üçünmü Dağlıq Qarabağı zəbt etdilər? Həmin an atamın İsrail Livanı və digər ərəb dövlətlərini hər dəfə bombalayanda, ərəb dünyasına meydan oxuyanda dediyi cümlə yadıma düşdü:

"Ə, bu ərəblər nə o... millətdirlər, bir dənə İzraillə bacarmırlar". Dalıyca da əlavə edirdi ki, "arxalı köpək qurd basar".

Televiziya elə bir vasitədir ki, tamaşaçı ona istəsə də, müdaxilə edə bilmir. "Ekspert"in ona sırıdığı erməni "böyüklüyü" mifini o "ekspert"in özünə faktlarla yedizdirmək üçün gücsüzdür. Neynəsin, qalır içində qıvrıla-qıvrıla. Yaxud da ki, fikirləşir: "Doğurdanmı erməni varlı, güclü xalqdır? Elə olmasaydı, Qarabağı ala bilərdilər? Dünyaya qondarma "erməni soyqırımı"nı sırıya bilərdilər?" Sonra yenidən atamın "arxalı köpək qurd basar" məsəli yadıma düşür. Biz türkük, totemimiz isə "Boz qurd". Üstümüzə gələn də köpək. Bəlkə atalar köpək deyəndə elə ermənini nəzərdə tutublar? Yoxsa ki, "Ceneral Motors"un 10 faizi ermənıyə məxsusdur. Və yaxud da ki, "ermənilər ABŞ-da keçiriləcək seçkilərdə böyük təsirə malikdirlər". Burada bir haşiyə də çıxmaq istəyirəm. Allah sənə rəhmət eləsin Heydər Əliyev. Dünya arenasında o boyda erməni mifini darmadağın etdin. İndi isə özlərini "ekspert" sayanlar "Ceneral Motors"un 10 faizi ilə bizə "qorxunc erməni mifi" aşılayırlar.

Verilişə baxa-baxa hey fikirləşirdim ki, ora dəvət olunan kimsə bu "eksperti" dayandıracaqmı? Susduracaqmı? Deyəcəkmi ki, Azərbaycanın zəngin neft-qaz yataqları, qara kürüsü, qozu, fındığı, pambığı, üzümü-çaxırı milyardlara bərabərdir. İndi Azərbaycan dünyanın inkişaf etmək üzrə 1-ci ölkəsidir. İndi Azərbaycan investiya qoyulan dövlətdən investisiya qoyan dövlətə çevrilib. Köpəyə arxalıq edənlər indi Azərbaycana strateji tərəfdaş deyirlər.

Studiyaya yığışan gənclərə moizə oxuyan "eksperti" susduran tapıldı. Deputat Aqil Abbas bircə misal çəkdi. "Nə 10 faiz-10 faiz salmısan. Vahid Ələkbərov və bir neçə azərbaycanlı dünyanın öndə gedən milyarderlərinin sırasındadır".

Deməli iş ermənin varlı olmasında deyil. Həmrəylik, birlik və milli maraqlar naminə hər şeyə getməyindədir. "Hər şeyə getmək" sözünün çox şaxələri var. Ermənilər bu sözün bütün mənalarında hər şeyə gedirlər. Amma biz yox. Studiyada olsaydım və yaxud da deputatımızın yerində olsaydım "ekspert"ə bu sualları verərdim:

– Ay "ekspert", sən Azərbaycan qadınını qonşu dövlətin ərazisini zəbt eləmək naminə, bir gecəlik çar generalının kef məclisinə, sonra da döşəyinə salıb, ona öz ordusuna "qırın bu türkləri!" əmrini verdirə bilərdinmi?

– Ay "ekspert", sən əcnəbiyə özünü sırıyan və bununla da xalqının siyasi ambisiyalarını həyata keçirməyə kömək edən erməni qadınına baxıb, Azərbaycan qadınının da bu addımı atmasını istərdinmi?

– Ay "ekspert", sən də Azərbaycan qadınının erməni qadını kimi rus aliminin fahişəliyin tarixindən yazdığı kitabda 1-ci olmasını istərdinmi?

– Ay "ekspert", sən də erməni kimi azərbaycanlının Spartak, Babək kimi sərkərdələrin satqını, qatili olaraq tarixə düşməsini istərdinmi?

– İstərdinmi ki, bütün Qafqazı gəzən Puşkin ermənіyə deyən kimi, sənə də oğru deyib dünyaya car çəksin?

Əlbəttə ki yox. Amma bir həqiqət də var ki,düşməni

öz silahıyla vurarlar. Və yaxud da biədəb bir misal var: pazı pazla çıxararlar. Buna da biz bir xalq kimi qol qoya bilmərik.

Deməli məsələ nə "Ceneral Motors"un 10 faizində, nə də ermənilərin ABŞ-da "güclü nüfuza" malik olmasındadır. Bir anlıq utopiyaya uyaq. Guya ki, dünyanın ən varlı azərbaycanlı milyarderləri bir yerə yığışıblar. (Bu da çətin şeydir. Çünki biri deyəcək "iclasda mən sədr olum, mənim pulum çoxdur", o biri deyəcək "mənəm boss". Toplantı da başlamamış dağılacaq). Gündəlikdə də bir məsələ var: 1000 azərbaycanlı milyarder və milyonerdən hər biri zəbt olunan torpaqları geri almaq naminə və ya babalarımızın 200-300 il bundan əvvəl buraxdıqları səhvləri düzəltmək üçün, bunları da qoyuram bir kənara, Azərbaycanın inkişafı naminə böyük miqdarda pul qoymalıdır ortalığa.

Bizimkilərə inanmıram. Amma erməni bunu edər. Deməli məsələ nə "Ceneral Motors"un 10 faizində, nə də ermənilərin ABŞ-da "güclü nüfuza" malik olmasındadır.

Bu yerdə bir misal yadıma düşür: bir jurnalist cəhənnəmdən reportaj hazırlayır. Görür ki, bir qır tiyanıdır, pıqqapıq qaynayır. İçində də günahı olanlar bişir. Əzrayıl da dayanıb başlarının üstündə, əlində də toppuz. Yaxınlaşıb Əzrayıldan soruşur ki, "bəs bu toppuz nəyinə lazımdır?". O da deyir ki, qır tiyanından çıxmaq istəyən olsa, vurur başına ki təzədən düşsün içəri. Bu zaman tiyanın o başından biri tiyandan çıxmağa başlayır. Jurnalist soruşur ki, "bəs onu niyə vurmursan?". Əzrayıl deyir ki, "xeyri yoxdur bu gürcüdür, vursam da altdan

o biri gürcülər qaldırıb çıxaracaqlar". Jurnalist görür ki, tiyanın bu biri başından da bir nəfər çıxır. Deyir:

– Bəs onu niyə toppuzlamırsan?

– O da ermənidir, ha vur, altdakı ermənilər təkan verib çıxaracaqlar, o da sonra gəlib onları çıxaracaq.

Bu zaman üçüncü bir nəfər də tiyandan cəhd edir çıxmağa. Əzrayıl day sual gözləmədən "bu da azərbaycanlıdır, ha çalışsın xeyri yoxdur, o biri azərbaycanlılar ayağından tutub çəkəcəklər aşağı" deyir.

Bu anda bir sual da yerinə düşərdi: "Görəsən dünyada neçə Dünya Azərbaycanlıları Konqresi və neçə DAK sədri var?". Ginnesin Rekordlar kitabı isə hələ də susur.

Həyatda hər bir insan o birisinə onun nail olmadığı şeyi arzulayır. Yasda səbr arzulayır, toyda "Xoşbəxt ol!" deyir. (Bu arzu da mənə hələ ki, çatmır. Belə çıxır ki, evlənmək bədbəxt olmaq deməkdir). Ağlı olmayana "Allah ağıl versin", deyir. Azərbaycanda dövlət səviyyəli bayramlar içində bir bayram var. Bu günü rəhmətlik Heydər Əliyev təsis edib: Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü. Çünki həmrəyliyin qabağında heç nə və heç kəs dayana bilməz. Nə düşmən, nə Əzrayıl, nə də ki, İctimai Televiziyada çıxış edən "ekspert"in misal çəkdiyi "Ceneral Motors"un 10 faizinin sahibi olan erməni.

Erməni mifi onsuz da dağılıb, gəlin heç bu barədə diskussiya açmayaq, hörmətli ekspertlər. Heydər Əliyevin arzuladığı kimi: 364 gün həmrəy olaq, 365-ci gün isə həmrəyliyimizi bayram edək.

QORXU, YALAN VƏ KAMERA...

Bu iki söz əvvəldən bir-birini təqib edib. Daha doğrusu, qorxu yalanı təmizə çıxarıb. Düz isə həmişə bunları bir-birindən ayırmağa çalışıb. Amma alınmayıb. Eləcə də arada qalıb. Ağız-burnunu əzişdiriblər. Qohum-əqrabasını – dəqiqi, dürüstü, təmizi – yox ediblər. Ona görə yox ki, düz pisdir. "Şirin düz" eşitmisinizmi? Amma "şirin yalan" bütün düzlərdən irəlidir: "Doktor, uşağım yaşayacaq, eləmi?

– Əlbəttə ki...

Üç saatdan sonra xəstə ölür. Həkim: "Mən qorxurdum ki, özünüzə bir xətər-zad toxundurasınız. Ona görə yalan dedim. Qorxumdan yalan dedim".

– Prokuror, oğlumun təqsiri yoxdur, elədimi?

– Əlbəttə elədir.

İki saatdan sonra uşağa ölüm hökmü oxunur. Ananın cıqqırı da çıxmır.

Prokuror: "Deməyə qorxurdum. Desəydim ki, belədir, hirslənib cıracaqdın üz-gözümü, üz-gözünü".

Düzdür, siz insanlar yalanı xoşlayırasınız, amma şirin yalanı. Eşitmək istədiyiniz oğlunuzun sağalması xəbəri idi. Onu da eşitdiniz. Eşitmək istədiyiniz oğlunuzun suçsuz olmasıydı. Onu da eşitdiniz. Bütün bunları sizə qorxudan dedilər. Siz də qəbul etdiniz. Bir şirin yuxu kimi. Ömrünüzün axırına qədər də bu yuxu sizə bəs edəcək. Sizi təqib edəcək. Kim soruşsa deyəcəksiniz ki, "uşağım ölməyəcəkdi ki, həkim də söz vermişdi, "medsestra"nın səhvi ucbatından belə oldu". Və ya "anastizioloq narkozu həddindən artıq verdi. Yoxsa həkim yüz faiz söz vermişdi bizə. Bir qəpik pul da almamışdı".

Axı ala da bilməzdi ümidsiz xərçəng xəstəsindən.

Və ya "prokuror özü öz diliylə dedi ki, balamın təqsiri yoxdur. Bunu səhvən tutublar. Ekspertiza səhv edib. Hakim əzazildir. Özü də sonsuzdur. Onda ana qanı hanı ki, məni başa düşə. Verdi balama güllələnmə. Amma prokuror insan adamdır. Açıq-aydın dedi ki, balanız suçsuzdur. Başqasının badına gedir. İşi görənlər aradan çıxıb. Özü də elə təmiz adam idi. Nə qədər təklif elədik almadı. Axı, niyə alsın. Günahı yoxdur axı, günahı olsaydı, alardı, azad edərdi də. Başı batsın sonsuz hakimin. Mənim bircə balamı aldı əlimdən.Sağ olsun prokuror, Allah onu min budaq eləsin".

Bir də var müqəddəs yalan. Görəsən belə bir sözü niyə doğruya yox, yalana yaraşdırıblar. Hətta şəninə

əsərlər də yazıblar:

Müqəddəs yalana söz demirəm mən,

Yerində, güclüdür o, həqiqətdən...

Qorxu və yalan. Bu bizi anadan olduğumuz gündən təqib edir. 1 yaşlı uşaq evin ortasına işiyir. Soruşanda ki, kim edib: qorxusundan deyir ki, nənəm. Hamı nənəyə məəttəl-məəttəl baxır. Bilirlər ki, uşaq səhv deyir. Amma "şirin yalan".

Müəllim uşağa "2" yazır. Valideyn soruşanda ki, niyə oxumursan a bala? Deyir ki, "müəllim pul istəyir ona görə, yoxsa ki, mən fənni beş barmağım kimi bilirəm". Ana savadsız uşağını tənbeh etmir. Hücum çəkir müəllimin üstünə.

Ər gecə saat 1-də evə gəlir. Arvad soruşur:

– Harada idin?

– İşdə.

– Səndən bir də soruşuram harada idin?

Ər yenə də :

– İşdə…

Nə söyləsin? Axı həqiqətən də, işdə olub. Çox yorulub. Acdır. Amma burnu iz axtaran "polis avçarkaları" kimi fıs-fıs fısıldayaraq duxi iyi axtaran, hər şey gözünə qadın saçı və ya pomada şəklində görsənən arvadına nə cavab versin ki, əl çəksin?! Axırda tapır:

– Bazlıqda!!!

Arvad qımışdı. Eşitmək istədiyini eşitmişdi. Axşam altıdan sonra onu rahat buraxmayan şübhələri, fantaziyaları öz təsdiqini tapmışdı. "Ədalət" zəfər çalmışdı. O

"qalib" gəlmişdi.

– Gic-gic danışma. Əlini yu, yemək çəkirəm. Yəqin ki, acmısan.

Arvad gülürdü. Eşitmək istədiyini eşitmişdi. Yalan olsa da belə.

Hazırda işləmirəm. Köhnə dostlardan bəziləri dəvət edir ki, gəl bizə işlə. Əl-ələ verib işləyək. Soruşuram ki, nə işləyəcəyik? Deyirlər heç nə. Sadəcə oturub ürəkdolusu söhbət edəcəyik, fikir mübadiləsi aparacağıq, ürəkdolusu. Deyirəm ki, bəs bu boyda redaksiyada, televiziyada, radioda bir adam yoxdurmu ki, danışasınız. Deyirlər ki, "yox!". Nə deyirsən tərsinə aparıb çatdırırlar müdirə, o da o biri müdirə, o da ki, o biri müdirə. Lap Mavrodinin "MMM" piramidasıdır. Sonda da tökülüb dağılır. Soruşuram ki, axı bu yalandır, niyə çatdırırlar. Cavab alıram: "Neyləsinlər? Onların da işi budur. Qorxularından çatdırırlar. Yalan deməsələr bu işdə saxlamazlar axı?!".

Balaca, bəstəboy,
Lap cantaraq çox,
Şirin, gülərüz çox,
Qaraqabaq çox,
Kifir, yaraşıqlı,
Qara çox, ağ çox,
Öküz çox, tülkü çox,
Uzunqulaq çox...
Həm ağıl dəryası,
Həm balqabaq çox...
Adam görməmişik? Vəhşiyik, nəyik?
Yaxşı adamların həsrətindəyik...

Gör mən nəyə görə qiymətə minmişəm? Nə qorxum var, nə yalanım? Daha doğrusu uşaqlarımın çörəyi nə yalandan çıxır, nə qorxudan. Bir də ki, belə adamlarda təqsir görmürəm.

Deyirlər ki, hələ bütpərəstlik dövründə 2 gənc şəhərdən kənara çıxır. Biri o birini pis yola çəkmək istəyir. O da deyir ki, olmaz Allahlar bizi qınayar. Cavabında o birisi deyir ki, nə Allah?! Allahlar qaldı şəhərdəki məbəddə. Bizi haradan görəcəklər? Beləcə günaha batırlar.

Səmavi dinlərə etiqad edəndə vəziyyət tam dəyişir. Artıq gözəgörünməz bir varlıq vardı. O hamını, hər yerdə görürdü. Cəzasını müxtəlif üsullarla verirdi. Verməyəndə də qalırdı Hinkir-Minkirin hüzuruna.

İndi isə nə Allah qorxusu qalıb, nə də yalan. Metroya minirsən – kamera. Avtobusa minirsən – kamera. Bloka girirsən – kamera. Dükana, banka girirsən – kamera. Küçəyə çıxırsan – kamera. Yola çıxırsan – kamera. Kimin haqqqında nə xəbərçilik edirsən – kamera. İmtahan verirsən – kamera. Cərrahiyyə əməlliyatı edirlər – kamera. Şagirdə sillə vurursan – kamera. Birinə daldan-qabaqdan "əl gəzdirirsən" – kamera. Sonda da polis... müstəntiq... hakim... və türmədəki kamera.

Nə Allahdan qorxu qalıb, nə də yalan danışmağa ehtiyac. Hinkirlə-Minkir də qalıb "ac".

PREZİDENT OLMAQ İSTƏYƏNLƏRƏ...

İki il bundan qabaq idi. *"Xalq qəzeti"ndə işləyirdim. Dostlarım İbrahim, Cavanşir və daha bir nəfər Kiyevə gedirdilər. Mənim də yaxşı yol yoldaşı olmağımı nəzərə alaraq, onlarla getməyi təklif etdilər. Həmən qəbul elədim. Amma, baş redaktorumuz etiraz etdi: "Mahiri aparacaqsınız, geri qayıtmayacaq, onda ailəsinə, Sevincə nə cavab verəcəksiniz?".*

Nə isə, dostlarım (əgər bundan sonra onlara dost demək mümkünsə) xəlvətcə təyyarəyə oturub getdilər. Onda Ukrayna prezident seçkiləri ərəfəsindəydi. Yanukoviç əvvəlki seçkiləri uduzmuşdu. Növbəti dəfə prezidentliyə namizəd idi.

Bayaq qeyd etdiyim kimi, yaxşı yol yoldaşıyam. Bundan əvvəl İbrahim və Cavanşirlə Tiflisdə olmuşduq.

Mənim qardaşım, bacım yoxdur. Amma səfərdə özünü yaxşı aparırsansa, yolçuların səni qardaşlığa götürürlər.

Tiflisdə olanda Rustavi prospektində hər gün mitinq idi. Bir-ikisində biz də iştirak elədik. İbrahim dedi ki, bəlkə bir yazıdan-zaddan yazasan, verək qəzetdə. Dedim ki, yox. Soruşdu ki, niyə? Dedim ki, görmürsən, ancaq öz çaxırlarını içirlər. Rus "vodka"sı istəyəndə adama əyri-əyri baxırlar. Belə çıxır ki, "vodka" çaxırdan pisdir? Belə çıxır ki, pelmeni gürcü xingalından pisdir? Dedik, gülüşdük.

İbrahim özünü yeyib-içən adam sayır. Amma günlərin bir günü sual verdim ki, ay İbrahim, niyə araq içəndə şor xiyarla "zakuska" edirlər? Bilmədi. Sual verdim ki, ay İbrahim, niyə araq içəndə badələri bir-birinə toqquşdururlar? Bilmədi. Axı, niyə toqquşdurmağın, xiyar yeməyin mənasını bilmir, amma bunları edir? Bəlkə pis şeydir?

İzah etdim. Dedim ki, İbrahim, rusların "vodka"sını içəndən sonra bədəndə katalizator rolunu oynayır. Qan dövranı yaxşılaşır, böyrək iki dəfə yaxşı işləməyə başlayır, əhval-ruhiyyə artır. Dostların, düşmənlərin yadına düşür. Gözlərində göz yaşları yaranır. Səmimi olursan. Ürəyinə gələn dilinə gəlir. Hətta dahi, prezident olursan. Nazirləri işdən çıxarıb, dostlarını vəzifəyə qoyursan. Arvaddan qorxansansa, arvadı döyürsən. Polis yaxınlaşanda paqonunu cırıb əlinə verirsən. Tualetdə olsan belə, iy bilmirsən. Hər şeyi unutdurur sənə bu rus "vodka"sı. Amma bilirsənmi arağı niyə duzlu xiyarla "zakuska" edirlər? Çünki araq həm də bədəndən duzları qovur. Duzlu xiyar balansı bərpa edir. Araq bu qədər

ruhi təsir edirsə də, təkcə xiyar yalnız müalicəvi təsir göstərərək, duzun bərpasına kömək edir.

O ki, qaldı toqquşdurmağa... o bizə araqdan yox, çaxırdan miras qalıb. Keçmişdə şərabı taxta stəkanlarda verirdilər, toqquşdururdular, özü də zərblə. Bir-birini zəhərləmək üçün də məhz çaxırdan istifadə edirdilər. İçən qarşısındakının onun düşməni olub-olmamasını bilmək üçün, yaxud da qonaq eləyən dostunun ondan şübhələnməməsi üçün şərabı ləb-a-ləb doldururdu. Toqquşduranda isə şərab bir stəkandan o birisinə qarışırdı. Yəni ki, ay dost, piyalələrdə zəhər yoxdur. Amma, şərab "vodka" deyil. Birbaşa qaraciyərə təsir edir, serroz yaradır.

Bu gürcülər isə şərabı bizə buynuzlarda verirdilər.

Xalq yazıçısı Mirzə İbrahimovun başına gəldiklərini bilirsiniz də: Mirzə müəllim içən deyilmiş. Günlərin bir günü Gürcüstanda diplomat kimi qonaq olur. Adət olaraq buynuzu doldurub təqdim edirlər Mirzə müəllimə. O da "rumka" deyil ki, altı olsun, nəzakət, diplomatik etiket naminə dilinə vurub qoysun yerə. Məcbur olub axıracan içib şərabı. Bir dəfə də Fransada qurbağa budunu bu cür həzm etmişdi.

İndi biz də buynuzlarda məcbur olub içirdik şərabı. Araq istəyəndə isə əyri-əyri baxırdılar üzümüzə.

Nə isə... İbrahim və Cavanşir məni Ukraynaya aparmadılar. Müdirimin sözüylə. Amma Gürcüstana gedəndə o, etiraz etməmişdi. Özləri isə getdilər. Gəzdilər, dolandılar, qayıtdılar. Soruşdum ki, İbrahim, necə oldu səfəriniz?

Cavabını eşidər-eşitməz bir şeyi xatırladım. Az.TV-də işləyəndə Şeyxülislam həzrətlərini Dağıstan səfərində kameramla müşayiət edirdim. Səfər 3 gün çəkdi. Qayıdanda baş redaktorun müavini Mülatif Adurov soruşdu ki, "necə oldu?" Dedim ki, Mülatif müəllim, Kaspidə – mehmanxanada gözəl səhər yeməyi verirdilər. Blinçik, aladi, qaymaq, bal, pendir.

Mülatif müəllimsə gülümsəyərək dedi: "Yəni, Mahir, sənin o boyda Dərbənd səfərindən bir dənə pendir yadında qaldı?"

İndi mən də İbrahimdən təəssüratlarını soruşanda dedi:

"Mahir, ukrainlər çox qəribə millətdirlər e... Rus "vodka"sı içirlər, üstündən Amerika "Coca-Cola"sı ilə "zakuska" edirlər".

Üstündən az bir müddət keçdi... Beş il əvvəl prezident olmaq istəyən Yanukoviç seçkilərdə qalib gələ bilməmişdi. Çünki qanunlara əsasən rus "vodka"sı içib şor xiyarla "zakuska" edirdi. Beş il müddətində isə çox şeylər ona əyan oldu. Artıq rus "vodka"sı içib amerikan "Coca-Cola"sı ilə "zakuska" etməyin vacibliyini anladı. Və Yanukoviç prezident seçkilərində qalib gəldi.

Saakaşvili isə indi də rus "vodka"sına barmaqarası baxır. Buynuza doldurulmuş çaxıra və Amerika "Coca-Cola"sına üstünlük verir. Çaxırla "Coca-Cola" heç uyuşmur. Necə ki, Saakaşvili prezidentdir, partiyası isə müxalifətdə…

DAŞBAŞ – BAŞ VƏ DAŞ

MÜƏLLİM

Qıza elçi gəlir. Birinci sual bu olur: "Oğlan nə işin yiyəsidir?" Deyirlər ki, müəllimdir. Üz-göz turşuyur. Deməli maaşa baxır? Bir az da fərasətli olsa repititorluq edəcək? Təmiz adını qoruyacaq? Rüşvət almayacaq? Alsa da müəllimə bu zəmanədə pul verən kimdir ki... Ən uzağı, ən uzağı süpürgəpulu, ya da testpulu. Onu da televizorda gündə üç dəfə deyəcəklər. Yatanda da yuxusunda hey sayıqlayacaq: "Təkrar elə, təkrar elə". Qızın da canı çıxacaq. Yox! Qızı vermirik! Müəllimdir.

HƏKİM

Qıza elçi gəlir. Birinci sual bu olur: "Oğlan nə işin yiyəsidir?" Deyirlər ki, həkimdir. Qızın valideynləri,

əmisi, dayısı qımışır:

– Nə həkimidir?

– Can həkimi.

Qanları qaralır. Deməli təzyiq, hərarət ölçəcək. Antibiotikdən, raunatindən-zaddan yazacaq. Bir də sidik-qan analizinə baxacaq. Artıq zəmanə dəyişib – bunları hamı bacarır. Can həkimi. Yox bir mal həkimi. Heç olmasa cərrahdan, ginekoloqdan olsaydı, dərd yarıydı. Yatanda da yuxusunda hey sayıqlayacaq: "Strelizə elə, sterilizə elə" Qızın da dərisi açılacaq. Yox! Qızı vermirik. Həkimdir, özü də "lüt"ündən.

QULLUQÇU

Qıza elçi gəlir. Birinci sual bu olur: "Oğlan nə işin yiyəsidir?" Deyirlər ki, qulluqçudur. Üz-göz turşuyur. Elçilər tezcə səhvlərini düzəldirlər. O qulluqçudan yox e, idarədə işləyir, dövlət qulluqçusu. Nə olsun maaşı azdır. Paketi var. Amma gələcəyi də var da... Bir də gördünüz ki, televizorda sərəncamını oxuyurlar. Bütün nəsil fəxr edəcək onunla. Sakit adamdır. Səhər gedir, axşam gəlir – müdirin "kəbinsiz arvadı"dır.

– Yox, razı deyilik. Yuxuda da hey sayıqlayacaq: "Yorulmuşam, ölürəm, heyim yoxdur". Qızımız da ürəyində çəkib qocalacaq. Hərdən "qatıqlayıb" katibəsinin adını da çəkəcək. Yox! Qızı vermirik. Nə olsun vəzifəsi var, zirehi var...

BAŞ VƏ DAŞ

Qıza elçi gəlir. Birinci sual bu olur: "Oğlan nə işin yiyəsidir?" Deyirlər ki, həm başı var, həm daşı. Lazım olanda başın işlədir, lazım olanda da daşı. Başını saxlamaq üçün bəzən daşı başqalarının başına da vurur. Necə deyərlər tədbirli, uzaqgörən adamdır. Bu gün nəslimizin fəxridir. Gələcəyi indidən məlumdur.

– Deməli, daşbaşı var?! Qızımıza yaxşı baxacaq. Lap əla! Allah xeyir versin!

– Yox, yox! Siz nə danışırsınız? Daşbaş yox! Baş və daş.

Valideynlər çaşıb qalırlar ki, bu elçilər nə danışır? Baş nədir, daş nədir? Elçilər də onların duruxduqlarını görüb başlayırlar izaha:

– Bax, daşbaş nədir – izah edirik: Keçmiş zamanlarda nə elektron tərəzilər vardı, nə də qapanlar. Malı və daşı qoymaq üçün həsirdən hörülmüş tərəzilər idi. İki həsir də ipdən asılı vəziyyətdə olurdu. Tərəzinin ortasında isə başlıq. O başlıq da baqqalların əlində olurdu. Satıcılar alıcıları iki cür aldadırdılar. Ağlı olmayanlar aldatmaq üçün tərəzinin başını öz xeyirlərinə tərəf əyirdilər. Bu da o saat gözə girirdi. Alıcılar da baqqalı salırdılar təpiklərinin altına. Daşlarını da əlindən alıb çırpırdılar başına. Şəhərdən də qovurdular. Bir az ağıllıları isə daşın içini oyub mum təpirdilər. Daşın xarici eyni qalırdı, kütləsi isə qismən də olsa azalırdı. Əsas da odur ki, tərəzinin satıcının əlindəki başı həmişə düpbədüz dururdu. Amma dəxli yoxdur. O da aldadırdı. Əvvəl-axır da üstü açılırdı. Ona görə də aldadıb qazanmağın ikinci adı xalq

arasında belə qalıb – DAŞBAŞ. Bizim oğlanın da əlində tərəzi var. Amma mizan tərəzi.

– Hə, hə anladıq. Səhərdən bədii danışırsınız, biz də başa düşmürük. Femidanın əlindəki tərəzini deyirsiz də, hə. Ədalət ilahəsi Femida. Deməli, adayımız çox böyük adamdır ki...

– Yox! O Femida dediyinizin gözləri bağlıdır, belə deyək də, kordur. Bir əlində mizan-tərəzidirsə, o biri əlində də qılıncdır. Bədii yox, açıq deyəcəyəm ki, aydın olsun.

Bizim oğlan çox ağıllıdır. Gözləri də açıqdır. Tərəzisində özünün formalaşdırdığı daşlardır. Tərəzisi də elektron dəqiqliyiylə mizanda. O biri əli isə həmişə cibindədir. Cibindəkilər isə puldur. Çox puldur. İndiki zəmanədə isə pul olan yerdə qılınca ehtiyac yoxdur. Pulun çoxdursa başının məsləhət bilib daş qoyduğu yerə hamı baş qoyur. Bu oğlan dostlarına, yoldaşlarına, qohumlarına, onun qədrini bilənlərə, ona kömək edənlərə mehribandır – çörək verir. Düşmənləri üstünə hürəndə ağızlarını pulla bağlayır. Bilir ki, yemək iyinə gəliblər. Atır sümüyü qabağına, o saat zingildiyib susurlar. Ayağını qucaqlayırlar. Quyruqlarını bulayırlar. Başa düşməyənlər də olur... Daşı çox ağır olduğundan düşür onu gözügötürməyənlərin başına. Ha deyir ki, bəsdirin mənim daşlarımı sayıb başımı ağrıtdınız. Tərəzimin mizanını pozmağa çalışmayın. Başa düşmürlər. Onda da məcbur qalıb tərəzinin gözündəki ən ağır daşlardan birini götürüb çırpır daşı başına düşənin başına. Elə çırpır ki, o adam daşbaş olmur, çıxdaş olur.

Qohumları da çıxdaşa hey deyirlər ki, işin-gücün qurtarmışdı? Bizi də bəlaya saldın. Başına özün boyda daş düşsün, bu cür oğlanın da bostanına daş atarlar? Bax, daşı başına elə vurdu ki, kül oldu. Külbaş, ürəyin partlayıb öləcəksən. Aparıb basdıracaqlar. Sonra nə olacaq? Pərən-pərən düşən uşaqların da gətirib baş tərəfinə bir dənə qara başdaşı qoyacaqlar. Xorla deyəcəklər: Daş başına. Vəssalam.

İndi bildiniz ki, bizim oğlan, necə oğlandır? Adayınız necə fərasətlidir? Dostuna dostdur, düşməninə düşmən. İndi bildiniz daş nədir, baş nə? Gəlin siz də, nəsliniz də bizim oğlanın daş qoyduğu yerə baş qoyun. Bizimlə həmrəy, həmfikir olun. Ortaya şirinçay, şirinlik gətirin. Qohum azdır e... dost olun, qardaş olun. Uduzmazsınız.

– Nə deyirik ki... Allah xeyir versin. Adayımızın başına da qurban, daşına da.

"YERAZ" ABBASƏLİNİN TƏƏSSÜFÜ, "YERAZ" İBRAHİMİN ARZUSU...

***1988**-ci ilin yay ayları idi.* *Yardımlıda idik. Nənəmgildə. Atam, anam, mən, xalam Raisə, xalamın əri Abbasəli, oğlu Anar... Şəhərin səs-küyündən uzaq, şəlaləli, bulaqlı, meşəlik bir mühitdə... Darıxmırdıq. Anam üçün anası, atası, bacısı, mənim üçün Anar, atam üçünsə həmpiyalə bacanaq Abbasəli. Qarşıda isə 2 aylıq bir yay tətili...*

Günlərin bir günü Abbasəli dedi ki, "ay Qabil, sabah gedəcəyəm şəhərə, xalaoğlu Gülmalı ilə gedəcəyik Vətənə – Dərələyəzə (Ermənistan SSR-ə). Uşaqlığımızı yada salacağıq, qohumlarla görüşəcəyik. Bulaqlardan su içəcəyik".

Bu sözləri dedikcə Abbasəlinin gözləri parıldayırdı, işıq saçırdı. Bilirdi ki, bu gün Yardımlı bulağından su içən Abbasəli, sabah bu vaxt Dərələyəzdə olacaq. Uşaqlıq dostlarıyla birlikdə. Qəbrüstünə gedəcəklər, odun

daşıyıb tonqal qalayacaqlar. Toğlu kəsib kabab bişirəcəklər.

"Kimiydik. Adi, yetim kənd uşağı. İndi isə polkovnikik, prokuroruruq, idarə rəisiyik" deyərək qoyun otaran balacalara özlərini örnək də göstərəcəklər.

Üstündən iki gün keçdi. Abbasəli Dərələyəzə getmədi. Atam səbəbini soruşanda "Qabil, nə isə Gülmalının işi çıxdı, gedə bilmədik", dedi. Atam sevindi. Abbasəli getsəydi darıxacaqdı axı...

Yay tətilini başa vurduq. Hamıya məlum, əslində məchul hadisələr başlandı. Növbəti yay yenə də Yardımlıdaydıq. 1989-cu il idi. Abbasəli qəmgin idi. Dərələyəz yenə də Yardımlıdan cəmi-cümlətanı bir addımlıqda idi. Gülmalı da vəzifədən çıxmışdı. Boş idi. Amma o yerlərə havalanmaq ümidi boşa çıxmışdı. Ara qarışmışdı. Yenə ümid var idi. Bəlkə gələn il... Amma simalarda ümiddən daha çox sual var idi. Keçənilki ümid real idi, builki ümid isə sual. Bütün bunların isə bir cavabı vardı: Təəssüf. Abbasəli bir də Dərələyəzi görməyəcəkdi. Dəfələrlə məzuniyyətə çıxacaqdı. Görməyəcəkdi. Sərhəd Qoşunlarının baş komandanı olacaqdı. Görməyəcəkdi. General-mayor olacaqdı. Görməyəcəkdi. Gülmalı öləcəkdi. Görməyəcəkdi. "Eks" olacaqdı. Görməyəcəkdi. Bütün bu illərdə onu bir təəssüf boğacaqdı. Allah Gülmalının evini tiksin. Heç olmasa, axırıncı dəfə o yerləri görəcəkdik... Üç nöqtə qoyub, köks ötürəcəkdi...

Amma, çifayda...

İbrahim də Ermənistan SSR-də doğulub. Babası el ağsaqqalı olub. Atası da "Myaskombinat"ın direktoru.

Kef çəkib. Toyuqları o qədər yumurtlayıb ki, top yerinə yumurtayla basketbol oynayıb. Evləri həmişə qonaqlı-qaralı olub. Evin qızları qızlar bulağından, İbrahim isə kişilər məclisindən su içib. Ta o vaxtacan ki, məlum, amma məchul hadisələr başlanıb. Bakıya köçüblər. Suraxanıda bir ev alıb sığınıblar. Hər şeyləri olub. Bircə Vətəndən yetim olublar.

İlk günlər siyasi liderləri maksimum, minimum proqramlardan bəhs ediblər. Fikirləşiblər ki, yəqin düzdür, tezliklə Vətənə qayıdacaqlar. Sonra isə siyasi qüvvəyə çevriliblər. Seçkilərdə qalib də gəliblər. Hər şey əldə ediblər. Vətənlərindən başqa. Sonra İbrahim məktəbi bitirib. İnstituta girib. İşə düzəlib. Vətənə can atıb. Deyib ki, "gedəcəm Vətənə, "Siyəzən-broyler"in yumurtalarından aparıb, basketbol oynayacağam. Uşaqlığımı yada salacağam. Mənə kişilik məktəbi keçən, adını daşıdığım babamın məzarını ziyarət edəcəyəm. Ağlayacağam, kövrələcəyəm, sevinəcəyəm. Qonşu erməninin pəncərəsinə daş atacağam. Haykanuşa göz eləyəcəyəm. Ona "Bahadır və Sona" nağılı oxuyacağam. Göyçə gölündən farel balığı tutacağam. Gölün suyunda soyutma bişirəcəyəm. Bakıdan gətirdiyim araqdan babamın ruhuna yüz-yüz vuracağam da".

"İbrahim, İbrahim, ayıl, ayıl. Yaman fikrə getmisən. Sənin lə deyiləm?". Müdiri Həsən müəllimdir. Eloğludur. Göyçədəndir. İkisi də kompyuterin qabağındadır. Ququlda ("Google") kəndlərinin kosmosdan çəkilən görüntülərinə baxırlar.

"Bura bizim məktəbdir. 4 mərtəbəli. Bura isə kəndin o biri başındakı məktəbdir. 3 mərtəbəli. Bura çay. Bura

bulaq. Bura Mayıf Qasımın evi. Bura isə kolxoz sədrinin evi. Bura çəmən, bura orman. Ora isə tala. Obamız, elimiz. Uşaqlığımız, gəncliyimiz, ilk məhəbbətimiz...”

NƏSİR İMANQULİYEVİN YETİRMƏSİ – BİZİM MÜLATİF MÜƏLLİM

Yaradıcı aləmdə, jurnalistikada imza əsas sayılır. Əlbəttə ki, burada söhbət hər hansı bir ərizəyə, sənədə atılan imzadan getmir. Öz imzasını təsdiq elətdirmək isə hər yaradıcı adama qismət olmur. "Adurov" imzasını mən sovet dövrünün ən nüfuzlu qəzetlərindən sayılan "Bakı" qəzetindən tanımışam. Jurnalistikamızın nüfuzlu simalarından sayılan Nəsir İmanquliyevin rəhbərlik etdiyi bu qəzetdə ara-sıra atamın da yazıları çıxırdı. Felyetonlar, hüquq-mühafizə orqanlarının açdığı cinayətlərdən yazılan məqalələr, futbol icmalları və televiziya proqramı məni bu qəzetə çox bağlamışdı. Lakin bu insanların yazdıqlarını oxusam da, gələcəkdə onların bir çoxu ilə iş yoldaşı olacağımı, ümumiyyətlə, jurnalist olacağımı ağlıma belə, gətirmirdim. Elm yolu ilə getmək istəyirdim.

Lenin babamızın bir sözünü hər addımbaşı bizə xatırladırdılar: "Oxumaq, oxumaq, yenə də oxumaq". Bu kəlamı rus dilindən hansı savadsız tərcümə etmişdi, bilmirəm. Lakin televiziyaya, sonra isə "Xalq qəzeti"nə gəldikdən sonra başa düşdüm ki, Lenin "öyrənmək, öyrənmək, yenə də öyrənmək" deyibmiş.

Televiziyada da öyrənmək üçün bu baza var idi. Sədr Nizami Xudiyev, baş redaktor Həsən Həsənov, müavin Mülatif Adurov, İsmayıl Ömərov, Nahid Hacızadə, Mailə Muradxanlı, Qulu Məhərrəmli, Məmmədəli Zülfüqarov, Yusif Məmmədov, Sakit Ocaqlı, Akif Məcidoğlu, Telli Pənahqızı, Firuzə Nadir, Roza Tağıyeva, Sabir Ələsgərov, diktor, rejissor, operator və texniki heyət... Lap indiki sədr Arif Alışanov da, rəhmətlik Vaqif Ağayev də insani keyfiyyətləri daha dərindən anlamaq üçün böyük məktəb sayılırdı. Əsas isə o idi ki, bu və adını çəkmədiyim yüzlərlə sənət fədaisi öyrətməyə hazır idilər. Hərəsinin isə öz üslubu, öz xasiyyəti, öz ziddiyyəti. Sadəcə olaraq hərəsindən bir xüsusiyyət götürsəydin, bəs idi. İstər müsbət, istər mənfi. (Götürdüm də...). Çünki onlar da məşhur şəxsiyyətlərlə bir yerdə çox olmuşdular. Yüksək cəmiyyətdə bişmişdilər. Üstəlik, öyrənənin qabında da bir şey olsaydı dərhal onların sevimlisinə çevrilirdi.

Jurnalist kimi yetişməyimdə Mülatif müəllimin də zəhməti az deyil. 72 yaşlı Mülatif Adurov 52 ildir ki, jurnalistika aləmindədir. 1966-cı ildən "Bakı" qəzetinə rəsmi olaraq müxbir vəzifəsinə işə götürüləndən sonra həyatının 13 ilini bu qəzetə, əbədi isə Azərbaycan Televiziyası və Radiosuna bağlayıb. "Qızıl qələm" mükafatına və Azərbaycan Respublikası Prezidentinin fərdi

təqaüdünə layiq görülüb. Bu onun əməyinə verilən qiymətdir.

"Səhər görüşləri", "Dalğa" verilişləri, xarici dildə verilişlər, ictimai-siyasi proqramlar və nəhayət "Xəbərlər" proqramı – əvvəl baş redaktorun müavini, sonra isə "Xəbərlər" departamentinin sədri. Özü də ki, Azərbaycan dövlətçiliyinin təşəkkül tapdığı, ictimai-siyasi proseslərin qaynar bir vaxtında. 1996-2007-ci illərdə jurnalistlərin böyük dostu və himayəçisi olan, adi bir sözə belə həssaslıqla yanaşan Heydər Əliyevin hakimiyyəti, sonralar isə Prezident İlham Əliyevin inkişaf strategiyasının təşəkkülü dövründə... Seçkilər, mitinqlər, xarici görüşlər, Dövlət proqramları, fərman və sərəncamlar...

"Xəbərlər" proqramı demək olar ki, efiri yaxşı mənada zəbt etmişdi. Bir saat gündəlik efir vaxtının əvəzinə hər gün 8-9 saat "Xəbərlər" və "Xüsusi buraxılış"-lar yayımlanırdı. Müxbirlərin çəkilişlərə görə seçilməsi (hərənin öz sahəsi vardı), vaxtında yerlərə çatdırılması, tapşırıqların vaxtında yerinə yetirilməsi və digər işlərin görülməsi. Bu işdə təkcə jurnalistlik, yazı-pozu əsas rol oynamırdı. Baş redaktorumuz Həsən müəllim və Mülatif Adurov bir harmoniyada bu işlərin öhdəsindən layiqincə gəlirdilər. Qiymətimiz isə rəhbərliyin işimizdə heç bir səhv tutmaması idi. Təsadüfi deyildi ki, "Xəbərlər"i o dövrdə "Prezidentin proqramı" adlandırırdılar. Reytinqinə görə də bütün televiziya və proqramları üstələyirdi.

Mülatif müəllim işçiləri qiymətləndirirdi, özünəməxsus şəkildə yoxlayırdı, dəyərləndirirdi. Bəməzə zarafatları da var idi.

Günlərin bir günü gəldim ki, bəs icazə ver qurban kəsməliyik, mən gedim. Nə "hə" dedi, nə də "yox". Stolun üstündən bir balaca kağız parçası götürdü. Nəsə yazdı, bükdü, verdi mənə. Dedi ki, get. Dedim bəs bu nədir?. Dedi ki, "ev ünvanımdır. Qurban kəsəndən sonra qapı-qapı gəzib yetim-yesir axtaracaqsan e..., pay verəsən? Yetim elə mən. Nə atam var, nə anam".

Bir oğlu, bir qızı var. Oğlunun adı Zaurdur. Subay oğlandır. Soruşanda ki, "Mülatif müəllim, Zauru nə vaxt evləndirirsən?" O saat cavab verir ki, "ayın 4-də". Onda başlayırdıq ki, "ay Allah xeyir versin. Xoşbəxt olsun. Oğullu-uşaqlı olsun. Dəvət eləsən məmnuniyyətlə iştirak edərik. Hansı şadlıq evindədir toy?". Amma bu isti sözlərdən sonra sanki bir vedrə soyuq suyu tökürdü başımızdan. "Mən dedim ki, ayın 4-ü. Demədim ki, hansı ayın 4-ü".

Özünəməxsus redaktələri də var idi. Elə edirdi ki, yaddaşına birdəfəlik həkk olunurdu. Bir iş yoldaşımız vardı – Azad Müzəffərli. Mülatif müəllimə çox da simpatiyası yox idi. Amma həmişə çalışırdı ki, yazısı efirə getməmişdən qabaq Mülatif müəllim oxusun. Soruşanda ki, "Azad, bəs nə əcəb yazını Mülatif müəllimə oxutdurursan. Səndən çıxmayan iş?" Deyirdi ki, "Mahir, sən bunu bilməzsən. Əgər yazıda xırda bir səhv olsa belə, Mulyanın (Mülatif müəllim, səni çox istədiyimizdən belə əzizləyirdik. İndi də) nəzərindən qaçmayacaq. Nəsə olsa, tapıb çıxaracaq. Yaxşı olsa, bir kəlməsinə də əl dəyməyəcək".

Günortalar evə – nahara gedəndə deyirdim ki, "yemək yeməyə gedirsən?" Od götürürdü də onu. "Denən ki,

yeməyə gedirsən? "Yemək yeməyə" nə deməkdir axı? İnsan yemək yeyər də, pox yeməz ki?!". Bunun özü də bir redaktə dərsiydi.

Bir də görürdün əsəbiləşirdi. Qışqırırdı üstümüzə. Şəkəri qalxırdı. Lakin kin saxlamırdı. Yarım saatdan sonra həmin adamın könlünü alırdı.

– Bayaq xətrinə dəydim deyəsən.

Bu sözdən sonra adamın qırışığı açılırdı. Elə bilirdin ki, nəsə bir xoş söz deyəcək. Deyirdin:

– Hə.

Gülümsəyərək:

– Əcəb elədim.

Özünəməxsus könül almaq qabiliyyəti idi. İncə yumor. Bundan sonra Mülatif müəllimdən necə küsmək olardı?

Yalan danışan gözünün düşməni idi. Bir-iki dəfə məni də yoxlamadan keçirmişdi. Özüm də bilmədən üzüağ çıxmışdım. Heyf ki, "Xəbərlər"in daxili mətbəxinə aiddir. Sağlıq olsun, 50 ildən sonra açıqlayaram.

Ailəsini çox sevir. Dostlarını yaddan çıxartmır. Hər ay 3-4 dəfə zəng çalır, hal-əhval tutur. Lap xəcalət verir. Axı 26 yaş ondan kiçiyəm. Özüm "cavanam" yazmadım. Çünki insanın ruhu cavan olanda, yaş elə də böyük rol oynamır. Özü də ki, 72 nə yaşdır – yeyib-içən, sözü üzə deyən, mənim kimi cavanlarla ünsiyyət quran, balaca nəvələriylə nəfəs alan bir insan üçün.

İki ildir ki, Mülatif müəllimdən incik gəzirəm. Bilmirəm sezib, ya yox!

"Prezident təqaüdü"nə layiq görüləndə hamımızı başına yığıb restoranda qonaqlıq vermişdi. 2 ildir ki, 70 yaşını haqlayıb, amma biz köhnə "Xəbərlər"çiləri yaddan çıxarıb. Mülatif müəllimə şair Fikrət Sadığın bir kəlamını xatırladacağam. Yəqin ki, "yubiley" sözünün mənasını yaddan çıxarıb. Arif adamdır, o saat başa düşəcək:

Mülatif müəllim, "Yubiley, yəni ki, yu biley".

P.S. *Mülatif müəllim, yazını oxuyub qurtarandan sonra bilirəm ki, əsəbiləşəcəksən. İstəyəcəksən ki, əlinə qırmızı yazan qələm alıb düşəsən üstümə – "Mahir, bir yazıda da bu qədər redaktə səhvi olar?" deyərək. Amma gecdir, Mülatif müəllim. Artıq "efirdədir". Səhvlərimi üzrlü qəbul et. Çünki ürəkdən gəlib.*

QUL+LUQ+ÇU

Mənim adım Mahirdir. *1966-cı ildə doğulmuşam. 47 ildir ki, bu adı daşıyıram. Atam-anam qoyub mənə bu adı. Artıq onlar bu dünyada yoxdurlar. Dəyişmək istəyirəm adımı. Bilmirəm Kəbinqulu qoyum, yoxsa ki, Allahqulu. Görəsən hansı milli, hansı müasir səslənir? Qızlarımın da adını atam qoyub. Biri nənəmin, o biri də anamın adını daşıyır. Onların da adını dəyişsəm yaxşı olar. Axı atam artıq ölüb?! Deyəcəksiniz ki, ay Mahir, başın xarab olub? Ad adama bir dəfə qoyulur. Ad taledir, ad koddur, Doğum və Ölüm şəhadətnamələridir. Ad qoyan ölən kimi həmən adı dəyişərlər? Amma nədənsə adımı dəyişməyim gəlir. Belə çıxır ki, mən bu addımı atsam məni qınayacaqsınız? Axı bir nəfərin adının dəyişməyi çox şeyi dəyişmir. Axı, Azərbaycanda qı-*

nanılası çox şey var. Heç Əkrəm Əylisli də qınanılası bir sima deyildi. Çünki o da fərd idi. Tək idi. Əgər belə qınamaq istəyirsinizsə, gəlin sizə nə qədər istəyirsiniz ünvan verim.

XXI ƏSR

Məni qınamaq istəyənlər, sizə cavabı içində olan suallarım var. O hansı xalqdır ki, 20-ci əsrdə ona rəsmi olaraq tatar, türk, azərbaycanlı deyiblər? O hansı xalqdır ki, bir əsrdə rəsmi olaraq tatar, türk, Azərbaycan dillərində yazıb-danışıb? O hansı xalqdır ki, 100 illik bir dövrdə fars, latın, kiril, yenidən latın əlifbasında yazmağa başlayıb? O hansı xalqdır ki, 20 dəfə dövlət bayrağının siması dəyişib? Familiyası zadədən ov-yevə, ov-yevdən yenidən 5-6 cür sonluğa keçib? Küçələrinin, meydanlarının, mədəniyyət saraylarının, rayonlarının, kəndlərinin adları, möhürü cilddən-cildə keçib? Bakı studiyası, Televiziya və radio verilişləri komitəsi, sonra dövlət şirkəti, daha sonra isə qapalı səhmdar cəmiyyət olan AzTV-ni daha hansı adlar gözləyir? Mərkəzi – Milli, Milli – Mərkəzi. Görəsən bununla bankımızda hansı dəyişikliklər oldu. Əlbəttə ki, heç bir. Xalqımız elə həmin böyük xalqdır, dilimiz elə həmin qədim, zəngin dildir, əlifba isə texniki bir vasitə.

"Yan"la bitən familiyanı eşidəndə bu ermənidir deyirik. Yumşaq yerimizi göstərərək "yanlar" deyib, gülürük də. "Dze", "şvili" görəndə gürcüləri tanıyırıq. Bəs görəsən, azərbaycanlıları hansı sonluqla tanıyıblar və

tanıyacaqlar? Hər şey dəyişib. Daha doğrusu dəyişməyib, dəyişdirilib. Biri ad qoyub. Sonra ölüb. Yerinə başqa bir başbilən gəlib. Əvvəlkini inkar edib. O da dəyişdirib. Beləcə özləri dəyişdikcə bu xalqın nə adı var, dəyişiblər. Müstəqillik illərində türklər demişkən, kəndinə qayıdış kimi müsbət tendensiyalar da olub. Amma bu ağ nöqtələr qara parçadakı kimi heç də gözə görünmür. Zaman-zaman bu cür adqoymaları həm də inkişafın göstəricisi kimi də qiymətləndiriblər. Axı Rusiya imperiyası çökdükdən sonra demokratlar hakimiyyətə gəlib. Onlardan sonra kommunistlər. Daha sonra yenidənqurmaçılar. Sonra keçmiş kommunistlər. Sonra cəbhəçilər. Və ən nəhayət ...

Hamısı da yeni ad islahatlarıyla. Deyəcəksiniz ki, söhbət fərdlərdən yox, müxtəlif hakimiyyətlərin dövründə xalqımıza göstərilən təzyiqlərdən gedir. Bəs onda beş addımlığımızda yaşayan erməni, gürcülərə niyə belə təzyiqlər edilməyib? Onlar müstəmləkə əsarətində olmayıblarmı? Soyadlarında xan, bəy, imam, Allah sözləri olan, lı-li, zadə sonluqlu Bəxtiyar Vahabzadə, Sabir Rüstəmxanlı, Artur Rasizadə, İbrahimbəyov, Məmmədxanlılar kimi neçə-neçə ədəbi, siyasi xadimimiz sovet vaxtında şöhrət qazanmayıblarmı? Məhsəti türkləri öz adlarını saxladıqları halda biz bunu niyə bacarmamışıq? Görəsən hansısa gəncəli sovet dövründə özünə kirovabadlı deyibmi? Əsla. Deməli bu təzyiq söhbəti deyil.

Görəsən ad dəyişmələri nəvaxtsa başa çatacaqmı? Orta məktəb, orta ümumtəhsil məktəb, tam orta məktəb, lisey, nəhayətdə, sözün əsl mənasında mükəmməl təhsil verən, vahid dərslikli, 10-15 şagirdlik sinif otağın-

dan ibarət məktəbə nə vaxt çevriləcək? DK, DŞ, QSC nəhayətdə AzTV olacaqmı? Fərqi yoxdur Mərkəzi ya Milli – bankımız manatın məzənnəsini süni yox, təbii şəkildə qoruya biləcəkmi?

Suallar çoxdur. Bu sualları doğuranlar isə məmurlardır. Bir sorğu keçirək. Məmurlarımız savadlı yazmaq üçün lüğət, izahlı lüğət, tərcümə lüğəti kitabları almağa üstünlük verirlər, yoxsa yaxşı saymaq üçün kalkulyatora? Axı qınaq obyekti mənim kimi tək-tük özünün adını dəyişmək istəyən yeganə, nadir ekzemplyarlar yox, onlar olmalıdırlar. İstər indiki, istərsə də 100 il bundan əvvəlki.

Bu yaxında babamın pasportu əlimə keçdi. 1937-ci ildə – sürgündən əvvəl alıbmış. Orda onun milliyyəti türkdür. Burdan bir sual doğur. Görəsən 1937-ci ildə atası türk olan Qabil və onun kimi milyonlarla Qabillər sonradan azərbaycanlıya necə çevriliblər? Səməd Vurğundan Stalinə salam göndərən "çadrasız, boyasız türk qızları" hansı sehrli çubuğun işarəsindən sonra "şərq qızları" ilə əvəz olunublar? Əlbəttə ki, bütün bunlar xalqın iradəsiylə yox, bir-iki adamın, məmurların əmriylə baş tutub.

Amma nədənsə onları qınamaq istəməzsiniz. Çünki artıq azərbaycanlı olan böyük bir nəsil yaranıb. Onu yaralamağa isə heç kim cürət eləməz.

İkincisi də ki, buna heç lüzum da yoxdur. Çünki şəxsiyyət vəsiqəsində də, milli pasportumuzda da bu bənd çoxdan çıxarılıb. Türk ol, azərbaycanlı ol fərqi yoxdur – heç yerə yazılmır. Təkcə arxivlərdə qalan anketlərdən

və dükan, bazar, marşrut, kabinetlərdə eşitdiyimiz "haralısan?" dialoqundan başqa . Şair Qabil demişkən:

Mən də türkəm – öz-özümə qurban olum mən,

Ancaq xeyli fərqlənir də bu türk, o türkdən...

Amma mənim adımın dəyişdirilib Kəbinqulu və ya Allahqulu olması hökmən ictimailəşdiriləcək. Sensasiya. Hay-küy. "Şair Qabilin oğlu çönüb Allahqulu olub? Danq. Hansı xalq şairinin oğlu adını dəyişdi? Danq".

Və sairə, ilaxır.

Çox maraqlıdır. Bəs görəsən dilimizin, millətimizin, əlifbamızın, daha nəyimizin, kimliyimizin adı dəyişəndə niyə bu "danq"lar eşidilmədi? Eşidildi– 1937-ci ildə "KQB"nin "podvalları"nda, sürgünlərdə. Amma o "danq" bu "danq"dan deyildi. Deməli hələ də daş yuxulardayıq. O ki qaldı bu adları dəyişənlərə... bu adqoymada onlardan çox uduzan olmadı.. Nə vaxt? Əlbəttə ki, özlərinə ad qoyanda.

Gül kimi "məmur", "dövlət məmuru" sözü var. Gözəl, təmtəraqlı səslənir. Rus demişkən "zvuçit". Bu sözdən imtina edib oldular qulluqçu – dövlət qulluqçusu. Adqoymada sözün fərqinə, mənasına, kökünə də varmadılar. Nə bir alim, nə də dilçi dəvət edib məsləhət aldılar. Bilmədilər ki, qulluq, qulluqçu, quldar, quldarlıq, qul-beçə, qulam, quldur, qulaq sözləri qul sözündən yaranıb. Deyəcəksiniz ki, quldur, qulaq sözü hardan çıxdı? Onun qula nə dəxli? Əgər elə olmasaydı qul+luqçular xalqın problemlərini qulaqardına vurmağı özlərinə peşə etməzdilər axı. Camaat özünü pis aparanda qul kimi qulaqlayıb qoduqluğa salmazdılar axı? Ən nə-

hayət Soljinitsin sürgünündən bəhs etdiyi əsəri "Qulaq" adlandırmazdı axı.

MTN, DİN, XDMX, Müdafiə Nazirliyi, Sərhəd Xüdmətində çalışan zabitlərdən soruşsanız ki, harada işləyirsən, ümumi deyəcək ki, xidmətdəyəm. Bəs hər hansı nazirlik, icra, aparat işçisi bu suala nə cavab verir? – Qul+luq+da – Dövlət Qul+luqunda. Yaxud da ... Bir qohumu soruşanda ki, "ə, niyə gəlib, getmirsən, niyə görünmürsən?"

O saat cavab verir: "Vallah işim dövlət işidir. 9-da girib 6-da çıxıram. Müdirin kəbinsiz arvadıyam". Bəziləri isə "müdirin kəbinli arvadıyam" da deyir. Ya da bunları ümumiləşdirirlər: Kəbinqulu. Çünki müdir evdə-eşikdə arvadına, oğul-uşağına belə, buyura bilmədiklərini işçilərinə elətdirir. Rəsmi vəzifələrindən ta ev-eşik qayğılarına qədər. Nəinki onların fiziki imkanlarını, hətta beyinlərini də istismar edirlər. Görəsən hətta adlarını belə, çətinliklə yazan bəzi məmurlar cild-cild kitabları, dissertasiyaları, ssenariləri, verilişləri, xırda məqalələri hansı başla ərsəyə gətiriblər? Əlbəttə ki, buyruq qullarına, "kəbinsiz arvadlarına" dövlətin ayırdığı maaş hesabına. Hələ bu adlar toya getməlidir. Məmurların yaşı 65-70-i ötdükcə isə daha yeni adlar meydana gəlməyə başlayır. Avtobusda, küçədə, hətta kiçik dövlət qulluqçuları tərəfindən tez-tez "pampersli məmurlar" kəlmələri eşidilməyə başlanıb. Neynəsinlər? Axı onlar da kabab yemək istəyirlər, qatıq yox?!

Nə isə, mətləbdən uzaqlaşmayaq. Qayıdaq bunların rəsmi adına. Qulluqçu – Dövlət qulluqçusu. "Gözəl, və möhtəşəm" səslənir, elə deyilmi? Bütün bunlardan xə-

bərsiz məmurlar kapitalizm, sosializm, feodalizmi də "adlayıb" ta quldarlıq dövrünədək gedib çıxdılar. Özlərinə ad seçdilər də. Qarşısına utanmayıb hələ bir "dövlət" sözü də əlavə etdilər. Hətta bununla fəxr etdilər də. Yüksək məvacib, pensiya da kəsdilər. Şəninə fəxri ad, orden-medal da qoşdular. Hər şey etdilər, amma sözün qrammatik təhlilinə varmadılar. Sadəcə mənim kimi Allah qullarının – Allahqulların öhdəsinə buraxdılar: Qul+Qulluq+Qulluqçu.

"MÜCRÜ"DƏN BAŞLANAN TANIŞLIQ

"Açıldı mücrü, bağlandı mücrü". Bu qısametrajlı filmə Azərbaycan televiziyasında dəfələrlə baxmışam. Xalq artisti Ofelya Sənaninin baş rolda çəkildiyi film yaddaşıma həkk olunub. Bədii janrlardan başım çıxmasa da, 6 yaşlı mən bilirdim ki, bu mənsur şeirdir. Atam demişdi. Müəllifini də qiyabi tanıtmışdı. "Gülhüseyn Hüseynoğludur. Yaxşı kişidir. Azərbaycanda mənsur şeirin banisidir. Müşfiqşünasdır. Müşfiqşünas deyil e... Sonsuz Müşfiqin oğludur. Həyatını ona həsr edib".

Təqdimat bununla başa çatırdı. Amma bilmirdim ki, demə bu, təqdimatın başlanğıcıdır. Sadəcə sovet vaxtı olduğundan bəzi mətləblər gizlədilir.

GÜLHÜSEYN MÜƏLLİM

1983-cü il idi. Universitetin filologiya fakültəsinin birinci kursunda oxuyurdum. Oktyabr ayı idi. Dekan müavini İfrat xanım Əliyeva auditoriyaya daxil oldu: "Uşaqlar hamı bir nəfər kimi qalxsın 9-cu mərtəbədəki böyük auditoriyaya. Gülhüseyn müəllimin yubileyidir". O saat yadıma "Mücrü" düşdü. Rəyasət Heyətində "Mücrü"nün müəllifi filologiya elmləri doktoru, professor Gülhüseyn Hüseynoğlu oturmuşdu. İlk tanışlığım da ordan başlandı.

– Uşaqlar, tələbələr mən özümə yubiley keçirmək istəmirdim. Bu yaxında məni maşın vurdu. Qol-qıçımı sındırdı. Neçə ay xəstəxanada yatdım. Gördüm həyatla ölüm gözlə-qaş arasındadır. Fikirləşdim ki, belə getsə çətin 70-ə qalam. Ona görə də yubileyimin keçirilməsinə razılıq verdim.

Əslində bu tədbiri yubiley adlandırmaq olmazdı. Sadəcə öz tələbələriylə görüşü idi.

MİKAYIL MÜŞFİQƏ "MANYAK" MƏHƏBBƏTİ

İkinci kursdan məni əsgəri xidmətə çağırdılar. Qayıdanda artıq yeni qrupda, özümdən iki yaş kiçiklərlə təhsil alırdım. Bir əlaçı qızımız vardı. Aytək Abdullayeva. Bütün müəllimlər razılıq edirdi ondan. Sonradan bildim ki, Gülhüseyn müəllimin qızıdır. O gündən Gülhüseyn müəllimi həm də ata kimi tanımağa başladım. Beşinci kursda "Xüsusi kurs"lar keçirilməyə başlandı. Mikayıl Müşfiqdən isə mühaziräni əlbəttə ki, müşfiqşünas, dağlıların "Fəxri dağlı" adına layiq gördüyü masallı balası

Gülhüseyn Hüseynoğlu deyirdi. Demirdi – nağıl edirdi, o dövrü yaşayırdı. Bizi də o dövrə aparırdı. Hərdən özündən çıxıb Səməd Vurğunun, Məmməd Rahimin, Süleyman Rüstəmin ünvanına nələr demirdi? Arxivdən çıxardığı materiallarla dediklərini sübuta yetirirdi. İnanmıram ki, Mikayıl Müşfiqin doğma oğlu olsaydı belə, onu Gülhüseyn müəllim qədər sevə, müdafiə edə bilərdi. Bu Müşfiqə adi yox, "manyak" məhəbbəti idi.

Professor İfrat Əliyeva Məmməd Rahimin tədqiqatçısı idi. Bilirdi ki, atam Qabil də o məktəbin – heca vəznində yazanların davamçısıdır. Bilirdi ki, Məmməd Rahim bizim ailənin bütün xeyir işlərində, mənim ad günlərimdə həmişə başda olub, tamadalıq edib. İfrat xanım Gülhüseyn müəllimlə bir kafedrada çalışırdı. Mənim də diplom işim o kafedrayla bağlı olduğundan dəhlizdə dayanıb professor Cəlal Abdullayevi gözləyirdim. Birdən kafedranın qapısı açıldı. İfrat xanım əsəbi, pörtmüş vəziyyətdə otaqdan çıxdı. Məni görən kimi:

– Mahir, Məmməd Rahim necə şair olub?

– İfrat xanım, necə yəni "necə şair olub?". Görkəmli şairimiz olub. Xalq şairi adına, orden, medal, mükafatlara layiq görülüb. Cild-cild əsərləri var.

– Bunu mən bilirəm e, bunu get Gülhüseyn müəlliminə de. Deyir ki, Məmməd Rahim şair deyil. Satqındır. Mikayıl Müşfiqi satıb. Mənimlə də dava edir ki, onu niyə tədqiq edibsən.

Qəribə adam idi. Mikayıl Müşfiqə görə hətta əlbəyaxaya çıxmağa hazır idi.

"...AYTƏK MƏNİM BELİMİ QIRDI"

Beşinci kursu başa vururduq. Səhər dərsə gələndə gördüm ki, qızlar hönkür-hönkür ağlayır. Birinci partada isə gül qoyulub. Aytəkin oturduğu partada.

– Nə olub?

– Aytək evlərinin pəncərəsini siləndə 5-ci mərtəbədən düşüb yerə.

Uşaqların yığışmağını gözləmədim. Atama xəbər verib, tez gəldim Gülhüseyn müəllimgilə. Həyətdə – xeyir-şər evində məclis qurulmuşdu. İçəri keçdim. Məni görcək yanında oturtdu:

– Mahir, deyirdim ki, 4 övladım olsun. Öləndə hərəsi cənazəmin bir tərəfindən tutub məni qəbiristanlığa aparsın. Üç oğlum oldu, bir qızım. İndi Aytək yoxdur. Mən öləndə necə olacaq? Mahir, sovet vaxtı, Stalinin dövründə "İLDIRIM"çıların məhkəməsində üzümə 25 il sürgün oxudular. Tüküm də tərpənmədi. Başımı dik tutub qulaq asdım. Amma Aytək mənim belimi qırdı.

"İSTİQLAL" ORDENSİZ İSTİQLALÇI

İllər keçdi. Yas mərasimində "İldırım" sözünü eşitsəm də, bunu başa düşməmişdim. Müstəqillik dövrünə qovuşduq. Gülhüseyn müəllim "Xalq yazıçısı" fəxri adına layiq görüldü. Amma atamın bir sözü yadımdan çıxmır. "Bu zəmanədə "İstiqlal" ordeninə Azərbaycanda əsl iki şəxs layiqdir. Biri Gülhüseyndir, biri də İsmixan Rəhimov. İndi istiqlalçı olmağa nə var ki? Hünərin var 1948-ci ildə bu sözü dilinə gətirəydin. Yenə bəxtləri gətirdi. Məhkəmə başlananda güllələnməni ləğv etdilər.

25 il həbslə əvəz olundu".

Sonradan bildim ki, "İldırım" – millətçi gənclər təşkilatı olub. O vaxt həbs olunan 7 gəncdən biri də Gülhüseyn müəllim imiş.

NƏ QƏDƏR "QIDIQLADIM" XEYRİ OLMADI

Atamın son illərində müəllimimlə tez-tez görüşürdük. Atam ha deyirdi ki, "Gülhüseyn 48-ci ildə olanları yaz da. Səndən qalan bu olacaq". Deyirdi ki, "yox, yazmayacağam". Sonralar televiziyada mənə digər müxbirlər də yaxınlaşdılar ki, "bəs Gülhüseyn müəllimə zəng edirik, müsahibə verməkdən imtina edir. Bilirik səni çox istəyir, desən razılıq verər. 80 illiyidir". Dedim mən yoluna qoyaram. Zəng etdim, nə qədər xahiş elədim, "qıdıqladım" xeyri olmadı.

Bu gün – iyulun 9-u ölüm xəbərini aldım Gülhüseyn müəllimin. 90 illik yubileyinə – oktyabra hazırlamaq istəyirdim bu yazını. Onu şəxsən tanımağımın 30 ilinin tamamında. Bir də 48-ci il tarixini yazmağı xahiş edəcəkdim. Bəlkə də yazıb qoyub. Övladları yaxşı bilər. Yazmayıbsa – Heyf! Mən isə yazdım. Atam da yazmışdı.

Allah hər ikisinə rəhmət eləsin!

GÜLHÜSEYN

Həm mənzumdu, həm mənsurdu Gülhüseyn.
Həm mumdu, həm məğrurdu Gülhüseyn.
Zindanların zülmətini əridən
Al şəfəqdi, qızıl nurdu Gülhüseyn.
Müəllimdir – alnıaçıq, üzüağ.

Ona yaddır başqa cürə yaşamaq.
Özü qıvraq, qayışbaldır, diribaş,
Şagirdinin saqqalı ağ, saçı ağ...
Mücrü onun mücrüsüdür -– xəbərdar!
Mücrüsünə toxunmayın, lo salar.
Gülhüseynə tay tutmasın özünü
Mücrüsü boş, ürəyi boş olanlar.
İstiqanlı ilk fırtına quşudur,
Onu şahin nəğmələri yaşadır.
Öz canından keçməyinə keçdi o,
Ölmədisə -– bu allahın işidir...
Müşfiq dağı sinəsində əbədi,
Müşfiq şe'ri -– səcdəgahı, mə'bədi.
Əzabkeşin, cəfakeşin qisməti,
Ömür yolu, tale hökmü belədi.
Qəzəblənmə, qəzəbinə, hirsinə,
Gülhüseyn tək məşəqqətə gər sinə!
Ona dəyən dəysəydi qeyrisinə...
Başı-gözü çevrilərdi tərsinə.
Vətən! -– deyib sinəsinə çırpmadı,
Hökm oxundu -– gözünü də qırpmadı.
Sal qranit, gül yarpağı Gülhüseyn.
Mənsur şe'rin bağça-bağı Gülhüseyn.
Nakam müşfiq pasibanı Gülhüseyn,
Mənsur şe'rin bağıbanı Gülhüseyn.
Masallıdan o, qucaqda ayrılıb,
Qönçə ikən gül budaqda ayrılıb.
Gülhüseyni Bakı çəkib ovxara
O, qınından bura çıxıb sıyrılıb.
Əsəbinin səbəbi də birdimi?

Dirigözlü oda düşüb gəncliyi.
Hörmət elə, səcdə etmə, Pirdimi?!
Ömrü uzun, ürəyi pak, gözü tox
İndi tapıb bir az qulaq dincliyi.
Kələyi yox, hiyləsi yox, toru yox.
Coşmağı var, daşmağı var, zoru yox.
Masallıda yırğalanıb beşiyi...
Azərbaycan torpağında yeri çox.

11.11.2000

MƏLEYKƏ ABBASZADƏ MƏŞƏDİ İBADIN "VARİS"İDİRMİ?

PROLOQ

TQDK – Tələbə Qəbulu üzrə Dövlət Komissiyası. Yarandığı gündən ürəklərə ümid toxumları səpib. Əbülfəz Elçibəyin prezidentliyi dövründə dünyaya gəlib. Onun zamanında iki müsbət hadisədən biri sayırlar bu addımı. İkinci addım rus qoşunlarının Azərbaycandan çıxarılması idi.

TQDK-nın yaradılması ilə ali məktəblərə qəbulda xoşagəlməz halların, loru dildə desək, rüşvətin qarşısı alındı. Təsadüfi deyil ki, yaradıldığı il ali məktəblərə qəbul olunanlara əlləri yağlı tikədən çıxan institut müəllimləri ironiya ilə "bəylərin (Xalq Cəbhəsinin) övladları" adı vermişdilər. O zaman bir il əvvəl qızıl medalla

məktəbi bitirən, amma süni maneələrə görə qəbul ola bilməyən dayım qızı da testin sayəsində yüksək balla Tibb İnstitutuna daxil olmuşdu.

TQDK-nın bəhrəsini bir ailə başçısı kimi mən də dadmışam. İki qızım eyni ildə ali məktəbə daxil olub. Əlbəttə ki, öz başlarıyla. Düzdür həkim olmaq istəyirdilər, amma 4 balları çatmadı. BDU-nun biologiya fakültəsinə daxil oldular.

ATA QUMAR OYNAYIR VƏ... QIZINI UDUZUR...

Üzeyir Hacıbəylini "klassik" adlandırırlar. Onun iki əsərinə çəkilən "O olmasın, bu olsun" və "Arşın mal alan" filmlərini kinomuzun şedevrləri sayırlar. Amma səhv edirlər. Məndən olsaydı, sovet vaxtı dünyaya kino ilə yayılan bu əsərləri fonddan yox, həyatımızdan silərdim. İzi-tozu da qalmazdı.

Belə çıxır ki, 20-ci əsrin əvvəllərində Azərbaycanda belə atalar varmış? Həm də böyük publisist olan Üzeyir Hacıbəyli inanmıram ki, bu qədər böyük səhv edə və əclaf ata surətini ekrana gətirə. Deməli olub ki... Nə olsun komediyadır?

Ata qumar oynayır. Uduzur. Sonra əlacsız olaraq gəlir baqqal Məşədi İbadın yanına. Qızını ona verəcəyinə əmin edərək, dəfələrlə ondan pul qoparır. Ata qızını ərə verirmi? Yox! Deyəcəksiniz ki, satır. Əsla! Satmır! Ata dolayısı yolla qızını qumarda uduzur. Görəsən 19-cu əsrin axırlarında, 20-ci əsrin əvvəllərində belə atalar çox idimi?

NƏZƏRİYYƏDƏ BUNA TİPİK SURƏT DEYİRLƏR

Tipik surət. Ümumiləşdirilmiş surət. Ədəbiyyatımızda hər hansı bir obraz canlandıqda ədəbi tənqidçilər bunu tipik surət kimi təhlil edirlər. Onda Gülçöhrənin atası bizim üçün kimdir? Azərbaycanda belə atalar çox idimi ki, Üzeyir Hacıbəyli bunu ədəbiyyata gətirməyə, hətta onu vizuallaşdırmağa ehtiyac duydu? Gülnazın atası qızını satır, qumarda uduzur. Sonra da Sərvərlə gizli sövdələşməyə girərək namuslu, qeyrətli, dinli-imanlı, başı halalca işinə – alverə qarışdığından evlənməyə vaxt tapmayan "oğlan uşağı" Məşədi İbadı tora salır. Pulunu da mənimsəyir, qızı da vermir. Əvəzində qulluqçu Sənəmi ona sırıyır. Məşədi İbad da naəlac qalıb nə desə yaxşıdır? Deyir ki, "O olmasın, bu olsun".

Yaxud da ki, "Arşın mal alan"dakı ata surəti. Qızının qaçırılması planını qurur. Qaçıranlar əvvəl səhvən Asyanı, sonra isə Gülçöhrəni aparırlar. İndi də bir şey alanda bu misal dilimin əzbəridir.

Kafel alırdım. Vitrində olan bir çeşidi bəyəndim. Çek yazıb, pulumu aldılar. Gətirib ustalara təhvil verdilər. Ertəsi gün gəlib gördüm ki, artıq yarısını divara yapışdırıblar. Kafellər isə mən bəyəndiyim deyil. Demə satıcı səhv edib. Geri qayıtdım. Qışqırığım mağazanı götürdü: "Deməli belə çıxır ki, siz mənə Gülçöhrəni göstərib, Asyanı sırımısınız?". Əlbəttə ki, satıcılar heç nə başa düşmədilər. Çünki artıq 21-ci əsrdir. Bundan betər hadisər də baş verir.

Amma dəxli yoxdur. Üzeyir Hacıbəyli necə yazıbsa,

elə də davam edir. Hətta formaları da çoxalır. Elə biri bizim TQDK və onun sədri, hörmətli Məleykə Abbaszadə. Bu kinolara o qədər baxıblar ki, tələbə qəbulunda bu formatdan qıraға çıxa bilmir.

İNSAN ARZULARI VƏ BAL

Mən həkim olmaq istəyirəm. Uşaqlıqdan arzum budur. Niyə axı sənədi dolduranda müxtəlif cür ixtisas, institut adı yazmalıyam. Sonda lazımi qədər bal toplamayıb, biologiya fakültəsinə düşməliyəm. Yaxud da ki, bioloq olmaq istəyən digəri qandan qorxa-qorxa niyə gedib həkim olmalıdır. Yaxud da cərrah olmaq istəyən əczaçılıq fakültəsinə girməlidir. Pulu olan ödənişsizə, pulu olmayan isə ödənişliyə düşməlidir. Pulu ödəmək qabiliyyətində olmasa, hətta intihar etməlidir. Atasının, anasının boğazından kəsməlidir. Təhsilini başa çatdırmaq üçün səhər dərsə, gecələr isə... Çünki sizin TQDK-nın seçim sistemidir bu neqativ halları yaradan. Məleykə xanım, konkret olmaq olmazmı?

Niyə axı, ata, ana sizin bu qəbul siyasətinizə görə balasına uydurma təsəllilər verməlidir:

"Bala nə olsun ki, "leçfak" olmadı olmadı da, "farmfak" da pis deyil. Diplom eynidir də...". Yaxud da – ""leçfak"a girsəydin, sonra da rezidentura duracaqdı qabağında. Səni nə vaxt evləndirəcəkdim və ya nə vaxt ərə verəcəkdim? Qız qalıb evdə qarıyacaqdın. Biz də nəvə görmək istəyirik axı?!".

Yaxud da "ay qızım, neyləyirsən e ATU-nu, biologiya fakültəsi də pis deyil. Qız uşağısan da. Elçilərə nə la-

zımdır? Bircə onu desinlər ki, "gəlinimiz ali təhsillidir". Fərqi nədir e... ATU və ya APU-nun biologiyası. İkisi də ali təhsildir də. Təki diplomun olsun".

Məleykə xanım, abituriyentlər sizin TQDK-ya həkim olmaq üçün gəlirlər, bioloq olurlar. Tarixçi olmaq istəyirlər, kitabxanaçılığa daxil olurlar. Neftçi olmaq istəyirlər, kanalizasiya turbası çəkirlər. Prokuror olmaq istəyirlər... Hamısı da sizin 21 ildir ki, tətbiq etdiyiniz yarıtmaz seçim etalonunuza görə. Bu siyasət isə bir şeyə hesablanıb. Sonda qolu-qanadı qırılmış valideynlər və abituriyentlərin bircə ifadəni işlətməsinə: "Neynəyək ki, alınmadı. Məşdibad demişkən "O olmasın, bu olsun". Yaxud da "Gülçöhrənin dalıyca getmişdik, Asyanı sırıdılar".

Siz və TQDK səlahiyyətlərinizdən istifadə edib insanların taleyini təyin etməyin. Həkim olmaq istəyir, lazımi bal yığa bilməyibsə, qarşısına digər ixtisas və institutlar qoymayın.

"Ödənişliyə müsabiqə balı aşağıdır, ödənişsizə yüksəkdir", deyib şirnikləndirməyin. Ali təhsil ocaqlarını isə təhsil haqlarını qaldırmağa ruhlandırmayın. Keçid balını aşağı salmaqla institutların tələbə planını doldurmayın. Savadlılar planını doldurmağa çalışın. Savadı azdırsa, geri qaytarın. Oxusun, öyrənsin, gələn il gəlsin. Özünü sınasın. İstəyinə çatsın. Gələcəyini sizin kompyuterlərin hesabladığı keçid balları yox, qoy özləri təyin etsinlər. Dövlət institutlarında ödənişli təhsilin ləğv olunmasıyla bağlı Prezidentin qarşısında məsələ qaldırın.

İmtahanları 21 ildir ki, necə obyektiv aparmısınızsa,

eləcə də davam edin. Buna heç bir iradımız yoxdur. Hələ ki, adınız neqativ müstəvidə hallanmayıb. Amma Məşədi İbadın "varisliy"indən imtina edin. Valideynlərə, abituriyentlərə "O olmasın, bu olsun" dedirtməyin.

TQDK bunun adını ixtisas seçimi qoyub. Düzgün deyil. Bunun adı "İxtisas seçimi" yox, "institut seçimi" olmalıdır. Məsələn, mən filoloq olmaq istəyirəm. Bu ixtisas üzrə Azərbaycanda 10 ali məktəb var. BDU, APU, AMU, SDU, LDU və özəl universitetlər. Bax burda seçim etməyə dəyər. Mən lənkəranlıya maddi cəhətdən Bakıda filoloq olmaq sərf edər, yoxsa Lənkəranda?

Hazırkı ixtisas seçimi sistemi isə əlləri uşaqlıqdan arzusunda olduqları sənətdən üzülən, prestij ixtisaslara balların və ya müsabiqənin ilbəil yüksək sürətlə artdığını göz önünə gətirən insanlarda gələcəyə bir ümidsizlik sindromu yaradır. Onları "birdən gələn il girə bilmədim. Əsgərliyə aparacaqlar. Ali təhsil ali təhsildir də... O olmasın, bu olsun" deməyə vadar edir.

Məleykə xanım, fənlər, suallar, testlər çox ola bilər, çətin, qəliz də yazıla bilər. Bununla razıyam. Rəqabət güclü olmalıdır. İnsanın uşaqlıqdan yiyələnmək istədiyi sənət – arzu isə yeganədir. Alternativi yoxdur.

Məleykə xanım, sizin qanunlara görə, ballar hesablananda bir neçə səhv cavab bir düzgün cavabı ləğv edir. Çox "düzgün" qaydadır. Həyatda da pis yaxşıya həmişə qalib gəlir.

Məleykə xanım, üzr istəyirəm. Bütün yazı boyu bu qədər tələblər qoydum, amma sehrli sözləri yazmaq yadımdan çıxmışdı: "Xahiş edirəm".

EPİLOQ

– Ay bala, böyüyəndə nə olmaq istəyirsən?

– Bilmirəm.

– Necə yəni bilmirəm?

– Birinci bal yığmalıyam. Sonra isə Məleykə xanım nə istəsə, ondan da olacam. Deyəcək prokuror ol! Olacam. Həkim ol! Yenə də olacam. Lazım olsa, kanalizasiya xətləri də çəkəcəm. Əlbəttə ki, balım yol versə. Səhv cavablarım düz cavablarımı yeməsə.

– Bunu hardan çıxartdın? Ola bilməz?

– Necə yəni ola bilməz? Məni sizin üçün hacıleylək gətirə bilər, gələcək sənətimi Məleykə xanım təyin eləyə bilməz?

ÇÖRƏKVERƏN SƏDRİMİZ NİZAMİ MÜƏLLİM

*1996**-cı il idi.** Ailəvi Şamaxıda idik. O vaxtlar işsiz idim. Daha doğrusu, xırda bizneslə məşğul olurdum. Axşam süfrə arxasında oturmuşduq. Az.TV-də "Xəbərlər" proqramı başlamalı idi. Bütün diqqətimiz ekranda idi. Əvvəlcə Prezident Heydər Əliyevin sərəncamları oxunurdu. İlk sərəncam isə Nizami Mənaf oğlu Xudiyevin Azərbaycan Televiziya və Radio Verilişləri Dövlət Şirkətinə sədr təyin olunmasıyla bağlı idi.*

Atamın ilk sözü bu oldu ki, "APİ-dən tanıyıram. Nizami həm də şair Hikmət Ziyanın kürəkənidir. Ziyalı adamdır. Mənə daim hörmət və ehtiramını görmüşəm". (Onu da qeyd edim ki, atam hər adamı tərifləmirdi).

Bu münasibəti bilən kimi qeyri-adi dilləndim: "Papa, məni Az.TV-yə işə düzəlt də..." Əlbəttə ki, həmən rədd

cavabı aldım. Çox təkid elədim. Fikrindən dönmədi. Ardınca da əlavə etdi ki, "bacarırsan get özün düzəl". Söhbət bununla da bitdi.

Üstündən 3 gün keçmişdi. Evdəydim. Şəhər telefonuna zəng gəldi. Dəstəyi götürdüm. Atam idi.

– Nizami Xudiyevin yanındayam. Təbrikə gəldim. Sənin də arzunu dedim. Dedi ki, "bu nə sözdür Qabil müəlim, düzələr".

Beləcə mən Az.TV-yə işə düzəldim. Artıq 17 ildir ki, mən filologiya elmləri doktoru, professor, Azərbaycanın əməkdar elm xadimi, 2 çağırış millət vəkili seçilmiş, türkoloq-alim, nəhayət "Şöhrət" ordenli Nizami Xudiyevi tanıyıram.

Nizami Xudiyev 1949-cu il aprelin 1-də Naxçıvan Muxtar Respublikasının Şahbuz rayonunda anadan olub. Azərbaycan Dövlət Pedaqoji İnstitutunun filologiya fakültəsini bitirib. Filologiya elmləri doktoru, professordur. "Qızıl qələm" mükafatı laureatıdır. 60-dan çox kitabın, 300-dən çox məqalənin müəllifidir. Azərbaycan Yazıçılar Birliyinin və Jurnalistlər İttifaqının üzvüdür. Lütfizadə adına Beynəlxalq Müasir Elmlər Akademiyasının və Nyu-York Elmlər Akademiyasının həqiqi üzvüdür. Yeni Azərbaycan Partiyası Siyasi Şurasının və İdarə Heyətinin üzvüdür.

Bu Nizami müəllimin qısa tərcümeyi-halıdır. Onun elmi yaradıcılığı haqqında yazmaq, əsərlərini təhlil etmək istəməzdim. Professor, elmlər doktoru haqqında məqalə yazmaq üçün gərək akademik olasan, ya da ki, ən azı onun bütün kitablarını, məqalələrini, haqqında

yazdığı insanların yaradıcılığını yaxşı biləsən. Bir də ki, buna ehtiyac da yoxdur. Çünki Nizami Xudiyevin elmi yaradıcılığı göz qabağındadır. Görünən dağa isə bələdçi lazım deyil. Mən onun 17 illik tanıdığım müddətdə həyat və yaradıcılığına öz prizmamdan nəzər salacağam. Müşahidələrimdən heç onun özünün də xəbəri yoxdur. Qədirbilənlik kimi xüsusiyyəti isə bütün insanlar yüksək qiymətləndirirlər.

AZTV-NİN SİMASI: ƏSLİ VƏ MƏCAZİ

Nizami müəllim AzTV-yə sədr təyin olunandan bir həftə sonra məni işə götürdü. Böyük bir vəzifə vermədi. Proqram baş direktorluğunda buraxılış redaktoru idim. Televiziyanın strukturunu öyrənmək, adamları tanımaq, ilk addımlarımı atmaq üçün yaxşı yer idi.

Həftənin 1-ci günü idi. İşçilərimizdən biri dedi ki, kollegiya zalında iclasdır. Gedək sən də, işçiləri görərsən tanıyarsan. Zala girəndə heç kimi tanımadım. Mavi ekranda gördüklərimdən heç kim yox idi. Onda başa düşdüm ki, televiziyanı idarə edənlər, söz sahibləri ekranda gördüklərimiz, tanıdıqlarımız yox, tanımadığımız adamlardır. İclas başladı. Nizami müəllim bu rəhbər işçilərə müraciətlə "yeni verilişlər, layihələr lazımdır" tələbini ortaya qoydu. Onlar bir-bir durub dedilər ki, bəs "yeni verilişin ərsəyə gəlməsi üçün uzun müddət, 1-2 il vaxt lazımdır". Mən də televiziya işindən başı çıxmayan adam durub qulaq asırdım. Fikirləşirdim ki, görəsən ömrü boyu müəllim işləmiş, filoloq-alim, indi

isə 10-15 gün olar ki, televiziyaya rəhbərliyə gətirilən adam bu "köhnə qurdlara" nə cavab verəcək. Nizami müəllim onlara təmkinlə qulaq asdı və:

– Mən də sizinlə razıyam. Yeni bir şeyin ərsəyə gəlməsi üçün 1-2 il vaxt lazımdır. Mən bəs nə deyirəm? Deyirəm ki, gör neçə illərdir ki, burada işləyirsiniz. 1-2 il bundan qabaq fikirləşməyə başladığınız, fikrinizdə tutduğunuz verilişləri gətirin qoyun ortalığa, tamaşaçılar baxıb feyziyab olsunlar.

Cavab tutarlı olmuşdu. Şahmat dilində desək, baş redaktorlar "pat" vəziyyətindəydilər. Daş qayaya rast gəlmişdi. Maliyyə-təsərrüfat məsələlərinə baxanların isə heç səsi çıxmırdı. Bir müddət sonra onların əksəriyyəti gözə dəymədi. Mənəm-mənəm deyənlər praktik, yeni fikirli adamlarla əvəz olundular.

Bir müddət sonra Nizami müəllim bir əmr verdi: Az.TV-də işləyən xalq və əməkdar artistlərin, o cümlədən diktorların "stavka" maaşları 300 faiz qaldırılsın. Soruşdum ki, əcəba bu nə deməkdir?. Əvvəllər nə idi, indi necə oldu? Dedilər ki, əvvəllər xalq artisti bir veriliş mətni oxuyub 5 min manat, yəni indiki pulla 1 manat alırdısa, indi bu məbləğ 3 – 4 dəfə artırılırdı. Əvvəllər diktorlar ancaq proqram oxuyurdularsa, indi verilişlərə cəlb olunurdular. Əmək haqqının azlığı ucbatından efirə eyni paltarlarda çıxırdılarsa, onların hər biri üçün ildə 2 dəfə mövsümə uyğun paltarlar almaq üçün 1200 dollar pul ayrıldı. (1996-cı ildə 100 dollarla bir ay yaşamaq olardı. Maaşımız 10 dollar idi). Prezident çəkilişlərinə cəlb olunan bütün işçilər– texniki işçilər də daxil olmaqla o vaxt məşhur "Centlemen" mağazasından alınmış

kostyum, köynək, qalstuk, ayaqqabı ilə təmin olundular. Necə yəni, axı onlar AzTV-ni təmsil edirdilər, AzTV-nin siması idilər. AzTV-yə layiq də geyinməliydilər. Həm də bu, sədrin öz adı demək idi.

SSENARİST

Bir müddət keçəndən sonra Nizami Xudiyevi ssenarist kimi də tanımağa başladıq. İşlədiyi 10 il ərzində onlarla filmə həyat vəsiqəsi verdi. Bu filmlərdə siyasətçi və türkoloq kimi özünü bir daha təsdiq etdi. "Əbədiyyət elçisi", "Əbədiyyət ünvanı", "Fenomen", "Xilaskar", "Müstəqillik yollarında", "Sabaha inamla" kimi filmlərdə müstəqil Azərbaycanın ən yeni tarixinin , böyük siyasətçi Heydər Əliyevin siyasi fəaliyyətinin canlı salnaməsini yaratmaqla yanaşı, "Heydər Əliyev və Azərbaycan dili", "Həsən bəy Zərdabi", "Aşıq Veysəl", "Türk dünyası qitədən qitəyə" kimi filmləriylə ictimaiyyətə özünü türkoloq alim kimi yeni prizmadan tanıtdı.

PEDAQOQ

Nizami müəllim bizim üçün sədrdən daha çox müəllim idi. Bir səhv buraxanda başımıza oyun gətirirdi, töhmət verirdi, hər iclasda, toplantıda bu səhvi başımıza vururdu, amma "2" yazmırdı, yəni işdən çıxarmırdı. Heç kimin çörəyinə dəymirdi. İşlədiyi dövrdə bir təqaüdçünü də işdən uzaqlaşdırmadı. Qarğış yiyəsi olmadı. Hər dəfə aprelin 1-də atam zəng çalaraq onu ad günü münasibətilə təbrik edirdi. Həmişə də eyni sözləri təkrar edirdi: "Sən Mahirin xeyirxahısan. Ona çörək ver-

misən". Bu sözlər onda mənə pis təsir edirdi. Amma indi bu sözlərin mənasını daha yaxşı başa düşürəm. Maddi cəhətdən bu gün hər şey yaxşıdır. Lakin insanları tanımaq, nanəcibi nəcibdən ayırmaq baxımdan atamın bu sözləri etalona çevrilib. Yaxşı ki, indiki durumumda "Xalq qəzeti"nin baş redaktoru Həsən Həsənov, İTV-nin keçmiş sədri İsmayıl Ömərov, jurnalist Qulu Məhərrəmli, Mülatif Adurov, kinorejissor Vaqif Mustafayev kimi köhnə kişilər hələ də var.

"GÖRDÜNÜZ?"

"Xəbərlər" proqramında redaktor işləyirdim. Əliağa adlı bir operatorla çəkilişdə sözüm çəp gəlmişdi. O da içində material olan kaseti gizlətmişdi. Baş redaktorum Həsən müəllim, baş redaktorun müavini Mülatif müəllim məsələdən hali idilər. Bilirdilər ki, mən haqqam. Lakin Əliağa kaseti qaytarmırdı ki, qaytarmırdı. Necə deyərlər, təzə olduğumu görüb "xod gedirdi". Bir gün keçdi, ikinci gün keçdi, 3-cü gün Nizami müəllim yanına çağırdı. Bədii rəhbər Vaqif Ağayev və baş operator Fazil Hadıyev də kabinetdə idilər. Deyəsən sədrin qulağına söz çatmışdı:

– Bala, necəsən? İşlərin necə gedir?

– Yaxşı.

– İncidən zad yoxdu ki..?

– Yox.

– Mənə sözün-zadın olar?

– Hər şey qaydasındadır.

Yanında oturanlara baxdı. Nəzərlərindən bir onu oxudum ki... "gördünüz?"

– Bala, yeni kitabım çıxıb, avtoqraf yazıram, dədana verərsən.

Səhəri gün işə gələndə kaset artıq stolun üstündəydi. Bu özbaşınalığa görə Nizami müəllim ikimizi də işdən çıxarmalıydı ki, digərlərinə görk olsun. Amma böyük insan idi, bağışlamağı bacarırdı.

"CAVAB QAYTARSAN CANINI ALARAM"

Uşaqlıqdan "Mauqli" multfilmini çox sevirəm. Orada bir pələng var, adı "Şirxan"dır. Meşədə gəzəndə əzəmətli görünür. Ətrafında isə çaqqal-çuqqal fırlanaraq onu digər heyvanlara qarşı qaldırır, onu tərifləyə-tərifləyə tora salırlar. Əlbəttə ki, bu əsərə indi uşaq gözüylə baxmağım sadəlövhlük olardı. Yəqin ki, Nizami müəllim də bir filoloq kimi bu əsəri oxuyub. Bunu yada salmaqda məqsədim var.

Sədrliyinin son illərində AzTV-nin həyətində tez-tez gəzirdi. Kabinetə qayıtdıqdan sonra Nizami müəllimi tanımırdıq. Bir anda xırdaçılıqlara varırdı. Kollektivlə xırda hislərə qapılırdı. Onu hörmətdən salmaq istəyənlərin dəyirmanına su tökürdü. Mənə də bir-iki dəfə belə "iradlar" tutmuşdu. Mən də söhbət əsnasında atama demişdim. Atam da:

– Dəxli yoxdur. Əcəb eləyir. Bilmərsən cavab qaytararsan a... canıvı alaram.

Elə bilməyin ki, Nizami müəllim sadəlövh adamdır. Sadəcə olaraq sadə adamdır, insanlara inanır, şair qəlbli insandır, ziyalıları sevir, onlara qiymət verir, ərk eləyir. Onların içində yaxşıların və ya pislərin olması isə onun işi deyil. Bu həyatın axarı və sınaqlarıdır. AzTV-nin keçmiş kollektivi də indi onu daha yaxşı tanıyır. Bir vaxtlar onları incik salan sözlərin haradan qaynaqlandığını indi daha yaxşı başa düşürlər. Mən də başa düşürəm.

Vəzifədə olanda müdir haqqında məqalə yazmaq, onu tərifləmək çox da qeyri-adi görünmür. Nə qədər səmimi yazırsan yaz Azərbaycan mühitində bunu çox vaxt yaltaqlıq, yarınmaq, ummaq kimi qiymətləndirirlər. Lakin vəzifədən çıxandan sonra, özü də heç bir sifariş olmadan, bir vaxt 2 min işçisindən biri olmuş bir insanın yazı yazması bu həmin vəzifəli adamın alicənablığından xəbər verir. Yadıma gəlir. 1999-cu il idi. Nizami müəllimin 50 yaşı tamam olmuşdu. Deyirdi ki, "mənim indi nəvə oynadan vaxtımdır e".

İndi isə yaşı 65–i ötüb. Nizami müəllim, arzu edirəm ki, nəticə oynadan vaxtınızda – 70 yaşınızda mətbuat səhifələrində sizinlə bir də görüşüm. Kötükcə oynatmağınızı onda danışarıq.

Hörmətlə keçmiş işçiniz
MAHİR – QABİLİN OĞLU

SERJ SƏRKİSYANLA ARVADININ SÖHBƏTİ

– Serj, ay Serj.

– Hə.

– Gedək də Vətənə – Qarabağa.

– Yenə nə olub?

– Dədəmi yuxuda görmüşəm. Deyir ki, ay qızım, niyə bu tərəflərə gəlmirsən? Niyə qəbrimi ziyarət etmirsən? Şam yandırmırsan? Qudurmusan köpəyin qızı. Prezident arvadısan deyə özünü böyük sayırsan? Nə olsun ki, familiyan Sarqsyandır. Sən Dədəyan kimi dünyaya gəlmisən. Qızlıq familiyan da Dədəyandır. Mən – Dədənin qanını daşıyırsan. Heç olmasa ildə bir dəfə gəl. Qoy camaat da görsün ki, Vətənin Azərbaycanı yaddan çıxarmamısan.

– İndi yuxu görmüsən, görmüsən də... neyləyək.

– Ay Serj, elə danışırsan ki, sanki sən də darıxmırsan. Atan Azadın qəbrini ziyarət etmək istəmirsən. Baban Sarıqız sənin üçün müqəddəs deyil. Baban sənə əziz deyildisə, niyə durduğun yerdə Sərkisyan familiyanı Sarqsyana dəyişdin? Dəyişməyəydin də. Belə getsə erməniliyini də inkar edəcəksən. Atan Azad, baban isə Sarıqız...

– Min dəfə demişəm mənə erməni demə. Mən ərməniyəm– Ərməniyəli. Yaxşı... Bu yaxında Dağlıq Qarabağ Respublikasının 22 illiyini qeyd edəcəyik. Özü də Şuşada. Səni də apararam. Bizim Andrey Babayevin 1957-ci ildə yazdığı "Arcvaberd"– "Qartal yuvası" operasına da tamaşa edərsən.

– Axı, deyəsən o əsərin adı "Qartal qalası" idi.

– Əşşi, nə fərqi var?

– Hansı Andrey Babayevdir bu? Qarabağlı Avanes əminin oğlu?

– Andrey də... Qara Qarayevin tələbəsi, Azərbaycanın əməkdar incəsənət xadimi, bütün yaradıcılığı Azərbaycan xalq musiqisinə köklənən, bizim Qarabağın fəxri Avanesin oğlu Andrey Babayevi deyirəm.

– Görəsən repertuarı kim seçib? Halal olsun ona. Qarabağ böyük musiqiçilər yetişdirir də... Bizim torpağın suyundan, havasındandır eee...

– Təkcə musiqiçi? Rita, inciyərəm a səndən...

– Yaxşı da... ölürsən tərifcün. Robert Köçəryan da sənin tayındır. Arvadı Bella deyir ki, bütün günü mənə bir sözü təkrar elətdirir.

– Nəyi?

– Deyir ki, de. De ki, Qarabağ dünyaya iki prezident bəxş edib. Biri Sarıqız, biri də Köçəri. Hələ marşal Baqramyanı da ora əlavə etdirir.

– Çox qəribə məsələdir e.., Rita. Ermənistanın bu vaxtacan üç prezidenti olub. Biri suriyalı, ikisi də qarabağlı. Görəsən, azərbaycanlılar bizdən inciməzlər ki?

– Yox !

– Hardan bilirsən?

– Onlar Qarabağdan çıxan xanəndələriylə, bəstəkarlarıyla fəxr edirlər. Biz də prezidentlərimizlə, sərkərdələrimizlə...

– Rita, görəsən hansı irəlidir?

– Bilmirəm.

– Rita, görəsən Qarabağ torpağı bu cür övladlar yetişdirməsəydi Ermənistan xalqı seçkilərdə kimə səs verərdi?

– Bilmirəm. Qəliz sualdı. Mən siyasətçi deyiləm. Musiqi müəlliməsiyəm. Xəmiri muğamla yoğrulan Qarabağ musiqi məktəbinin sıravi nümayəndəsi – Dədənin nəvəsi, prezidentin xanımı, qarabağlı Rita Sarqsyan.

"SALAM, ÖLÜM!"... "SAĞ OL ÖLÜM"

Dostum Mamed "İçərişəhər" metrostansiyasının yaxınlığında yaşayır. Səhər tezdən evindən çıxır, işinə tələsir. Güllü-çiçəkli, süpürülmüş İstiqlaliyyət küçəsiylə "Torqovı"ya tərəf enir. Məktəbə, uşaq bağçasına gedən balacaların əhatəsində addımlayır. Baxıb ürəyi açılır. Səhər idmanı ilə məşğul olanların biri o tərəfindən keçir, biri bu tərəfindən. Gözəl mağazaların vitrinində manikenlər sanki ona əl edir. Arabir yanından keçən gözəl xanımlara çəpəki nəzər də yetirir. Elələri olur ki, gözlərini tam metrajla da açmalı olur. Neyləsin həyat budur. Gözəlliyə baxarlar, həzz alarlar. Axşam dostlarıyla "Torqovı"nın hansı kafesində oturub söhbətləşəcəyi yerləri də gözəyarı edir. Alla Puqaçovanın "Million alıx roz" mahnısını zümzümə edə-edə işə çatır. Bu əhval-ruhiyyəsindən, müsbət emosiyasından ətrafdakılara da pay düşür. İş günü beləcə xoş, yüksək ruh yüksəkliyi ilə keçir. İşdən

sonra yorğun olsa belə, bu yolları geri qayıtdıqca eyni təəssüratı yaşayır. Dincəlir. Deyir: "Yaşamağa dəyər. Ey həyat, sən nə gözəlsən?"

Mən isə Sirkin yanında yaşayıram. Səməd Vurğun küçəsinə çıxanacan artıq tıxaca düşmüşəm. Yox elə bilməyin ki, pik vaxtıdır, ona görə. Əsla... Buralar həmişə belə olur. Üstündə "çadır", "Ağ çadır", "VİP xidmət" yazılan yük maşınları məhləiçi karvan qurub yolu tutublar. Bəzilərinin yedəyində səyyar tualetlər də var. Kişiyçin ayrı, qadınçın ayrı. Bir təhər bunların arasından keçib çıxıram Səməd Vurğun küçəsinə – üzü Əjdərbəy məscidinə tərəf.

Düz Sirkin yanından Göy məscidə kimi qara rəngli, şüşələri qara "plyonka"yla örtülmüş, təmizlikdən bərq vuran "Mersedes", "Hyundai" markalı mikroavtobus tipli, amma içərisi ancaq tabuta hesablanmış maşınlar köç qurub. Bəziləri arxa qapısını da açıb. Bəh-bəh, içərisinə necə də gözəl, nəfis xalça da salınıb. Ətir qoxuyur. On-on beşi birdən düzülüb gözləyirlər. Birdən elə başa düşərsiniz ki, məni gözləyirlər a?... Yox. Düz məscidin qapısınacan sürücülər məni baxışlarıyla yola salırlar.

Sərnişin üstündə davaya, bəzən də bıçaqlaşmaya çıxan taksi sürücüləri kimi deyillər. Guya ki, hüznlüdürlər, kədərlidirlər. Hətta "kliyent" gəlsə də belə, sevinclərini boğa, hüznlərini əvvəlki qaydada saxlamağı bacarırlar. Yay vaxtı heç olmasa maşının üstünə "Kondisionerlidir" yazıb yapışdırırdılar. İndi onu da yığışdırıblar. Bir az irəliləyirəm. Məscidə çatanda tıxac yaranır. Bütün hərəkət iflic olur. Heç kim siqnal vermir. Axı məscidin ölüxanasına meyit gətiriblər yumağa?

Bircə qulaqlarını çəkirlər: “Allah göstərməsin. Evlərdən uzaq”. Birtəhər yol açılır. Davam edirəm. İşə çatıram. O soruşur ki, niyə qanın qaradır, bu soruşur ki, niyə kefin yoxdur? Nə deyim? Deyim ki, hər gün evdən çıxanda nə ilə rastlaşıram?

Desəm də cavab verəcəklər ki, “lap yaxşı da. Biz ildə, ayda bir dəfə qəbrüstünə gedəndə bunu başa düşürük ki, hər şeyin axırı ölümdür. Sən isə bunu hər gün anlayırsan, təmizlənirsən, mənən saflaşırsan”. Mən də razı. Amma Allah kəssin belə saflaşmanı.

İş vaxtım qurtarır. Eyni marşrutla evə qayıdıram. Şopenin “Ölüm marşı”nın təntənəli sədaları altında məscidin, ölü maşınlarının, çadır karvanlarının qarşısından təntənəylə keçirəm. Təzim edirəm. “Salam, ölüm”, deyə qışqırıram. Sürücülər də yerbəyerdən cavab verirlər: “Salam, salam, salam”. Minbərdən azan səsi ucalır. Dinməzcə durub qulaq asıram. Beləcə evimə çatıram. Arxadan ağlamaq səsləri gəlir. Kiminsə ölü namazı qılınır.

Evə girirəm. Dostum Mamed yadıma düşür. O işə çatanda deyir ki, “Həyat gözəldir. Yaşamağa dəyər”. Mən isə bilmirəm nə deyim. Deyim ki, “ölüm gözəldir. Yaşamağa dəyməz?”. Yox, bilirəm nə deyim. Sadəcə bundan sonra da elədiyimi davam etdirim. Səhərlər “Salam, ölüm!”, deyib işə gedim, axşamlar isə “Sağ ol, ölüm!”, deyib evimə.

NAZİR MƏNİ TANIDI.. AMMA ÇİFAYDA...

Köhnə həyətimiz – Hüsü Hacıyev küçəsindəki "Yazıçılar binası" canlı muzey idi. Amma illər keçdikcə həyətimiz sözün həqiqi mənasında muzeyə çevrildi. Orda yaşayan yazıçı və şairlər haqqında (Allah İsa Hüseynovla Afaq Məsuda ömür versin) keçmiş zamanda danışmağa başlamışıq. Təzə həyətimizdə isə, maşallah, əmin-amanlıqdır. Hələ ki, vəzifədən, deputatlıqdan çıxarılanımız yoxdur. Rəhmətə gedənlər isə (Şair Qabil, Murtuz Ələsgərov, Mahmud Kərimov) böyük hörmət və ehtiramla Fəxri Xiyabanda torpağa tapşırılıb.

Yox, deməyəcəyəm qonşularım kimlərdir. Harda işləyirlər, neçə dəfə deputat seçiliblər, kimin qohumu, kimlərin övladlarıdırlar. Məqsədim bu deyil. Sadəcə digərlərinin mənə həmişə müraciət etdikləri suala cavab

tapmaq istəyirəm. Yaxud da cavab vermək istəyirəm.

Sual isə mentalitetimizə uyğun, amma mənim ruhuma yad bir sualdır:

– Mahir, salam.

– Salam.

– Necəsən?

– Yaxşıyam.

– Harda işləyirsən?

Bax burda başıma elə bil ki, bir vedrə qaynar su tökürlər də. Sən soruş "necə yaşayırsan?", "necə dolanırsan?"

– Heç yanda.

– Necə yəni heç yanda?

– Heç yanda da. "Evdar kişi"yəm.

– Bir iş zad vermədilər sənə?

– Yox.

– Get istə də. Bir də ki, o cür qonşuların var. Yəqin ki, səni tanıyırlar.

– Yox! Tanımırlar.

– Necə yəni "tanımırlar"?! Atovu ki tanıyırlar.

– Atam rəhmətə gedib.

– Allah rəhmət eləsin. Atalar düz deyib e... Bağda ərik var idi...

Beləcə 7 ildir ki, bu sualların yağmurunda boğuluram.

Lap Vaqif Səmədoğlunun "Bəxt üzüyü"ndəki bir fraza yadıma düşür. Söylü uşağı olmayan qonşusuna deyir:

“Ay Seda, bizim kənddə arvadı ildə bir dəfə doğmayan kişiyə belə bir təhər baxırlar e...”. İndi Vaqif Səmədoğlunun təbirincə desək, “bizim məmləkətdə vəzifədə olmayan kişiyə camaat bir təhər baxır e...”.

O gün saytlara göz gəzdirirəm. Görürəm ki, Bakının rayonlarından birinin icra başçısının övladının “Buta-Palace”da toyudur. İki uşağımın da toyuna dəvət etmişdim onu. Yeganə icra başçısıydı dəvətlilər arasında. Gələ bilməsə də, xələtini işçisi Məmmədhüseyndən göndərmişdi. İndi fikirləşdim ki, yəqin dəvət edər də. Axı, mən onu saymışam. Yox... saymadı. Əgər vəzifəm olsaydı, mütləq sayacaqdı. İndi deyəcəksiniz ki, yəqin əziyyət vermək istəməyib. Yox, yanılırsınız. “Buta”da toy edənin pul yığmağa ehtiyacı yoxdur.

Nə isə... beləcə yaşayıram. Başım sakit, amma qulağım dinc deyil. Hərdən bir publisistik yazılar yazıram. Keçmişdə gündəliklər yazan zadəganlar kimi, mən də həyatımı, mülahizələrimi, aqressiyamı tökürəm bu yazılara. Başqası olsaydı dözməzdi mənə. Kompyuterdi dözür bu ağırlığa. Təmiz alman malıdır. Üstəlik, “Kasperski” antivirusu da bir tərəfdən kömək edir ona. Yoxsa ağırlığıma tab gətirməzdi.

İndi soruşacaqsınız ki, “nə oldu... 7 ildir ki, bu mövzuda yazmadın... indi başladın? Seçkilər qurtarıb, deyəsən sən də başlamısan yenə nəsə ummağa?”

Yox, səbəb bu deyil. Sadəcə bu günlərdə sevincək olmuşam. Day dost-tanış mənə sual verəndə, onlara çatdıracaq şad xəbərim var. Nə? İndi danışım siz də agah olsun.

O gün evə gəlirəm. Həyətə girəndə bir nəfərlə rastlaşdım. Sabiq nazirlərdən idi. Binamızda iki dənə mənzili var. Ömründə "salam-əleykümüz" də olmayıb. Əlbəttə ki, "o atlı, mən piyada" olanda:

– Mahir, salam.

– Salam.

– Necəsiniz?

– Yaxşıyam.

– Siz necəsiniz?

– Mən də yaxşıyam. Allah atova qəni-qəni rəhmət eləsin. Yaxşı kişiydi. Hanı indi elə kişilər. Heydər Əliyevin də xüsusi rəğbəti vardı ona. Özüm də neçə dəfə şahidi olmuşam. Sən bilirsən də... aton mənim də dostum idi.

– Bilmirdim... doğurdan?

İndi o gündən sevincəyəm. Demə, bu SABİQ NAZİR nazir olanda da məni tanıyırmış. Adımı da bilirmiş. Amma nədənsə salam vermirmiş. Başımı bulayıb artıq kreslosuz, portfelsiz və məni tanıyan sabiq nazir qonşumdan uzaqlaşıram. "Çifayda, qonşu. Çifayda" deyədeyə.

YETİM YETİMƏ PAXILLIQ EDİR

*//**Xəbərlər"də işləyirdim.** Səhər tezdən bir çəkilişim vardı. Deputat Hüseynbala Mirələmov Xətai Rayon İcra Hakimiyyətinin ovaxtkı icra başçısı İbrahim Mehdiyevlə birlikdə uşaq evinə gedəcək, kimsəsizlərin Yeni ilini təbrik edəcəkdilər. Çəkilişi isə mən edəcəkdim. İş elə gətirdi ki, 14 yaşlı qızım Bəyim də mənimlə birgə ora getməli oldu. Tədbir başladı. Balacalar qonaqlar üçün gözəl proqram hazırlamışdılar. Mahnılar, şeirlər oxuyur, gözəl rəqs edirdilər. Yaş hədləri müxtəlif idi – 3 yaşdan 15 yaşa kimi oğlan və qızlar.*

Atası, anası, babaları, nənələri, qohum-əqrəbası olan, hər cür qayğı ilə əhatə olunan qızım da onların arasında oturub proqrama tamaşa edirdi. Amma üzündə təbəssüm görmürdüm. Nəsə donub, doluxsunub qalmış-

dı. Mən isə öz işimdəydim. Operatora kömək edirdim. Elə bu an 2-3 yaşlı balacalardan dördü divanda əyləşib çıxışlara baxan Hüseynbala Mirələmovla İbrahim Mehdiyevin üstünə şığıdılar. Qucaqlarına hoppanıb hərəsi bir dizində oturdular. Qucaqladılar, maç elədilər. Hüseynbala müəllimlə İbrahim Mehdiyev də onları qucaqladılar. Beləcə görüşün axırınacan qonaqların qucağından düşmədilər.

Mən də çəkilişimi davam etdirirdim. Birdən qızım yadıma düşdü. Oturduğu yerə baxdım. Gördüm ki, yoxdur. Dəhlizə çıxdım. Bəyim üzünü divara çevirib için-için ağlayırdı. Yaxınlaşdım:

– Ağlama, mənim balam. Sən hələ balacasan. Başa düşmürsən. Bu uşaqların da taleyi belə gətirib də. Nə olsun ki, yetimdirlər. Görürsən ki, hər şeyləri var. Dövlətimizin hər cür qayğısıyla əhatə olunublar.

Çox şey dedim, amma qızımı ovundura bilmirdim ki, bilmirdim. Əksinə hönkürtüsü gəlirdi. Onun bu qədər kövrək olduğunu ağlıma da gətirmirdim. Amma ilk həyat dərsini keçdiyinə sevinirdim. Onun gələcəkdə gözəl ana olacağına tam əmin idim. Nəhayət, bir az sakitləşdi. Dedim ki, keç içəri, uşaqlarla əylən.

Qızım isə içəri keçmək istəmirdi. Bircə bunu təkrar edirdi:

– Dözə bilmirəm.

– Nəyə?

– Papa, baş tərəfdə divanda oturan iki kişi var e. Balaca uşaqlar gedib onların qucaqlarında oturdular. Əmilər də onları qucaqladılar, oxşadılar, öpdülər.

– Hə... Lap yaxşı burda pis nə var ki...

– Papa, mənim yanımda oturanlar nə hədiyyələrə baxırdılar, nə də çıxış eləyənlərə. Baxışlarını qucaqda oturan, əzizlənən uşaqlara dikmişdilər. Gözlərini də qırpmırdılar. Əmilərin o uşaqları əzizləmələrinə elə paxıllıqla, həsrətlə baxırdılar ki... dözə bilmədim. Dəhlizə çıxdım. Gəl gedək burdan.

Elə bu vaxt bir əlində əsa, o biri əlində 2 yaşlı qız uşağı tutmuş qoca bir qadın axsaya-axsaya uşaq evinin qapısından içəri girdi. Müdiriyyət tədbirdə olduğundan onları uşaq həkimi qarşıladı. Qoca qadın:

– Ay qızım, bu mənim nəvəmdir. Anası ölüb, atası da türmədədir. Mənim ümidimə qalıb. Xəstə, qoca adamam. Qorxuram ki, ölüm... heç kim də xəbər tutmaya, uşaq da tələf ola. Ona görə də ümidim sizədir. Götürün uşağı bura. Mən də rahat olum.

Nənə bu sözləri dedikcə balaca nəvə nənəsinin dizlərini daha bərk-bərk qucaqlayırdı. Yetimlik astanasının ilk pilləsində nənə, doğma adam istiliyini daha çox çəkməyə çalışırdı. Sanki başa düşürdü ki, doğma adam nəfəsini, hərarətini sonuncu dəfə hiss edir, sonuncu dəfə qucaq görür.

Qızım əlbəttə ki, içəri keçmədi. Dəhlizdə qalıb nənəsinin dizlərini qucaqlayan uşaqla oynamağa başladı. Mən isə yenidən zala daxil oldum. Qucaqda oturan balacaları və onlara dikilən baxışları seyr etdim. O balacalara bu dəfə böyük gözüylə yox, balaca qızımın gözüylə baxdım.

Özlüyümdə fikirləşdim. Bu nə həsəd, nə paxıllıqdır?

Bir yetim uşaq onun kimi bir acı həyat yaşayan digərinə bir-iki saat davam edən isti qucağa görəmi paxıllıq edir, həsəd aparır? Sığal, mehribanlıq, qucaqmı istəyir?

O gündən atamla şərt kəsdik ki, qurbanlıq kəsdirəndə payı bütövlükdə uşaq evinə verək. Elə də edirdik. Mir Möhsüm Ağa ziyarətgahından birbaşa uşaq evinə gəlirdik. Həyətdə oynayan uşaqlar bizi qarşılayır, lap böyüklər kimi "Allah qəbul eləsin, Allah qəbul eləsin", deyirdilər. Amma çox gözəl başa düşürdüm ki, onlara nə qurbanlıq ət, nə də rəngbərəng oyuncaqlar lazımdır. Onlar isti qucağın həsrətindədirlər.

Üstündən illər ötüb. Qızım ərdədir. Bir oğlu var. Ona göz bəbəyi kimi baxır. Uşaq evlərinə gedən, baş çəkənlərin də sayı çoxalıb. Saytlar, mətbuat da bu cür xeyriyyəçilərin nəcib əməllərini öz səhifələrində işıqlandırırlar ki, digərlərinə örnək olsun. Yazıların içində qucağında yetim uşaq tutmuş insanların fotolarını da verirlər. Bu şəkillərə baxanda ovaxtkı Yeni il şənliyi yadıma düşür. Xeyriyyəçinin qucağına götürdüyü bu uşağa, bu uşağın sığındığı isti qucağa həsəd, paxıllıqla dikilən yüzlərlə yetim baxış göz önümdə canlanır. Bu yüzlərlə yetimin gözlərində, baxışlarında göz yaşları yoxdur. Çünki həyat onları çoxdan qurudub. Bəlkə də bu kimsəsizlərə qəribə gəlir: Uşağı da qucağa alarlar? Uşağı da qucaqlayarlar? Uşağı da öpər, əzizləyərlər?

NAZİR BALASINA OV ETMƏYİ ÖYRƏDİR

Üzeyir Hacıbəyovun "O olmasın, bu olsun" filmində Rza bəy Məşədi İbada deyir: ***"Çelovek obşestvennoe jivotnoe"****. İlk baxışda bunu lağlağa kimi qəbul edirdim. Amma bu yaxınlarda başa düşmüşəm ki, bu deyimdə böyük məna var.*

Çoxları heyvanat aləmindən bəhs edən sənədli filmləri xoşlayır. Mən isə xüsusilə yırtıcıların həyatını xoşlayıram. Çünki həyatda da insanlar güclüləri çox sevir, zəifləri isə əzib üstündən keçir. Güclülər mediamızın da əzəli qəhrəmanlarıdır. Elə ki, kasıblayırlar, vəzifədən çıxarılırlar, həmən jurnalistlərin də nəzərindən düşürlər. İndi soruşacaqsınız ki, yırtıcıların həyatında maraqlı nə var ki, səni belə cəzb edib? Nə edirlər ki? Gündə bir dəfə ova çıxırlar, otlayan, yazıq heyvanı parçalayıb yeyirlər

də... Burda qəribə nə var ki. Düz deyirsiniz. Amma məni daha çox onların ailə həyatı maraqlandırır. Ailə başçısı kimi övladlarına necə tərbiyə verirlər? Onun gələcəyini necə formalaşdırırlar? Bu şəxsi həyatda isə daha çox bir məqam diqqətimi çəkir.

Balaları dünyaya gələndən sonra ata və ana ov edib yuvasına gətirir. Özü də yeyir, uşaqlarına da verir. Uşaqlar ov prosesini kənardan izləyirlər. Bir növ nəzəri biliklər əldə edirlər. Amma müəyyən yaş dövründən sonra ata, ana sürüyə hücum edəndə ceyran balalarını diri əsir götürürlər. Buraxırlar öz yırtıcı balalarının ixtiyarına ki, ov etməyi öyrənsinlər. Gələcəkdə ac qalmasınlar.

İndi deyəcəksiniz ki, bu heyvanlar aləmindəki ov prosesinin nazirlərə nə dəxli var?

Bu günlərdə "Visiontv.az" internet televiziyasına verilişə çağırmışdılar. Aparıcı psixoloqTürkan Azadın verdiyi suallardan biri də bu oldu ki, Türkiyədə nazir uşaqlarının rüşvət qalmaqalında tutulmasına münasibətiniz necədir? Mənim də o saat bu mənzərə yadıma düşdü. Türkiyə nazirləri çox uzaqgörəndirlər. Elə bilirsiniz ki, rüşvəti özləri ala bilməzdilər? Yoxsa, sürücülərinə bu məsələni tapşıra bilməzdilər? Lap məni də dəvət etsəydilər 0,01 faizə bu şərəfli işi onlar üçün həyata keçirərdim. Amma fikir verirsinizsə onlar rüşvət almağı digərlərinə yox, məhz oğlanlarına həvalə ediblər ki, indidən öyrənsinlər. Heyvani dillə desək, ov etməyi öyrənsinlər. Gələcəkdə də bunu öz uşaqlarına – nazirlərin nəvələrinə, nəslinə miras buraxsınlar. Nazir də bu prosesi izlədikcə arxayın olur: "Bu dünyadan rahat köçə bilər. Ailəsi ac qalmayacaq".

Göründüyü kimi, türkiyəli nazirlər sadə heyvani qanunlardan istifadə edirlər. Heyf ki, sirləri faş oldu, bu qabaqcıl təcrübə bütün dünyaya yayıldı. Bütün arzularım da ürəyimdə qaldı.

Mənim atam şair idi. Mən də ondan yazmağı öyrəndim. Yəni ki, ov eləməyi. "Ceyran qoruğu"na girə bilmirəm. Qıraqdan baxa-baxa qalıram. Nəfsimi boğub yaxınlıqdakı kanala tilov atıram. Bəxtimə isə ancaq "kilkə" düşür. O da onuncu cəhddə. Türk nazirinin balası ceyran yeyir, mən isə kilkə. Allah bərəkət versin.

Atam Qabilin və dostlarının bamәzә әhvalatları

"ÇİRKAB" DAHA ŞAİRANƏ SƏSLƏNİR

*Az.**TV**-nin "Xəbərlər" redaksiyasında işləyirdim.Sədrimiz Nizami Xudiyev həm də deputat idi. Ona görə də parlamentdən hazırlanan bütün videomateriallar özü baxandan sonra efirə gedirdi. İndi deyəcəksiniz ki, belə senzura vardı? Əsla yox. Çünki, müxbir 125 deputatdan hər hansı birini yaddan çıxarıb efirə verməsəydi, növbəti iclasda məhz Nizami müəllimin gününü göy əskiyə döndərəcəkdilər. O deyəcəkdi ki, məni niyə efirə qoymursan? O biri deyəcəkdi ki, Nizami mənə "zapret" qoyub. Hələ iclasa dəvət olunan vəzifəli şəxsləri , ekspertləri demirəm. Ona görə də Milli Məclisə gedəndə xüsusilə diqqətli olurduq. Amma neyləsə də, müxbirlər yenə də Hacı Madər, Tofiq Hüseynov, Hüseynbala*

Mirələmov, Miri Qəmbərov, Baba Rzayev, Vaqif Abdullayev, Fəttah Heydərov kimi – Az.TV dilində desək, – "yaxşı oğlanları" çəkməyə meylli idilər.

Nə isə mətləbdən uzaqlaşdım. Milli Məclisin iclasları ilə yanaşı Komissiya iclasları da çəkilirdi. Maraqlı bir şey olmurdu. Komissiya guya ki, müzakirə edirdi və tövsiyyə edirdi. Prezident Heydər Əliyevin göndərdiyi qanun layihəsinə görəsən nə əlavə edə bilərdilər ki? Bu iki kəlməyə görə çəkiliş qrupu da avara olurdu. Günlərin bir günü məni də "cərimə batalyonu"na saldılar. Ekologiya, təbii ehtiyatlar daimi komissiyasının iclası idi. Asya Manafova da sədr idi. Mövzu da ki, "Tullantı (çirkab) suları haqqında Qanun layihəsi"nin müzakirəsi. İlk fikrimi çəkən isə iclasda deputatlar – şair Musa Yaqub və xalq şairi Cabir Novruz oldu. Cabir əmiylə isə yanaşı düşdük.

-Mahir, necəsən? Aton necədir? Bəyim bacı, uşaqlar? Üzlərindən öpərsən nəvələrimin.

Mən isə dilimi dinc qoymayıb. "Cabir əmi, siz, Musa Yaqub hara, ekologiya komissiyası hara? Məgər mədəniyyətdə, təhsildə yer olmadı ki, bura düşdünüz?" Dedi ki, a bala, Asya xanımdır da, qadındır, xahiş elədi, təkid elədi, biz də qəlbini qırmadıq.

İclas isə öz axarında gedirdi. Ekspertlər tər tökə-tökə nəsə danışır, müzakirə edirdilər. Biz də əmi-qardaşoğlu öz söhbətimizdə. Bir an Musa Yaqubun da müzakirəyə qatıldığını sezə bildik. Amma nə deyirdi eşidə bilmədik. Maraqlı deyildi bizə. Papam haqqında məzəli əhvalatlarını danışırdı. Birdən Asya xanımın "Cabir müəl-

lim, Cabir müəllim" sözləri ayırdı bizi söhbətimizdən.

-Bəli, Asya xanım,– deyə Cabir müəllim gec də olsa hay verdi.

-Cabir müəllim, qanunun adında müzakirələr dalana dirənib. Sizin kimi şairin, dil sərrafının fikrinə ehtiyacımız var.

-Buyurun.

-Qanunun adı "Tullantı, mötərizədə çirkab suları haqqında qanundur". Siz nə məsləhət görərdiniz?

Söhbətin şirin yerində qalmışdıq. Ona görə də tez-tələsik cavab "ikisi də yaxşıdır, tullantı da qalsın, çirkab da".

-Yox axı, Cabir müəllim, ikisi də olmaz, qanunda mötərizə olmamalıdır. Ya çirkab olmalıdır, ya tullantı.

-Çirkab olsun.

-Cabir müəllim, onda belə çıxır ki, yağan qar, yağış, bu da çirkabdır? Belə də düz alınmır. Həm də iki addan birini seçməliyik. Ya da ki təzə bir ad deməlisiniz.

-Musa Yaqub nə dedi?

-"Çirkab".

-Mən də "çirkab" deyirəm.

-Axı niyə? Əsaslandıra bilərsinizmi?

-Çünki, "çirkab" çox şairanə səslənir.

FİDEL KASTRO DEYƏNDƏ, QABİL YADA DÜŞÜR

***1996**-cı il avqustun 12-si idi.* *70 yaşı tamam olurdu. Axşam qonaqlar gələcəkdi. Səhər 8-dən isə televizoru qoşub "polnı xod" vermişdi. Efirdə Az.TV-nin "Səhər" proqramı gedirdi. Ta saat 10-can gözünü çəkmədi ekrandan. Proqram qurtaran kimi zəng elədi "09"a, telefon-məlumat xidmətinə. Əsəbi şəkildə televiziyanın "Səhər" proqramının telefon nömrəsini istədi. Zəng elədi. Proqramın rəhbəri Qulu Məhərrəmlini istədi. Uşaqlar da sağ olsunlar, Qulu müəllimi tez tapıb calaşdırdılar.*

-Qulu müəllim, səhərdən oturmuşam televizorun qabağında. Deyirəm ki, indi məni göstərərlər, bu dəqiqə göstərərlər. Amma hamını verdiz, məni vermədiz?

-Nəyi verdik, nəyi vermədik, Qabil müəllim?

-Necə yəni... Bu gün mənim ad günümdür. Ad günüm yox e, 70 illik yubileyimdir. Fidel Kastronu saqqalından sürüyüb Kubadan gətirib çıxartdın efirə, "Təqvim" rubrikasında düz 3 dəfə ad gününü təbrik etdin, amma burdan bura məni bir dəfə də təbrik eləmədin.

Səhərisi günü "Səhər" proqramı "səhv"ini düzəltdi. Əslində onlarda da təqsir yox idi. Onda da, indinin özündə Qabilin bütün təqvimlərdə ad günü avqustun 15-i yazılıb. Sonralar mən Az.TV-də işləyəndə xatırlatmanı özüm edirdim. Qulu müəllimə bircə işarə bəs edirdi: "Qulu müəllim, sabah Fidel Kastronun ad günüdür a.."

ŞEYXİN EVİ TİKİLƏYDİ, SƏNİ HƏCCƏ GÖNDƏRƏN YERDƏ

Axşamçağı idi. Evdə oturmuşduq. Yaxşı yemək bişirmişdi. Yarım litr də soyuducuda. Mən işə qayıtmalıydım. Yəni ki, içməyəcəkdim. "Kompaniyasız" da boğazından keçməyəcəkdi. Birdən qapı döyüldü. Gələn şair, jurnalist Ağəddin Mansurzadə idi. Köhnə dostu, qələm dostu, yeyib-içən Ağəddin. Ona zarafatca Qaqətdin də deyirdi. Elə bil kişiyə dünyanı bağışladılar. Birinci sualı bu oldu: Ağəddin, Masallıda Qodman kəndi var? – Var. Latviyanın baş naziri sizin Qodman kəndindədir deməli, hə?... – Xeyr, Qabil müəllim, bu haradan çıxdı? – Bəs onda, niyə familiyası Qodmanisdir?

Gülüşdülər. Çoxdandır görmürdü Ağəddini. Özü də ki, elə vaxtda gəlib çıxmışdı ki...

Mən o saat gündəmdən düşdüm.

– Qabil müəllim, bilirsən niyə gəlmişəm? Bəs uşağın toyudur. Səni də dəvət edirəm.

Atamın çiçəyi bir az da çırtladı.

– Ay Allah xeyir versin, xoşbəxt olsunlar. Bax bu oldu ikiqat şad xəbər. Biri sənin gəlməyin, biri də toy. Bunu qeyd eləmək lazımdır.

Ağəddin nəsə demək istədi. Atam qoymadı. Elə bildi ki, aradan çıxmaq istəyir, ərkyanə "otur yerində", deyib keçdi mətbəxə. Hər şey hazır idi. Bir dənə bərkdən "Mahir" qışqırdı. Yəni ki, gəl kömək elə, süfrəni düzəldək. Süfrə həmən düzəldi. Araq açıldı. Bir rumka Ağəddin, bir rumka da özüyçün süzdü. Mən artıq yaddan çıxmışdım. Badəni qaldırdı.

– Ağəddin xoş gəlmisən. Həmişə sən gələsən. Allah, cavanları xoşbəxt eləsin.

Və badəni toqquşdurmaq üçün uzatdı Ağəddinə. Ağəddin isə yerində donub qalmışdı. Əlini heç badəyə də uzatmırdı. Bir atama baxırdı, bir də arağa.

– Qabil müəllim, bəs səhərdən demək istəyirəm, macal vermirsən. Mən axı, hacı olmuşam.

Araya bir anlıq sükut çökdü. Amma atam pərtliyini güclə gizlədərək bircə – Nə olar, Allah xoşbəxt eləsin, deyə badəni çəkdi başına.

– Ağəddin, sənlə bir ton araq içmişəm, sən deməli həccə getmisən?

– Hə, Qabil müəllim.

Könülsüz-könülsüz "Allah qəbul eləsin", dedi. Bir

badə də süzdü. Bu dəfə Ağəddinə tərəf uzatmadı. Sanki Ağəddin gözündən düşmüşdü. Axı, onun kimi yemək-içməyin yerini bilən həmpiyaləsini itirmişdi. "Xoşbəxt olsunlar", deyə rumkanı çəkdi başına.

Ortaya çökmüş sükutu yenə atam pozdu.

– Ağəddin, axı sən kasıb, təmiz, jurnalistsən. Bəs necə oldu ki, həcc boynuna düşdü. Başa düşdüm e, boynuna düşməyib. Gedib-gəlmək xərcini necə tapdın?

– Qabil, Allah Şeyximizə uzun ömür versin. O səbəbkar oldu. Göndərdi məni. Getdim gördüm o müqəddəs yerləri. Allah sizlərə də qismət eləsin.

– Təki ürəyimiz təmiz olsun. Amma 60-dan sonra arağı atmaq çox təhlükəlidir a... Qasım da (şair Qasım Qasımzadə) arağı, yemək-içməyi atdı, başladı namaz qılmağa, oruc tutmağa, sərxoş olan mikrobları başladı yavaş-yavaş ayılmağa, yazıq "rak"dan getdi. Nəsə özünü gözlə.

Ağəddin heç nə demədi. Atam sanki pərt olmuşdu. Ağəddin də ondan betər. Atam bir rumka da süzdü. Əlinə götürdü. Qımışdı. Sanki bugünkü pərtliklərinə səbəb olan "təqsirkarı" tapmışdı. Ürəyini də boşaltdı, 3-cü rumkanı da...

– Ağəddin, Şeyxin evi tikiləydi, səni həccə göndərən yerdə...

QABİLDİR – ÖZ "YERAZ"IMIZDIR!

1995-ci ilin deputat seçkiləriydi. Atam da namizədliyini Nəsimi rayonundan irəli sürmüşdü. Namizədliyinin qeydə alınması üçünsə o ərazidə mənzil qeydiyyatında olan 2000 nəfərin imzası, bir də 140 min manat rüsum, o vaxtın diliylə desək, 14 "şirvan" tələb olunurdu. Əlbəttə ki, bu işdə əsas yük mənim üzərimə düşmüşdü. Qapı-qapı düşüb imza toplayırdım. Kimisi gülərüzlə qarşılayırdı, kimisi qapıdan qovurdu, eləsi də olurdu ki, heç qapını açmırdı. Hamıya da özümü namizədin vəkili kimi təqdim edirdim. 6 günə artıq 1500 imza toplamışdım. Növbəti günlərdən birində daha bir mənzilin qapısını döydüm. Bir kişi açdı. Onları narahat elədiyim üçün üzr istədim, bir az da guya ki, utandım, qızardım. Əlbəttə ki, işimin xatirinə. Dedi ki, kiminçün imza toplayırsan? Dedim ki, Qabilçün. Bu dəfə şair sözünü əlavə etmək yadımdan çıxdı. Soruşdu ki, nəyisən? Çaşdım düzünü dedim: Oğlu.

Bah, burada kişinin üzü güldü. Məni içəri dəvət etdi. Arvada çay gətizdirdi. Ailədə 6 nəfər idi. Hamısı da pasportlu vətəndaş, yəni ki, seçici. Altı dənə pasportu mənə verdi ki, bəs qardaş yaz. Qabil bizim canımız-ciyərimiz. Arvadı bir az da irəli getdi: "Qabilə imzamızı, səsimizi verməyəcəyiksə onda bizə haram olar. Mən gedim qonşulara hay vurum, onları da bu işə cəlb edim".

Beləcə çay içə-içə qonşular da öz ayaqları ilə gəlib pasportlarını verdilər, mən də yazdım. Necə deyərlər bir güllə ilə 30 imza vurdum. Razılığımı bildirdim. Ayağa durdum. Sağollaşdım. Evin xanımı sağollaşanda dedi ki, salam de Qabil müəllimə, eloğlumuzdur. Qabildir e – öz "yeraz"ımızdır. Çaşıb qaldım. Dedim ki, axı atam bakılıdır, indi ki, siz də onu özünüzkü sayırsınız, mənimçün çox xoş oldu. Arvadın rəngi dəyişdi: "Ə, necə yəni bakılıdır, Qabil Hüseynli ermənistanlıdır, öz "yeraz"ımızdır".

Onda başa düşdüm ki, qadın səhərdən bu canfəşanlığı həmkəndliləri, o vaxt Prezident Heydər Əliyevin müşaviri işləyən Qabil Hüseynlinin xatirinə edirmiş. Heç nə demədim. Tezcə oradan uzaqlaşdım.

QABİL HEÇ VAXT RÜŞVƏT ALMAYIB

1969-cu il Azərbaycan Kommunist Partiyasının məşhur plenumunda respublikada rüşvətxorluğa qarşı mübarizə başlayır. Əmək kollektivlərində də bu qərar müzakirəyə çıxarılır. Növbə Azərbaycan Yazıçılar İttifaqından da yan keçmir. Yazıçılar da bu qərarı dəstəklədiklərini bəyan edirlər.

Qabil də bu əsnada söz alır. Öz kommunist mövqeyini nümayiş etdirir. Azərbaycanda təmiz adamların da çox olduğunu bildirir. Çıxışını belə başa vurur: "Elə biri mən. 43 yaşına çatmışam, ömrümdə bir qəpik də rüşvət almamışam". Bu sözü eşitcək xalq yazıçısı Əli Vəliyev yerindən səslənir: "Qabil, verməyiblər almamısan, versəydilər alardın!"

BUNU YAZIM?

Ölümünə 2 ay qalmışdı. Ayağı burxulmuşdu. Ayaq barmağında qaralma başlamışdı. Qanqrenadan şübhələnirdik. Əsayla gəzirdi. Evə kimsə zəng elədi ki, bəs Qabil müəllim, Nəsir İmanquliyev haqqında xatirə kitabı buraxırıq, siz də onun müasiri kimi yadınızda qalanları yazın.

-Mənim Nəsir müəllim haqqında xatirəm-filan yoxdur. Sağ ol!

Dəstəyi yerə qoydu. Mən elə bildim ki, canı ağrıdığına görə belə deyir. Dedim ki, yaza bilmirsən, diktə elə mən kağıza köçürüm. Dedi ki, yox. Siyasi düşüncələrim baxımından əl çəkmədim. Bildim ki, başqa cür başa düşə bilərlər. Axı telefonda görmürlər ki, xəstədir. Gördü ki, çox narahatam. Başladı məni başa salmağa ki, nəyə görə yazmır.

-Mahir 10-da oxuyurdun. Pirşağı sahillərində çimirdik, yadındadır?

-Hə!

-Bir mavi "QAZ-24" dayandı yanımızda, "Pravitelstvennı" nömrəylə. Yadındadı?

-Hə!

-İçindən bir yaşlı? Ağayana kişi düşdü. Əlində də 2 butulka arağ. Qucaqlaşdı, öpüşdü mənimlə. Biz də dayınla bir butulkanı boşaltmışdıq. Onunla da iki arağın axırına çıxdıq. Şəhərəcən də rulu sən tutmusan, maşını da Allah sürüb. Yadındadır?

-Hə!

-Bəs o kişi Nəsir İmanquliyev idi də. Yeganə xatirəm də budur. İndi mən bunu yazım?

"ANAMIN CIĞIRI"

"Ədəbiyyat və incəsənət" qəzetində işləyəndə həftədə bir dəfə növbətçi qalırmış. Ta qəzet çapa hazır olmayanadək mətbəədən tərpənmirmiş. Çünki texniki işçilər rus və iş vaxtı əsasən dəm olduqları üçün onlara xüsusi diqqət yetirmək lazım imiş. Təsadüfən qəzetin növbəti nömrəsində çap olunacaq bir şeir atamın diqqətini çəkir. Tez həmin şeirin müəllifinə – M Ə-yə (təxəllüsü MG) zəng edir:

-Sən sabah mənə qonaqlıq verməlisən!

-Xeyir ola?

-Çünki mən indi mətbəədə "dejurnuyam". Sənin də şeirin çapa gedir.

-Ay Qabil, qəzetdə yüz dənə yazı gedir. Mənimki də onlardan biri. Axı niyə qonaqlığı məhz mən verməliyəm?

-Çünki sənin şeirinin adı çox xatalıdır: "Anamın cığırı"

-Burda xatalı nə var ki? “Anamın cığırı” – normal addır da?

-Necə yəni? Sən bax qəzetdə işləmisən də? Bilirsən də burada şriftləri yığan ruslardır. İndi Kolya da dəmdir, Tolya da. İndi də işə başlayacaqlar. Allah eləməsin sənin “Anamın cığırı” şeirində “cığır” sözündəki “ğ” və “r” hərflərini səhv salsınlar. Mən düzdü töhmət alacağam, amma sən aləmdə biabır olacaqsan.

... HƏM DƏ SEYİDDİR AXI?!

Qabil ictimai həyatı yaxından izləyirdi. *O cümlədən Milli Məclisdə gedən hadisələri. Xüsusilə də ANS-in efirindən. Orada cərəyan edən hadisələri çılpaqlığı ilə verirdilər. Daha doğrusu söyüşmələri, əlbəyaxaları və sairə. Günlərin bir günü də 2-3 nəfər deputat başqa bir deputatın, daha dəqiq desək, müxalifətçi millət vəkilinin üstünə düşürlər. Biri ona meymun deyir, o birisi keçi, bu birisi keçisaqqal. Atam tənqidin tərəfdarıydı. Amma bu cür təhqirlərdən hiddətlənmişdi. Tədbirlərin birində Milli Məclisdə təmsil olunan şair, yazıçı, ziyalı millət vəkillərindən bəzilərini bir yerdə "yaxalayır":*

-Sizdən heç gözləməzdim. Təqsiri var, nəyi var, müxalifətçidir, kimdir – bu öz yerində. Qoy tənqid eləsinlər. Bunlar o boyda Milli Məclisdə onu təhqir etmirlər e, söyürlər. Siz də xalqımın ziyalı övladları ağzınıza su alıb müşahidə edirsiniz. Bir araya girin, dillənin. Belə olmaz axı. O da deputatdır. Bir elin ağsaqqalıdır. Ailəsi var. Özü də ki, bu köppəyoğlu həm də seyiddir axı?!

LİMONADSATAN VƏ QABİL

Sənətkarın və onun əsərlərinin taleyi qəribədir. Bəzən 2 misra, bəzən 4 misra, bəzən 1 şeiriylə yadda qalanlar olur, bəziləri isə bütün külliyatı ilə tarixə düşürlər. Elələri də var ki, heç ümumiyyətlə yaddaşa yazılmırlar. Məsələn İmadəddin Nəsiminin qardaşı Şahi Xəndan dövrünün böyük şairi olub. Amma ondan bir misra da dövrümüzə qədər də gəlib çıxmayıb. Amma çox qəribə də olsa Şamaxının mərkəzindəki və Seyid Əzim Şirvaninin basdırıldığı Şah Xəndan qəbiristanlığının adında qalıb adı. Atam "Nəsimi" dastanıyla fəxr edirdi. 10 ilə yazmışdı onu. İlk şöhrətini, fəxri adını da onda qazanmışdı. Deyirdi ki, mən tarixdə qalsam, bəlkə bu əsərimlə qaldım. Mən isə dilimi dinc qoymayaraq, "Yox. sənin yaradıcılıq taleyin "Səhv düşəndə yerimiz" şeiridir" deyirdim.

Duman dağı dolanar,
Qiyamət olar.
Duman yola sallanar,
Müsibət olar.
Müsibət oluruq biz,
Səhv düşəndə yerimiz.

80 faiz razılaşırdı da. Çünki 1969-cu ildə yazılan bu şeir zaman keçdikcə gündən-günə müasirləşirdi. Nəsillər dəyişdikcə bu gün də cavanlaşmaqda davam edir. Buna siz də şahidi olmaq istəyirsinizsə, sadəcə "Google"da "Səhv düşəndə yerimiz" başlığını axtarışa verin.

Ümman gəmisi çayda
Oturar, üzməz!
Çay gəmisi dağ boyda
Dalğaya dözməz!
Dözümsüz oluruq biz,
Səhv düşəndə yerimiz.

Muğan həsrət yağışa,
Buludlar xəsis...
Yağış tökür Talışa
Hey-hey gərəksiz...
Gərəksiz oluruq biz,
Səhv düşəndə yerimiz.

Şairi bu şeiri yazmağa məcbur edən qəhrəmanı isə bir müddətdən sonra ümumiyyətlə şerdən çıxarılıb.

Bir müqayisə edim. Təsəvvür edin ki, toydur. Çalğıçılar, tamada, yeyib-içmək, amma bəylə-gəlin yoxdur. Şeir məşhurlaşdıqca bu qəhrəmanın yeri nəinki səhv düşüb, hətta bənddən, misralardan silinib. Bəlkə də, zaman keçdikcə Qabilin adı da bu şeirdən silinəcək. Amma "Qeyrətsiz oluruq biz, Səhv düşəndə yerimiz" beyti atalar sözü, kəlam kimi yaşayacaq.

Küt bıçaq parıldayıb,
Xırçıltı salıb.
Qılınc qında pas atıb,
Qında korşalıb...
Heyf... korşalırıq biz,
Səhv düşəndə yerimiz.

* * *

Tarın pərdələrini
Düzənə qurban!
Yerdəyiş et birini,
Xaric vurarsan.
Xaric səslənirik biz,
Səhv düşəndə yerimiz.

Soruşacaqsınız ki, niyə axı, çox yerdə misal çəkəndə "müsibət..., dözümsüz..., gərəksiz oluruq..., xaric səslənirik..., heyf... korşalırıq biz, səhv düşəndə yerimiz" beytləri yox, məhz "qeyrətsiz oluruq biz, səhv düşəndə yerimiz" misralarını səsləndirilər. Əlbəttə ki, bu düzgün seçimdir. Məhz şeir də bu misraların üstündə yazılıb.

Qızmar yay günlərinin birində atam "Sovetski" küçəsindən piyada üzüaşağı Hüsü Hacıyev küçəsinə, evinə tərəf düşürmüş. Yolda susayır. Bir su satan "budka"ya yaxınlaşır. Soyuq limonad alır, içə-içə gözünü zilləyir yekəpər, balaca "budka"ya güclə yerləşən, şişman satıcı kişiyə. Butulkaları açmaq üçün nəzərdə tutulan və ucuna ip salıb xaç kimi boynundan asdığı qapaqaçana. Nəsə ilişir bu kişiyə ki, çıxart boynundan "otkrıvalkanı". Kişi də çox nəzakətlə cavab verir ki, bu mənim alətimdir, tez-tez itirirəm. Ona görə də boynumdan asmışam ki, lazım olan kimi tapım. Atam isə dediyində durur. Kişi bu dəfə "ay oğlan, limonadın pulu-zadı lazım deyil, çıx get. Xatanı uzaq elə məndən. Qoy pulumuzu qazanaq". Atam ayağını bir başmağa dirəyir ki, yox e, çıxartmalısan "otkrıvalka"nı boynundan. Nəhayət yekəpər limonadsatan görür ki, dillə mümkün olmayacaq... qolunun gücünü göstərmək üçün "budka"dan çıxmağa məcbur olur. Və atam tez oradan uzaqlaşır, daha dəqiq desək, aradan çıxır. Bu səhnə onu rahat buraxmır. Axı niyə belə bədənlə, vücudla zavodda, fabrikdə işləməli olduğu halda, bu kişi limonad satmalıdır? Axı, bu kişi işi yox, qadın işidir? Məhz bu səhnə də "Səhv düşəndə yerimiz" şeirini dünyaya gətirir. 5-ci bəndi isə limonadsatana həsr olunur:

Ağ biləklər, gül əllər
Tarlada qabar.
Bir qeyrətsiz yekəpər
Limonad satar.
Qeyrətsiz oluruq biz,
Səhv düşəndə yerimiz.

Bir müddətdən sonra isə "limonad satar" kəlməsi ümumiyyətlə şeirdən çıxarılır, "qızılgül satar"la əvəz olunur. "Səhv düşəndə yerimiz" mövzusuna Qabil yaradıcılığında bir dəfə də qayıdır. 2001-ci ildə – "Qoşayarpaqlar"ında:

İnnən belə min bir il gəlib keçsə də əgər...
Eh... nə yeri səhv düşən, nə rüşvətxor əksilər.

ATAM QABİLİN DOSTLARININ HƏYAT DƏRSLƏRİ

Mən onları öz yazımda "əmi" deyə təqdim edəcəyəm. Baxmayaraq ki, bu şəxsiyyətlər Azərbaycanın böyük söz ustaları və indiki nəslin ustadları sayılırlar. Bəlkə də indiki çızmaqaraçı məqamımda onlar mənimçün də yavaş-yavaş əmilikdən ustad mərhələsinə keçməkdədirlər.

Hər bir uşaq ailəsinin güzgüsüdür. Ona baxanda, qulaq asanda ailəsinin hansı səviyyədə olmasını asanlıqla təyin etmək olar. Mən də atamın və anamın tərbiyəsini görmüşəm. Amma qonşumuz olan yazıçı və şairlərin də bu baxımdan rolu az olmayıb. Mənə məktəbdə savad və bilik veriblər. Bu insanların simasında isə insanlıq, kişilik məktəbi keçmişəm. "Əmi" və "müəllim" müraciətlərinin, "bəziləri" və "heç biri" sözlərinin fərqinə varmışam. Dərk etmişəm ki, küsülü oldun-olmadın,

dosta bitərəf yox, həmişə tərəf olmalısan. Maşın sürəndə məsuliyyətini anlamalısan. Bilmişəm ki, kişilik insanın boyunda, xarici görünüşündə, fiziki gücündə yox, daxilində, cövhərində, mayasındadır. Bu çıxardığım nəticələrdir.

Atam Qabilin dostlarının, qələm yoldaşlarının başlarına gələn qəribə əhvalatlardan aldığım həyat dərsləri. Uşaqlıq xatirələrimi sizinlə də bölüşmək istəyirəm. Bilmirəm nə qədər maraqlı gələcək. Amma yazmağa qərar verdim.

"ƏMİ" başqa, "MÜƏLLİM" başqa...

Bir gənc şair var idi. O böyük yazıçılarımızdan birinin yaxın qohumu idi. Uşaqlığı da bizim həyətdə keçdiyindən qonşular da onu öz uşaqları kimi qəbul edirdilər. O cümlədən də Bayram əmi. Bayram Bayramov Yazıçılar İttifaqında öz həmyaşıdlarıyla oturduğu vaxt bu gənc şair də girir otağa. İlk olaraq içərilərində ən yaxın bildiyi Bayram Bayramova salam verir:

– Bayram müəllim, salam. Necəsən?

– Dur rədd ol bayıra! Tərbiyəsiz! Qanacaqsız! Özündən böyüklə bu necə danışmaqdır. Bu nə deməkdir? "Necəsən?" yox! "necəsiniz?", deməlisən. Bir-iki şeirin çıxıb deyə... özünü böyük adam-zad sayırsan? Mərifətin, qabiliyyətin olsun.

Qohumunun yaşadığı Hüsü Hacıyev küçəsindəki həyətdə oynayarkən dəfələrlə Bayram əmisi ilə görüşən, bu tərzdə və formada hal-əhval tutan və hər dəfə də on-

dan mehribanlıq, sığal görən gənc şair çaşqınlıq içində:

– Bayram əmi, nə dedim ki... Soruşdum ki, necəsən də?

– Yaxşıyam, Çingiz bala. Sən necəsən? Kefin necədir? Təhsilin necə gedir?

– Yaxşıyam, Bayram əmi – deyərək, gənc şair pərt vəziyyətdə otaqdan çıxır.

Bayram Bayramovun yanında oturanlar da məəttəl qalırlar ki, bu nə deməkdir? Birinci ondan soruşanda ki, "necəsən?"... əsəbləşdi, acıladı. İkinci dəfə kefini soruşanda mülayim, sakit cavab verdi. Dostlarının gözlərindəki bu nigarançılığı görən Bayram:

– Birinci dəfə salam verəndə bu uşaq "Bayram müəllim, necəsən?" – "müəllim" deyə müraciət etdi. Mən də ondan yaşca böyük və xalq yazıçısı olaraq bu gənc şairə tərbiyə dərsi keçdim. İkinci dəfə isə o "Bayram əmi", deyərək "necəsən?", söylədi. Bu dəfə isə mən onun əmi kimi "sən" müraciətini qəbul etdim və cavab verdim. Qoy həmişə cəmiyyətdə öz yerini və sözünün yerini bilsin. "Əmi" başqa, "müəllim" başqa...

SÜRÜCÜ OLMAQ BÖYÜK MƏSULİYYƏTDİR

Atam təzə "QAZ 24-10" maşını almışdı. Qarajdan çıxarıb silirdim. Bu dəm Bəxtiyar əmi (Bəxtiyar Vahabzadə) blokdan çıxdı.

– Salam, Bəxtiyar əmi.

– Salam, ay bala. Əlini (sürücüsü) görməmisən?

– Yox.

– Mən də tələsirəm. Harda qaldı bu?

– Bəxtiyar əmi, mən apara bilərəm.

– Yox, ay bala, yolda bir qəza-zad törədərsən... Sonra gəl Qabilə cavab ver.

Güldüm. Evli, bir uşaq atası olan mənə bu sözü deməyindən özü də... Balkonda dayanan Dilarə xalaya – "Əliyə deyərsən gələr universitetə. Mən tələsirəm, Mahirlə getdim" – deyərək əyləşdi maşına.

– Bəxtiyar əmi, həmişə sizin də, atamın da maşını olub. Amma atam maşını özü sürür, Siz isə sürücü saxlayırsınız. Niyə?

– Ay bala, sürücü olmaq çox məsuliyyətli işdir. Birinci özünə cavabdehsən, ikinci maşına, üçüncü də maşında oturanlara. Mən bu boyda məsuliyyəti boynuma götürə bilmərəm.

BOYU BU BOYDA, KİŞİLİYİ NƏ BOYDA

Hansısa iclasların birində xalq yazıçısı Əli Vəliyevin üstünə düşürlər. Biri tənqid edir, o biri tənqid edir. Heç kim müdafiəsinə qalxmır. İclasın qızğın yerində Salam əmi – gözəl yazıçımız Salam Qədirzadə özündə cəsarət tapıb bu fikirlərlə razılaşmadığını bildirir və Əli müəllimi müdafiə edir. Əli Vəliyev bu dəm ayağa qalxır və Salam Qədirzadənin bəstəboy olmasına işarə edərək deyir:

– Boyu bu boyda, kişiliyi isə nə boyda.

"BƏZİLƏRİ" başqa sözdür, "HEÇ BİRİ" başqa

Sovet dövründə prezidentin sərəncamı ilə bir qrup ziyalıya fəxri adlar verilir. Ad alanlar sırasında Bayram əminin qardaşı da olur. İclasların birində ad almayan ziyalılardan biri tribunaya çıxıb "Bu alimlərin heç biri fəxri adlara layiq deyil", fikrini söyləyir. İclas qurtarır. Dəhlizdə bu çıxışçı Bayram Bayramovla üz-üzə gəlir:

– Bayram müəllim, yaxşı ki, sizi gördüm. Qardaşınız fəxri ad alıb. Layiqdir. Ürəkdən təbrik edirəm.

– Özünsən– deyə Bayram əmi cavab verir.

– Bu nə deməkdir ki, Bayram müəllim.

– Necə yəni "nə deməkdir?" Səhərdən tribunadan döşəyirsən ki, "bu alimlərin heç biri fəxri adlara layiq deyil", indi isə məni təbrik edirsən? Sən desəydin ki, "bəziləri layiq deyil"... Mən bu təbriki qəbul edərdim. Ona görə də deyirəm: "özünsən", yəni ki, eşşək özünsən!

"LEHİNƏ" olmalıydı, "BİTƏRƏF" yox!

Atam qonşumuz, dostu Əliağa Kürçaylı ilə uzun müddət idi ki, küsülü idi. Hər ikisi də Sov.İKP-nin üzvü idilər. Partiya iclaslarının birində Əliağa Kürçaylının məsələsi müzakirəyə çıxarılır. Səhv etmirəmsə partiya biletini itirmişdi, ya oğurlamışdılar, ya da kimsə cırıb zibil yeşiyinə atmışdı. Bu, o dövr üçün çox böyük günah sayılırdı. Müzakirə və çıxışlardan sonra məsələ səsverməyə çıxarılır. Yazıçı partiya üzvləri Əliağa Kürçaylının

əleyhinə səs verirlər. Bircə küsülü olduğu dostu Qabil bitərəf qalır.

Bir müddətdən sonra isə küsülülər barışırlar. Atamla yeyib-içəndə Əliağa əmi həmişə təkrar edirdi:

– Qabil, mənim əleyhimə səs verənlər heç vecimə də olmadı, amma sənin bitərəf qalmağın məni yandırıb tökdü.

HEYDƏR MÜƏLLİMİN SAĞLIĞINA

İşdə idim. Gördüm zəng gəlir. Atam idi:

– Tez, təcili, güllə kimi gəl evə.

– Nə olub?

– Prezident yubiley hədiyyəsi göndərir.

Sevindim. Tez taksiyə minib gəldim evə. Gördüm ki, həyəcanlıdır.

– Bu gün Heydər müəllim (atam Prezidentə həmişə "Heydər müəllim" deyə müraciət edirdi) zəng eləmişdi. 75 yaşımı təbrik elədi. Soruşdu ki, "Qabil, yenə də yeyib-içirsən?" Dedim ki, hə. Dedi "onda evdə ol. Hədiyyəni göndərirəm". Mən də səni çağırdım ki, qonaqlara qulluq edəsən. Anan yaxşı ki, hazırlıq görmüşdü. Plov dəmdədir.

Uçmağa qolum-qanadım yox idi. "Prezident hədiyyə göndərir". Xəyalımdan nələr keçmədi: Şəhərin mərkəzində 4 otaqlı "novostroyka"nın açarları. (Hələ mən-

zil verilməmişdi. 2001-ci il idi). Xarici maşın (16 ilin "QAZ-24"dən canım qurtaracaqdı). Daha nələr, nələr... Əvvəlcədən şərt də kəsdim.

– Bax, papa, ev, maşın olsa mənimdir.

Bircə "hamısı sənindir" dedi. Deməyim də artıq idi. Axı evin yeganə övladı mən idim. Atama qalanda isə onun üçün hədiyyənin böyüklüyü-kiçikliyi, nə olması vacib deyildi, hədiyyənin kim tərəfindən göndərilməsiydi, qiymətləndirilməsiydi. Özü demişkən "müsbət emosiya". Onu yaşadan bu idi. Mənim isə bunu başa düşməyimə hələ çox vardı.

Qapı döyüldü. İki nəfər içəri girdi. Atama Prezident Heydər Əliyevin "vizitka"sıyla qızılgül buketi təqdim etdi. Təbriklərini çatdırdı. Qoltuğundakı əllə toxunma, nəfis xalçanı açıb göstərdi. İkinci adam isə iri bir yeşiyi yerə qoydu. Atam onları ha süfrəyə dəvət elədi, oturmadılar. Üzrxahlıq edib getdilər. Gələnlərin getməyini gözləyirdim. Qapıdan çıxan kimi, dərhal şığıdım yeşiyin üstünə. Atam isə divanda oturub sakitcə tamaşa edirdi. Demirdi, amma baxışlarından "görməmiş" sözünü oxuyurdum.

Qutunu açdım. Üstdə eksporta gedən 100 qramlıq qara kürü bankaları idi. İkinci qatda cürbəcür araqlar. Üçüncü qatda şərablar. Dördüncü qatda "Şirvan" konyakları və şokolad qutusu. Səliqəylə kağıza bükülmüş halda ki, sınmasın. Qutunu ələk-vələk elədim. Mənim xəyalımda olanların heç birini tapmadım. Pərt olmuşdum. Atam isə gülümsəyirdi. Prezidentin göndərdiyi hədiyyələr ləzzət eləmişdi ona...

– Gördün, ay oğul, yeyib-içənçün Allah yetirər, deyiblər.

Anam süfrəni düzəltdi. Atam qara kürü bankalarından və hədiyyə araqlardan birini açdı. "Zakuska" kimi qara çörəyin üstünə yağ və kürü çəkdi. Badələri doldurdu. Ayaq üstə:

– Prezidentimizin payı çox olsun. Heydər müəllimin sağlığına!

Əvvəl axır mən də arzuma çatdım. 2003-cü ildə Prezident hədiyyəsi olan, tam təmirli "novostroyka"nın açarları cibimdəydi. Bu mənimçün ev idi. Atam üçünsə qiymət, Prezident və dost hədiyyəsi...

"HEYDƏR MÜƏLLİM, GEDƏYİN YÜZ-YÜZ VURAYIN"

Atamın 70 yaşı tamam olurdu. Prezident Heydər Əliyev evə zəng vurub, atamı təbrik etdi. Dedi ki, "axşam saat 8-də "Xəbərlər"ə bax. Sənə təbrik məktubu ünvanlamışam. Həm də "Şöhrət" ordeniylə təltif etmişəm. Yubileyini də Respublika sarayında keçirəcəyik. Hazırlaş" . Prezidentin sözü ağzında qaldı.

– Yox, mən sarayı istəmirəm. Mən "Muzkomediya"nı istəyirəm. Səməd Vurğunun yubileyi orda olub, Süleyman Rüstəmin, Mirzə İbrahimovun, Məmməd Rahimin, Rəsul Rzanın... "Muzkomediya" yaxşıdır. Mən o boyda sarayı necə dolduracağam. Mənim o qədər qonağım yoxdur".

Prezident atamla razılaşdı. Bir daha təbrik elədi. Sağollaşdı.

1997-ci il yanvarın 7-də təntənəli yubiley mərasimi keçirildi. Prezident Heydər Əliyev, hökumət və dövlət nümayəndələriylə birlikdə yığıncaqda iştirak etdi. Sonda isə atamı və ailə üzvlərini qəbul etdi. Görüşdən sadəcə bir məqamı çatdırmaq istəyirəm. Söhbətin sonunda atam yubiley mərasimini "İnturist"in "mərmər zalı"nda davam etdirəcəklərini bildirdi və Prezidenti ora dəvət etdi:

– "Heydər müəllim, uşaqlar yaxşı qutab bişiriblər. Gedəyin, bir yüz-yüz vurayın.

Belə hadisə 70 ildə bir dəfə olur. Hamınızı dəvət edirəm. Mənim özümü də dəvət ediblər".

Prezidentimiz də bunu gülə-gülə və çox səmimiyyətlə qarşıladı, minnətdarlığını bildirdi:

"Mən başqa vaxt sənlə yüz-yüz vuraram. Amma bu gün bu işi tapşırıram Anara". Güldü. Atamı təbrik elədi, getdi.

Mən onda AzTV-də işləyirdim. Tədbiri lentə alan da iş yoldaşım Sakit Ocaqlı idi. O da fikirləşib ki, "Qabildir də, şairdir. Prezidentə, özü də Heydər Əliyev kimi adama belə söz demək olar? Desə də bunu efirə vermək olmaz".

Montaj prosesində "100 qram" əhvalatını çıxarıb. Gecə saat 12-də "Xüsusi buraxılış" efirə gedəndən sonra aləm dəyib bir-birinə. Prezident əsəbi şəkildə sədrimiz Nizami Xudiyevə zəng edib, "qayçılanan" lentin bərpa olunması göstərişini verib: "Mən Qabillə səmimi söhbət etmişəm, zarafatlaşmışam. Nə ixtiyarla həmin yerləri efirə verməmisiniz?"

Beləliklə montaj prosesi yenidən aparıldı. Heydər Əliyevlə Qabilin zarafat dolu, səmimi söhbəti ertəsi gün səhər, günorta, axşam, gecə buraxılışlarında tam şəkildə efirə getdi.

HEYDƏR YAXŞI BİLİR...

Axşam çağı idi. Evdə oturmuşdu. Telefon zəngi gəldi. Uşaqlıq dostu, qonşumuz Nəbi Xəzri idi:

– Qabil, tədbirə gedirəm. Maşın var. Gəl səni də aparım.

Nəbi Xəzri qısa desəm, "Dostluq" cəmiyyətinin sədri idi. Hökumət maşını vardı.

– Nə tədbir?

– Necə yəni nə tədbir. Türkiyənin Baş naziri Məsud Yılmaz gəlib. Sarayda dövlət tədbiridir. Heydər Əliyevin iştirakıyla. Yadından çıxıb?

– Məni saraya tədbirə-zada çağırmayıblar.

– Necə yəni çağrılmayıblar?

Elə dövlət tədbiri olmazdı ki, ora Qabil, Nəbi Xəzri, Bəxtiyar Vahabzadə dəvət olunmasınlar. Bu, artıq protokol qaydası idi.

– Nəbi, çağırmayıblar da. Sən get. Axşam "Gülüstan" sarayında görüşərik. Prezident Heydər Əliyevin Baş nazir Məsud Yılmazın şərəfinə verdiyi ziyafətdə.

– Nə "Gülüstan" sarayı... Məni ora çağırmayıblar, axı.

– Ay, Nəbi. Heydər yaxşı bilir yeyib-içən Qabili hara çağırır, səni hara.

Səhəri Nəbi Xəzri tezdən yenə zəng elədi:

– Qabil, dövlət qəzeti alarsan.

– Niyə?

– Bilirsən nə oldu? Məsud Yılmaz böyük bir məruzə etdi. Sonda dedi ki, "bakılı şair Qabil Allahverdi oğlu demişkən"... və çıxışını sənin Azərbaycan-Türkiyə dostluğuna həsr olunmuş şeirindən bir parçayla bitirdi.

– Görürsən də Nəbi, sən orda olmusan, amma şeirini oxumayıblar. Mən isə evdə çay içirdim, amma orda şeirimi oxuyurdular.

HEYDƏR ƏLİYEV ŞAİRLƏR ÜÇÜN KİM İDİ?

Zəmanəsinin görkəmli şairlərindən birini şah hüzuruna çağırır. Amiranə şəkildə "Mənim şərəfimə bir poema yazmalısan! Hər misrasına da bir qızıl verəcəyəm!", deyir. Şair də bu əmrdən qeyzlənib həmən "yox!", deyir. Şah əsəbiləşir, şairi atdırır zindana. İşgəncə verdirir. Bir aydan sonra şairi yenidən gətirirlər şahın hüzuruna. O yenə "yox!" deyir. Bu dəfə də şah ona qızıl, mal-mülk təklif edir. Şairsə "sifarişlə yazmıram", deyə bunlardan da imtina edir. Şah yenidən onun zindana atılmasını əmr edir. Bu minvalla şairi düz bir il zindanda saxlayır. Bu bir ildə o zindanda tək qalır, çox şeir, poema yazır. Amma şahın ona sifariş etdiyi əsərdən başqa. Nə zülm edirlərsə, inadından döndərə bilmirlər ki, bilmirlər.

Əslində şah sənəti, şeiri, musiqini sevən, yüksək qiymətləndirən adam idi. Amma neyləsin ki, şah idi. Əmr verməyə öyrəşmişdi. Şahın ağıllı bir vəziri vardı. Şeir-sənət vurğunu idi. Şairi də, sənətini də sevən adam idi. Deyir ki, "şah sağ olsun, şairə işgəncə-zad vermə. Mənə həvalə et, 10 gün ərzində yola gətirim onu".

Padşah vəzirin bu sözünə inanmasa da, əlacsız qalıb razılıq verir.

Elə həmin gün vəzirin tapşırığı ilə şairin yatdığı zindana bir çoban salırlar. Sənətkar çox sevinir. Axı şairlər şeir yazdıqdan sonra onu kiməsə oxumağa daha çox ehtiyac duyurlar. Bundan zövq alırlar. İradlar olanda nəzərə alırlar. Tərifl ənəndə xoşhal olurlar.

Ən əsası isə təzə yazılan şeiri "isti-isti" kiməsə oxumaqdır. Bu işi də düzəlmişdi. Saçı-saqqalı uzanmış, ağarmış şair çobanı otuzdurur qabağında və başlayır təzə yazdığı, bədbin notlarla dolu olan poemasını ona oxumağa. Əruz vəznində, fars dilində, özü də xüsusi avaz və aramla. Çoban da qulaq asdıqca təsirlənir, kövrəlir. Başlayır ağlamağa. Bu şairə lap ləzzət edir. Deməli gör poeması nə qədər güclü və təsirlidir ki, hətta şeirdən, sənətdən uzaq olan bir çoban da ona qulaq asanda hönkür-hönkür ağlayır. Nəhayət ki, şair poemasını oxuyub qurtarır. Çoban da güc-bəla ağlamağını kəsir. Şair soruşur:

– Hə çoban, necəydi?

– Nə?

– Poemam.

– Bilmirəm. Poema nə deməkdir ki?

– Necə yəni bilmirəm?

– Bilmirəm də. Mən çoban adamam nə başa düşürəm ki, şeir nədir, sənət nədir, poema nə?

– Bəs onda niyə mən oxuyanda gözünü üzümə dikib diqqətlə qulaq asırdın? Hətta mən oxuduqca təsirlənirdin, kövrəlib ağlayırdın da.

– Nə təsirlənmək, nə kövrəlmək. Ay şair, mən qulaq asmırdım e... Sənin saqqalına baxıb ağlayırdım. Şeir oxuduqca tərpənirdi. Lap mənim sürümün önündə gedən ağ keçimin saqqalı kimi. O yadıma düşmüşdü. Ona görə ağlayırdım. İndi görəsən mənsiz neyləyir?

Çoban başlayır təzədən hönkürməyə. Şair hər şeyi başa düşür. Başa düşür ki, şeiri çobana yox, xiridara, sərrafa oxuyarlar. Şeiri başa düşənə oxuyarlar. Şahın hüzuruna gedir və təklifini qəbul edir. Beləcə hər misrası qızıla bərabər qiymətli bir əsəri dünyaya gəlir. Özü də onu qiymətləndirənin şərəfinə.

Bu bir rəvayətdir, olan hadisədir – bilmirəm. Deyilənə görə böyük şair Firdovsinin başına gəlib, yaranan əsərin adısa "Şahnamə"dir. Amma bu hadisə hər dəfə yadıma düşəndə Heydər Əliyev canlanır gözümün önündə.

Ağlım kəsəni Azərbaycanda 9 rəhbər görmüşəm. Amma sənətkarlara rəğbəti, hörməti baxımından onun kimi ikinci dövlət başçısı tanımıram. 1969-cu ildən 2003-cü ilə qədər Azərbaycanda yaşayan hər bir sənətkarın, o cümlədən dünya şöhrətli klassiklərimizin həyatında onun silinməz sərraf izi var. Atam mənə daha yaxın olduğu üçün təkcə onu deyəcəyəm.

Mərhumları əsasən ildə iki dəfə xatırlayırlar. Doğum

günündə, bir də ölüm günündə. Hər dəfə də atamı televiziya, radio, qəzet və saytlarda xatırlayanda belə təqdim edirlər: Azərbaycanın əməkdar incəsənət xadimi, Azərbaycan Dövlət Mükafatı laureatı, "Şöhrət"ordenli Qabil.

Bura bir cümlə də əlavə olunmalıdır: Xiridarı, sərrafı Heydər Əliyev. Atamın son illərində bu siyahıya bir təltif də əlavə olundu – "İstiqlal" ordeni. Xiridarı isə sərraf nəslinin davamçısı İlham Əliyev.

ATAMIN DOSTU, MƏNİM MÜASİRİM – TOFİQ BAYRAM

"Yeyib-içən adam". Çoxları bu sözü sərxoşluq kimi qəbul edir, kimisi spirtli içkilərə aludəçilik. Amma hər içən, hər yeyən adam bu ada layiq ola bilmir. Yeyib-içən adam məclislərin bəzəyidir. Yeyib-içməyi hər adam bacarmır. Yeyib-içən adam məclisin sonunda yox, əvvəldə yada düşəndir. Duzlu-məzəli söhbətləriylə, şeir deməyi ilə, xatirələriylə yadda qalır. Eyni zamanda xatirələrə də həkk olunur. Necə ki, Tofiq əmim – Tofiq Bayram.

Tofiq əmim əmircanlı idi. Atası, əmiləri də imkanlı adam idilər. Ümumi desək, ticarətçi. Ona görə də uşaqlarına korluq vermirdilər. Həm də qonaqpərvər idilər. Bir də görürdün Tofiq Bayram şair dostlarını yığıb başına aparır kəndə – atasıgilə. Bu təkcə yemək-içmək məclisi olmurdu. Şeir məclisi desəm, yanılmaram. Atam

danışırdı ki, "günlərin bir günü o qədər yedik-içdik ki, Tofiq oldu dəm. Yapışdı atasıyla, əmisinin yaxasından ki, "bəs siz sosializm quruluşuna ləkəsiniz, zəhmətsiz gəlirlə yaşayırsınız, sovet quruluşunda sizin kimilərə yer yoxdu". Necə deyərlər, gəmidə oturub gəmiçiylə dava edirdi. Nədi, nədi bizi həmişə qonaqpərvərliklə qarşılayan, lazım olanda cibimizə pul qoyan atasıyla əmisi ticarətçiydilər. Bir balaca tənbeh etdilər. Çox da xətirinə dəymədilər Tofiqin. Şair idi axı. Özü də əsl şair. Gələn dəfə qonaq gedəndə heç üzünə də vurmadılar bu hadisəni".

MƏHƏBBƏT ŞEİRLƏRİ QALİB GƏLİR

Akademik Dram Teatrında poeziya gecəsiydi. Atam, Tofiq Bayram, Cabir Novruz, Nüsrət Kəsəmənli, Nəriman Həsənzadə və daha üç nəfər. Auditoriya da cavanlar – tələbə qızlar idi. Şeir seçimi isə şairlərin öz öhdəsinə verilmişdi. Bakı şəhər Partiya Komitəsindən Etibar Babayev (şair Adil Babayevin oğlu, "Space"nin keçmiş rəhbəri), Oktyabr rayon (Yasamal) Partiya Komitəsindən 1-ci katib Səyavuş Məmmədov da iştirak edirdilər. İkisi də şair ruhlu adam idi. Gecəni də onlar təşkil etmişdilər. (Görəsən indikilər təşkil edərdilər?)

Cabir Novruz 3-4 şeir dedi. Sən deyən, alqış səslənmədi. Atam da eyni qaydada, alqışlar da əvvəlki səviyyədə. Tofiq Bayram "Azərbaycanım" şeirini oxudu. Zaldan gur alqışlar gəlmədi. "Azərbaycan deyəndə" oxudu, yenə də bir şey hasil olmadı. Ürəyi az qala ağzından çıxa-çıxa "Valakardin" oxudu. Xalaxətrin əl çaldılar.

Daha iki şeir oxuyub əyləşdi yerinə. Nüsrət Kəsəmənli "Gedirsən, bəhanəsiz get" deyən kimi zal başladı gurlamağa, səhnəyə güllər axdı. Nəriman Həsənzadə cavanlıq illərində həyat yoldaşına həsr etdiyi 30 ilin məhəbbət şeirlərini oxudu. Zalda alqış səsləri kəsilmədi. Bu, çıxış eləyib qurtaran şairlərdən heç kimə təsir etmədi. Çünki onlar təzə yazdıqları şeirləriylə oxucuların görüşünə gəlmişdilər. Baxmayaraq ki, hamısının yaradıcılığında yüksək məhəbbət poeziyası vardı. Nüsrət Kəsəmənliylə Nəriman Həsənzadə isə yeni yazdıqları şeirləri yox, auditoriyanın tələbələr olduğunu əsas götürüb şeir seçimi etmişdilər. Əvvəl çıxış edənlər hamısı sakit oturmuşdu.

Tədbirdən sonra "Azdrama"nın özündə kiçik bir ziyafət təşkil olunmuşdu. Bunu gözləyirdilər. Sonuncu Nəriman Həsənzadə idi. Çıxışını qurtarar-qurtarmaz, Tofiq Bayram yenidən mikrofonun arxasına keçdi. Başladı nə başladı.

Necə rəhmlidir, necə amansız
Necə mehribandır qadın ürəyi
Sən onu sındırsan, bil ki o zaman
Ağlayan kamandır qadın ürəyi.

Alqışlar qopdu, nə qopdu. Arxasınca "Vağzalı". Gənclər Tofiq Bayramı səhnədən buraxmırdılar. Bu da Tofiq Bayrama ləzzət eləmişdi. Alqışlar əvvəlki pərtliyindən əsər-əlamət qoymamışdı:

– Mən də səhərdən ictimai-siyasi şeirlər oxuyuram. Bilsəydim elə əvvəldən bunları oxuyardım da...

LİMONADDIR... GƏLƏN DƏFƏ ARAQ OLACAQ

Rəsmi hissə başa çatdı. Başladı "bədii" hissə. Yəni yemək-içmək. Mən Tofiq əmiylə yanaşı düşdüm. Atam isə bizimlə üzbəüz. Etibar Babayev də tamada. Vəzifədə böyük o idi. Həqiqətən yaxşı aparırdı. Şairlər də "şair oğludur da" deyib, yaxşı mənada yerdən söz atırdılar. Tofiq əmi də boşqabıma yemək çəkib (onda utancaq idim) "alə, ye. Sən onlara fikir vermə" deyirdi. Yəni ki, nə danışırlar danışsınlar da – sən işində ol... Bakalıma da limonad süzürdü. Birdən atam:

– Tofiq, neynəyirsən? Uşağa araq süzürsən?

– Yox, Qabil. Limonaddır.

– Mən də elə bildim ki, araqdır – uşağı içizdirirsən.

– Qabil, narahat olma, bir-iki dəfə yanımda otursa, araq da içəcək.

TOFİQ BAYRAM VƏ RƏSUL HƏMZƏTOV

Hər bir əsər yazıçının övladı sayılır. Ömrünün son illəri qanıqara gəzirdi. Sanki "Övlad"larından birini itirmişdi. Tofiq Bayram təkçə şeirləriylə yox, tərçümələriylə də məşhur idi. Tərcümə isə çox çətin bir məsələdir. Özü də ki, Rəsul Həmzətov kimi böyük sovet şairinin tərcüməçisi olmaq. Bu iş onda çox uğurlu alınmışdı. Rəsul Həmzətov Tofiq Bayramın sayəsində Azərbaycan oxucusunun qəlbinə, Azərbaycan ədəbiyyatının içinə yol tapa bilmişdi.

Lakin Qarabağ məsələləri başlayanda Rəsul Həm-

zətov müsəlman, dağıstanlı ola-ola, xalqımıza dönük, ermənilərə qahmar çıxdı. Özü də SSRİ-nin mərkəzi mətbuatında. Camaat da başladı nümayişkaranə Rəsul Həmzətovun kitablarını yandırmağa. Bu həm də hansısa mənada Tofiq Bayramın da kitabları sayılırdı. Tofiq Bayramın yaradıcılığının bir qolu kəsilib atılmışdı.

YEMƏK-İÇMƏYƏ ADAM YOXDUR

Yazımı yemək-içməklə başladım, yemək –içməklə də başa çatdırıram. Yazıçılar İttifaqında danışanda özüm eşitmişəm. Səhv etmirəmsə, bu söhbətdə şair İslam Səfərlinin də izi var.

– Alə, Qabil, yemək-içmək düşmüşdü könlümə. Çıxdım dəhlizə ki, görüm kim var. Gördüm ki, adam yoxdur.

– Ağ eləmə də, Tofiq. Günün günorta çağı Yazıçılar İttifaqında adam yox idi?

– Qabil var idi e. Adam yox idi – Yemək-içməyə Adam.

Tofiq əmi, bu gün də adam çoxdur. Amma sizin kimi, sizlər kimi yeyib-içməyi bacaran adamlar heyf ki, yoxdur.

SABİRİN "ÇİMİZDİRİLMƏSİ"

Sabir poeziya günləri. *Bu Azərbaycanda hər il mayın 30-da təşkil olunan bir poeziya bayramıdır. Üç mərhələdə keçirilir. Sabirin vətəni olan Şamaxıda qəbri və heykəli ziyarət olunur. Sonra ev muzeyinin qabağında poeziya bayramıyla başa çatır. Ertəsi gün Balaxanıda – Sabirin dərs dediyi məktəbdə davam etdirilir. Nəhayət, İstiqlal küçəsində – Sabirin heykəli önündə poeziya günlərinə yekun vurulur. Əsası xalq şairi Rəsul Rza və görkəmli sabirşünas Abbas Zamanov tərəfindən qoyulub. Şair Qabil ustadların bu yolunu davam etdirib. Onların Sabirə məqbərə ucaldılması arzusunu da məhz o həyata keçirib. Ölümündən sonra poeziya günlərinə Fikrət Sadıq rəhbərlik edib. Hal-hazırda bu yolu şair Əjdər Ol davam etdirir. Sovet dövründə hər il "Sabir poeziya günləri" adlı almanax da buraxılıb. Bu "quru" bir icmal idi. Mən isə sizə bəzi maraqlı, məzəli məqamları çatdırmaq istəyirəm.*

YANĞINSÖNDÜRƏNLƏR VƏ MİRZƏ ƏLƏKBƏR SABİR

May ayı idi. Atam zəng elədi ki, bəs "yanğınsöndürmə idarəsində idim. Bu Murad Babayev (general-mayor Murad Babayev-idarənin rəisi-M.Q.) nə yaxşı oğlandır. Özü də Mirzə Ələkbər Sabiri də çox istəyir".

Məəttəl qaldım ki, atam hara, yanğınsöndürənlər hara, böyük Sabir hara? Davam etdi:

– Deməyimi gördüm. O dəqiqə iki dənə maşın göndərdi. Sabirin heykəlini qəşəngcə şampunladılar, çimizdirdilər. Axı, sabah Sabirin ad günüdür?!

Növbəti illərdə də Murad Babayev bu ənənəni könüllü davam etdirirdi.

QABAQDA "VOLQA", ARXADA "İKARUS"

Atam zəng elədi ki, "sabah Sabir poeziya günləri başlayır. Səhər tezdən "İttifaq"ın qabağından yola düşürük. Gəl "Volqa"mızı götür, bir yerdə gedək. Qabaqda biz, arxada "İkarus"". Dedim ki, bəs Anarın hökumət maşını var da, mənim işlərim çoxdur. Dedi ki, "Anar xaricdədir. Ona görə də sən gəlməlisən". Nəsə höcət elədim. Dəstəyi asdı. Bir azdan zəng elədi ki, "day gəlmə. Dayın Rafiq gələcək onunla birgə gedəcəyəm". Yenə də dilimi dinc qoymadım. "Niyə axı öz maşınımızla gedirsən, o boyda "İkarus"da yer yoxdur?". Əsəbiləşdi, dəstəyi yenidən asdı.

Sonradan başa düşdüm ki, bu bir ənənədir. Rəsul Rza

da, Abbas Zamanov da qabaqda "Volqa"yla gedirlərmiş. Arxasıyca da avtobus. Qabil də bu ənənəyə sadiqmiş.

SABİR, QABİL VƏ GÜLAĞA TƏNHA

Sabirin qəbirüstü abidəsi onun adına layiq deyildi. Amma nədənsə bu işə bir əncam çəkən olmamışdı. Nə sovet vaxtı, nə də müstəqillik illərində. Rəsul Rza və Abbas Zamanovun da Sabirin qəbri üstündə məqbərə tikdirmək arzuları olmuşdu. Atam da bunu bilirdi. Bu arzu ustadlarından ona miras kimi qalmışdı.

Gülağa Tənha adlı bir şair var. Rusiyada yaşayır. Şairliyindən daha çox xeyriyyəçilik əməlləriylə məşhurdur. Azərbaycanda çox yaradıcı insanın kitablarını çap etdirdi, yaradıcılıq gecələrini keçirdi. Atama da müraciət etmişdi ki, cildlərini çap etsin. Amma razı olmamışdı. Onun yaratdığı "Gülağa Tənha Fondu" var idi. AzTV-də iş yoldaşlarım İctimai-siyasi proqramlar redaksiyasının baş redaktoru Rafiq Kərimov və redaktoru Surxay Gülağanın (onlar həm də bu fondla əməkdaşlıq edirdilər) təkidiylə hər dəfə məndən soruşurdular ki, "Qabil müəllimin bir sözü-qulluğu var?". Mən də atamdan hər dəfə soruşanda cavabı eyni olurdu: "Sağ olsun. Hər şey var".

Günlərin bir günü Rafiq Kərimov evə zəng etdi. Əlbəttə ki, Gülağa Tənhanın təkidiylə. Eyni müraciətlə. Atam o biri otaqdaydı.

– Mahir, Qabil müəllimin bir sözü, qulluğu olar. Gülağa soruşur.

– Var.

– De, bu dəqiqə zəng edim çatdırım.

– Atam deyir ki, Sabirə məqbərə tikdirsin. Mənə hörməti bu olar.

Sağollaşdıq. Üstündən 10 dəqiqə keçdi. Rafiq zəng etdi:

– Mahir, Gülağa müəllimə dedim. Məqbərənin tikintisinə pul buraxdı.

Sevinirdim. Qorxa-qorxa o biri otağa keçdim. Kəşfiyyat xarakterli bir-iki söz dedim:

– Papa, istəyirəm Gülağa Tənhaya sənin adından deyim ki, bəs Sabirə məqbərə tikdirsin.

– Demə! Eləməz!

– Niyə?

– Bahalı şeydir. O ancaq kitab çıxarar. Yaradıcılıq gecəsi keçirər. Məqbərəyə çoxlu pul lazımdır.

– Birdən eləsə?

– Lap əla olar.

Rafiq Kərimovun sözünü çatdırdım. Uçmağa qanadı yox idi. Bircə bunu dedi:

– Abbas müəllim edə bilmədi, Rəsul müəllim edə bilmədi, axır ki, mən bacaracağam.

"KƏNDXUDANI GÖR, KƏNDİ ÇAP"

Rafiq Kərimov mənə dedi ki, "Mahir məqbərənin tikintisi üçün bəzi rəsmiyyətlərin həyata keçirilməsi lazımdır. Bunun üçün atan, sən, mən, Surxay və İlqar (Gülağanın "sağ əli" – M.Q.) Şamaxıya getməliyik".

Səhəri gün Şamaxıya getdik. Birbaşa icra hakimiyyətinə. Başçı – indi əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini işləyən – Natiq Məmmədov idi. Bizi mehribanlıqla qarşıladı. Atamın birinci sözü bu oldu:

– Natiq müəllim, belə bir misal var: "Kəndxudanı gör, kəndi çap".

Gülüşdülər. Natiq müəllim öz tərəfindən nə lazımdırsa köməklik göstərəcəyini bildirdi. Orada bəzi qəbirlərin köçürülməsi problemi vardı. Hər şey qaydasında, tam sürətlə davam etdi. 2005-ci il mayın 30-da – Sabir poeziya günlərində boz qranitdən ucaldılmış məqbərənin açılışı oldu.

BU NATİQ MÜƏLLİM QƏRİBƏ ADAMDIR E...

Məqbərənin açılışından sonra Gülağa müəllim Şamaxı rayonunun icra başçısı Natiq Məmmədova yaxınlaşır. 5 dəqiqəlik söhbətdən sonra yenidən atama yaxınlaşaraq:

– Qabil müəllim, mən çox icra başçıları görmüşəm. Amma bu Natiq müəllim qəribə adamdır e. Soruşuram ki, mənə görə bir sözünüz, qulluğunuz? İndi elə bildim

ki, nəsə şəxsi bir tələb qoyacaq, elədiyi xidmətin müqabilində. Nə desə yaxşıdır? "Əlillər üçün evin tikilməsinə köməklik edə bilərsinizmi?".

GÜLAĞA DA "ŞAİR" ÇIXDI

Atamın Sabir haqqında zərbi-məsələ çevrilən çox fikirləri vardı. Günlərin bir günü "Səhər" proqramının qonağı idi. Veriliş başa çatdı. Atamı evə yola saldım. Üstündən 10 dəqiqə keçirdi. Operatorumuz Şakir özünü tövşüyə-tövşüyə çatdırdı ki, "aton hanı?" Dedim ki, getdi. Qucaqladı məni bərk-bərk öpdü.

– Bax çatdırmadım. Evə gedəndə atonu mənim adımdan bax bu cür öpərsən.

– Niyə?

– Bircə sözünə görə: "Mirzə Ələkbər Sabir xalqımızın vətəndaşlıq pasportudur".

Atamın Sabir haqqında bir rübaisi də vardı:

Sabir köhnəliyin vəlvələsiydi,
Milli idrakımın zəlzələsiydi.
Vətən fəxr etsə də, şairləriylə
Sabir tək başına xalqın bəsiydi.

Atam Gülağa Tənhaya dedi ki, məqbərənin içində, qəbrin baş hissəsində bu rübaini həkk eləsin. Müəllifin adını isə yazmasın. Məqbərə hazır olandan sonra mə-

lum oldu ki, Gülağa atamın bu arzusunu yerinə yetirməyib. Sənətkarlar bir-birinə qısqanc olur axı... Gülağa Tənha "şair" çıxmışdı. Sonralar Şahmat Federasiyasının prezidenti olmaq istəyirdi. Amma "şahmatda uduzdu".

GÜLAĞA TƏNHA HƏM DƏ BİVƏFA ÇIXDI

Atamın son kitabı olan "Ömrün gecə qatarı" kitabı çapdan çıxırdı. Sıralamada birinci şeir də Gülağaya həsr etdiyi şeir idi. Arzusu da bu idi ki, Gülağa Tənha "Hyatt Regency" otelində bu kitabın təqdimat mərasimini keçirsin. Amma atam rəhmətə getdi. Kitab da 40-na hazır oldu. Avtoqraf yazıb Gülağa Tənhanın "sağ əli" İlqara verdim. Atamın son arzusunu da çatdırdım. Gülağa Tənha bivəfa çıxdı.

MÜNDƏRİCAT

ƏRMƏN – ŞUŞANİKİN SEVGİSİ 5
ERMƏNİ QADINLARI VƏ AZƏRBAYCANLILARIN
ERMƏNİLƏŞDİRİLMƏSİ PROSESİ... 25
STRASBURQLU KÜRƏKƏN (novella) 37
CANAVAR QANUNU 44
ARVAD VƏ MAŞIN 50
"O", "OĞ", "OĞR"... 56
ARVAD, QADIN VƏ "SEKSKUKLA" 60
ARVADLA KİŞİNİN FƏRQİ ÖLƏNDƏ OLUR 62

O DÜNYADAN MƏKTUBLAR

TEYMUR ƏHMƏDOVA 69
OĞLUM MAHİRƏ (I) 73
OĞLUM MAHİRƏ (II) 80
ELŞAD ABDULLAYEVƏ (I) 89
ELŞAD ABDULLAYEVƏ (II) 94
SƏRDAR CƏLALOĞLUNA 99
ƏKRƏM ƏYLİSLİYƏ 103
ANARA 107
SAHİBKARLARA 116

HƏYAT MÜŞAHİDƏLƏRİM

BACARIRSAN YAŞA, BACARMIRSAN ÖL! (I) 124
BACARIRSAN YAŞA, BACARMIRSAN ÖL?! (II) 128
MEHRİBAN BACANAQLAR 135
AZƏRBAYCANCA "A-eM", "Yaraq". TÜRKCƏ... 142
HACIBALA MÜƏLLİM, HANSI YAXŞIDIR ÖLÜ,
YOXSA İLANA ZƏHƏR VERƏN KƏRTƏNKƏLƏ? 145
HEYDƏR ƏLİYEVƏ SƏDAQƏTDƏ
"HACIBALA ABUTALIBOV ETALONU" 153

QIZIN ATAYA SEVGİSİ... SONU FACİƏ 157
HEYDƏR ƏLİYEVİN HƏYATINDA BAYRAM BAYRAMOV ÇEVRİLİŞİ 165
HİPPOKRATA ÖLÜM? YOXSA MƏN ÖLÜM? 175
ÇÜNKİ, HEYDƏR ƏLİYEVİN OĞLUDUR 183
MƏLEYKƏ ABBASZADƏ MƏNƏ NİYƏ ƏZİZDİR? 197
RAMİZ MEHDİYEV: DÜNƏN VƏ BU GÜN 202
QUBADLIDA OLMAMIŞAM, AMMA ORANI ALTI DƏFƏ "GÖRMÜŞƏM" 206
FIRTIŞQULUNUN ARVADI VƏ MƏŞUQƏSİ 217
MÜDİR... İKİ KATİBƏ... VƏ NƏVƏNİN... 224
XALQ ŞAİRİ 22 ... ÇADIR ŞAİRİ TƏK... 228
ANAMLA ATAMIN PİŞİKLƏRİ... MƏNİM ŞİRLƏRİM 232
NAZİRLƏRİN "ÜÇ ZƏRF"İ... 238
"LİMONADSATAN" VAQİF SƏMƏDOĞLU VƏ QABİL 241
MƏTİ VƏ TÜKƏZBANIN SEVGİSİ 244
SİCİLİYA...İRAN... AZƏRBAYCAN... 251
"FRANSIZ MƏŞUQƏSİ"YLƏ BAŞLANAN, ÖLÜMLƏ BİTƏN DOSTLUQ 256
VAXTINDAN ƏVVƏL KİŞİ OLANLAR 265
50 YAŞIN CAZİBƏSİNƏ 269
DÜŞMƏNLƏRİMİN DÜŞMƏNLƏRİ 273
ANAR VƏ FİKRƏT QOCANI ƏSƏBİLƏŞDİRƏN KİMLƏRDİR,
SAKİTLƏŞDİRƏN KİM?.. 279
PREZİDENTƏ SUAL 285
ALLAH QƏBUL ELƏSİN 287
KÖÇÜRƏNLƏR, KÖÇÜRÜLƏNLƏR 288
ŞƏRİF AĞAYAR, ŞAİR BİLİRSƏN NƏ VAXT ÖLÜR? 290
SİYASƏTDƏ SİÇOVUL TƏLƏSİ 297
HANSI QABİL? "PARAVOZ"?! 300
"TOPAZ" VƏ ROMA PAPASI 303
ƏKRƏM ƏYLİSLİ, CEHİZİN BİRİ DƏ ARTA BİLƏR… 308
SOYQIRIMLAR.., İŞĞALLAR.., KÖPƏYƏ QALİB GƏLMƏK ÜÇÜN QURD 315
NƏ ETMƏLİDİR?.. 315
QORXU, YALAN VƏ KAMERA... 320
PREZİDENT OLMAQ İSTƏYƏNLƏRƏ... 325

DAŞBAŞ – BAŞ VƏ DAŞ 329
"YERAZ" ABBASƏLİNİN TƏƏSSÜFÜ, "YERAZ" İBRAHİMİN ARZUSU... 334
NƏSİR İMANQULİYEVİN YETİRMƏSİ – BİZİM MÜLATİF MÜƏLLİM 338
QUL+LUQ+ÇU 344
"MÜCRÜ"DƏN BAŞLANAN TANIŞLIQ 351
MƏLEYKƏ ABBASZADƏ MƏŞƏDİ İBADIN "VARİS"İDİRMİ? 358
ÇÖRƏKVERƏN SƏDRİMİZ NİZAMİ MÜƏLLİM 365
SERJ SƏRKİSYANLA ARVADININ SÖHBƏTİ 373
"SALAM, ÖLÜM!"... "SAĞ OL ÖLÜM" 376
NAZİR MƏNİ TANIDI.. AMMA ÇİFAYDA... 379
YETİM YETİMƏ PAXILLIQ EDİR 383
NAZİR BALASINA OV ETMƏYİ ÖYRƏDİR 387

ATAM QABİLİN VƏ DOSTLARININ BAMƏZƏ ƏHVALATLARI

"ÇİRKAB" DAHA ŞAİRANƏ SƏSLƏNİR 391
FİDEL KASTRO DEYƏNDƏ, QABİL YADA DÜŞÜR 394
ŞEYXİN EVİ TİKİLƏYDİ, SƏNİ HƏCCƏ GÖNDƏRƏN YERDƏ 396
QABİLDİR – ÖZ "YERAZ"IMIZDIR! 399
QABİL HEÇ VAXT RÜŞVƏT ALMAYIB 401
BUNU YAZIM? 402
"ANAMIN CIĞIRI" 404
… HƏM DƏ SEYİDDİR AXI?! 406
LİMONADSATAN VƏ QABİL 407
ATAM QABİLİN DOSTLARININ HƏYAT DƏRSLƏRİ 412
HEYDƏR MÜƏLLİMİN SAĞLIĞINA 418
HEYDƏR ƏLİYEV ŞAİRLƏR ÜÇÜN KİM İDİ? 424
ATAMIN DOSTU, MƏNİM MÜASİRİM – TOFİQ BAYRAM 428
SABİRİN "ÇİMİZDİRİLMƏSİ" 433

Korrektor:

Mahmud Qəzənfəroğlu

Mahir Qabiloğlu

ƏRMƏN – ŞUŞANİKİN SEVGİSİ

Bakı – 2014

Çapa imzalanıb: 10.I.2014

Sayı: 500

Ofset çap üsulu